ISSN 2708-955X (print)
ISSN 2709-6033 (on-line)

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
МИНИСТЕРСТВО НАУКИ И ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
THE MINISTRY OF SCIENCE AND EDUCATION OF THE REPUBLIC OF AZERBAIJAN

KONFRANS MATERİALLARI

МАТЕРИАЛЫ КОНФЕРЕНЦИЙ

CONFERENCE PROCEEDINGS

2023 № 7

SUMQAYIT - 2023

KONFRANS MATERİALLARI 2023 № 7

ISSN 2708-955X (print)
ISSN 2709-6033 (on-line)

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ

МИНИСТЕРСТВО НАУКИ И ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
СУМГАИТСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ

MINISTRY OF SCIENCE AND EDUCATION AZERBAIJAN REPUBLIC
SUMGAYIT STATE UNIVERSITY

KONFRANS MATERİALLARI

МАТЕРИАЛЫ КОНФЕРЕНЦИЙ

CONFERENCE PROCEEDINGS

2023 № 7

SUMQAYIT – 2023
СУМГАИТ – 2023
SUMGAYIT – 2023

Sumqayıt Dövlət Universiteti
Konfrans materialları

REDAKSİYA HEYƏTİ

RÜFƏT ƏZİZOV	*dos., rektor, baş redaktor*
ELŞAD ABDULLAYEV	*dos., Elm və innovasiyalar üzrə prorektor, baş redaktor müavini*
ƏKBƏR AĞAYEV	*prof., kafedra müdiri, təbiət və texniki elmlər bölməsi üzrə məsul katib*
NİGAR İSGƏNDƏROVA	*prof., kafedra müdiri sosial və humanitar elmlər bölməsi üzrə məsul katib*

Сумгаитский государственный университет
Материалы конференций

РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ

РУФАТ АЗИЗОВ	*доц., ректор, главный редактор*
ЭЛЬШАД АБДУЛЛАЕВ	*доц., Проректор по науке и инновациям (заместитель главного редактора)*
АКПЕР АГАЕВ	*проф., заведующий кафедрой (ответственный секретарь раздела естественных и технических наук)*
НИГЯР ИСКЕНДЕРОВА	*проф., заведующая кафедрой (ответственный секретарь раздела социальных и гуманитарных наук)*

Sumgayit State University
Conference proceedings

EDITORIAL BOARD

RYFAT AZIZOV	*ass.prof., rector (chief editor)*
ELSHAD ABDULLAYEV	*ass. prof., Vice-Rector for Science and Innovations (deputy chief editor)*
AKBAR AGAYEV	*prof., Head of the Department (executive secretary of the department of natural and technical sciences)*
NIGAR ISGANDAROVA	*prof., Head of the Department (executive secretary of the department of social and humanitarian sciences)*

SÜNİ İNTELLEKT VƏ ONUN TƏTBİQ SAHƏLƏRİ

RESPUBLİKA ELMİ KONFRANSI
(07-08 dekabr 2023-cü il)

ИСКУССТВЕННЫЙ ИНТЕЛЛЕКТ И ОБЛАСТИ ЕГО ПРИМЕНЕНИЯ

РЕСПУБЛИКАНСКАЯ НАУЧНАЯ КОНФЕРЕНЦИЯ
(07-08 декабря 2023 год)

ARTIFICIAL INTELLIGENCE AND ITS AREAS OF APPLICATION

REPUBLICAN SCIENTIFIC CONFERENCE
(December 07-08, 2023)

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ

Ümummilli lider Heydər Əliyevin

100 illiyinə həsr olunur

SÜNİ İNTELLEKT VƏ ONUN TƏTBİQ SAHƏLƏRİ

RESPUBLİKA ELMİ KONFRANSI

(07-08 dekabr 2023-cü il)

SUMQAYIT-2023

TƏŞKİLAT KOMİTƏSİ * ОРГАНИЗАЦИОННЫЙ КОМИТЕТ *** ORGANIZING COMMITTEE**

Sədr

Əzizov R.E.	Sumqayıt Dövlət Universitetinin rektoru, dosent

Sədr müavini

Abdullayev E.T.	Elm və innovasiyalar üzrə prorektor, dosent

Üzvlər

Talıbov N.H.	Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor, dosent
Xəlilov E.Ş.	Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektor, dosent
Hacıyev N.İ.	İqtisadi məsələlər üzrə prorektor, tex.f.d.
Məmmədov Ə.A.	Ümumi işlər üzrə prorektor
Abaslı K.A.	Rektorun müşaviri, ped.f.d.
Ağayev U.X.	Mühəndislik fakültəsinin dekanı, dosent
Hüseynov A.H.	İnformasiya texnologiyaları və proqramlaşdırma kafedrasının müdiri, professor
Məmmədov C.F.	Avtomatika və idarəetmə kafedrasının müdiri, professor
Mənsurov Q.M.	Elektronika və kompüter texnikası kafedrasının müdiri, dosent
Məmmədova Ş.H.	Mexanika və nəqliyyat texnologiyaları kafedrasının müdiri, dosent
Allahverdiyeva K.Ə. (*məsul katib*)	Elektronika və kompüter texnikası kafedrası, baş müəllim
Xəlilov S.A.	Doktorantura və magistratura şöbəsinin müdiri, dosent
Orucov S.K.	Elmi hissənin müdiri, dosent
Əzizova N.M.	Mətbuat və ictimaiyyətlə əlaqələr xidməti şöbəsinin müdiri
İsmayılov F.B.	İnformasiya Texnologiyaları Mərkəzinin direktoru
Məmmədova J.E.	Dil və Tərcümə mərkəzinin direktoru

PROQRAM KOMİTƏSİ * ПРОГРАММНЫЙ КОМИТЕТ *** PROGRAM COMMITTEE**

Kamil Aydazadə	AMEA-nın müxbir üzvü, professor
Aqil Hüseynov	professor
Məhəmməd Əhmədov	professor
Fazil Ələkbərli	professor
Cavanşir Məmmədov	professor
Allahverdi Həsənov	professor
Fikrət Feyziyev	professor
Həsən Hüseynov	professor
Əli Nağıyev	professor
Qəzənfər Rüstəmov	professor
Qadir Mənsurov	dosent

PLENAR İCLAS
ПЛЕНАРНОЕ ЗАСЕДАНИЕ
PLENARY SESSION

SÜNİ İNTELLEKT SƏNAYE İNQİLABLARININ İNKİŞAFININ HƏRƏKƏTVERİCİ QÜVVƏSİDİR

Əhmədov Məhəmməd Aydın oğlu, Hüseynov Aqil Həmid oğlu

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
aqil55@mail.ru

Açar sözlər: *süni intellekt, sənaye inqilabı, avtonom robotlar, əşya interneti, kompüter modelləşdirilməsi.*

Məruzə tezisində Sənaye inqilablarının yaranma tarixləri, məqsədləri və vəzifələri analiz olunur,onların əsas atributları araşdırılır və inkişafında süni intellektin rolu qiymətləndirilir. Göstərilir ki, 3-cü sənaye inqilabından başlayaraq süni intellekt növbəti inqilabların aparıcı texnologiyası rolunu oynayır və digər mütərəqqi texnologiyalar onun inkişafına xidmət edirlər. Odur ki, süni intellektin əsas tədqiqat istiqamətləri və inkişafının perspektivləri araşdırılır. Süni intellektin 3 əsas növü müqayisəli analiz edilir və inkişafı perspektivlərinə baxılır. Süni intellekt texnologiyalarının tətbiqi istiqamətində SDU-da yerinə yetirilən elmi-tədqiqat işlərinin nümunələrinə baxılır.

Bütün dövrlərdə insanlar mütəmadi olaraq öz fəaliyyətlərində fiziki və əqli funksiyalarının yüksəldilməsi, eyni zamanda yüngülləşdirilməsi istiqamətində yeni axtarışlar etmiş və müəyyən nəticələrə nail olmuşlar. Onu da qeyd edək ki, göstərilən istiqamətlərdə əldə edilmiş nailiyyətlərin hər biri digərinin daha da inkişaf etdirilməsi üçün stimul yaratmış və onlar qarşılıqlı əlaqədə bir-birini tamamlamışdır. Bu istiqamətdə həyata keçirilən elmi, təşkilatı və praktiki işlər tarixdə sənaye inqilabları kimi formalaşdırılmış və öyrənilmişdir. Hal-hazırda dünya elmi, sənayesi IV sənaye inqilabının astanasındadır.

IV sənaye inqilabının əsas vəzifələri və perspektivlərini izah etməmişdən əvvəl ona kimi inkişaf etmiş və müəyyən nailiyyətləri ilə fərqlənən sənaye inqilablarına qısa ekskurs edək.

1. Sənaye inqilablarının inkişaf tarixi, məqsədləri və vəzifələri. 1-ci Sənaye inqilabı (XVIII əsrin sonları), əl əməyindən maşınlarla əmək alətlərinə keçid. 1-ci sənaye inqilabının əsas atributları: mexaniki tikiş dəzgahı və buxar maşınları. Təbiidir ki, göstərilən əmək alətləri insanların fiziki qabiliyyətlərini, funksiyalarını yüksəltməklə bərabər onların əqli fəaliyyətlərində də yeniliklərin, vərdişlərin yaranmasında müsbət rol oynadı.

2-ci Sənaye inqilabı (XIX əsrin sonu XX əsrin ortalarına qədər). Əsas atributları: konveyerli istehsal, elektrik stansiyaları, közərmə işıq lampaları, elektron lampaları, telefon, elektron-hesablama maşınları və s.

3-cü Sənaye inqilabı (XX ərsin ortalarından). Əsas atributları: tranzistor inteqral sxemlər, prosessor, mikroprosessor, komputer, internet, rəqəmli kamera, məntiqi kontroller və s. 3-cü sənaye inqilabı 1960-cı ildən başlayır. Şərti olaraq başlanğıc kimi ilk məntiqi proqramlaşdırılan kontrollerlər, yüksək məhsuldarlıqlı komputerlər və sənaye robotlarını aid edirlər.

Göstərilən sənaye inqilablarının əsas xüsusiyyəti ondan ibarətdir ki, onların hər üçü hər hansı yeni qurğunun, istehsal növünün, hesablayıcı elementlərin və ən əsası insanların əqli və fiziki qabiliyyətlərinin yüksəldilməsinə xidmət edirlər.

4-cü Sənaye inqilabı [1] 3-cüdən iki əsas məqsədlə fərqlənir: rəqəm, fikizi və bioloji aləmlər arasındakı fərqlər yox olur; texnologiyalar çox sürətlə dəyişilir.

4-cü Sənaye inqilabının əvvəlkilərdən əsas fərqi ondan ibarətdir ki, onun haqqında hər hansı bir məlumatı əldə etmək üçün açar sözlərdən deyil və yaxın gələcəkdə elmi işləmlərdən və sınaqlardan çıxacaq açar texnologiyalar terminindən istifadə olunacaqdır. Həmin açar texnologiyalarına aşağıdakıkları aid etmək olar:

1. Böyük verilənlər analitikası
2. Süni intellekt
3. Avtonom fəaliyyət göstərən robotlar

4. Avtonom nəqliyyat və pilotsuz uçan apparatlar
5. Bulud hesablamaları
6. Kvant hesalamaları
7. Əşya interneti
8. Virtual reallıq
9. Komputer modelləşdırılməsi və simulyatorlar
10. Üç ölçülü çap
11. Çap elektronikası
12. Nano və neyrotexnologiyalar
13. İnformasiya təhlükəsizliyi
14. Kibertəhlükəsizlik

2019-cu ildə keçirilən Beynəlxalq İqtisadi forumun materillarında bəzi istiqamətlər üzrə artıq inqilabın başlanması öz əksini tapmışdır (siyahıda kursivlə göstərilmişdir).

Göstərilir ki, başlanan 4-cü Sənaye inqilabı xüsusən 3,4,7,9 punktlarındakı istiqamətlərdə artıq qəanətbəxş nəticələrə nail olmaqdadır. Onlardan Əşya interneti texnologiyası xüsusi əhəmiyyət kəsb edir.

Əşya interneti ağıllı fiziki obyektlər (əşyalar) arasında qarşılıqlı əlaqədə verilənlərin ötürülməsini və istifadəsini təmin edən şəbəkə konsepsiyasıdır. Əşya interneti qurğularına nümunə kimi aşağıdakıları göstərmək olar: ağıllı mobil telefonlar, soyuducular, saatlar, yanğın siqnalizasiyası, tibbi vericilər, təhlükəsizlik sistemləri və s.

Əşya interneti termini dedikdə elə kollektiv şəbəkə nəzərdə tutulur ki, ona qoşulmuş qurğu və texnologiyalar sərbəst şəkildə, asanlıqla qarşılıqlı əlaqədə fəaliyyət göstərə bilirlər.

Çisko kompaniyasının analitikləri hesab edirlər ki, Əşya internetinin yaranma tarixi 2008 və 2009-cu illərə təsadüf edir. Beləki həmin dövrdə qlobal şəbəkəyə qoşulan qurğu və texnologiyaların sayı yer kürəsinin əhalisinin sayını ötüb keçib və beləliklə << İnsan internetindən >> Əşya internetinə keçid baş vermişdir.

Sənaye inqilablarının yaranma tarixlərini, vəzifələrini və nailiyyətlərini müqayisəli analiz etdikdə aşağıdakı əsas nəticələri göstərmək olar.

1. Bütün sənaye inqilabları tarixi zərurət nəticəsində baş vermişdir və aşağıdakı faktorlarla bağlıdır: yeni istehsal sahələrinin yaranması və inkişafı (toxuçuluq sənayesi, metallurgiya, buxar maşınları); sənayeləşdirmə, yəni aqrar iqtisadiyyatdan sənaye istehsalına keçid (maşınqayırma, nəqliyyat, rabitə, kimya və s.); sosial dəyişikliklər (sosial strukturlarda yeniliklər, təhsil).

2. İstənilən sənaye inqilabının əsas məqsədi insanların həyat tərzinin yaxşıya doğru dəyişməsinə xidmət etməkdir və onun əqli və fiziki fəaliyyətlərinin yüksəldilməsi istiqamətində yanaşmaların işlənməsinin, tətbiqinin həyata keçirilməsidir.

3. Bütün Sənaye inqilablarında qismən də olsa süni intellektin hər hansısa elementlərindən istifadə etməklə insana xas olan yaradıcı funksiyaların maşın imitasiyaları yerinə yetirilir. Odur ki, süni intellekt texnologiyalarının Sənaye inqilablarının lokonotivi hesab etmək olar. Xüsusən də III Sənaye inqilabından başlayaraq Süni intellekt növbəti inqilabların aparıcı texnologiyası rolunu oynayır və digər mütərəqqi texnologiyalar məhz onun inkişafına xidmət edirlər.

Göstərilənləri nəzərə alaraq məruzə tezisində süni intellektin tədqiqat istiqamətlərinə baxılır.

2. Süni intellektin əsas tədqiqat istiqamətləri və inkişafının perspektivləri. Süni intellekt bir elm sahəsi kimi XX əsrin ortalarından başlayaraq komputer texnikası və texnologiyalarının sürətli inkişafı mərhələsində formalaşmağa başlamışdır. Keçmiş SSRİ məkanında 1974-cü ildə akademik G.S.Pospelov və professor Д.A.Pospelovun rəhbərliyi ilə SSRİ EA-nın nəzdində Süni intellekt problemləri üzrə bölmə yaradılmışdır. Bu bölmənin fəaliyyəti nəticəsində 1975 və 1977- ci illərdə Süni intellekt üzrə Tiflis və Repino şəhərlərində iki Beynəlxalq konfranslar keçirilmiçdir. Bu forumlarda süni intellekt üzrə dünya miqyaslı alimlər iştirak etmişlər: İ.Makkarti, M.Arbib, L.Zadə, D.Denat, D.Miki, İ. Mur, Nilson, P.Binston, K.Huinrt, E.Fredkin, E.Sandeval, K.Simon və b. Belə bir mötəbər forumda Süni intellket problemlərinin mövcud vəziyyəti, nailiyyətləri və perspektivləri araşdırılmış və bu sahədə yerinə yetiriləcək elmi-tədqiqat işlərinin yol xəritəsi işlənmişdir.

Məruzə tezisində göstərilən istiqamətdə ötən dövrdə yerinə yetirilən işlərin qısa xülasəsinə baxılır, əldə edilmiş nəticələr və inkişaf perspektivləri araşdırılır.

Şəkildə Süni intellektin əsas tədqiqat istiqamətlərinin klassik struktru verilmişdir [2,3]

A istiqaməti süni intellekttin dgər istiqamətlərindən əvvəl öyrənilməyə başlanmışdır və əsasən insana xas olan yaradıcı funksiyaların, xüsusən də oyun məsələlərinin (şahmat, dama, domino və s.) proqram modullarının avtomatik sintezi, musiqi əsərlərinin analizi və sintezi kimi problemlərin həllini nəzərdə tutur.

Məhz bu nöqteyi-nəzərdən Süni intellekt termini yaranmışdır. Bu istiqamətin əsas məqsədi həmin dövrdə elm və texnikanın mövcud nailiyyətlərindən istifadə etməklə insanın və digər canlıların müxtəlif funksiyalarını imitasiya etməyə qadir olan qurğuların (fiziki modellerin) yaradılması idi. Baxmayaraq ki bu istiqamətdə, xüsusən də ordu sahəsində müəyyən nailiyyətlər əldə edildi(gecəgörmə aparatları, təsvirlərin oxunması və emalı və s.), komputer texnikası və texnologiylarının sürətli inkişafı, yeni alqoritmik, proqram, texniki təminatların meydana gəlməsi, süni intellektin A istiqamətinin yeganə olmadığı ideyasını aktuallaşdırdı.



Şəkil. Süni intellektin əsas tədqiqat istiqamətlərinin klassik strukturu

Süni intellektin B və C tədqiqat istiqamətlərinin qarşılıqlı əlaqədə inkişafında, onun klassik strukturundakı intellektual interfeysin xüsusi rolunu qeyd etmək lazımdır. Kompüter texnikası və texnologiyalarının inkişasfı mərhələlərində-ilkin, terminal müdaxiləli və yeni informasiya emalə texnologiyalarının ən müsbət xüsusiyyətlərini özündə əks edən İntellektual interfeys müxtəlif peşə sahiblərinin özlərinə xas olan peşə dillərində Süni intellekt texnologiyaları ilə ünsiyyətdə olmalarına və onun nailiyyətlərindən istifadə etməyə imkan verir. Bu məqsədlə uzun dövrlər ərzində inkişaf edərək formalaşmış intellektual sistemlər-informasiya axtarış, tətbiqi paket proqramları, hesabi-məntiqi proqram paketləri, ekspert və s., intellektual interfeysin tərkibinə daxil edilmişdir.

Süni intellektin müasir dövrdə ən aktual istiqamətlərindən biri qeyri-müəyyənlik şəraitində məqsədyönlü davranışı təmin edən, daxli və xarici mühitlərdə baş verən situasiyalara adaptasiya olunaraq qoyulmuş məqsədə nail olan intellektual robotların alqoritmik, proqram və texniki təminatlarının yaradılmasıdır. Süni intellekt texnologiyasının D istiqaməti göstərilən məsələlərin həlli istiqamətində elmi-tədqiqat işlərinin yerinə yetirilməsi problemlərinin həlli ilə məşğul olur.

Süni intellektin tədqiqat istiqamətlərinin klassik strukturasının təkmilləşdirilməsi istiqamətində əsas məsələ onun intellektual interfeysinin müasir intellektual sistemlərlə bərabər, müasir, xüsusən də Soft Computing texnologiyaları ilə zənginləşdirilməsidir. (qeyri-səlis məntiq, Neyron şəbəkələri, öyrətmə nəzəriyyəsi, genetik alqotirmlər və s.).

Sənaye inqilablarının yaranması, inkişafı tarixlərinin və nailiyyətlərinin analizinə, eyni zamanda Süni intellekt texnologiyasının tədqiqat istiqamətlərinin araşdırılmasına əsaslanaraq göstərmək olar ki, bütün hallarda və gözlənilən növbəti sənaye inqilablarında əsas tədqiqat istiqaməti kimi Süni İntellekt texnologiyaları aparıcı rol oynayır və gələcəkdə də aktuallığını itirməyəcəkdir.

Odur ki, məruzə tezisində Süni intellekt texnologiyalarının inkişaf tarixi, növləri, nailiyyətləri və perspektivləri məsələlərinə baxılır.

3. Süni intellektin üç əsas növü. Alan Tyurinqə görə: Süni intellekt intellektual maşın, xüsusən də intellektual komputer proqramları yaradan elmi və texniki texnologiyalardır.

Verilənlərin müxtəlif sferalarda emalı sahəsində Süni intellektin alqoritmləri artıq insanın hesablama qabiliyyətini milyon dəfələrlə üstələyir. Həmin alqoritmlər artıq insanın bəzi << yaradıcı >> funksiyalarını da yerinə yetirməyə qadirdir. Ancaq bəzi həll olunmamış problemlər, xüsusən də etik (əxlaqi qaydalar), hələlik mövcuddur.

Artıq Süni intellektin əsas alt sistemi hesab edilən Maşın öyrətmə sistemləri bütün həyatı vacib sahələrdəki prosesləri (bank, tibb, təhlükəsizlik, sənaye və s.) avtomatlaşdırmışdır.

Süni intellektin 3 əsas növünü fərqləndirirlər: zəif, bəsit (A1); güclü, ümumi (AG1) və kollektiv, super (super AG1).

Sənaye inqilablarının bütün dövrlərində A1 növü demək olar ki, bəsit və qismən tam şəkildə realizə edilmişdir. Bu gün üçün xüsusi əhəmiyyət kəsb edən və insanın yaradıcı funksiyalarını qurğu və kompüterlə imitasiya edən çoxlu sayda nümunələr göstərmək olar, o cümlədən: müxtəlif təyinatlı sənaye və intellektual robotlar; sosial şəbəkələrdə reklamlar; sifətin tanınması, səsli assisentlər və s.

AG1 növü insan intellektinin qabiliyyətlərinə maksimum yaxınlaşdırılmış suni intellektdir və Turinqin klassik təyinatına uyğun olaraq özünü dərketmə və nəticədə ümumiləşdirmə qabiliyyəti prinsipinə əsaslanır.

Ekspertlərin fikrinə görə AG1 təxminən 2075-ci ilə kimi formalaşdırıla bilər və təxminən 30 ildən sonra da super Süni intellektin formalaşması proqnoz olunur.

Super Süni intellekt sadəcə olaraq insan intellektinə bənzər olmaq deyil, bütün sahələrdə ən ağıllıların intellektual qabiliyyətlərini ötüb keçməyi nəzərdə tutur. Belə ki, Super Süni intellekt özünü yenidən proqramlaşdıraraq tekmilləşməli və sərbəst şəkildə yeni alqoritmlər və sistemlər işləməlidir.

Süni intellektin növlərinin analizinin nəticələrini ümumiləşdirərək aşağıdakıları göstərmək olar:

1. Süni intellekt insanın təbii intellektindəki proseslərin maşınla, xüsusən də kompüter sistemlıri ilə imitasiyasıdır.

2. Süni intellekt aşağıdakı əsas konkret tətbiqi sistemlər ilə təqdim edilir: ekspert, təbii dildə informasiya emalı, danışıq və maşınla görmənin tanınması və s.

3. Hal-hazırda Google Translate proqramı böyük həcmli simvollu blokları tərcümə qabiliyyətinə malikdir. Neyron şəbəkələr konteksti nəzərə almaqla böyük massivlərlə təsvir olunan statistik verilənlərlə əməliyyatları yerinə yetirir. Artıq hind, kitay və ərəb dillərini bilmədən həmin dillərdə yazılmış məqalələri oxuyub qavramaq mümkündür. Süni intellekt alqoritmləri vasitəsi ilə həkimlər müxtəlif xəstəliklərin diaqnozunu təyin edə bilirlər. Çevik neyron şəbəkələrinə əsaslanan alqortimlər istənilən mövzu üzrə məqalələr generasiya etmək qabiliyyətinə malikdir və s.

Məruzənin sonunda göstərilən istiqamət üzrə SDU-da yerinə yetirilən elmi tədqiqat işləri barədə qısa məlumat vermək istəyirəm.

Keçən əsrin 80-ci illərindən başlayaraq SDU-da (keçmiş Azərbaycan Neft və Kimya institutunun Sumqayıt filialı) həmin dövr üçün xüsusi aktuallıq kəsb edən müasir avtomatlaşdırma vasitələrindən (Sənaye robotları və digər mexatron qurğular) istifadə etməklə Robototexniki komplekslərin layihələndirilməsi və Sumqayıt şəhərinin sənaye müəssisələrində tətbiqi məqsədi ilə elmi-tədqiqat işlərinin yerinə yetirilməsinə başlandı. Tədqiqat obyekti kimi ilk növbədə Sumqayıt aliminium zavodunun Buxarlandırıcılar istehsalı seçildi. Professor R.Ə.Əliyevin rəhbərliyi ilə institutun müxtəlif təyinatlı kafedralarının əməkdaşları və alimlərindən təşkil edilmiş işçi qrupu yaradıldı. Artıq 1984-cü ildə Cənubi Qafqazda ilk dəfə Buxarlandırıcılar istehsalında aliminium vərəqlərdən paket yaradan və onu yayma dəzgahında prokat edən Robototexniki kompleks layihələndirildi və fəaliyyətdə olan istehsalda tətbiq edildi.

Robototexniki kompleksin real vaxt rejimində fəaliyyətini təmin etmək məqsədi ilə onun komputerli idarəetmə sistemində situasiyalı idarəetmə prinsipindən istifadə etməklə, süni intellektin produksiya qaydalarına əsaslanan alqorotmlər işlənib tətbiq edildi.

Göstərilən istiqamətdə aparılan elmi-tədqiqat işlərinin nəticələri Buxarlandırıcılar istehsalının digər sahələrində də Robototexniki komplekslərin layihələndirilməsi və tətbiqi ilə davam etdirildi.

Paralel olaraq Sumqayıt şəhərinin digər sənaye müəssisələrində də-kompressorlar zavodu, Boru-prokat və s., adı çəkilən komplekslərin layihələndirilməsi və tətbiqi yerinə yetirildi.

Qeyd etmək yerinə düşər ki, aparılan elmi-tədqiqat işlərinin nəticələri ümumiləşdirilərək 14 namizədlik və 6 doktorluq dissertasiyaları müdafiə olunaraq uyğun elmi dərəcələr alınmış və həmin alimlərin böyük əksəriyyəti hal-hazırda da SDU-da fəaliyyət göstərirlər.

1990-ci illərdəki məlum hadisələrlə bağlı tətbiq istiqamətindəki fəaliyyət dayandırılsa da nəzəri elmi-tədqiqat işləri Mühəndislik fakültəsində bu gün də müvəffəqiyyətlə davam etdirilir. Beləki fakültənin alimləri müasir dövrün tələblərinə uyğun olaraq süni intellektin mütərəqqi texnologiyalarından (Soft Computing) və kompüter modelləşdirilməsi aparatlarından (petri şəbəkəsi, produksiya qaydaları, Freym və məntiqi modellər və s.) istifadə etməklə çevik istehsal sistemlərinin situasiyalı idarə edilməsi istiqamətində (süni intellektin D tədqiqat istiqaməti üzrə) elmi-tədqiqat işlərini davam etdirirlər. Yerinə yetirilən elmi-tədqiqat işlərinin nəticələrinin tədris prosesində tətbiqi xüsusi əhəmiyyət kəsb edir

Ədəbiyyat

1. Комиссаров, А. Четвертая промышленная революция. Ведомости, № 3938 (14 октября 2015).
2. Искусственный интеллект – основа новой информационной технологии / Поспелов Г.С.- М.: Наука, 1988. - 280 с. Ил.- я (бер. Академические чтение).
3. Əhmədov M.A., Məhəmmədli H.M. İnformasiya sistemlərinin avtomatlaşdırılmış modelləşdirilməsi və tədqiqi üsulları. Bakı: Azəri, 2015.

РЕЗЮМЕ
ИСКУССТВЕННЫЙ ИНТЕЛЛЕКТ ЯВЛЯЕТСЯ ДВИЖУЩЕЙ СИЛОЙ ПРОМЫШЛЕННЫХ РЕВОЛЮЦИЙ

Ахмедов М.А., Гусейнов А.Х.

Ключевые слова: *искусственный интеллект, промышленная революция, автономные роботы, Интернет вещей, компьютерное моделирование.*

В тезисе доклада анализируются история, цели и задачи промышленных революций, исследуются их основные атрибуты и оценивается роль искусственного интеллекта в их развитии. Показано, что начиная с Третьей промышленной революции искусственный интеллект играет роль ведущей технологии последующих революций, а другие прогрессивные технологии служат его развитию. Поэтому рассмотрены основные направления исследований и перспективы развития искусственного интеллекта. Сравниваются 3 основных типа искусственного интеллекта и рассматриваются перспективы их развития.

Рассмотрены примеры научно-исследовательских работ, выполняемых в СумГУ в направлении применения технологий искусственного интеллекта.

SUMMARY
ARTIFICIAL INTELLIGENCE IS THE DRIVING FORCE BEHIND INDUSTRIAL REVOLUTIONS

Ahmadov M.A., Huseynov A.H.

Keywords: *artificial intelligence, industrial revolution, autonomous robots, Internet of Things, computer modeling.*

In the dissertation thesis, the dates, goals and objectives of the Industrial revolutions are analyzed, their main attributes are investigated and the role of artificial intelligence in their development is evaluated. It is shown that starting from the 3rd Industrial revolution, artificial intelligence plays the role of the leading technology of the next revolutions, and other progressive technologies serve its development. Therefore, the main research directions and prospects of development of artificial intelligence are

investigated. 3 main types of artificial intelligence are compared and their development prospects are considered. Examples of scientific-research works performed at SSU in the direction of application of artificial intelligence technologies are considered.

PİLOTSUZ UÇUŞ APARATLARI PARKININ TƏRKIBININ TƏYIN EDILMƏSI ALQORITMLƏRI

[1]Quluyev Qəmbər Ağaverdi oğlu, [2]Paşayev Fəhrad Heydər oğlu, [3]Məmmədova Nigar Mirzəbala qızı

[1, 2] İdarəetmə Sistemləri İnstitutu, Bakı, Azərbaycan
[3]Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası, Bakı, Azərbaycan
[1]quluyevqambar@gmail.com, [2]pasha.farhad@gmail.com, [3]nigar.mirzayeva@mail.ru

Açar sözlər: *pilotsuz uçuş aparatı, uçuş məsafəsi, qaldırıla bilən yük, eksperimental paylanma sıxlığı, kvadrat şəkilli paylanma sıxlığı.*

Məqalədə tibbi təyinatlı pilotsuz uçuş aparatları (PUA) parkının tərkibinin təyin edilməsi məsələsinə baxılmışdır. Məlum olmuşdur ki, PUA-lar üçün yaradılan klassifikatorların əksəriyyəti hərbi məqsədlər üçün yaradılan uçuş aparatlarına uyğun olaraq yaradılmışdır. Qeyri - hərbi məqsədlər üçün istifadə edilən PUA-ların tipləri və xarakteristikalarını müxtəlif mənbələrdən istifadə etməklə tapmaq mümkündür. Məqalədə PUA-ların iki əsas xarakteristikasına görə eksperimental kvadrat paylanma sıxlığı funksiyasının qurulması alqoritmlərinə baxılmışdır. Yaradılmış metod və alqoritmlər PUA yaradıcılığının gələcək inkişafına da təsir edə bilər.

Məlumdur ki, pilotsuz uçuş aparatları (PUA) sənayenin müxtəlif sahələrində, kənd təsərrüfatında, elmi tədqiqatların aparılmasında, ekoloji monitorinq məsələlərinin həllində, hərbi işin müxtəlif sahələrində geniş tətbiq olunmaqdadır [1]. Tətbiq sahələrinin sayı artdıqca PUA-lar üzərinə qoyulan tələblər də inkişaf edib dəyişməkdədir [2]. PUA yaradıcılığının tarixi son dövrlərə təsadüf etdiyinə görə bu kiberfiziki sistemlər yaradılarkən elm və texnikanın və xüsusən də kontroller texnikasının, informasiya texnologiyalarının ən son yeniliklərindən istifadə edilir.

Lakin qeyd etmək lazımdır ki, istənilən digər kiberfiziki sistemlərdə olduğu kimi PUA yaradıcılığının və tətbiqinin öz məhdudiyyətləri vardır [3]. Bu məhdudiyyətlər əsasən onların daşıya biləcəyi yükün kütləsi, uçuş məsafəsi, havada qalma müddəti və s. ilə əlaqədardır. Bu siyahıya daşımaların qiymətinin baha olmasını da əlavə etmək olar. Materialda bu deyilənləri nəzərə alaraq mxtəlif tətbiq sahələrində PUA-ların tətbiqinin nəticələrini nəzərə alaraq PUA-lar parkının tərkibinin təyin edilməsi alqoritmlərinə baxılmışdır.

Məsələnin qoyuluşu: Məqalədə PUA-lar parkının tərkibinin müəyyənləşdirilməsi üçün bu aparatların müxtəlif istismar və texniki parametrlərinə görə klassifikasiyası araşdırılır. Məlum olmuşdur ki, pilotsuz uçuş sistemləri üzrə beynəlxalq assossasiya UVSI (Association for Unmanned Vehicle Systems International) PUA-lar üçün universal klassifikasiyanı təklif etmişdir [4]. Müxtəlif ölkələrdə başqa prinsiplərlə qurulmuş fərqli klassifikasiyalardan istifadə edilir [5]. Yaradılmış klassifikasiyaların və bu sahədəki mövcud ədəbiyyatların çoxu hərbi sahədə tətbiq edilə bilən PUA-lara aiddir. Müxtəlif mənbələr araşdırılaraq qeyri hərbi sahədə tətbiq edilə bilən PUA tipləri müəyyənləşdirilir.

Lakin təkcə PUA kassifikasiyasının yaradılması müəyyən məqsəd üçün yaradılan PUA-lar parkının tərkibinin müəyyənləşdirilməsi üçün kifayət etməz. Bu məsələnin həlli üçün qeyri hərbi sahədə PUA-ların tətbiqinin praktiki nəticələri analiz edilərək praktikada istifadə edilmiş PUA-ların yaradılacaq klassifikatora görə paylanması qurulmalıdır. Yaradılacaq eksperimental paylanma sıxlığı və funksiyasının qiymətləri praktiki nəticələr dəyişdikcə dəyişə bilər. Məsələnin həlli üçün qurulan proqram təminatı bu vəziyyəti nəzərə almalı, Verilənlər Bazasının korrektə edilməsinə və təkrar paylanma sıxlığının və funksiyasının qiymətlərinin hesablanmasına imkan verməlidir. Məqalədə iki parametrə görə paylanma sıxlığının qurulması alqoritmləri verilmişdir.

Məsələnin həlli: Məsələnin həlli üçün uçuş məsafəsinə və daşıya bildiyi yükün kütləsinə görə PUA-lardan istifadə üçün kvadrat şəkilli eksperimental paylanma sıxlığı funksiyasının qurulması alqoritmi verilir. Tədqiqatlar göstərir ki, bu iki parametr PUA seçimində aparıcı yer tutur. Digər parametrlər bu iki parametrə uyğunlaşdırılır və bu iki parametrdən asılı olur. Burada qeyd etmək lazımdır ki, zəruri hallarda digər parametrlərdən də istifadə etmək olar. Şərti olaraq PUA-ların uçuş məsafəsini A parametri, daşıya bildiyi yükün kütləsini isə B parametri adlandıraq. Praktikada istifadə edilmiş olan PUA-larda Hər bir parametrin

aldığı minimum və maksimum qiymətləri uyğun olaraq $A_{min}, A_{max}, B_{min}, B_{max}$ işarə edək. Eksperimental kvadrat paylanma sıxlığı funksiyasının hər parametr üzrə N sayda aralığı yaradılarsa hər bir aralığın ölçüsü uyğun olaraq

$d_a = \frac{A_{max} - A_{min}}{N}$ və $d_b = \frac{B_{max} - B_{min}}{N}$ kimi hesablana bilər.

Bu halda A parametrinin qiymətləri

$[A_{min}, A_{min} + d_a)$ yarımintervalına düşən PUAların sayını a_1;

$[A_{min} + d_a, A_{min} + 2d_a)$ yarımintervalına düşən PUAların sayını a_2

...

$[A_{min} + (i-2)d_a, A_{min} + (i-1)d_a)$ yarımintervalına düşən PUAların sayını a_i

...

$[A_{min} + (N-2)d_a, A_{min} + (N-1)d_a]$ parçasına düşən PUAların sayını a_N işarə edə bilərik.

Uyğun olaraq qiymətləri

$[B_{min}, B_{min} + d_b)$ yarımintervalına düşən PUAların sayını b_1;

$[B_{min} + d_b, B_{min} + 2d_b)$ yarımintervalına düşən PUAların sayını b_2

...

$[B_{min} + (i-2)d_b, B_{min} + (i-1)d_b)$ yarımintervalına düşən PUAların sayını b_i

...

$[B_{min} + (N-2)d_b, B_{min} + (N-1)d_b]$ parçasına düşən PUAların sayını b_N işarə edə bilərik.

Alınan bu qiymətlər ayrı ayrılıqda

$A = \{a_1, a_2, \dots a_N\}$ və

$B = \{b_1, b_2, \dots b_N\}$ çoxluqlarını əmələ gətirirlər. Əgər bu çoxluqların hər bir elementini elementlərin cəminə bölsək seçilmiş parametrlərə görə eksperimental paylanma sıxlığını ala bilərik:

$$SA = \sum_{j=1}^{N} a_j, \quad PA = \left\{\frac{a_1}{SA}, \frac{a_2}{SA}, \dots \frac{a_N}{SA}\right\} \tag{1}$$

və

$$SB = \sum_{j=1}^{N} b_j, \quad PB = \left\{\frac{b_1}{SA}, \frac{b_2}{SB}, \dots \frac{b_N}{SB}\right\} \tag{2}$$

$$\sum_{j=1}^{N} \frac{a_j}{SA} = 1 \quad \text{və}$$

$\sum_{j=1}^{N} \frac{b_j}{SA} = 1$ olduğuna görə PA A parametrinə görə eksperimental paylanma sıxlığını, PB isə B parametrinə görə eksperimental paylanma sıxlığını göstərir. (1) və (2) paylanma sıxlığı funksiyalarından praktiki məqsədlər üçün istifadə etmək olar.

Yuxarıda deyilənlərdən aydın olur ki, (1) və (2) paylanmaları nə qədər əhəmiyyətli olsalar da parametrlərin hər ikisindən istifadə etməklə qurulacaq kvadrat şəkilli eksperimental paylanma sıxlığı daha yaxşı nəticələr verə bilər. Hər iki parametrlərdən yaradılmış çoxluqlardan istifadə edə bilmək üçün çoxluqların elementlərini masştablayaraq bir birinə yaxınlaşdırmaq zəruridir. Bu zaman çoxluqların elementləri arasında ola biləcək böyük qiymət fərqləri aradan götürülmüş olar.

A çoxluğu elementlərinin maksimumunu a_{max} , B çoxluğu elementlərinin maksimumunu b_{max} işarə edək. Masştablanmış yeni maksimal qiyməti M hesab etsək çoxluqların yeni masştablanmış qiymətlərini

$a_i = \frac{a_i M}{a_{max}}$ və $b_i = \frac{b_i M}{b_{max}}$ kimi yenidən hesablaya bilərik. Bu zaman hər iki A və B çoxluqlarında elementlərin maksimal qiyməti M-ə bərabər olacaqdır. Biz yeni işarə daxil etməmək məqsədi ilə çoxluqların masştablanmış qiymətlərini də a_i və b_i ilə işarə etdik.

Ona görə də A və B çoxluqlarından iki ölçülü vektoru yarada bilərik:

Vektorun elementlərindən aşağıdakı cədvəli (cədvəl 1) qura bilərik. Bu cədvəl kvadrat şəkilli paylanmanın cədvəl şəklində yazılmış bir obrazıdır.

Hər bir (a_i, b_j) $i \in [1, N], j \in [1, N]$ xanasına a_i və b_j ədədlərinin həndəsi ortasını yazsaq yeni vektor və cədvəl alarıq. Bu zaman aydındır ki, koordinatlarından biri sıfır olan xanalara sıfır qiyməti yazılacaqdır. Lakin tibbi praktikada ən çox istifadə edilən PUA tiplərinə uyğun olan xanalarda sıfırdan fərqli qiymətlər yazılmış olacaqdır.

$ab_{ij} = \sqrt{a_i * b_j}$ həndəsi orta qiymətlərini AB vektorunun uyğun qiymətlərinin yerinə yazsaq yeni AB vektoru alarıq:

$$AB = \begin{Bmatrix} ab_{11}, ab_{12}, \dots ab_{1N}, \\ ab_{21}, ab_{22}, \dots ab_{2N}, \\ \\ \dots \\ ab_{N1}, ab_{N2}, \dots ab_{NN} \end{Bmatrix} \quad (3)$$

Aydındır ki, bu vektorun elementlərinin maksimal qiyməti yuxarıda götürdüyümüz M ədədinə bərabər olacaqdır.

Alınmış yeni qiymətləri cədvəl şəklində aşağdakı kimi yaza bilərik (cədvəl 1). Cədvəli kvadrat şəkilli paylanmanın əsas obrazı hesab etmək olar.

Deyilənlərdə aydındır ki, hər hansı sahədə istifadə ediləcək PUA-lar parkının tərkibinin təyin edilməsi məsələsinin həllini bu cədvəldən istifadə etməklə həyata keçirmək olar.

Cədvəl 1.

B / A	b_1	b_2	...	b_N
a_1	ab_{11}	ab_{12}	...	ab_{1N}
a_2	ab_{21}	ab_{22}	...	ab_{2N}
...	...	...	...	...
a_N	ab_{N1}	ab_{N2}	...	ab_{NN}

Buradan kvadrat şəkilli eksperimental paylanma sıxlığını almaq üçün (1) və (2) düsturlarına uyğun olaraq yaza bilərik

$$SAB = \sum_{j=1}^{N} \sum_{i=1}^{N} ab_{ij} \quad (4)$$

olarsa yekun paylanma sıxlığı funksiyası

$$PAB = \begin{Bmatrix} \frac{ab_{11}}{SAB}, \frac{ab_{12}}{SAB}, \dots \frac{ab_{1N}}{SAB}, \\ \frac{ab_{21}}{SAB}, \frac{ab_{22}}{SAB}, \dots \frac{ab_{2N}}{SAB}, \\ \\ \dots \\ \frac{ab_{N1}}{SAB}, \frac{ab_{N2}}{SAB}, \dots \frac{ab_{NN}}{SAB} \end{Bmatrix} \quad (5)$$

kimi alınar. Sadəlik üçün yenidən

$i \in [1, N], j \in [1, N]$ üçün $\frac{ab_{ij}}{SAB} = ab_{ij}$ işarə etsək aşağıdakı matrisi qura bilərik

$$PAB = \begin{pmatrix} ab_{11}, ab_{12}, \dots ab_{1N}, \\ ab_{21}, ab_{22}, \dots ab_{2N}, \\ \\ \dots \\ ab_{N1}, ab_{N2}, \dots ab_{NN} \end{pmatrix} \quad (6)$$

PUA tiplərinin təyin edilməsi alqoritmi.

Alqoritmi sadələşdirmək üçün

$l = (i-1) * N + j$ yazmaqla matrisin elementlərindən $L = N * N$ ölçülü çoxluq yaratmaq olar. Çoxluğun elementlərini $l = (i-1) * N + j$ *olduqda*

$$P = \{p_l\} \quad (7)$$

kimi işarə etmək olar. Zəruri hallarda l indeksindən i, j indekslərinə keçmək olar:

$$i = (l \; div \; N) + 1 \quad (8)$$

$$j = l - (i-1) * N \quad (9)$$

(8) çoxluğundan istifadə edərək bizi maraqlandıran və praktikada ən çox istifadə edilməkdə olan PUA tipləri seçilə bilər. Tutaq ki, biz M sayda PUA tipi seçmək istəyirik. Bunu etmək üçün P çoxluğundan qiymətləri böyükdən kiçiyə olmaqla M sayda element seçirik. Seçdiyimiz elementlərin indekslərini PUA çoxluğuna yaza bilərik.

Alqoritmlərdən göründüyü kimi bəzi hallarda seçilmiş PUA tipləri mövcud klassifikatorlrda tapılmaya bilər. Bu hallarda klassifikatorlardan seçilmiş tipə yaxın olanı tapılır və istifadə edilir. Belə olduqda alqoritmin verdiyi nəticələrə uyğun praktiki əhəmiyyətli yeni PUA tipi yaratmaq tapşırıqları qoyula bilər.

Nəticə: Məqalədə uçuş məsafəsinə və qaldıra bildikləri yükün miqdarına görə praktikada ən çox istifadə edilən PUA tiplərindən istifadə etməklə kvadrat şəkilli eksperimental paylanma sıxlığı funksiyasının qurulması üçün alqoritm və bir metod göstərilmişdir. Qurulan kvadrat şəkilli eksperimental paylanma sıxlığı tibbi məqsədlər üçün istifadə edilən PUA-ların əsas xarakteristikaları olan uçuş məsafəsi və qaldıra bildikləri yükün kütləsinə görə qurulmuşdur. Qoyulmuş məsələnin həll metodundan və alqoritmlərdən göründüyü kimi bu alqoritmlər PUA yaradıcılığının inkişafına da kömək edə bilər.

Ədəbiyyat

1. Johnson AM, Cunningham CJ, Arnold E, Rosamond WD, Zègre-Hemsey JK. Impact of Using Drones in Emergency Medicine: What Does the Future Hold?. *Open Access Emerg Med*. 2021;13:487-498.
2. Слюсар В.И. Система исследований НАТО по развитию нелетального оружия. Проблеми координації воєнно-технічної та оборонно-промислової політики в Україні. Перспективи розвитку озброєння та військової техніки VI Міжнародна науково-практична конференція 10–11 жовтня 2018 року Тези доповідей с.306-309.
3. The limitations of drones for medicine delivery. https://mappingignorance.org/2020/09/09/the-limitations-of-drones-for-medicine-delivery /.
4. Классификация БПЛА по летным характеристикам. https://docs.geoscan.aero/ru/master/database/const-module/classification/classification.html
5. Типы беспилотных летательных аппаратов. Обзор. https://aviatest.aero/articles/tipy-bespilotnykh-letatelnykh-apparatov-obzor/

РЕЗЮМЕ
АЛГОРИТМЫ ОПРЕДЕЛЕНИЯ СОСТАВА ПАРКА БПЛА
Гулуев Г.А., Пашаев Ф.Г., Мамедова Н.М

Ключевые слова: *беспилотный летательный аппарат, дальность полета, поднимаемый груз, экспериментальная плотность распределения, квадратичная плотность распределения.*

В статье рассмотрен вопрос определения состава парка медицинских беспилотных летательных аппаратов (БПЛА). Стало известно, что большинство классификаторов, созданных для БПЛА, создавались по самолетам, созданным для военных целей. Типы и характеристики БПЛА, используемых в невоенных целях, можно узнать, используя различные источники. В статье рассмотрены алгоритмы построения экспериментальной квадратичной функции плотности распределения по двум основным характеристикам БПЛА. Созданные метод и алгоритмы также могут повлиять на дальнейшее развитие творчества ПУА.

SUMMARY
ALGORITHMS FOR DETERMINING THE COMPOSITION OF A UAV FLEET
Guluyev G.A., Pashayev F.H., Mamedova N.M.

Keywords: *unmanned aerial vehicle, flight range, lifted load, experimental distribution density, quadratic distribution density.*

The article discusses the issue of determining the composition of the fleet of medical unmanned aerial vehicles (UAVs). It became known that most of the classifiers created for UAVs were created for aircraft created for military purposes. The types and characteristics of UAVs used for non-military purposes can be obtained from various sources. The article discusses algorithms for constructing an experimental quadratic distribution density function for two main characteristics of a UAV. The created method and algorithms can also influence the further development of PUA creativity.

İQTİSADİ QƏRAR QƏBULETMƏ PROSESLƏRİNDƏ SÜNİ İNTELLEKT TEXNOLOGİYALARININ İŞLƏNİLMƏSİ MƏSƏLƏLƏRİ

Əliyev Əlövsət Qaraca oğlu
İnformasiya Texnologiyaları İnstitutu, Bakı, Azərbaycan
alovsat_qaraca@mail.ru

Açar sözlər: *rəqəmsal transformasiya, rəqəmsal innovasiya texnologiyaları, iqtisadi qərar qəbuletmə mərhələləri, qərar qəbuletməyə dəstək sistemləri, süni intellekt texnologiyaları və metodları, Sənaye 4.0 platforması.*

Məqalədə iqtisadi qərar qəbuletmə proseslərində süni intellekt texnologiyalarının işlənilməsi və tətbiqinin aktuallığı əsaslandırılmışdır. Qərar qəbuletmə prosesinin mərhələləri və xüsusiyyəti şərh olunmuşdur. Süni intellektə əsaslanan iqtisadi qərar qəbuletmənin təkamül-alqoritminə, Data-Mining texnologiyasına, maşın təlimi, kompüter görməyə əsaslanan metodları təhlil olunmuşdur. İqtisadi proseslər üzrə qərar qəbuletmədə süni intellekt texnologiyasının tətbiqinin əsas komponentlərinin struktur sxemi işlənilmişdir. Süni intellekt texnologiyaları vasitəsi ilə iqtisadi inkişafın dayanıqlılığının yüksəldilməsində Sənaye 4.0 platforması texnologiyalarına yürüdülən texnoloji tələblər, prioritetlər nəzərə alınmaqla müvafiq təklif və tövsiyələr verilmişdir.

Giriş. İqtisadi fəaliyyət sferalarında və proseslərində qərar qəbuletməyə dəstək sistemlərində süni intellekt texnologiyasının işlənilməsi və tətbiqi mövcud iqtisadi tendensiyaları proqnozlaşdırmaq, bir çox iqtisadi paradiqmaları təhlil etmək və qərar qəbuletmə proseslərini təkmilləşdirmək üçün strateji rəqəmsal transformasiya texnologiyalarının inteqrasiyasını nəzərdə tutur. Belə yanaşmada iqtisadi inkişaf haqqında vaxtında dəqiq qərar qəbul etmək üçün maşın və dərin təlim, data analitikası kimi süni intellekt metodlarının imkanlarından istifadə edilir. Süni intellekt metodlarının inteqrasiyası müxtəlif sektorlarda transformasiyaedici qüvvə kimi ortaya çıxmışdır [1-3].

Qlobal iqtisadiyyatın mürəkkəb təbiətinə təsir edən saysız-hesabsız amillər ənənəvi qərar qəbuletmə metodları üçün bir sıra çətin problemlər yaradır. İqtisadi məlumatlar böyük həcmlidir, dinamikdir və çox vaxt müxtəlif daxili-xarici təsirlərə məruz qalır. Geniş həcmli məlumatları emal etmək, gizli anomaliyaları üzə çıxarmaq və dəqiq proqnozlar vermək üçün qabaqcıl alqoritmlərin və maşın təlimi üsullarının tətbiqindən istifadə edilməsində süni intellekt texnologiyaları xüsusi əhəmiyyətə malikdir.

Süni intellektin transformasiya potensialı onun uyğunlaşma və genişlənmə qabiliyyətində, həmçinin strukturlaşdırılmamış və real vaxtda məlumat mənbələrindən biiklər əldə etmək qabiliyyətindədir. Süni intellektə əsaslanan iqtisadi qərar qəbuletmə sistemlərinin yaranmasında innovativ prosesi və strukturu təşkil edən bir çox əsas komponentlər iştirak edir. Məlumatların toplanması, emal edilməsindən tutmuş maşın təlimi alqoritmlərinin və proqnozlaşdırma analitikasının tətbiqinə qədər, hər bir element qərar qəbuletmənin formalaşmasında mühüm rol oynayır. Süni intellekt texnologiyası inkişaf etdikcə, onun iqtisadi sferada qərarvermədəki rolu böyük nəticələri almağa vədlər verir. Süni intellektin böyük həcmdə məlumatları təhlil etmək, mürəkkəb asılılıqları, qanunauyğunluqları müəyyən etmək və qərar qəbuletmə üzrə müəyyən mülahizələr etmək qabiliyyətindən istifadə etməklə, qərar qəbul edən şəxslər qlobal bazarların mürəkkəbliklərini yüksək dəqiqliklə idarə edə bilərlər. Onlar iqtisadi proseslər üzrə qərar qəbuletmədə daha yaxşı nəticələri alaraq müəssisələrə, orta və yüksək səviyyəli idarəetmə strukturlarına iqtisadiyyatların davamlı artımını və rifah cəmiyyətinə doğru inkişaf imkanlarını və məqsədini nəzərdə tutan səmərəli tövsiyələr işləyə bilərlər.

Problemin aktuallığı və qoyuluşu. Rəqəmsal innovasiyaların, elm və yüksək texnologiyanın sürətlə inkişaf etdiyi hazırki dövrdə iqtisadi qərarqəbuletmə sisteminin işlənilməsi sürətlə inkişaf edir. İqtisadiyyatın davamlı inkişafı iqtisadi məlumatların sürətlə genişlənməsinə səbəb olmuşdur. İqtisadi sahələr daha da genişlənmişdir ki, bu da regional və milli səviyyədə qərar qəbuletməyi və iqtisadiyyatı idarə etməyi çətinləşdirməyə başlamışdı. İqtisadi idarəetmə qərarları iqtisadi inkişafda mühüm rol oynadığından onların düzgünlüyünün əhəmiyyəti çoxdur [4]. İqtisadi makrosiyasət və mikrosiyasət qərarları səhv olduqda, bu iqtisadi inkişafa böyük ziyanlar gətirər. İqtisadi idarəetmə siyasətinin formalaşdırılması iqtisadi inkişafa əsaslanmalıdır.

İqtisadi inkişafın səmərəliliyini təmin etmək üçün bir çox alim və tədqiqatçılar iqtisadi inkişafın fəaliyyətində rəqəmsal texnologiyaların tətbiqi ilə bağlı bir çox tədqiqatlar aparmışlar [4-8]. Bundan əlavə süni intellekt və iqtisadi idarəetmə qərarlarının qəbulu üzrə tədqiqatlarda, süni intellekt texnologiyasının iqtisadi inkişafa təsirinin öyrənilməsində, iqtisadi sahədə süni intellekt texnologiyasının, həmçinin maşın və dərin təlim metodunun tətbiqinin öyrənilməsində də müəyyən elmi yeniliklər vardır. Süni intellektin tətbiqi ilə bir çox əsas iqtisadi qərar qəbuletmə aspektləri də təhlil edilə bilər. İqtisadiyyatın idarə edilməsi, istehsalın, bölgünün, mübadilə və istehlakın iqtisadi inkişafa təsiri, iqtisadi idarəetmə siyasətinin formalaşdırılması prosesi və s. belə məsələlərdəndir. Süni intellekt və iqtisadi idarəetmə qərarlarının kompleks inkişafı bazar iqtisadiyyatında iqtisadi qərar qəbuletmənin tənzimləmə təsirini yaxşılaşdıra və iqtisadi idarəetmə sistemini daha ağıllı edə bilər. Əvvəlki iqtisadi idarəetmə qərarlarının formalaşdırılması ilə müqayisədə süni intellektlə inteqrasiya olunmuş iqtisadi idarəetmə prosesi qərarların subyektiv emosiyalarını aradan qaldıra və iqtisadi siyasəti daha elmi və ədalətli edə bilər**.**

Göründüyü kimi aktuallığı şübhə doğurmayan problemin qoyuluşunun mahiyyəti iqtisadi proseslərdə qərar qəbuletmənin ümumi cəhətlərinin təhlili üçün mövcud riyazi statistik aparatların süni intellekt texnologiyaları ilə inteqrasiya olunması üzrə metodoloji yanaşmanın işlənilməsidir. Baxılan məsələlərin təhlili göstərir ki, müasir dövrdə iqtisadi proseslərdə qərar qəbuletmə üçün süni intellekt texnologiyasının

tətbiqinə yanaşmanın işlənilməsi aktual hesab olunur. Bu baxımdan, təqdim olunan işin əsas vəzifəsi iqtisadi fəaliyyət sferalarında və proseslərində qərar qəbuletmə prosesində süni intellekt texnologiyasının tətbiqi məsələlərinin həlli mexanizmlərinin əsaslarının işlənilməsidir.

İqtisadi qərar qəbuletmə prosesinin mərhələləri və xüsusiyyəti. Qərar qəbuletmənin mahiyyəti müxtəlif mövcud iqtisadi alternativlər arasından ən yaxşının seçilməsi prosesidir. Bu, fərdlərin, qrupların və ya təşkilatların seçim etmək və problemləri həll etmək yolunda əsas idrak prosesidir [9].

Qərar qəbuletmənin mahiyyəti, funksional mərhələləri və xüsusiyyətləri bir neçə əsas elementi əhatə edir. Belə ki, birinci mərhələdə problemlər və ya mövcud imkanlar müəyyən edilir. Burada qərarların qəbulu çox vaxt konkret məsələni həll etmək və ya potensial fürsətdən istifadə etmək ehtiyacını dərk etməklə başlayır.

Problemlər müəyyən edildikdən sonra müvafiq məlumatlar toplanmalı və təhlil edilməlidir. Bu addım araşdırma yolu ilə müxtəlif perspektivləri nəzərdən keçirməyi və potensial seçimlərin nəticələrini başa düşməyi əhatə edir. Növbəti mərhələdə qərar verənlər beyin fırtınası aparır və mövcud problemi həll etmək üçün bir çox mümkün həllər və ya alternativlər hazırlayırlar. Bu mərhələdə yaradıcılıq və tənqidi təfəkkür mühüm rol oynayır.

Hər bir alternativ variant və ya inkişaf ssenarisi, xərc, potensial nəticələr, risklər, məqsəd, dəyərlərə uyğunluq və s. kimi müxtəlif meyarlar əsasında qiymətləndirilir. Diqqətlə nəzərdən keçirildikdən və təhlil edildikdən sonra ən uyğun alternativin seçilməsi barədə qərar qəbul edilir. Daha sonra seçilmiş qərarın icrası planının həyata keçirilməsi nəzərdə tutulur. İstənilən nəticələrə nail olmaq üçün düzgün planlaşdırma, resurs bölgüsü və icra strategiyaları işlənilməlidir. Qeyd edək ki, qərar qəbuletmə təkrarlanan bir prosesdir. Qərarların nəticələrini qiymətləndirmək, rəy toplamaq və zəruri hallarda strategiyaları tənzimləmək də çox vacibdir. Həm müvəffəqiyyətlərdən, həm də uğursuzluqlardan öyrənmək gələcək qərar vermə proseslərini daha da dəqiqləşdirməyə kömək edir.

Qərar qəbuletmənin xüsusiyyətləri haqqında qeyd olunmalıdır ki, qərar qəbulu ideal olaraq rasional və məntiqli yanaşmanı, mövcud məlumatı nəzərə alaraq və istənilən məqsədə çatmaq şansını artırmaq üçün variantları təhlil etməyi əhatə edir. İnsan qərarlarına subyektiv amillər, o cümlədən şəxsi qərəzliklər, duyğular və idrak məhdudiyyətləri təsir edir. Qərəzlikləri tanımaq və azaltmaq daha obyektiv qərarlar qəbul etmək üçün çox vacibdir.

Qeyd olunmalıdır ki, bir çox qərarlar qeyri-müəyyənlik şəraitində qəbul edilir. Burada nəticələrin dəqiqliklə proqnozlaşdırılması mümkün deyil. Ona görə də riskin qiymətləndirilməsi, onun azaldılmasının və idarə edilməsi qərar qəbuletmə proseslərində mühüm rol oynayır. Qərarların qəbulu çox vaxt güzəştləri də əhatə edir. Belə ki, bir alternativ seçmək, əslində digərini qurban vermək deməkdir. Bu dəyişiklikləri başa düşmək, təhlil etmək və qəbul etmək əsaslı seçim etmək üçün vacibdir. Məlumdur ki, qərar qəbuletmə, xüsusilə çoxsaylı dəyişənlərin, bir-biri ilə əlaqəli amillərin və çoxsaylı maraqlı tərəflərin iştirak etdiyi situasiyalarda mürəkkəb ola bilər. Mürəkkəbliyin idarə edilməsi diqqətli təhlil və yaradıcı düşünmə tələb edir. Qərarların qəbulu bəzən zaman azlığı şəraitində qəbul edilməli ola bilər. Belə vəziyyətlərdə kompleks təhlillə vaxtında hərəkət etməyin tarazlaşdırılması çox vacibdir.

Ümumiyyətlə effektiv qərarların qəbulu, həmçinin analitik düşüncə, emosional zəka, tənqidi qiymətləndirmə, peşəkar və təşkilati kontekstlərdə optimal nəticələr əldə etmək üçün qərar qəbuledən şəxsin mövcud şəraitə böyük verilənlərin təhlili əsasında sürətli uyğunlaşma qabiliyyətinin olması vacib şərtlərdən biridir [10].

Göründüyü kimi qərar qəbuletmə prosesi adətən effektiv seçim etmək üçün hər biri vacib olan bir neçə mərhələdən ibarətdir. Bu mərhələlər həmişə xətti olmur, onlar üst-üstə düşə və ya eyni vaxtda baş verə bilər. Qərar qəbul edildikdən sonra onun icra mərhələsi müfəssəl planın hazırlanmasını, resursların bölüşdürülməsini və seçilmiş alternativin həyata keçirilməsini əhatə edir. İcra prosesindən sonra qərarın effektivliyini müəyyən etmək üçün onun nəticələri qiymətləndirilir. Rəylər toplanır və qərarın arzu olunan məqsədlərə nail olub-olmadığını anlamaq üçün nəticələr qiymətləndirilir. Qiymətləndirməyə əsasən, düzəlişlər lazım ola bilər. Həm uğurlu, həm də uğursuz nəticələrdən öyrənərək gələcək qərar vermə proseslərini təkmilləşdirmək çox vacibdir.

Zəruri mərhələlər qərarların qəbulu üçün strukturlaşdırılmış çərçivə təmin edir. Fərdləri və ya qrupları qəbul etdikləri qərarları təhlil etmək, seçmək, həyata keçirmək və qiymətləndirmək üçün sistematik yanaşma vasitəsilə istiqamətləndirir. Vaxt məhdudiyyətləri, mövcud məlumat və məsələnin mürəkkəbliyi kimi xarici amillər qərar qəbul etmə prosesinə və onun mərhələlərinə ciddi təsir göstərə bildiyi nəzərə alınmalıdır.

İqtisadi qərar qəbuletmə prosesinin süni intellektə əsaslanan üsulları. Süni intellekt texnologiyaları maşınlarda insan zəkasını və idrak funksiyalarını simulyasiya etmək üçün istifadə olunan müxtəlif texnika, alqoritm və yanaşmalara istinad edir. Bu üsullar kompüterlərə və sistemlərə öyrənmə, əsaslandırma, problem həll etmə, qavrayış, dili anlama və qərar qəbul etmə kimi adətən insan zəkasını tələb

edən vəzifələri yerinə yetirməyə imkan verir [11]. Müvafiq sferaya aid edilə bilən metodları, modelləri və alətləri uyğun şəkildə qruplaşdırmaq mümkündür.

Süni intellekt texnologiyaları və metodlarına 1) Maşın və dərin təlim, 2) Təbii dilin emalı, 3) Kompüter görmə, 4) Gücləndirici öyrənmə, 5) Təkamül alqoritmləri, 6) Ekspert sistemləri, 7) Qeyri-səlis məntiq, 8) Genetik alqoritmlər, 9) Qrup intellekt və s. daxildir. Qeyd olunan süni intellekt texnologiyası və üsulları maliyyə, istehsal, satış, nəqliyyat və s. daxil olmaqla ən müxtəlif iqtisadi sahələr və proseslərdə qərar qəbuletmədə tətbiq edilir.

Süni intellektə əsaslanan iqtisadi qərar qəbuletmə üsullarına daxil etmək olar: 1) Süni intellekt alqoritmlərinə əsaslanan iqtisadi qərar qəbuletmə, 2) Data-Mining texnologiyasına əsaslanan qərar qəbuletmə, 3) İqtisadi prosesdə qərar qəbuletmənin maşın təlimi əsasında təmini, 4) Kompüter görməyə əsaslanan qərar qəbuletmə [12].

Otel müəssisəsini idarə etmək üçün təşkilati sxem onun yaranmasının ilkin mərhələsində müəssisənin rəhbərləri tərəfindən yaradılır və müəssisənin ixtisası, onun kateqoriyası, otaqların həcmi, yerləşməsi, qonaqların kateqoriyası və digər amillərlə müəyyən edilir. Təşkilat sxeminin yaradılmasında idarəetmə bölmələrinin yaradılmasının təhlili, onların funksional vəzifələrinin, bölmənin özünün (xidmət, şöbə) daxilində və istehsal prosesində bölmələr arasında əlaqələrin dəqiq müəyyən edilməsi mühüm rol oynayır. İdarəetmə strukturu müəssisənin Nizamnaməsi ilə təsdiq edilir və xidmət sahəsinə dair xüsusi əsasnamə, idarəetmənin bütün səviyyələrinin vəzifə təlimatları ilə sənədləşdirilir.

Mehmanxana idarəçiliyinin təşkilati strukturu o zaman optimal olur ki, bütün struktur bölmələr mehmanxana xidmətinin yaradılması prosesini tamamlayır və onun fəaliyyətini təmin edir, eyni zamanda rəqabətqabiliyyətli xidmətlərin göstərilməsi olan yekun nəticənin əldə edilməsində maksimum əməliyyat səmərəliliyini təmin edir.

Otel müəssisələri üçün idarəetmə sisteminin təşkilinin əsas prinsipləri arasında:

- qonaqların tələbinə uyğun olaraq xidmətlərin istehsalına diqqət yetirmək;
- idarəetmənin təşkilati strukturu onun məqsəd və strategiyasını əks etdirməlidir;

- ixtisaslaşma və diversifikasiya yolu ilə istehsalın təşkilinin daim tətbiqi;
- idarəetmədə hüquq və vəzifələrin, məsuliyyət və nəzarətin birləşməsi;
- sürətli uyğunlaşma-tələb dəyişikliklərinə aydın reaksiya vermək, istehsal texnologiyasını təkmilləşdirmək və yenilikləri tətbiq etmək bacarığı;
- xərclərin səmərəliliyi-idarəetmə orqanlarının alınması xərclərinə və təşkilatın imkanlarına uyğundur [Hasanov, 2018: 28-31];
- idarəetmədə sadəlik-az sayda idarəetmə səviyyəsindən formalaşmış, ixtisaslı mütəxəssislərdən ibarət, kadrlar tərəfindən asan başa düşülən və konkret idarəetmə formasına uyğunlaşdırılmış;
- idarəetmədə optimallıq-təşkilat xidmətlər və işçi heyəti arasında rasional əlaqəni təmin etməlidir;

Hər bir otel xidməti və onun şöbələri daima qonaqlara göstərilən xidmətin keyfiyyətini yüksəltməyə çalışmalıdırlar. Bu, xüsusilə qəbul xidməti üçün vacibdir. Çox vaxt bu xidmətin işçilərinin müştərilərin suallarını peşəkarcasına cavablandırmaq və onlara seçim etmək üçün bir neçə variant təklif etmək bacarığı, bəzən hətta otel üçün iqtisadi cəhətdən sərfəli deyil, nəticədə onun çiçəklənməsinə səbəb olur.

Qəbul xidmətinin tədbirlər və qonaqlar haqqında operativ məlumatından tutmuş bütün digər funksional xidmətlərə və onun idarəçiliyinə qədər oteldə nizam-intizam asılıdır, heç bir əsəbilik yoxdur, işgüzar ab-hava hökm sürür.

Bir qayda olaraq, bütün otellərdə qonaq axını sabit deyil. Bu xidmətin meneceri işi elə təşkil etməlidir ki, pik vaxtlarda qonaqlara daha təcrübəli işçilər xidmət göstərsinlər ki, qəbul xidməti həddən artıq yüklənməsin və qonaqlara lazımi səviyyədə xidmət göstərsin[4].

Bizdə turizm, mehmanxana və restoran biznesi hələ də Amerika və Qərbi Avropanın yüksək inkişaf etmiş ölkələrindəki kimi inkişaf səviyyəsinə çatmayıb. İqtisadiyyat və idarəetmə elmləri, otelçilik sənayesində idarəetmə və marketinqin akademik səviyyədə öyrənilməsi yeni başlayır [5]. Buna görə də, bazar iqtisadiyyatının yeni şəraitində təşkilat, idarəetmə və müştərilərə xidmət haqqında bu kitabda təqdim olunan materiallar həm qonaqpərvərlik sənayesinin işçiləri, həm də əsas akademik fən kimi mehmanxana və restoran biznesini öyrənən tələbələr üçün böyük maraq doğurur.

İstənilən otel müəssisəsinin səmərəli fəaliyyətini təmin etmək üçün təşkilati və funksional idarəetmə strukturunun qurulması vacibdir.

Otel sənayesində süni intellekt necə istifadə olunur? Süni intellekt otel sənayesində gəlirləri idarə etmək, qonaqlara xidmət göstərmək və rezervasiya yaratmaqdan əlavə xidmətlər sifariş etməyə kimi gündəlik əməliyyatları avtomatlaşdırmaq üçün istifadə olunur. Otellərdə süni intellektdən istifadə etmək üçün menecerlər yeni texnologiyaların demək olar ki, hər gün bazara çıxması səbəbindən mövcud büdcələrinə, qonaq rəylərinə və gələcək böyümə planlarına əsaslanaraq investisiyalarının harada daha çox təsir edəcəyini düşünməlidirlər.

Bu gün otellərin əksəriyyəti süni intellektlə işləyən vebsaytlardan, sifariş alətlərindən və ya digər proqram təminatından istifadə edir. Bununla belə, respondentlərin 49%-i otel sənayesinin süni intellektin qəbulu üçün yolun yarısında olduğunu bildirir. Yaxşı xəbər budur ki, bu kateqoriyada artım üçün yer var.

Bəzi otel şəbəkələri qonaqları yoxlamaq, otaq xidməti sifariş etmək və suallara 24/7 cavab vermək üçün süni intellektlə işləyən konsyerjlərdən istifadə edir. Qonaqlar birbaşa telefonlarından konsyerjə e-poçt göndərə bilərlər.

Hiperdinamik qiymətlər sifariş motorlarına istifadəçi məlumatları üçün sosial media və vebsayt məqalələrində avtomatik axtarış aparmağa və gəlir potensialını maksimuma çatdıran qiymət düzəlişləri etmək üçün təhlil etməyə imkan verir. Məsələn, yaxınlıqda otelləri dolduran böyük bir konfrans varsa, süni intellekt proqramı artan tələbi əks etdirmək üçün qiymətləri dərhal tənzimləyir.

Generativ neyron şəbəkələri turizm sənayesinə qlobal miqyasda əlavə 300 milyard dollar qazandıra bilər.

Süni intellekt bir mənalı olaraq bütün sektorlarda inqilab edərək daha çox şirkət xidmətlərini təkmilləşdirmək və müştərilərinə daha çox fərdi təcrübə təqdim etmək üçün bu texnologiyadan istifadə edir. Bu sahədə ən populyar vasitələrdən biri istifadəçilərlə qarşılıqlı əlaqə yaratmaq və onlara daşınmaz əmlak, qiymətlər, yerləşmə və s. haqqında məlumat vermək üçün süni intellektdən istifadə edən chatbot ChatGPT-dir.

İdarəetmənin təşkilati və funksional strukturu ciddi tabeçilikdə yerləşən, idarəetmə və idarə olunan alt sistemlər arasında əlaqəni, sistemin vahid bütövlükdə inkişafını təmin edən idarəetmə əlaqələrinin nizamlı sistemidir. İdarəetmə əlaqələri bir-biri ilə müəyyən bir yeri, əlaqəsi olan idarəetmə strukturunu təşkil edir. Təşkilati idarəetmə strukturunun yaradılması təşkilatın ayrı-ayrı bölmələri arasında hüquq və vəzifələrin bölüşdürülməsi zərurətindən irəli gəlir.

Mehmanxana müəssisəsinin təşkilati strukturu onun uzunmüddətli rəqabət qabiliyyətini, iqtisadi səmərəliliyini və rasional əməkdaşlığını təmin etmək üçün formalaşır [Abdulov, 2015: 43-45].

Beləliklə, idarəetmə strukturu qonaqpərvərlik sənayesinin idarəetmə orqanlarının bölgüsü, onların ixtisasının xarakteri idarəetmə vəzifələri və onların fəaliyyətinin əlaqələndirilməsi formaları ilə müəyyən edilir. Turistləri keyfiyyətli xidmətlərlə təmin etmək üçün mehmanxana müəssisəsi komfort, xidmətlərin səviyyəsi yüksək olmalıdır.

Mehmanxana müəssisələri regional xüsusiyyətlərdən və müştərilərin tətil vərdişlərindən asılı olaraq müxtəlif siniflərdə fəaliyyət göstərirlər[Abdulov,2015:37-38].

Mehmanxana müəssisələrini müxtəlif siniflərdə fəaliyyət göstərməyə sövq edən səbəblər arasında müştəri gözləntilərindəki fərqlər mühüm yer tutur. Müştəri gözləntilərindəki fərqləri izləyən mehmanxana müəssisələri zamanla sağlamlıq, idman, tətil və əyləncə kimi otel idarəçiliyi sahələrində ixtisaslaşmağa üstünlük verib.

Yekun olaraq süni intelekt ilə müştərilər öz suallarına tez və dəqiq cavab ala, təcrübələrini təkmilləşdirə və məmnuniyyətini artıra bilərlər. Bununla belə, süni intellekt təkcə müştəri xidmətlərini yaxşılaşdırmaq üçün istifadə edilmir. O, həmçinin axtarış sisteminin optimallaşdırılması üçün çox faydalı olan bir vasitədir.

Ədəbiyyat

1. Soltanova, H. (2015). Azərbaycan Respublikasında turizm və onun inkişafı. Bakı, 120 s.
2. State Statistics Committee of the Republic of Azerbaijan. (2016). Tourism in Azerbaijan, Baku, 101 p.
3. Hasanov, S.L. (2018). Applied features of comparative technical, sociological investigation of historical and contemporary heritage of Azerbaijan. International Scientific Journal Theoretical & Applied Science, Issue 1, vol. 57, part 1, pp.28-31.
4. https://studfile.net/preview/7156201/page:6/
5. https://tourlib.net/books_tourism/lojko8-1.htm
6. Abdulov, A.V. (2015). Tələbə və Aspirantların XIII Universitetlərarası Elmi-Praktik Konfransının məqalələr toplusu. Omsk Dövlət İnstitutu, 2-ci hissə. s.43-45.

РЕЗЮМЕ

РОЛЬ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В ФОРМИРОВАНИИ СТРУКТУРЫ УПРАВЛЕНИЯ В ГОСТИНИЧНЫХ ЗАВЕДЕНИЯХ

Бахишова Ш.Н.

Ключевые слова: *гостиница, отель, путешествие, менеджмент, ресторан, сервис, турист.*

Отношение к управлению гостиницей определяется, прежде всего, экономическими отношениями, в основе которых лежат объективные потребности и интересы людей. Экономический метод занимает центральное место в управлении. Управление гостиницей - это управление, планирование, анализ, финансирование и т. д. экономическими методами. проявляется в формах. В отличие от организационно-управленческого метода управление экономическими методами в управлении предполагает разработку общеэкономических показателей и способов их достижения. Итак, в эффективной работе людей на первый план выходят не административные эффекты, а методы экономического стимулирования. Организационно-управленческие и социально-психологические методы разрабатываются на основе экономических методов управления. Объективной основой этих методов являются организационные отношения. Экономические методы не могут функционировать без организационно-управленческого воздействия. Организационно-управленческий метод обеспечивает аккуратность, дисциплину и упорядоченность работы.

SUMMARY

THE ROLE OF ARTIFICIAL INTELLIGENCE IN THE FORMATION OF MANAGEMENT STRUCTURE IN HOTEL ESTABLİSHMENTS

Bakhishova Sh.N.

Keywords: *hotel, travel, management, restaurant, service, tourist.*

The attitude to hotel management is primarily determined by economic relations, which are based on objective requirements and people's interest. The economic method takes a central place in management. Hotel management is management, planning, analysis, financing, etc. through economic methods. manifests itself in forms. In contrast to the organizational-administrative method, management with economic methods in management involves the development of general economic indicators and ways to achieve them. So, in the efficient working of people, not administrative effects, but economic stimulation methods are in the foreground. Organizational-administrative and social-psychological methods are developed on the basis of economic methods of management. The objective basis of these methods is organizational relations. Economic methods cannot function without organizational-administrative effects. The organizational-administrative method ensures accuracy, discipline, and orderly work.

SÜNİ İNTELLEKTİN (AI) COĞRAFİ İNFORMASİYA SİSTEMLƏRİ (GIS) TEXNOLOGİYASINA İNTEQRASİYASI

Əmiraslanova Mədinə Şahin qızı

Azərbaycan Milli Aerokosmik Agentliyi, Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutu, Bakı, Azərbaycan
madina.muxtarova.1992@mail.ru

Açar sözlər: *süni intellekt, coğrafi informasiya sistemləri, geodata emalı, dərin öyrənmə, maşın öyrənməsi.*

Müasir dünyada yeni informasiya sistemlərinin və texnologiyaların tətbiqi, bir çox sahədə vacib hal almışdır. Hazırda coğrafi informasiya sistemlərindən və süni intellektdən, geniş data həcmi, o cümlədən geo-məlumatlar, təhlil və emal etmə üçün geniş şəkildə istifadə olunur. Hal-hazırda süni intellektdən yararlanmaq bütün sahələrdə qabaqcıl texnologiyalardan istifadə etmək faydalı və səmərəli ola bilər. Məqalədə təbii zəkanın texnoloji alternativi sayılan süni intellektin (AI) mahiyyəti, dövrümüzdə müasir vəziyyəti, həmçinin AI-nin GIS-ə inteqrasiya məsələləri ortaya qoyulmuşdur.

Süni intellekt (*Artificial İntelligence*) termini qlobal leksikonda yeni yaradılmış bir söz kimi qiymətləndirilsə də, bu mövzu ilə əlaqədar elmi, nəzəri və təcrübi fəaliyyətlər kifayət qədər mövcuddur. Son illərdə süni intellektin texnoloji, fəlsəfi-etik, hüquqi sahələrdə real və potensial kognitiv imkanlarının daha ətraflı öyrənilməsi və araşdırılması, insanlar və maşınlar arasında yeni münasibətlərin inkişafına səbəb olmuşdur [2].

GIS, əsasən proqram təminatı, aparat, insanlar və data komponentlərindən ibarət olan, bir-biri ilə əlaqəli və daimi inkişaf edən dövri bir zəncirə oxşayır. Bu səbəblə də deyə bilərik ki, bu zəncirin bir quruluşunun inkişafı özü ilə əlaqəli digər quruluşları da dəyişiklik və inkişafa aparır. Son illərdə, süni intellekt (AI) sürətli inkişaf etmiş, şəkil tanıma, oxuma bacarığı və mətn tərcüməsi və s. kimi işlərdə üstünlük qazanmışdır. Geniş mənada, AI kompüterin normal insan intellektinin müəyyən səviyyəsində vəziyyəti yerinə yetirmə qabiliyyətidir. Bu mümkün olan bir növ maşın öyrənməsidir. Maşın öyrənməsi, bizə tələb etdiyimiz cavabları təmin etmək üçün data mövqeyindən istifadə edərək öyrənir [1].

Süni İntellekt (AI), müxtəlif sahələrə inqilab gətirir və bu sahələrdən biri də Coğrafi İnformasiya Sistemləridir. Aİ-nin GIS-ə inteqrasiyası, məlumat təhlilini gücləndirmə, qərar qəbuletmə proseslərini yaxşılaşdırmaq kimi potensiala malikdir [4]. Lakin, hər yeni texnologiya kimi, inteqrasiya məsələlərində müəyyən problemlər yaranır. AI-nin GIS-ə inteqrasiyasında əsas problemlərdən biri məlumatın mövcudluğu və keyfiyyətidir. AI alqoritmləri, düzgün proqnozlar üçün böyük data həcmindən asılıdır. Data toplama prosesləri səmərəli olmalıdır və data mənbələri etibarlı və sabit olmalıdır. Əlavə olaraq, məlumat gizliliyi və təhlükəsizlik məsələləri həll edilməlidir ki, bu da dataların qorunmasını təmin etməyə kömək edir. Başqa problemlərdən biri də AI alqoritmlərinin və onların GIS-ə inteqrasiyasının kompleksliyidir. AI alqoritmləri tez-tez çətin və çox datalı hesablama gücü və resursları tələb edir. Əlavə olaraq, inteqrasiya prosesi zamanı AI alqoritmləri GIS-in funksionallığını pozmamaq üçün səmərəli olmalıdır [6].

Maşın öyrənmə alətləri uzun illərdir ki, GIS-də məkan təhlilinin əsas komponentidir. ArcGIS-də maşın öyrənməni istifadə edərək təsvirlərinl təsnifatını aparıb, dataları zənginləşdirmə və ya məkan əlaqələrini modelləmək mümkündür. Maşın öyrənməsi, problemin həlli üçün alqoritm vasitəsilə təyin edilmiş məlumatın emal olunduğu süni intellektin bir sahəsidir. Məsələn, bina və yollar kimi xüsusiyyətləri müəyyənləşdirmək istəyiriksə, dərin öyrənmə modeli müxtəlif bina və yol təsvirləri ilə təlim edilə bilər, təsvirləri neyron şəbəkəsindəki təbəqələrdə emal edərək və sonra hər hansı binanı və ya yolu siniflendirmək üçün tələb olunan lazımi identifikatorları tapa bilər. Məsələn, aşağıdakı soldakı təsvir orijinal aşağı ayırdetmə qabiliyyətli, sağdakı təsvir isə yüksək ayırdetmə qabiliyyətli modelin istifadəsinin nəticəsini göstərir. Bu tip dərin öyrənmə proqramları təsvirin tərcüməsi (image - to - image translation) kimi də tanınır [3].

Şəkil 1. İmage - to - image translation

Təsvirlərdə dəyişiklikləri aşkar etmək üçün dərin öyrənmə metodları müəyyən dövr arasındakı maraq obyektlərindəki dəyişiklikləri aşkar edə və dəyişikliklərin xəritəsini yarada bilər. Məsələn, aşağıdakı soldakı təsvir beş il əvvəlki yaşayış binalarını göstərir, ortadakı təsvir bu günün vəziyyətini göstərir və sağdakı təsvir yeni evlərin ağ rənglə vurğulandığı dəyişiklik xəritəsini göstərir.

Şəkil 2. Təsvirlərdə dəyişiklikləri aşkar etmək üçün AI tətbiqi və dəyişikliklərin xəritəsi

Texnologiya inkişaf etdikcə AI alqoritmləri daha mürəkkəb, dəqiq və səmərəli olacaqdır. AI-nin GIS-ə inteqrasiyası daha asan olacaq, bu da dataların real vaxtda təhlilinə və qərar qəbul edilməsinə imkan verəcəkdir. Bundan əlavə, maşın öyrənmə və dərin öyrənmə texnikalarındakı irəliləyişlər şəffaflıq və təhlükəsizlik problemlərini həll edərək süni intellekt alqoritmlərinin şərhini və izahını artıracaqdır [5]. Nəticə olaraq, süni intellektin GIS-ə inteqrasiyası müəyyən çətinliklərlə üzləşsə də, gələcək üçün imkanlar və perspektivlər böyükdür. Süni intellektin Coğrafi İnformasiya Sistemlərinə inteqrasiyası dəyərli məlumatlar vermək, qərar qəbuletmə proseslərini yaxşılaşdırmaq və nəticədə ətrafımızdakı dünya haqqında anlayışımızı artırmaqla bu sahədə potensial olaraq inqilab edə bilər.

Ədəbiyyat

1. Şahin E.K., Bovkır R. ve Aydınoğlu A.Ç. Yeni Teknolojik Gelişmelerin Coğrafi Bilgi Sistemlerine Etkisi. Harita Dergisi, 163, 2020, s.1-16.
2. Wang Q., Lu P. Research on application of artificial intelligence in computer network technology//International Journal of patterin recongnition and artificial intelligence, 2019, Vol.33, No, 5.
3. https://pro.arcgis.com/en/pro-app/latest/help/analysis/deep-learning/what-is-deep-learning-.htm
4. https://pro.arcgis.com/en/pro-app/latest/tool-reference/image-analyst/how-extract-feature-using-ai-models-
5.https://ts2.space/en/artificial-intelligence-in-gis-mapping-challenges-opportunities-and-future-prospects/#gsc.tab=0
6. https://sambusgeospatial.com/integrating-artificial-intelligence-into-geoinformation-systems/

РЕЗЮМЕ

ИНТЕГРАЦИЯ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА (ИИ) В ГЕОГРАФИЧЕСКИЕ ИНФОРМАЦИОННЫЕ СИСТЕМЫ (ГИС) ТЕХНОЛОГИИ

Амирасланова М.Ш.

Ключевые слова: *искусственный интеллект, географические информационные системы, обработка геоданных, глубокое обучение, машинное обучение.*

Новые информационные системы и технологии в современном мире стали ключевыми во многих областях. В настоящее время географические информационные системы (ГИС) и искусственный интеллект (ИИ) широко используются, включая анализ и обработку больших объемов данных, в том числе геопространственной информации. Использование искусственного интеллекта в настоящее время является продвинутой технологией во всех областях. В статье рассматриваются природа искусственного интеллекта как технологической альтернативы естественному интеллекту, его текущее состояние, а также вопросы интеграции ИИ с ГИС.

SUMMARY

INTEGRATION OF ARTIFICIAL INTELLIGENCE (AI) INTO GEOGRAPHIC INFORMATION SYSTEMS (GIS) TECHNOLOGIES

Amiraslanova M.Sh.

Keywords: *artificial intelligence, geographic information systems, geodata processing, deep learning, machine learning.*

In the modern world, the application of new information systems and technologies has become crucial in many fields. Currently, Geographic Information Systems (GIS) and Artificial Intelligence (AI) are extensively used, including the analysis and processing of large volumes of data, particularly geospatial information. The integration of AI is beneficial across various domains due to its ability to handle extensive data, including geospatial data, for analysis and interpretation. This article explores the nature of

artificial intelligence as a technological alternative to natural intelligence, its current state, and issues related to its integration with GIS.

TEXNOPARKIN ÇEVİK İSTEHSAL SAHƏSİNİN İNFORMASİYA-ÖLÇMƏ ELEMENTLƏRİNİN KOMPANOVKA EDİLMƏSİ MODELİNİN İŞLƏNMƏSİ

Gəncəliyeva Gülnarə Qərib qızı, Abdullayev Qurban Sadıx oğlu

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
genceliyeva_1976@mail.ru

Açar sözlər: *texnoloji park, çevik istehsalat sahəsi, sənaye robotları, avtomatik nəqliyyat xətti, çevik istehsal sahəsi, hiperqraf*

Texnoparkın təşkilatı quruluşuna daxil olan çevik istehsalat sahəsinin (ÇİS) avtomatlaşdırılmış idarəetmə sisteminin (AİS) işlənməsi üçün informasiya-ölçmə vasitələrinin seçilməsi və avadanlıqlarda,sənaye robotlarında və s. aktiv elementlərdə istifadə edilməsi məsələsinə baxılır. ÇİS-in AİS-nin 1-ci səviyyəsində informasiya-ölçmə elementlərinin avadanlıqlarda, nəqliyyat vasitələrində və sənaye robotlarında (SR) dəqiq mövqelərdə komponovka etmək və müvafiq olaraq idarəetmə prosesini modelləşdirmək üçün matris hesablama və hiperqraf modelinin qurulması prinsiplərindən istifadə olunur.

Universitetin texnoparkının nəznində fəaliyyət göstərən ÇİS-in etibarlı idarəetmə sisteminin işlənməsi üçün texnoloji proseslərin avtomatlaşdırılmasını təmin edən, sənaye robotlarda (SRi), texnoloji avadanlıqlarda (TAi - pardaqlama dəzgahı (PD)), avtomatik nəqliyyat xətlərində (ANXi) və sobada informasiya-ölçmə və nəzarət elementlərinin dəqiq kompanovka edilməsi və texnoloji əməliyyatlara əsasən modelləşdirilməsi tələb olunur. ÇİS-də fəaliyət göstərən SRi-lər standart ölçülü alüminium lövhələrin götürülməsi, daşınması, yerdəyişməsi və yüklənməsini təmin edir. (SR2 və SR3 tərəfindən pardaqlama dəzgahlarına xidmətetmə prosesinin misalında şəkil 1).



Şəkil 1. SR2 və SR3 tərəfindən alüminium lövhələrinin pardaqlama dəzgahlarına yüklənməsi prosesinin işçi zonası

ÇİS-də SRi-lərin sobaya və pardaqlama dəzgahlarına xidmətetmə prosesində aşağıdakı ölçülü alüminium lövhələr istifadə olunur *a* x *a* x *h*, burada *h=min (5 mm), a=300 ÷500 mm* və səthi formalı olur.

ÇİS-də SRi-lərin informasiya-ölçməsi, nəzarət və diaqnostika sistemi üçün işçi zonaların riyazi modelləşdirilməsi məsələnin qoyuluşunun və sərhədlər sisteminin formalaşması məqsədi ilə *N*-təyinatlı hiperqraflara əsaslanan ümumiləşdirilmiş riyazi model qurulur. Onun yazılış quruluşu aşağıdakı şəkildə təsvir olunur [1]:

$$G(P, U, U^L) \qquad (1)$$

burada $P = \{p_i \mid i = \overline{1, N_0}\}$ – hiperqrafın topalar çoxluğudur; p_i – hiperqrafın *i* – li topadır; $U = \{U_m(P'_m) \mid m = \overline{1, M}\}$ – hiperqrafın hiperqövslər çoxluğudur; $u_m(P'_m)$ – hiperqrafın *m* – li qövsüdür; P'_m - *m* qövsünə insident olan topalar çoxluğudur $P'_m \subseteq P$; $P'_m = \{p^V_k\}$, $\forall k \in K_m$, $K_m \subseteq \overline{1, I}$, $\overline{V}$ - istiqamətləndirici hiperqrafın qövsündə topanın sıra nömrəsidir (vektor kimi təsvir olunur)

$\overline{V} = \{V_n \mid n = \overline{1, N}\}$. Qövsdə topanın sayı onun müəyyən xassələrini konkret qiymətlərlə əks etdirir. $U^L = \{u_l^{|} = < p_{n1}; p_{n2} >_l \mid l = \overline{1, N_l}\}$ - istiqamətləndirici altqrafın obyektləri arasında əlaqələr sistemini əks etdirir [2]:

$$G_i(P^L, U^L), \tag{2}$$

burada $P^L \subset P$ – əlaqələndirici topaların altçoxluğudur; N_l – əlaqələrin sayıdır; $< p_{n1}; p_{n2} >$ - l qövsinə insident olan topalar cütüdür. Aşağıda altqrafın şərti ifadəsi yazılmış və uğun insidentlik matrisi qurulmuşdur:

$L=\{l_{p1p2}\}$, burda

$$l_{p1,p2} = \begin{cases} 0, & if\ p_1 \text{ zirvəsi } p_2 \text{ qövsünə məxsus deyil} \\ -1, & if\ p_1 \text{ zirvəsi } p_2 \text{ qövsünün başlanğıcındadır} \\ 1, & if\ p_1 \text{ zirvəsi } p_2 \text{ qövsunun sonudur.} \end{cases}$$

Qrafik olaraq N - istiqamətləndirici hiperqrafdır. Tədqiq olunan istehsalat sahəsinin funksional əlaqələrin hesabına qurulur (şəkil 2). ÇİS-in aktiv elementlərin informasiya-ölçmə elementlərinin qarşılıqlı funksional əlaqələrini və (3) ifadəsini nəzərə alaraq, insidentlik matrisi aşağıdakı şəkildə yazılır [2]:

$$L_{Ni} = \begin{array}{c|ccccccc|c} & P_{11} & P_2 & P_3 & P_{41} & P_{42} & P_{51} & P_{52} & \\ \hline & 0 & 1 & 0 & 0 & 0 & 0 & 0 & p_1 \\ & -1 & 0 & 0 & 0 & 0 & 0 & 0 & p_2 \\ & 0 & -1 & 0 & 1 & 1 & 0 & 0 & p_3 \\ & 0 & 0 & -1 & 0 & 0 & 1 & 0 & p_{41} \\ & 0 & 0 & -1 & 0 & 0 & 0 & 1 & p_{42} \\ & 0 & 0 & 0 & -1 & 0 & 0 & 0 & p_{51} \\ & 0 & 0 & 0 & 0 & -1 & 0 & 0 & p_{52} \end{array} \tag{4}$$

burada p_1 - sobanın ANX1 möveinə uyğun hiperqrafın topa mövqeidir; p_2 - SR1 möveinə uyğun hiperqrafın topa mövqeidir; p_3 - ANX2 möveinə uyğun hiperqrafın topa mövqeidir; p_{41} - SR2 möveinə uyğun hiperqrafın topa mövqeidir; p_{42} - SR3 möveinə uyğun hiperqrafın topa mövqeidir; p_{51} - PD1 möveinə uyğun hiperqrafın topa mövqeidir; p_{52} - PD2 möveinə uyğun olan hiperqrafın topa mövqeidir.

Qəbul edək ki, $S=\{s_j \mid j = \overline{1, J}\}$- hiperqrafın qövs və topa mövqelərinin bütün mümkün olan xassələrinin çoxluğudur, $SP_i=\{ s_j \mid j \in J1_i\} \subset S$ – i topa mövqeinin xassələrinin çoxluğudur, $SU_m=\{ s_j \mid j \in J2_m\} \subset S$–$m$ qövsünün xassələrinin çoxluğudur. Beləliklə hər bir topa mövqeinin sıra nömrələrinin $V=\{ v_n \mid n= \overline{1, N}\}$çoxluğu hər bir $u_m(P1_m)$ qövsü ilə anoloji olaraq SU_m, $m=\overline{1, M}$ xassələr toplusu ilə müqaisə olunaraq, SP_i, $i=\overline{1, I}$ xassələr çoxluğu ilə əvəz olunur.

$G(P,U, U^L)$ hiperqrafın qövslərdəki kimi $G_l(P^L, U^L)$altqrafın qövslərinədə так $SU^L_l = \{s_j \mid j \in J3_l \subset 1,J\} \subset S$, $l=\overline{1, N_l}$ xassələr toplusu müəyyən edilir.

Şəkil 2-yə əsasən tədqiq olunan isthsalat sahəsinin SRi-ləri üçün informasiya-ölçmə və nəzarət sistemlərinin (İÖNS) işçi zonalarının 3-ölçülü koordinat sistemində kompanovka sxeminin xassələrini təyin etmək olar [3].



Şəkil 2. 3-ölçülü koordinat sistemində ÇİS-in aktiv elementlərinin informasiya-ölçmə və nəzarət təsviri və onların funksional əlaqələrinə əsasən hiperqraf-sxemi

Ədəbiyyat

1. Aliyev I.R., Mammadov J.F., Rakhimov Sh.R. Selection of information-measuring components on the basis of layout diagram of flexible manufacturing cell.11th International Conference on Theory and Application of Soft Computing, Computing with Words and Perceptions and Artificial Intelligence-ICSCCW-2021, p.124-131.
2. Мамедов Дж.Ф., Абдуллаев Г.С., Сафарова Т.А., Коршунов И.Л. Информационно-измерительное обеспечение АСУ участка отжига и механической обработки металлических заготовок. Известия высших учебных заведений. Приборостроение, том 64, № 10, 2021, с. 859-868.
3. Талыбов Н.Г. Создание общей структуры взаимодействия проектных процедур на этапах системотехнического проектирования гибкой производственной системы. Нефтегазовое дело, том 18, №2, 2020, с. 139-145.

РАЗРАБОТКА МОДЕЛИ КОМПАНОВКИ ИНФОРМАЦИОННО-ИЗМЕРИТЕЛЬНЫХ ЭЛЕМЕНТОВ ГИБКОГО ПРОИЗВОДСТВЕННОГО УЧАСТКА ТЕХНОПАРКА

Гянджалиева Г.Г., Абдуллаев Г.С.

Ключевые слова: *технопарк, гибкое производство, промышленные роботы, автоматическая транспортная линия, гибкое производство, гиперграф.*

Рассмотрен вопрос выбора и применения информационно-измерительных средств для разработки автоматизированной системы управления (АИС) гибкого производственного участка (ГПУ), входящей в организационную структуру технопарка, и в оборудование, промышленных роботов. Применен принцип матричного расчета и гиперграфического моделирования для компоновки информационно-измерительных элементов в точных позициях оборудований, транспортных средствах и промышленных роботах и соответствующего моделирования процесса управления данного ГПУ.

SUMMARY

DEVELOPMENT OF COMPOSES MODEL OF INFORMATION - MEASURING ELEMENTS OF FLEXIBLE PRODUCTION FOR TECHNOPARK

Ganjalieva G.G., Abdullayev G.S.

Keywords: *technology park, flexible production area, industrial robots, automatic transport line, flexible production, hypergraph.*

The issue of choosing and using information and measuring tools for the development of an automated control system (ACS) for a flexible production area (FPA), which is part of the organizational structure of a technology park, and for equipping industrial robots is considered. To compile information and measuring elements in the exact positions of equipment, vehicles and industrial robots and correspondingly simulate the control process of this FPA, the principle of matrix calculation and hypergraphic modeling is used.

MAŞIN ÖYRƏNMƏ ALQORİTMLƏRİ İLƏ KREDİT RİSKİNİN PROQNOZLAŞDIRILMASI

Həsənquliyeva Mətanət Məhəmməd qızı, Məmmədzadə Emin Fazil oğlu

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı, Azərbaycan
emin.mammadzada.2021@gmail.com

Açar sözlər: *kredit riskinin proqnozlaşdırılması, maşın öyrənmə alqoritmləri, proqnozlaşdırma dəqiqliyi, risklərin idarə edilməsi, məlumatların təhlili, qabaqcıl analitika*

Kredit riskinin proqnozlaşdırılması kreditləşdirmə qərarlarına və portfelin idarə edilməsinə təsir göstərən müasir maliyyə xidmətlərinin mühüm aspektidir. Bu tədqiqat proqnozlaşdırma dəqiqliyi və risklərin idarə edilməsi strategiyalarını artırmaq üçün maşın öyrənmə alqoritmlərindən istifadə etməklə kredit riskinin qiymətləndirilməsi sahəsini araşdırır. Nəticələr göstərir ki, maşın öyrənməsi alqoritmləri ənənəvi metodlarla müqayisədə daha üstün proqnozlaşdırma imkanları nümayiş etdirir, mürəkkəb nümunələri və verilənlər daxilində nüanslı əlaqələri ələ keçirir [2]. Bu tədqiqat qabaqcıl analitikadan istifadə etmək istəyən maliyyə institutları üçün praktiki anlayışlar təklif etməklə kredit riskinin idarə edilməsinin inkişaf edən mənzərəsinə töhfə verir.

Rəqəmsallaşma və süni intellektin tətbiqi, hal-hazırda həyatımızın müxtəlif sahələrində qarşılıqlı əlaqələrin bir parçasıdır və xüsusilə də COVID-19 pandemiyası zamanı intensiv şəkildə inkşaf etmişdir. Bank sistemlerinde təhlükəsizliyin təmin olunması o cümlədən maşın öyrənmə texnologiyalarından istifadə etməklə bank sistemində xidmətin yaxşılaşdırılmasına və müştəri məmnuniyyətinə səbəb olmuş olar [5]. Bu

aspektlərdən biri də kredit riskidir. Maliyyə ödəmələri baxımından kredit riski bank sisteminin mühüm aspektidir. Kredit riskinin bir hissəsi kimi bir neçə kredit müraciəti kredit üçün uyğunluğu təsdiqləmək üçün müəyyən daxilolmalar əsasında skan edilir [5]. Burada biz kredit müraciəti zamanı əldə edilmiş müştəri məlumatlarına əsaslanaraq kreditin uyğunluğu prosesini (real vaxt) avtomatlaşdırmaq istəyirik. Bu, xidmətin yaxşılaşdırılmasına və müştəri məmnuniyyətinə səbəb olacaq [4]. Burada məqsəd iqtisadi kapitalın istehlak riskini minimuma endirməkdir. Bir çox hallarda bank artıq risklərin idarə edilməsi sisteminə malik olacaq və kredit risklərinin idarə edilməsi sisteminin optimallaşdırmasına gətirəcəkdir.

Üstünlüklər: Maşın öyrənmə alqoritmlərindən istifadə edərək kredit riskinin proqnozlaşdırılması ənənəvi kredit riskinin qiymətləndirilməsi metodlarının təkmilləşdirilməsinə əsaslanan bir sıra üstünlüklər təklif edir:

1. Artan dəqiqlik: Maşın öyrənmə alqoritmləri böyük həcmdə məlumatları təhlil edə və ənənəvi metodlardan istifadə etməklə görünməyən mürəkkəb nümunələri müəyyən edə bilər. Bu, kredit riskinin daha dəqiq proqnozlaşdırılmasına gətirib çıxarır.

2. Qeyri-xətti əlaqələrin daha yaxşı idarə edilməsi: Ənənəvi kredit riski modelləri çox vaxt dəyişənlər arasında xətti əlaqələri nəzərdə tutur. Maşın öyrənmə alqoritmləri qeyri-xətti əlaqələri idarə edə, kredit riskinə təsir edən amillər arasında daha nüanslı və real assosiasiyaları ələ keçirə bilər.

3. Müxtəlif məlumat növləri üzrə təkmilləşdirilmiş proqnoz: Maşın öyrənmə modelləri strukturlaşdırılmış və strukturlaşdırılmamış məlumatlar da daxil olmaqla müxtəlif məlumat növlərini effektiv şəkildə idarə edə bilər [3]. Bu çeviklik borcalan məlumatlarının, maliyyə əməliyyatlarının və xarici iqtisadi göstəricilərin daha əhatəli təhlilinə imkan verir.

4. Real vaxtda emal: Bəzi maşın öyrənmə alqoritmləri real vaxt rejimində işləmə qabiliyyətinə malikdir və maliyyə institutlarına kredit qərarlarını sürətlə qəbul etməyə imkan verir. Bu, sürətli cavabların vacib olduğu dinamik maliyyə mühitlərində xüsusilə faydalıdır.

5. Təkmilləşdirilmiş model şərhi: Bəzi maşın öyrənmə modelləri mürəkkəb hesab edilsə də, onların şərhini yaxşılaşdırmaq üçün səylər göstərilir. Qabaqcıl texnikalar və modeli şərh etmək vasitələri maliyyə analitiklərinə kredit riskinin proqnozlaşdırılmasına təsir edən amilləri anlamağa kömək edir, qərarların qəbulunda şəffaflığı təmin edir.

6. Davamlı öyrənmə və təkmilləşdirmə: Maşın öyrənmə modelləri yeni məlumatlardan öyrənə və zaman keçdikcə öz proqnoz göstəricilərini davamlı olaraq təkmilləşdirə bilər [2]. Bu uyğunlaşma modellərin dinamik maliyyə mühitlərində effektiv qalmasını təmin edir.

Ədəbiyyat

1. Programme in Biotechnology, Engineering and Chemical Technology, Universidad Pablo de Olavide, 41013 Sevilla, Spain.
2. Bao, W.; Lianju, N.; Yue, K. Integration of unsupervised and supervised machine learning algorithms for credit risk assessment. Expert Syst. Appl. 2019, 128, 301-315.
3. Feng, Y. Bank Green Credit Risk Assessment and Management by Mobile Computing and Machine Learning Neural Network under the Efficient Wireless Communication. Wireless Communications and Mobile Computing 2022.
4. Haro, B.; Ortiz, C.; Armas, J. Predictive Model for the Evaluation of Credit Risk in Banking Entities Based on Machine Learning. In Proceedings of the Brazilian Technology Symposium. Springer, 2018, pp. 605-612.
5. https://medium.com/swlh/loan-approval-using-machine-learning-algorithm-1a2bc2f61af9

РЕЗЮМЕ
ПРОГНОЗИРОВАНИЕ КРЕДИТНОГО РИСКА С ИСПОЛЬЗОВАНИЕМ АЛГОРИТМОВ МАШИННОГО ОБУЧЕНИЯ

Гасангулиева М.М., Мамедзаде Э.Ф.

Ключевые слова: *прогнозирование кредитного риска, алгоритмы машинного обучения, точность прогнозирования, управление рисками, анализ данных, предиктивная аналитика.*

Прогнозирование кредитного риска является важным аспектом современных финансовых услуг, влияющим на принятие решений по кредитованию и управление портфелем. Данное исследование исследует оценку кредитного риска с использованием алгоритмов машинного обучения для повышения точности прогнозирования и стратегий управления рисками. Результаты показывают, что алгоритмы машинного обучения проявляют более высокие возможности прогнозирования по сравнению с традиционными методами, выявляя сложные шаблоны и тонкие взаимосвязи в сложных образцах и данных. Это исследование предоставляет практические инсайты для финансовых институтов, стремящихся использовать предиктивную аналитику, предлагая развивающийся взгляд на управление кредитным риском.

SUMMARY
PREDICTION OF CREDIT RISK USING MACHINE LEARNING ALGORITHMS
Gasangulieva M.M., Mamedzade E.F.

Keywords: *credit risk prediction, machine learning algorithms, forecasting accuracy, risk management, data analysis, predictive analytics.*

The prediction of credit risk is a crucial aspect of modern financial services that influences lending decisions and portfolio management. This research explores the assessment of credit risk using machine learning algorithms to enhance forecasting accuracy and risk management strategies. The results indicate that machine learning algorithms demonstrate superior forecasting capabilities compared to traditional methods, capturing complex patterns and nuanced relationships within complex samples and data. This research provides practical insights for financial institutions looking to leverage predictive analytics, offering an evolving perspective on credit risk management.

AGENT ORİYENTASİYALI ƏLAVƏNİN İŞLƏNMƏ PROSESİNİN TEXNOLOJİ SXEMİNİN İŞLƏNMƏSİ

Həsənli Rəşad Arzuman oğlu, İbrahimova Pərvanə Əsgər qızı

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
pervane-ibrahimova@bk.ru

Açar sözlər: *CAD sistem, agent, multiagent sistem, layihələndirmə, texnoloji sxem.*

İşdə avtomatlaşdırılmış layihələndirmədə agentyönümlü əlavələrin işlənmə sisteminin arxitektuirasının təyini məsələlərinə baxılır. Agentyönümlü texnologiyanın avtomatlaşdırılmış layihələndirmə prosesinə tətbiqinin aktuallığı əsaslandırılır və agent oriyentasiyalı əlavələrin işlənmə prosesinin texnoloji sxemi təklif olunur.

CAD sistemlərin layihələndirmə prosesinə tətbiqinin intellektuallığının yüksəldilməsi məqsədi ilə süni intellekt elementlərinin, o cümlədən agent texnologiyasının layihələındirmə prosesinə tətbiqi hazırda çox aktualdır və bu baxımdan işdə avtomatlaşdırılmış layihələndirmə prosesinə agent texnologiyasının tətbiqi məsələlərinə baxılır. İntellektual agent problematikası və multiagent sistemlər 40 illik tarixə malikdir və paylanmış süni intellekt, məsələlərin paylanmış həlləri və paralel intellekt işləri çərçivəsində alınmış nəticələrə əsaslanaraq formalaşmışdır [1, 2]. Son illər isə o, müstəqil tədqiqat oblastına çevrilmişdir və intellektual informasiya texnologiyası çərçivəsində aparıcı istiqamətlərdən birinə çevrilməyə cəhd edir. Bu tematika işlərin spektri çox genişdir. Kompyuter şəbəkələri və açıq sistemlər oblastında, süni intellekt və informasiya texnologiyaları və bir sıra başqa tədqiqatlarda nailiyyətlər əldə edilir. Nəticələr isə imkan verir ki, alınan həllərin yeni keyfiyyətlərindən danışılsın.

İlk işlərdə agentlər sisteminin analizi, spesifikasiyası, layihələndirilməsi və reallaşdırılması məsələlərinə baxılır. Bu səviyyədə, agentlərin nəzəriyyəsi, arxitekturası və proqram realizasiyası üçün dillər sahəsində aktiv işlər aparılmışdır. Təqribən 1990-cı illərdə aydın oldu ki, proqram agentlərini geniş spektrdə tətbiq üçün istifadə etmək olar.

Proqram agentlərinin, miltiagent sistemlərin və ümumi halda agent texnologiyasının nə üçün zəruri və səmərəli olmasının bir sıra səbəbləri vardır. Onlardan ən əsası ondan ibarətdir ki, agentlər müstəqildirlər və müxtəlif məsələlərin həlli zamanı fon rejimdə yerinə yetirilə bilərlər. Nisbətən vacib məsələlərə məlumatın toplanması, onun filtirasiyası və həll qəbulu istifadəsi də aiddir.

Beləliklə, proqram agentlərinin əsas ideyası - səlahiyyətli nümayəndə kimi çıxış etməkdir. Bu ideyanı reallaşdırmaq üçün agent öz istifadəçisinə, uyğun tapşırıq almaq və alınmış nəticə ilə qayıtmaq üçün qarşılıqlı təsir göstərmək imkanına malik olmalıdır.

Agent oriyentasiyalı sistemlər qurularkən iki yanaşmanı qeyd etmək olar: vahid avtonom agentin qurulması və ya multiagent sistemin işlənməsi [3,4]. Agent-oriyentasiyalı əlavələrin layihələndirilməsi və reallaşdırılması prosesinin ümumi sxemi şəkildə verilmişdir.

Bu alətlər multiagent sistemin predmet oblastı və təşkili üçün vəsaitlərə, agentlik arxitekturası spesifikasiyası və agentlərin özünü aparması vəsaitlərinə, eyni zamanda agent əlavələrinin sazlanma və təşkil edilən agentlərin özlərini aparmasının izlənməsi vəsaitlərinə malikdirlər.



Şəkil. Agent oriyentasiyalı əlavənin işlənmə prosesinin texnoloji sxemi.

Ədəbiyyat

1. Hüseynov A.H., Baloğlanov Ə.H. Çevik istehsal sisteminin modullarının çoxagentli texnologiya ilə layihələndirilməsinin analizi, // SDU, Elmi xəbərlər, III cild, № 1,Sumqayıt, 2003, səh. 86-89.
2. Hüseynov A.H. Çevik istehsal sisremlərinin agent yönümlü layihələndirilməsinin bəzi məsələləri. // Xəbərlər, AMEA, XIII cild, № 3, Bakı, 2003, səh. 203-208.
3. Huseynov A.H. Informing knowledge control of computing design of flexible manufacturing system// Journal of Modern Technology and Engineering, vol.1, №1, 2016, pp.39-43.
4. Huseynov A.H. Agent technology at computing option of flexible manufacture system element and composed structure // Advanced Mathematical Models and Applications, vol.1, №1, 2016, pp.20-27.

РЕЗЮМЕ

РАЗРАБОТКА ТЕХНОЛОГИЧЕСКОЙ СХЕМЫ РАЗРАБОТКИ АГЕНТНО-ОРИЕНТИРОВАННОГО ПРОЦЕССА РАЗРАБОТКИ НАДСТРОЙКИ

Гасанлы Р.А., Ибрагимова П.А.

Ключевые слова: *САПР, агент, мультиагентная система, проектирование, технологическая схема.*

В работе рассмотрены вопросы определения архитектуры системы разработки агентно-ориентированных дополнений в автоматизированном проектировании. Обоснована актуальность применения агентно-ориентированной технологии в процессе автоматизированного проектирования и предложена технологическая схема процесса разработки агентно-ориентированных дополнений.

SUMMARY

DEVELOPMENT OF THE TECHNOLOGY SCHEME OF THE AGENT-ORIENTED ADD-ON DEVELOPMENT PROCESS

Hasanli R.A., Ibrahimova P.A.

Keywords: *CAD system, agent, multiagent system, design, technological scheme.*

In the work, the issues of determining the architecture of the development system of agent-oriented additions in automated design are considered. The relevance of the application of agent-oriented technology to the automated design process is justified and a technology scheme of the development process of agent-oriented additions is proposed.

YENİ NƏSİL COĞRAFİ İNFORMASİYA SİSTEMLƏRİNDƏ SÜNİ İNTELLEKT

Həsənova Baba-zadə Rəna Ələkbər qızı

Torpaqşünaslıq və Aqrokimya İnstitutu, Bakı, Azərbaycan
rana.hasanova.babazade@gmail.com

Açar sözlər: *Coğrafi WEB xidmətləri, 3D CİS, Coğrafi verilənlər portalı,, Süni intellekt, 3D vizuallaşdırma.*

İnformasiya əsrində yaşasaq da, qurum və təşkilatlar istehsal etdikləri və əldə etdikləri məlumatları təcrid məntiqi çərçivəsində saxlayırlar. Məkan Məlumatları İnfrastrukturlarının səmərəli istifadə edildiyi XXI əsrdə məlumatların idarə edilməsində daha effektiv yollar axtarılır. AI GIS, süni intellekt texnologiyasını özündə birləşdirən məkan məlumatlarının işlənməsi və təhlili, müxtəlif GIS funksiyaları ilə süni intellekt texnologiyasının birləşməsidir. Məqalədə Süni intellekt, Coğrafi İnformasiya Sistemlərinə baxış keçirilmiş, eyni zamanda AI və CIS-in qarşılıqlı əlaqəsi, müasir dövrdə AI-nin üstünlüyü kimi məsələlər müzakirə edilmişdir.

Yeni sənaye dövrünün əsas və zəruri elm sahəsi Süni İntellekt və ya Data elmi hesab oluna bilər. Müasir Süni İntellekt metodları yeni biznes imkanlarının yaranması, dövlət və özəl qurumların effektiv idarə edilməsi və həmçinin məkansal məlumatların idarə olunması istiqamətində geniş imkanlar vəd edir.

Coğrafi İnformasiya Sistemi (CİS) - telekommunikasiya vasitəsilə məkan məlumatlarının toplanılması, saxlanılması, dəyişdirilməsi, işlənilməsi, axtarışı, ötürülməsi, yayımlanması, əks etdirilməsi və digər proseslər üçün təchizat-proqram və verilənlər bazasından ibarət sistemdir [1]. Müasir dövrdə ölçmə nəticələrinin emalı prosesini proqram təminatları olmadan təsəvvür etmək mümkün deyil. Hal hazırda coğrafiyada, xəritəçilikdə, topoqrafiyada ən çox istifadə edilən proqramlardan biri ArcGIS hesab olunur. ArcGIS coğrafi məlumat bazasına əsaslanaraq yer əsaslı analitikanı müxtəlif biznes proseslərinə inteqrasiya etmək üçün fərqli funksionallıq və uyğunlaşa bilən lisenziyalaşdırma variantları təklif edən güclü coğrafi proqram platformasıdır.

Süni intellekt - əslində özü bir gücdür. CİS ilə birləşdikdə isə daha çox şey edə bilər. Süni intellektin məkan intellekti ilə birləşməsi bizim süni intellektin vədini necə həyata keçirə biləcəyimizi göstərir: vaxta qənaət, məlumat və görüntülərdən dəyər qazanmaq, məlumatlı qərarları daha tez qəbul etmək.

Geoməkan Süni intellekt (Geo Aİ) dediyimiz texnologiya, coğrafi informasiya sistemləri vasitəsilə əldə edilən məlumatlara heç bir insan müdaxiləsi olmadan, süni intellektdən istifadə edərək mürəkkəb alqoritmləri mənalandıran, təhlil edən, proqnozlar verən və lazımi müdaxilələri edən coğrafi komponentə əsaslanan yeni nəsil maşın öyrənmə texnologiyasıdır.

Biznesin planlaşdırılması, resurs bölgüsü, tələb və təklif balansının hesablanması, tədarük zəncirlərinin səmərəliliyinin monitorinqi və mənfəəti artırmaq üçün xərcləri optimallaşdıracaq qərarlar qəbul etmək Geo Aİ şirkətlərə kömək etdiyi kritik məqamlardır. Geo Aİ maliyyə, logistika, pərakəndə satış kimi bir çox sektorda və hətta ağıllı şəhərlər kimi ictimai layihələrdə istifadə edilə bilər. Biznes və hökumət liderləri qabaqcıl texnologiyadan istifadə etmək zərurəti və ya əks halda geridə qalma riskini hiss edirlər. Süni intellektin coğrafi informasiya sistemi (CİS) texnologiyası ilə birləşməsi əməliyyatlara real dünya kontekstini çatdırır. [3].

Məkan İnformasiya Sistemlərinin üfüqi texnologiya olduğu üçün bir çox sektorlar və intellektual müstəvilərlə kəsişmələr yaradır [2]. İnformasiya və Kommunikasiya Texnologiyaları (İKT) layihəsi olan Məkan İnformasiya Sistemi (CMB, Geoməkan İnformasiya Sistemi, CİS) layihəsinin məqsədi məkan semantik qarşılıqlı fəaliyyətin təmin edilməsi və qəbul edilən məlumatın paylaşılması (bilik mübadiləsi), müəyyən edilmiş məlumatların inteqrasiyasını əhatə edir. Hazırkı XXI əsrdə müxtəlif məkan, zaman və spektral ayırdetmə qabiliyyətinə malik çoxlu güclü platformalar və sensorlar hazırlanır və yer kürəsi, onun üzərindəki təbii və süni obyektlər haqqında davamlı olaraq məlumat toplayır.

Məkan İnformasiya Sistemləri mövzusunda iki növ tədqiqat var.

1.Tədqiqat və layihələrdə CİS texnologiyasından bir vasitə kimi istifadə edilməsi (CİS ilə tədqiqat).

2.CİS texnologiyasını inkişaf etdirmək üçün CİS-in özünü bir məqsəd qəbul etməkdir (CİS-də tədqiqat).

Məkan məlumatlarının mürəkkəbliyi 3D və müxtəlif detal səviyyələrində (Level of Details, LOD) modelləşdirmə və vizuallaşdırmanın əhəmiyyətini artırır. 3D məlumat modelləşdirməsində istifadə edilə bilən ən yaxşı məkan aləti "Open Geospatail Consortium (OGC)" tərəfindən hazırlanmış GML proqramı olan CityGML dilidir. CityGML obyektlərin 3D həndəsi, topoloji, semantik və görünüş xassələrini

konfiqurasiya edə bilər. CityGML verilənlər bazasında obyektin təsviri, təhlili və vizuallaşdırılması eyni vaxtda müxtəlif qətnamələrin görünüşləri nəzərə alınmaqla müxtəlif detal səviyyələrində həyata keçirilə bilər [4].

Bəzi şəhərlər CityGML daxil olmaqla müxtəlif formatlarda öz 3D məlumatlarına girişi təmin edir. Məsələn, Berlin şəhəri maraq sahəsinin interaktiv seçilməsinə imkan verən veb-əsaslı proqram vasitəsilə yükləmək üçün Level of Detail 2 (LOD2) binalarını təmin edir. Hal-hazırda Hollandiya, Almaniya, Fransa, Malayziya, Əbu-Dabi və digər ölkələr öz Milli Məkan Məlumatları İnfrastrukturunun tərkib hissəsi kimi 3D binaları saxlamaq və yaymaq üçün CityGML-dən istifadə edirlər [5].



Şəkil. CityGML ilə ərazinin 3D modelinin hazırlanması prosesi

Nəticə olaraq demək olar ki, yeni nəsil coğrafi informasiya sistemləri və süni intellektin birgə işlədiyi sahələr artıq daha da genişlənir və bu da coğrafi məlumatların idarə olunması və təhlilində daha inkişaf etmiş və effektiv üsulların tətbiq olunmasına nail olmağa kömək edir.

Ədəbiyyat

1. Hacıyeva R. C. , Xəlilov B. M. Coğrafi informasiya Sistemləri, Bakı, 2017
2. Tomlinson, R.F., Thinking about GIS: Geographic Information System Planning for Managers, ESRI, Inc., 2007
3. https://www.esri.com/en-us/artificial-intelligence/overview
4. https://cbs.csb.gov.tr/
5. https://www.esri.com/arcgis-blog/products/arcgis/3d-gis/citygmlbuildingstoi3s/

РЕЗЮМЕ
ИСКУССТВЕННЫЙ ИНТЕЛЛЕКТ В ГЕОГРАФИЧЕСКИХ ИНФОРМАЦИОННЫХ СИСТЕМАХ НОВОГО ПОКОЛЕНИЯ

Гасанова Баба-заде Р.А.

***Ключевые слова**: геопространственные веб-сервисы, 3D ГИС, порталы географических данных, искусственный интеллект, 3D-визуализация.*

И хотя мы живем в эпоху информации, организации сохраняют и управляют информацией, которую они производят и получают, в рамках логики изоляции. В XXI веке, где эффективно используются инфраструктуры пространственной информации, ищутся более эффективные способы управления информацией. AI GIS объединяет технологию искусственного интеллекта с обработкой и анализом пространственной информации, объединяя различные функции ГИС с технологией искусственного интеллекта. В статье рассматривается взгляд на искусственный интеллект в контексте географических информационных систем, обсуждается взаимосвязь между искусственным интеллектом и ГИС, а также обсуждаются современные вопросы, такие как превосходство искусственного интеллекта.

SUMMARY
ARTIFICIAL INTELLIGENCE IN NEXT GENERATION GEOGRAPHIC INFORMATION SYSTEMS

Hasanova Baba-zadeh R.A.

***Keywords**: geospatial WEB services. 3D GIS, geographical data portals, artificial intelligence, 3D visualization.*

Although we live in the era of information, organizations store and manage the information they produce and acquire within the framework of isolation logic. In the 21st century, where Spatial Information Infrastructures are efficiently utilized, there is a search for more effective ways to manage information AI GIS combines artificial intelligence technology with the processing and analysis of spatial information, merging various GIS functions with artificial intelligence technology. The article provides an overview of Artificial Intelligence in relation to Geographic Information Systems, discussing the mutual relationship between AI and GIS, as well as contemporary issues such as the superiority of AI.

TENSORFLOW VƏ KERAS İSTİFADƏ EDİLƏN ƏLYAZI NÖMRƏLƏRİN TANINMASI ÜÇÜN SEYR ŞƏBƏKƏSİNİN İNKİŞAF EDİLMƏSİ VƏ TƏLİMİ

Heydarov Polad Şahmalı oğlu, Hüseynli İsmayıl Əhməd oğlu

Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı, Azərbaycan
mezahir@bk.ru

Açar sözlər: *neyron şəbəkələri, öyrənmə alqoritmləri, MNIST verilənlər bazası, TENSORFLOW, KERAS.*

İş Python proqram mühitində üç qatlı neyron şəbəkəsinin yaradılması prosesini araşdırır. Neyron şəbəkə MNIST əsasında hazırlanır və əldə edilən nəticələr MNIST nəzarət bazasında qiymətləndirilir.

Məruzə materialında TensorFlow və Keras kitabxanalarından istifadə edərək əl ilə yazılmış rəqəmlərin tanınması üçün neyron şəbəkə yaratmaq, öyrətmək və qiymətləndirmək addımlarına baxacağıq. Biz 0-dan 9-a qədər əl ilə yazılmış rəqəmlərin şəkillərini ehtiva edən məşhur MNIST verilənlər bazasından istifadə edəcəyik. Bu işi yerinə yetirmək üçün neyron şəbəkələrlə işləmək və MNIST məlumatlarını yükləmək üçün lazım olan TensorFlow, Keras kitabxanaları və əlaqəli modullar əvvəlcə Python-a idxal olunur.

Mühit;

```
import tensorflow as tf
from tensorflow.keras import models, layers
from tensorflow.keras.datasets import mnist
from tensorflow.keras.utils import to_categorical
```

1. Məlumatın yüklənməsi və əvvəlcədən işlənməsi;

Neyron şəbəkənin yaradılmasında ilk addım məlumatların yüklənməsidir. Bu halda biz təlim və sınaq şəkillərini və onların etiketlərini əldə etmək üçün mnist.load_data() funksiyasından istifadə edirik. Sonra, şəkilləri bir ölçülü massivlərə çevirərək və onların dəyərlərini 0-dan 1-ə qədər normallaşdırmaqla məlumatları əvvəlcədən emal edirik.

MNIST Datası yüklənir

```
(train_images, train_labels), (test_images, test_labels) = mnist.load_data()
```

Məlumatların Əvvəlcədən Emalı

```
train_images = train_images.reshape((60000, 28 * 28)).astype('float32') / 255
test_images = test_images.reshape((10000, 28 * 28)).astype('float32') / 255
train_labels = to_categorical(train_labels)
test_labels = to_categorical(test_labels)
```

2. Neyron şəbəkəsinin yaradılması;

Sonra neyron şəbəkə arxitekturasının yaradılmasına davam edirik. Bizim vəziyyətimizdə, hər bir təbəqə üçün Sigmoid aktivləşdirmə funksiyası olan üç qatlı tam əlaqəli modeldən istifadə edirik. Birinci təbəqədə 64 neyron, ikinci təbəqədə 32 neyron, üçüncü təbəqədə isə 10 neyron istifadə olunur:

Modelin yaradılması

```
model = models.Sequential()
model.add(layers.Dense(64, activation='sigmoid', input_shape=(28 * 28,)))
model.add(layers.Dense(32, activation='sigmoid'))
model.add(layers.Dense(10, activation='softmax'))
```

3. Modelin tərtibi

Sonra, modelin performansını qiymətləndirmək üçün optimallaşdırıcı, zərər funksiyası və metrikanı göstərərək modeli tərtib edirik. Alqoritm stoxastik gradient enişindən istifadə edir.

Modelin tərtibi

```
model.compile(optimizer='sgd',  # Стохастический градиентный спуск
loss='categorical_crossentropy',  # Категориальная кросс-энтропия
metrics=['accuracy'])
```

4. Model təlimi

Bundan sonra model məşq üçün hazırdır. Dövrlərin sayını, partiyanın ölçüsünü və doğrulama məlumatlarını təyin edən fit() funksiyasından istifadə edirik. Bu nümunədə cəmi 10 dövr istifadə olunur.

Model təlimi;

model.fit(train_images, train_labels, epochs=10, batch_size=64, validation_data=(test_images, test_labels))

Modelin qiymətləndirilməsi

Nəhayət, evaluatefunksiyasından istifadə edərək, test məlumatlarında modelin performansını qiymətləndiririk.

Test məlumatları üzrə model qiymətləndirməsi

test_loss, test_acc = model.evaluate(test_images, test_labels)

print(f"Точность на тестовых данных: {test_acc}")

5. Nəticə;

MNIST əsasında tam qoşulmuş üç qatlı neyron şəbəkəsinin hazırlanması üzrə eksperiment və MNIST bazasının sınaq dəsti üzərində sınaqdan keçirilməsi nəticəsində aşağıdakı nəticə əldə edilmişdir. 1000 rəqəmsal simvoldan ibarət nəzarət test bazasında 9625 simvol düzgün şəkildə tanındı. Bu, düzgün tanınan şəkillərin 96%-ni təşkil edib. Bu nəticə üç qatlı tam qoşulmuş neyron şəbəkəsi üçün məqbuldur.

6. Nəticə.

Bu yazıda biz əl ilə yazılmış rəqəmlərin tanınması üçün neyron şəbəkənin yaradılması, öyrədilməsi və qiymətləndirilməsinin bütün prosesini əhatə etdik. Biz TensorFlow və Keras kitabxanalarından istifadə edərək neyron şəbəkələrin inkişaf etdirilməsi prosesini geniş tərtibatçılar üçün daha əlçatan etdik. Nəticədə, nömrələrin düzgün tanınmasının nəticəsi MNIST nəzarət məlumat bazasında sınaqdan keçirilmişlərin 96% -ni təşkil etdi.

Ədəbiyyat

1. Haykin, S. (1994). Neural Networks: A Comprehensive Foundation.
2. Bishop, C. M. (2006). Pattern Recognition and Machine Learning.
3. Zurada, J. M. (1992). Introduction to Artificial Neural Systems.

РЕЗЮМЕ

РАЗРАБОТКА И ОБУЧЕНИЕ СЕТИ НАБЛЮДЕНИЯ ДЛЯ РАСПОЗНАВАНИЯ РУКОПИСНЫХ НОМЕРОВ С ИСПОЛЬЗОВАНИЕМ TENSORFLOW И KERAS

Гейдаров П.Ш., Гусейнли И.А.

Ключевые слова: *нейронные сети, алгоритмы обучения, база данных MNIST, TENSORFLOW, KERAS.*

В работе исследуется процесс создания трехслойной нейронной сети в среде программирования Python. Нейронная сеть разрабатывается на основе MNIST, а полученные результаты оцениваются на базе управления MNIST.

SUMMARY

DEVELOPMENT AND TRAINING OF A SUPERVISION NETWORK FOR HANDWRITTEN NUMBER RECOGNITION USING TENSORFLOW AND KERAS

Heydarov P.Sh., Huseynli I.A.

Keywords: *neural networks, learning algorithms, MNIST database, TENSORFLOW, KERAS.*

The work examines the process of creating a three-layer neural network in the Python programming environment. The neural network is developed based on MNIST, and the obtained results are evaluated based on MNIST control.

COMPARISON ANALYSIS OF IMAGE PROCESSING TECHNIQUES FOR CRACK DETECTION

[1] Ibrahımova Ellada Nazım, Safarova [2] Selcan Fatdah, [3] Amiraslanov Bahruz Gurban

[1,2] Azerbaijan State Oil and Industry University, Baku, Azerbaijan
[3] Sumgait State University, Sumgayit, Azerbaijan
[1,2] elladai@inbox.ru, master.selcan.seferova@gmail.com

Keywords*: crack detection, image processing techniques, comparative analysis, safety.*

Cracks in structures can significantly compromise their structural integrity, leading to safety concerns and costly repairs. Detecting cracks at an early stage is crucial to prevent potential affects and ensure the longevity. The study emphasizes the importance of employing advanced image processing methods to accurately identify cracks. Various image processing techniques are available for crack detection, each with distinct advantages and limitations. Five prominent image processing techniques, namely

morphological approach, wavelet transform, minimal path selection, digital image correlation and Otsu methods are compared in this paper. After a thorough comparative analysis, paper concludes the most suitable image processing technique for crack detection based on specific requirements.

Cracks are a frequent type of damage that occurs in engineering structures. It is a whole or partial separation of concrete into parts caused by mechanical or physical processes. They may simply have a visual effect or they may signal serious structural problems or a lack of durability. To prevent this damage, crack detection methods are used, which can be performed manually or automatically. Manual process involves skilled inspectors using surveying instruments and visual examination, but it has limitations, such as difficulty detecting cracks inaccessible areas like dams and monuments.

Crack detection has been the subject of in-depth research, and researchers have offered a number of solutions, ranging from image processing to machine learning techniques. With its simplicity and accuracy, the interest in developing more convenient image-based crack detection techniques is increasing among researchers. The main advantage of using image processing techniques for crack detection is that it is faster and less expensive than manual methods. However, there are limitations to image-based crack detection, such as counting surface noises as cracks, inability to detect the direction of crack propagation accurately, random shape and irregular size of cracks, shading.

Over the last decade, several image processing techniques have been developed by researchers as well as higher digital cameras. From 2015 to 2023 the mostly used techniques are illustrated in figure. Based on paper reviewed, we see that Morphological and Otsu Thresholding techniques are mostly used for detecting cracks.

This paper presents a comparative analysis of five image processing techniques: the Morphological Approach, 2D Otsu Threshold Method, 2D Continuous Wavelet Transform (CWT), Digital Image Correlation (DIC), and the Minimal Path Algorithm. Each technique possesses unique strengths and limitations, making them suitable for specific scenarios.



The Morphological Approach leverages mathematical morphology, utilizing shape properties, connectivity, and curvature evaluation to detect crack-line patterns within noisy environments [1]. Its advantage lies in achieving a low percentage of false detection, attributed to its utilization of shape properties. However, this technique is susceptible to variations in performance based on the size and rotation of the structuring element. The Morphological Approach's proficiency in noisy settings renders it suitable for applications where noise reduction and accurate detection are critical.

The 2D Otsu Threshold Method offers improved segmentation outcomes when applied to noisy images, demonstrating its efficacy in crack detection [2]. It excels in image division tasks and is particularly adept at handling noisy images. However, as the number of classes in the image increases, the computational burden escalates, hindering efficient multi-threshold selection. Consequently, while the 2D Otsu Threshold Method excels in handling noise, its computational complexity makes it less practical for scenarios involving numerous classes.

Employing a 2D Continuous Wavelet Transform (CWT) enhances the contrast between background and crack pixels, aiding in accurate detection [3]. This technique's multi-resolution aspect facilitates effective crack identification, but it introduces additional noise alongside cracks. Consequently, while CWT is valuable for time-frequency transformations and reveals intricate details, its susceptibility to noise may limit its utility in certain cases.



The Digital Image Correlation (DIC) technique capitalizes on rapid developments in digital photography and computer technology to provide highly precise crack detection and deformation analysis [4]. DIC's integration with various measuring techniques, such as radiography, allows for a holistic understanding of material deformation and internal failure. Its versatility and accuracy make it an indispensable tool, particularly in applications requiring real-time observation and analysis.

The Minimal Path Algorithm introduces a geometric constraint through minimal paths that aids in achieving accurate crack segmentation [5]. This technique's strength lies in its ability to establish both global photometric and geometric constraints, ensuring high accuracy. However, the computation of minimal paths in each image can be resource-intensive. Despite this drawback, the Minimal Path Algorithm's ability to efficiently segment complex images with accurate results showcases its potential for diverse applications.

In conclusion, each of the discussed image processing techniques possesses distinct advantages and limitations, using them suitable for specific crack detection scenarios. The Morphological Approach excels in noisy environments, the 2D Otsu Threshold Method handles noise efficiently, CWT reveals detailed information but introduces noise, DIC provides rapid and precise analysis, and the Minimal Path Algorithm offers accurate segmentation at the expense of computational intensity. The method allows a very good characterization of cracks which could be used for future monitoring refinement. In consequence, MPS can identify each crack along the skeleton of any form. The future work will be focus on testing and applying this method on larger surface images. Careful consideration of these attributes is essential for selecting the most appropriate technique based on the specific requirements of each crack detection.

References

1. Wang Pingrang, "Comparison Analysis on Present Image-based Crack Detection Methods in Concrete Structures," p. 4, 2010.
2. Ta Yang Goh, Shafriza Nisha Basah, Haniza Yazid, "Performance analysis of image thresholding: Otsu technique," p. 10, 2018.
3. Sylvie Chambon, Peggy Subirats, Jean Dumoulinaa, "Introduction of a wavelet transform based on 2D matched filter in a Markov Random Field for fine structure extraction: Application on road crack detection," 2009.
4. MING-HSIANG SHIH and WEN-PEI SUNG, "Application of digital image correlation method for analysing crack variation of reinforced concrete beams," p. 19, 2013.
5. Rabih Amhaz, Sylvie Chambon, "A new minimal path selection algorithm for automatic crack detection on pavement images," p. 5, 2014.

XÜLASƏ
ÇATLARIN AŞKARLANMASI ÜÇÜN GÖRÜNTÜ İŞLƏMƏ METODLARININ MÜQAYİSƏLİ TƏHLİLİ

İbrahimova E.N., Safarova S.F., Əmiraslanov B.Q.

Açar sözlər: *çatların təyini, təsvirlərin tanınma metodları, müqayisəli analiz, təhlükəsizlik*

Çatlar struktur bütövlüyünü əhəmiyyətli dərəcədə poza bilər, bu da təhlükəsizliklə bağlı narahatlıqlara və bahalı təmirə səbəb ola bilər. Çatların erkən mərhələdə aşkar edilməsi potensial təsirlərin qarşısını almaq və uzunömürlülüyü təmin etmək üçün çox vacibdir. Tədqiqat çatların dəqiq müəyyən edilməsi üçün qabaqcıl təsvirin işlənməsi üsullarından istifadənin vacibliyini vurğulayır. Çatların aşkarlanması üçün hər birinin fərqli üstünlükləri və məhdudiyyətləri olan müxtəlif təsvir emal üsulları mövcuddur. Məruzə materialında beş görkəmli təsvir emal texnikası, yəni morphological approach, wavelet transform, minimal path selection, digital image correlation and Otsu üsulları müqayisə edilir. Hərtərəfli müqayisəli təhlildən sonra tezis xüsusi tələblərə əsaslanaraq çatların aşkarlanması üçün ən uyğun təsvirin işlənməsi texnikasına yekun vurur.

РЕЗЮМЕ
СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ МЕТОДОВ ОБРАБОТКИ ИЗОБРАЖЕНИЙ ДЛЯ ОБНАРУЖЕНИЯ ТРЕЩИН
Ибрагимова Е.Н., Сафарова С.Ф., Амирасланов Б.Г.

Ключевые слова: *определение трещин, методы распознавания изображений, сравнительный анализ, безопасность.*

Трещины в конструкциях могут значительно нарушить их структурную целостность, что приводит к проблемам безопасности и дорогостоящему ремонту. Обнаружение трещин на ранней стадии имеет решающее значение для предотвращения потенциальных последствий и обеспечения долговечности. В исследовании подчеркивается важность использования передовых методов обработки изображений для точной идентификации трещин. Для обнаружения трещин доступны различные методы обработки изображений, каждый из которых имеет свои преимущества и ограничения. В данной статье сравниваются пять известных методов обработки изображений, а именно морфологический подход, вейвлет-преобразование, выбор минимального пути, цифровая корреляция изображений и методы Otsu. После тщательного сравнительного анализа в статье делается вывод о наиболее подходящем методе обработки изображений для обнаружения трещин, основанном на конкретных требованиях.

TORPAQ SÜRÜŞMƏSİNİN ƏVVƏLCƏDƏN AŞKARLANMASI ÜÇÜN MONİTORİNQ SİSTEMİ

[1,2]İsayev Məzahir Məhəmməd oğlu, [2]Qurbanov Məcid Həsən oğlu, [3]Mirzə Rəvan Gündüz oğlu

[1,2]İdarəetmə Sistemləri İnstitutu, Bakı, Azərbaycan
[3]Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı, Azərbaycan
mezahir@bk.ru

Açar sözlər: *Torpaq, sürüşməsi, qrut suları, təyin, monitorinq, sistem.*

Torpaq sürüşmələrinin yaranma səbəbləri araşdırılmış və onun əvvəlcədən aşkarlanması üçün intellektual monitorinq sisteminin işlənməsi məsələlərinə baxılmışdır. Yeraltı sularının bir yerə toplanması, hərəkət dinamikası və digər amillər tədqiq edilmiş, əsas təsir parametrlərinin ölçülməsi, qiymətlərinə nəzarət və prosesin idarə olunması məsələlərinə baxılmışdır.

Torpaq sürüşmələrini yaradan amillər, onların əmələ gəlmə və inkişaf etməsinin səbəbləri, əsasən yamaclarda sürüşmə prosesinin daha intensiv olmasını əsaslandırır. Eyni zamanda, süxurlarda suyun miqdarından asılı olaraq onların öz dayanıqlığını itirməsi ilə əlaqədardır. Dayanıqlığın pozulması, yamac meylinin artması (yamacın meyli onun aşağı hissəsinin su ilə yuyulmasından asılı olaraq artır), yamacın çöküntülərlə ağırlaşması və süxur müvazinətinin azalması nəticəsində baş verir.

Azərbaycanın ərazisində sürüşmə prosesləri əsasən Böyük Qafqazın cənub-şərq qurtaracağı, şimal-şərq, cənub yamacları, Kiçik Qafqaz və Dağlıq Talış bölgələrində daha geniş inkişaf etmişdir. Bütün bunlara səbəb dağlıq ərazilərdə yağıntıların çox olması və klimatın kəskin dəyişməsidir. Bunların nəticəsində yeraltı su axınlarının, eyni zamanda qrunt sularının miqdarı kəskin artır ki, bu da torpaq sürüşmələrinə səbəb olur.

Torpaq sürüşmələri insanların həyatında fəlakətlərə gətirib çıxarır, tikililərin uçub dağılmasına, hətta torpaq altında qalmasına səbəb olur. Odur ki, torpaq sürüşməsi təhlükəsi və onun qarşısının alınması məsələləri dünya alimlərini hər zaman düşündürmüş, bu problemin həlli yollarını tapmağa vadar etmişdir. Odur ki, məqalədə belə bir məsələyə, sürüşmə zonalarında aktivliyin aşkarlanması və qiymətləndirilməsi üçün monitorinq sisteminin yaradılması və tətbiqi məsələsinə baxılmışdır.

Torpaq sürüşmələri yaratması amilləri - Qrunt sularının torpaq sürüşmələri yaratması amilləri:

- 400 ha və daha çox sahəni əhatə etdiyi halda - nəhəng;
- 200- 400 ha sahəni əhatə etdiyi halda - çox böyük;
- 100-200 ha sahəni əhatə etdiyi halda - böyük;
- 50-100 hasahəni əhatə etdiyi halda - orta;
- 5-50 hasahəni əhatə etdiyi halda - kiçik;
- 5 ha sahəni əhatə etdiyi halda - çox kiçik.

Sürüşmənin istiqamətinin təyini:

Sürüşmənin dabanı, sürüşmə kütləsi, sürüşmənin qırılma qaşı, asekvent sürüşmələr, konsekvent sürüşmələr, insekvent sürüşmələr, yeni sürüşmələr və köhnə sürüşmələr.

Sürüşmə proseslərinin inkişafı və fəallaşmasına təsir edən amillər: təbii və texnogen amillərdir.

Torpaq sürüşməsinin tədqiqi:

- Sulu təbəqələrin növlərinin təyin edilməsi;

- Təbii və antropoloji mənşəli sulu təbəqənin fəzasının qiymətləndirilməsi;
- Məsaməlilik və nüfuzetmə qabiliyyəti kəmiyyətlərinin və hidravlik xüsusiyyətlərin paylanmasının qiymətləndirilməsi;
- Yeraltı sularla dolma və ya axınına kömək edən və ya çətinlik törədən səbəblərin öyrənilməsi;
- Yeraltı suların müxtəlif mənbələri haqda məlumatların təsdiqlənməsi üçün verilənlərin inteqrasiyası.

Monitorinq sisteminin üzərinə qoyulan tələblər.

- Yeraltı suların aşkarlanması və miqdarının təyini üçün üsul və vasitələrin seçilməsi;
- Su səviyyəsinə avtomatlaşdırılmış nəzarət sisteminin qutulması;
- Su miqdarının ölçmə sisteminin işlənməsi;
- Ölçmə nəticələri əsasında monitorinqin nəticələrinin emalı;
-Səmərəli idarəetmənin təşkili.

Qrunt sularının səviyəsinə avtomatlaşdırılmış nəzarət-ölçmə sistemi.

Qeyd etmək lazımdır ki, yeraltı su kütlələrinin miqdarının təyini üçün drenaj quyularının qazılması və

həmin quyulara ölçmələrin həyata keçirilməsi daha səmərəlidir. Çün ki, eyni zamanda bu quyular vasitəsilə lokal ərazilərdə su kütlələrinin bir yerə toplanması, ölçülməsi və nasos stansiyaları vasitəsilə kənarlaşdırılması ən doğru həll yoludur.

Avtomatlaşdırılmış nəzarət-ölçmə və idarəetmə sisteminin qurulma prinsipi və arxitekturası nəzarət obyektinin xüsusiyyətlərindən, yəni quyuların "məhsuldarlığından" asılı olacaqdır. Hər bir quyuda toplanan su səviyyəsinə fasiləsiz nəzarət olunmalı, ölçülməli və qoyulan həddə çatdıqda boşaldılmalıdır. Bununla sürüşmə ərazisində torpağın alt qatına toplanan və sürüşmə yaradan su laylarının (yastıqların) qarşısı alınmış olur.

Səviyyə ölçmə vasitələri.

- Üzən üzgəcli səviyyəölçən - maye səthində üzən üzgəcin vəziyyətinin izlənilməsinə əsaslanır;
- Titrəyişli səviyyəölçən - mexaniki rezonatorun tezliyinin mühitdə dəyişməsinə əsaslanır;
- Elektrik səviyyəölçən - səviyyədən asılı olaraq elektrik parametrinin qiyməti dəyişir;

vizual səviyyəölçənlər;

- Batan üzgəcli səviyyəölçən - bir hissəsi mayeyə batan cismin çəkisinin ölçülməsinə əsaslanır;
- Hidrostatik - maye sütununun hidrostatik təzyiqinin ölçülməsinə əsaslanır;
- Radar və dalğaötürücülü - səthdən yüksəktezlikli elektromaqnit siqnalların əksolunması prinsipinə əsaslanır;
- Radioizotop - nüvə şüalanması selinin intensivliyinin mühitdə zəifləməsinə əsaslanır;
- Ultrasəs - səthdən ultrasəs dalğalarının əksolunması prinsipinə əsaslanır;
- Optik - səthdən işıq selinin qayıtması və sınmasına, səviyyəyə uyğun işığın intensivliyinin dəyişməsinə əsaslanır.

Səviyyəölçənləri aşağıdakı kimi də təsnifatlandırmaq olar:

- Səviyyəni fasiləsiz izləyən səviyyəölçənlər (fasiləsiz ölçmə);
- Səviyyənin diskret qiymətlərini siqnallayan səviyyəölçənlər (diskret nəzarət).

Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, quyularda suyun səviyyəsinə avtomatik nəzarət üçün işlənmiş sistemin tərkibində ulturasəs prinsipli radarlayıcı səviyyəölçənlərdən istifadə daha səmərəlidir [].



Şəkil 1. Suyun səviyyəsinin ölçmə qurğusu

Ümumi halda quyuya dolan və ondan boşaldılan mayenin miqdarından asılı olaraq quyudakı suyun həcmi aşağıdakı düsturla hesablanır:

$$V = V_0 + \frac{1}{\rho}[\int Q_{dm}(t)dt - \int Q_{bm}(t)dt];$$

Quyudakı suyun səviyyəsi isə aşağıdakı düsturla hesablanır:

$$H = H_0 + \frac{1}{\rho S}[\int Q_{dm}(t)dt - \int Q_{bm}(t)dt];$$

burada, H_0 - t=0 anında quyudakı suyun səviyyəsidir.

Radarlama üsulu ilə maye səthindən uzaqlığı təyin etmək üçün aşağıdakı düsrurdan istifadə olunur:

$$t = \frac{2 \cdot r}{c};$$

burada, t - səs dalğasının radar qurğusundan obyektə (suyun səthinə) gedib-qayıtma zamandır, san.;

r - radar qurğusundan mayenin səthinə (obyektə) qədər olan məsafə, km;

c - səs dalğasının mühitdə yayılma sürətidir (c=343.2 metr/saniyə və ya təxminən 1235.5 km/saat).

Bu düsturla birincili radarlamada radardan obyektə qədər olan məsafə təyin edilir:

$$r = \frac{c \cdot t}{2};$$

İkincili radarlamada isə

$$t = \frac{2 \cdot r}{c} + t_{ay};$$

burada, t_{ay} - dalğanın cavablayıcıda yubandığı zamandır, başqa sözlə aparat yubatması da adlandırılır.

Radarlayıcı qurğu və səviyyənin ölçülməsi şəkil 2-də, ölçmə prosesinin texnoloji sxemi isə şəkil 3-də verilmişdir:



Şəkil 2. Radarlamayla səviyyənin ölçülməsi



Şəkil 3. Ölçmə prosesinin texnoloji sxemi

Nəticə. Yeraltı qrunt sularının səviyyələrinə avtomatlaşdırılmış nəzarət-ölçmə və idarəetmə sisteminin layihələndirilməsinin və tətbiqinin əsas prinsipləri işlənilmişdir. Bu sistemin tətbiqi ilə quyularda toplanan su kütlələrinin miqdarı yüksək dəqiqliklə ölçülür, səviyyələrə operativ nəzarət tam avtomatlaşdırılır, quyulardan suyun boşaldılması (kənarlaşdırılma) vaxtı-vaxtında icra olunur, nəticədə torpağın alt qatı – sürüşmə layları sudan "qurudulur" və nəticədə torpaq sürüşməsinin qarşısı alınır.

Ədəbiyyat

1. Варнес, Д. Движения склонов, типы и процессы // Оползни. Исследование и укрепление / Пер. под ред. Г.С. Золотарева. -М.: Мир, 1981. -с. 32-85.
2. Петров, Н.Ф. Оползневые системы. Сложные оползни. - Кишинев: Штиинца, 1988. -226 с.
3. Петров, Н.Ф. Теоретические основы оползневедения / Н.Ф. Петров // География и региональные исследования. Чебоксары: Изд-во Чуваш. ун-та, 2002. - с. 190-195.
4. Опасные экзогенные процессы / Под ред. В.И.Осипова. - М.: ГЕОС, 1999. -290 с.
5. Щеглов, Д.И. Основы геоморфологии: учебное пособие / Д.И. Щеглов, А.И. Громовик; Воронежский государственный университет. - Воронеж: Издательский дом ВГУ, 2017.

РЕЗЮМЕ
СИСТЕМА МОНИТОРИНГА ДЛЯ РАННЕГО ОБНАРУЖЕНИЯ ПРИЗЕМНЫХ СТОРОН
Исаев М.М., Гурбанов М.Х., Мирза Р.Г.

Ключевые слова: *Почва, оползень, подземные воды, определение, мониторинг, система.*

Исследуются причины оползней и рассматривается разработка интеллектуальной системы мониторинга для их раннего обнаружения. Были изучены сбор подземных вод, динамика стока и другие факторы, рассмотрены измерения ключевых параметров воздействия, вопросы регулирования цен и управления технологическими процессами.

SUMMARY
MONITORING SYSTEM FOR EARLY DETECTION OF LANDSIDES
Isayev M.M., Gurbanov M.H., Mirza R.G.

Keywords: *Soil, landslide, groundwater, definition, monitoring, system.*

The causes of landslides are investigated and the development of an intelligent monitoring system for their early detection is considered. Groundwater collection, flow dynamics and other factors were studied, measurements of key impact parameters, price control and process control issues were considered.

QARABAĞIN DAĞ ÇAYLARINDA SU AXIN MİQDARININ MONİTORİNQ SİSTEMİ

[1]İsayev Məzahir Məhəmməd oğlu, [2]Qurbanov Məcid Həsən oğlu, [3]Abdullayev Vaqif Habil oğlu

[1]İdarəetmə Sistemləri İnstitutu, Bakı, Azərbaycan
[1,2,3] Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı, Azərbaycan
mezahir@bk.ru

Açar sözlər: *Qarabağ, dağ, çay, su miqdarı, monitorinq, sistem.*

Böyük qayıdışda Qarabağ ərazisində məskunlaşacaq əhalinin gələcəkdə su təminatını və ehtiyatlarının təmin edilməsi üçün bütün çaylarda su axın miqdarına fasiləsiz nəzarət edə biləcək monitorinq sisteminin qurulması və real tətbiqi məsələlərinin həllinə baxılmışdır. Bu vacib məsələd məqsəd əsas və köməkçi su tutumlu çaylarda lokal ölçmələrin aparılması, məlumatların toplanılması və bunların əsasında idarəetmənin planlaşdırılması nəzərdə tutulur. Ölçmə sistemlərinin optimal yerlərdə quraşdırılması və onların vahid bir strukturda birləşdirilməsi, vahid monitorinq sisteminin yaradılması məsələsinin həlli yolları araşdırılmışdır.

İşğaldan azad olunmuş Qarabağın coğrafi ərazilərində Böyük Qayıdış zamanı məskunlaşacaq əhalinin su təminatı dövlətimizin qarşısıda duran əsas məsələdir. Bütün infrastrukturlarda aparılan quruculuq işləri ilə yanaşı ehtibarlı su təchizatının həyata keçirilməsi məqsədilə Dövlət proqramları hazırlanmışdır və müvəffəqiyyətlə icra olunmaqdadır. Ölkə başçısı Qarabağa çoxsaylı səfərlərində təməlini qoyduğu su elektrik stansıyaları, su anbarları və digər sosial obyektlərin çoxu artıq öz fəaliyyətinə başlayıblar. Tikilməkdə olan çoxsaylı yaşayış məntəqələri - “ağıllı ev”, “ağıllı kənd”, “ağıllı şəhər” layihələri çərçivəsində inşa olunurlar.

Həyata keçirilən layihələrdən ən önəmlisi məhz su kəmərlərinin və xətlərinin çəkilişi, onların smart cihazlarla təminidir. Aydındır ki, bütün bu xttlər də təbii dağ çaylarının suyu hesabına qidalanacaqdır. Odur ki, təbii su sərvətimiz qorunmalı, onun dəqiq uçotu aparılmalı, itgilərə və dır.bol su ehtiyatından səmərəli istifadə etmək üçün təkliflərin hazırlanaraq artıq icrasına başlanıb. Su layihələrinin həyata keçməsi Qarabağımıza öz töhfəsin verəcək.

Tərtər çayı istisna olmaqla, bütün qeyd olunan çaylar transsərhəddir. Sahəsinə görə ən çox ərazini əhatə edən çay Tərtər çaydır. Tərtər çay Kəlbəcər, Ağdərə, Tərtər, Bərdə rayonlarının ərazilərindən axaraq Kür çayına tökülür. Uzunluğu 200 km, meyilliyi 19 m^3/san, su sərfi 23 m^3/san, ümumilikdə hövzəsinin sahəsi 2650 km^2-dir [1].

Tərtərçayın orta illik su sərfinin miqdarı 23 m^3/san, illik axım həcmi isə 694,8 mln m^3-dir. Bunun 30%-i yazda, 36%-i yayda, 21%-i payızda, 13%-i isə qışda keçir. Suvarma dövrünün ən intensiv aylarında (iyun, avqust aylarında) keçən axım ortalama illik axım həcminin 20-22%-ni təşkil edir. Orta lillənməsi isə 333 q/m^3-dir. Mart-aprel aylarında asılı gətirmələrin 60-80%-ə qədəri axıdılır.

Cədvəl 1.

Qarabağ ərazisindəki çayların göstəriciləri

Sıra №-si	Çayın adı	Çayın uzunluğu, (*km*)	Hövzə sahəsi, (km^2)
1	Bazarçay	415	12.090
2	Quruçay	392	4844
3	Qarqarçay	218	4433
4	Xaçınçay	119	657
5	Köndələnçay	89	594

Tərtərçay üzərində suvarma, enerji məqsədləri üçün Sərsəng [6] və Suqovuşan [7] su anbarları tikilmişdir.

Qarabağın işğalı zamanı Tərtər, Həkəri, Xaçın və digər iri çaylar su ehtiyatlarından məhrum olmuş, bu da öz növbəsində əkinlərin suvarılmasına, xüsusən də becərmə zamanı çətinliklərin yaranmasına səbəb olmuşdur. Ermənilər ekoloji terror törədərək bu çayların dağətəyi ərazilərə axmasının qarşısını almışlar.

Qarabağın qrunt suları ilə zəngin olmasının səbəbi qırılmış vulkanik süxurların geniş yayılması və onların dağətəyi ərazilərə yüksələrək bulaqlar vasitəsilə çaylarla təmin olunmasıdır. Hidrogeokimyəvi xüsusiyyətlərinə görə çay suları onların ümumi həll olunmuş bərk maddələri nisbətən aşağıdır və suları ölkədə ən keyfiyyətli sulardandan hesab olunur. Belə çaylar hidroenergetika ehtiyatları ilə tam zəngindir, xüsusi ilə də mailliyi və su səviyyəsi çox olan yuxarı axarlarda, axım sürəti normadan yüksəkdir. AR-ın başqa ərazilərində, həmçinin, Suqovuşan, Ağdamkənd, Sərsəng və Xaçın su anbarlarının suvarma sistemlərinə aid edilməsi ətraf mühitin yenidən bərpası istiqamətində prosesi sürətləndirəcək.

Cədvəl 2.

2018-ci ildə çaylardan cəmi götürülən suyun miqdarı

№	*Çaylar*	*Suvarılan ərazilər, min ha*	*İnzibati rayon*	*Su sərfiyyatı-nın həcmi, mln. m^3*	*Suvarma üçün istifadə olunan suyun həcmi, mln. m^3*	*Su itkilərinin həcmi, mln. m^3*
1	Xaçınçay	26.0	Ağdərə, Ağdam	144.6	102.8	41.8
2	Köndələnçay	2.1	Şuşa	9.6	6.9	2.7
3	Bazarçay	8.7	Kəlbəcər, Qubadlı	56.4	35.2	21.1
4	Həkəriçay	2.3	Laçın	35.0	25.1	10.1
5	Oxçuçay	0.8	Zəngilan	4.1	2.4	1.7
6	Qarqarçay	9.7	Şuşa	57.2	44.4	12.8
7	Quruçay	6.5	Xocavənd, Füzuli	51.0	38.5	12.5

Qarabağın ətəklərində çoxsaylı qazılmış artezian quyularından alınan suyun istifadə olunmasına səbəb işğal zamanı bu çayların ermənilər tərəfindən bağlanması olmuşdur. Bu yerlərin suları təmiz olduğu üçün içməli su kimi istifadə etmək daha əlverişli hesab olunur. Çay suyu minerallar ilə, üzvi birləşmələr ilə tam əhatə olduğundan əkin sahələrinin suvarılmasında bilavasitə istifadə üçün əlverişlidir. İşğaldan azad edilmiş ərazilər də su ehtiyatları Respublikamızın iqtisadiyyatının inkişaf etməsində dönüş yaradacaqdır.

Kəlbəcər, Ağdam və Laçın rayonları şirin su ehtiyatlarına mənsub olmaqları ilə seçilirlər.

Məsələnin qoyuluşu. Monitorinq sisteminin arxitekturası və ilkin ölçmə vasitələrinin düzgün seçilib dəqiq yerləşdirilməsi üçün dağ çaylarında su axın miqdarının ölçmə nöqtələri də dəqiq təyin edilməlidir. Bu zaman, əsas tələb çayların fərdi xüsusiyyətlərinin, onların ağacvari arxitekturasının (şaxələnməsi) nəzərə alınmalı, çayın qollarında su axını nəzərə alınmalıdır.

Məsələnin həlli. Çaylar xüsusiyyətlərinə, uzunluqlarına və hövzə sahələrinə görə bir-birindən fəqləndikləri üçün onların uçot sistemləri də fərqlidir. Bu sistemlər mövcud olduqları cəmiyyətlərin özəl xüsusiyyətlərinə görə də fərqlənirlər [2-5]. Odur ki, ölkələr daha uyğun hesab etdikləri uçot sistemlərini qəbul edirlər və fəaliyyətlərini bu sistemlər əsasında reallaşdırırlar. Bu sistemlərin əsas çatışmayan cəhətləri məhdud sayda uçot verilənləri əsasında fəaliyyət göstərmələridir. Aşağıda bu xüsusiyyətlər Qarabağ ərazisindəki çaylara da şamil edilərək onların uçotu və balansı məsələsi məhz monitorinq sisteminin tətbiqi ilə həyata keçirilir.

Su ehtiyatlarının balansının qorunması üçün Qarabağ ərazisində su ehtiyatlarının orta çoxillik su balansını hesablamaq üçün aşağıdakı tənlikdən istifadə olunur.

$$R = P - E \quad (1)$$

burada, $R -$ çay axımı, $P -$ atmosfer yağıntıları, $E -$ buxarlanmadır.

Su ehtiyatlarının illik qiymətini hesablamaq üçün istifadə olunan metod reqressiya adlanır. Çay axımı ilə bərabər meteoroloji amillər arasında olan reqressiya tənliyi aşağıdakı kimi tərtib edilir:

$$y_i = a_1x_1 + a_2x_2 + \cdots + a_nx_n + a_0 \quad (2)$$

burada $a_0, a_1, \ldots, a_n$ – parametrlər, $x_1, \ldots x_n$ – meteoroloji elementlərdir.

Kiçik kvadratlar metoduna görə tənliyin parametri aşağıdakı şərti ödəməklə təyin olunur:

$$\sum_{i=1}^{N}(y_I - y_i^1) = min \quad (3)$$

burada, N-illərin sayı, y_i-müşahidə olunmuş axım, y_i^1–axımın hesablanmış qiymətləridir.

Meteoroloji elementlər ilə bərabər axım arasındakı əlaqənin sıxlığı cəm korrelyasiya əmsalına görə qiymətləndirilir:

$$R = \sqrt{1 - D/D_{00}} \quad (4)$$

burada $D - (n + 1)$ korrelyasiyadan alınan kvadrat matrisin $(n + 1)$ dərəcəli determinantıdır. $D_{00} -$ isə determinantın minorudur.

Qarabağ ərazisində illik su ehtiyatlarını hesablamaq üçün ümumi çay axım modulu hövzə daxili orta hündürlüyü asılılıq əlaqələri kimi istifadə edilir. Bu kimi əlaqələrin dəstəyi ilə müxtəlif olan yüksəklik zonaları üçün ortalama axım həcmi hesablanır və nəhayət su ehtiyatlarının tapılması ilə sonlanır. Hər çay hövzəsinin ayrılıqda bu üsulla tətbiq olunması mümkündür. Qarabağ ərazilərində su ehtiyatlarının həcmi hər bir çay üçün alınan qiymətlərin ümumi cəmin verir. Çay hövzələrinin sahəsini nəzərə almaqla su ehtiyatlarının hesablanması sadə üsul kimi qiymətləndirilir. Bu cür üsulda hər çayın qapayıcı məntəqələri su həcmləri vasitəsilə cəmlənir, daha sonra isə sahələr üçün su ehtiyatı hesablanır.

$$Q = \frac{F}{\sum F} \sum Q, \quad (5)$$

burada, Q - sahələr üçün ümumi su sərfi, m^3/san; $\sum Q$ – sahənin əsas çaylarının qapayıcı məntəqələrdə ölçülmüş su sərflərinin cəmi, m^3/san; F - qiymətləndirilən ərazinin su ehtiyatının sahəsi, km^2. $\sum F$ - qapayıcı məntəqəyə qədər olan ərazinin sutoplayıcı sahəsinin cəmi, km^2.

Çay üzərində aparılan suölçmə məntəqələrində müşahidə olunan axımın hesablanması çoxillik nəzarət məlumatların tətbiq olunması ilə aparılır.

İl ərzində nəzarət olunmuş minimal sutkalıq su sərflərinin zaman sıralanmasına baxaq:

1. Hər il çaylardan minimal sutkalıq su sərfi alınır.
2. Ardıcıllıq azalma qaydasına uyğun düzülür.
3. Su sərfinin medianı tapılır.
4. Medianın 60%-i axım kimi nəzərə alınır və verilmiş düsturla hesablanır.

$$Q_{ek} = \frac{Q_{med}}{2} \text{ və ya } Q_{ekol} = Q_{med}0{,}5 \quad (6)$$

Respublikamızdan birbaşa Kür çayına axan çaylar üçün ekoloji axım hesablanmışdır. Çaylarda axımın hesablanmasından alınan qiymətlər, ortalama və minimal su sərfləri ilə müqayisə edilmişdir (cədvəl 2.3.3).

Çayın axım sərfləri hesablanandan sonra (7) düsturuna əsasən çayın axım modulları hesablanıb və alınan nəticələr cədvəl 3-də verilmişdir.

$$Q_{ekol} = \frac{Q_{ekol}}{F} \quad (7)$$

Çaylarda axımın qiyməti və minimum su sərfləri (Q_{min}) müqayisə edilmişdir.

$$Q_{min} \geq Q_{ekol} \quad (8)$$

Əgər, (8) şərti tam ödənilərsə, çayın vəziyyəti qənaətbəxş, ödənilməzsə əgər, qeyri-qənaətbəxş hesab edilir. Tədqiqat zamanı şərtin Oxçuçay, Köndələnçay, Quruçay, Qarqarçay məntəqələrində ödənildiyi, Xatınçay, Qudyalçay, Həkəriçay, Bazarçay, məntəqələrində isə şərtin ödənilmədiyi müşahidə edilmişdir. Respublikamızdan birbaşa Kür çayına axan çaylar və həmçinin minimal axımı ilə seçilən çaylar fərqli-fərqli ərazilərdə müşahidədən keçirilmişdi. Qarabağ ərazisində çaylar üçün axım Köndələnçay məntəqəsi və Oxçuçay məntəqəsi üçün qiymətləndirilib.

Cədvəl 3.

Qarabağ çaylarında orta çoxillik su sərfi, minimal su sərfi və ekoloji axımın qiymətləri

№	Çay-məntəqə	Q_{or}, m^3/s	Q_{min} m^3/s	Q_{ek}, m^3/s	Q_{ek}, l/san km^2
1	Oxçuçay	8.9	6.2	5.2	4.6
2	Köndələnçay	0.61	0.41	0.40	1.6
3	Quruçay	6.86	4.68	4.5	3.3
4	Qarqarçay	3.15	2.16	2.15	1.9
5	Xatınçay	3.2	2.3	2.1	2.5
6	Qudyalçay	6.85	4.6	3.9	4.2
7	Həkəriçay	16.2	13.6	11.4	12.5
8	Bazarçay	19	17	15	18

Nəticə. Qarabağ ərazisindəki dağ çaylarında suyun səviyyəsinə avtomatik nəzarət, sərfiyyatın statistik qiymətləndirilməsi və su ehtiyatlarının təyini məsələləri tədqiq edilmiş, çaylarda su sərfinin təyini üçün üsul və monitorinq sistemi təklif olunmuşdur.

Təklif olunan sistemdə ölçmə nəticələrinin nəzərə alınması, toplanmış məlumatların emalı, yerli çayların su tutumlarını avtomatik təyin etmək, çoxsaylı profillərə və etibarlı statistikaya əsaslanaraq axının qiymətləndirilməsi və statistikası təqdim edilmişdir.

Ədəbiyyat

1. Qarabağın biomüxtəlifliyi, torpaq və su ehtiyatları: keçmişi, bugünü və gələcəyi” mövzusunda onlayn konfransın materialları. Bakı: “Elm” nəşriyyatı, 2021, 156 səh.
2. Creutin, J., M. Muste, A. Bradley, S. Kim, and A. Kruger (2003), River gauging using PIV techniques: A proof of concept experiment on the Iowa River, J. Hydrol., 277(3), 182–194.
3. Fujita, I., H. Watanabe, and R. Tsubaki (2007), Development of a non-intrusive and efficient flow monitoring technique: The space-time image velocimetry (STIV), Int. J. River Basin Manage., 5(2), 105–114.
4. Tsubaki, R., I. Fujita, and S. Tsutsumi (2011), Measurement of the flood discharge of a small-sized river using an existing digital video recording system, J. Hydro-environ. Res., 5(4), 313–321.
5. Welber, M., J. Le Coz, J. B. Laronne, G. Zolezzi, D. Zamler, G. Dramais, A. Hauet, and M. Salvaro (2016), Field assessment of noncontact stream gauging using portable surface velocity radars (SVR), Water Resour. Res., 1108–1126,
6. https://az-m-wikipedia-org.translate.goog/wiki
7. https://az-m-wikipedia-org.translate.goog/wiki/Suqovu

РЕЗЮМЕ

СИСТЕМА МОНИТОРИНГА ОБЪЕМА ВОДЫ В ГОРАХ РЕКИ КАРАБАХА

Исаев М.М. Гурбанов М.Х., Абдуллаев В.Х.

Ключевые слова: *Карабах, горные реки, водный поток, мониторинг, система.*

Для того, чтобы обеспечить водоснабжение и ресурсы людей, которые будут жить в Карабахе в будущем, необходимо создать систему мониторинга, которая сможет непрерывно отслеживать количество стока воды во всех реках и найти решение для реальной реализации. вопросы рассмотрены. Целью этого важного вопроса является проведение локальных измерений, сбор данных и планирование управления на реках с первичным и вторичным водным потенциалом. Монтаж измерительных систем в оптимальных местах и их интеграция в единый проект, исследованы пути решения вопроса создания единой системы мониторинга.

SUMMARY

SYSTEM FOR MONITORING THE VOLUME OF WATER IN MOUNTAIN RIVERS OF KARABAKH

Isayev M.M. Gurbanov M.H., Abdullayev V.H.

Keywords: *Karabakh, mountain rivers, water flow, monitoring, system.*

In order to ensure water supply and resources for the people who will live in Karabakh in the future, it is necessary to create a monitoring system that can continuously monitor the amount of water flow in all rivers and a solution for real implementation. issues have been considered. The purpose of this important issue is to conduct local measurements, data collection and management planning on rivers with primary and secondary water potential. Installation of measuring systems in optimal locations and their integration into a single project, ways to solve the issue of creating a unified monitoring system were explored.

QLOBAL OPTİMALLAŞDIRMA METODLARININ SÜNİ İNTELLEKT PROBLEMİ

Qələndərov Akif Səməndər oğlu, Bayramova Vüsalə Nuru qızı

Azərbaycan Texnologiya Universitetinin, Gəncə, Azərbaycan
a.qalandarov@uteca.edu.az, v.bayramova@uteca.edu.az

Açar sözlər: optimallaşdırma, qlobal, süni intellekt, metod, alqoritm, funksiya

Bir çox sosial-iqtisadi, texniki, təşkilati, idarəetmə, kombinatoriya və oyun nəzəriyyəsi problemlərinin düşdüyü mürəkkəb sistemlərin optimallaşdırılması problemi süni intellekt dünyasında aparıcı problemlərdən birinə çevrilir. O, tez-tez optimallaşdırılmalı olan məqsəd funksiyası (məqsəd funksiyası həmişə analitik şəkildə deyil, bəzən "qara qutu" şəklində göstərilmir) və həll üçün müəyyən bir ilkin məlumat və məhdudiyyətlər toplusu kimi təmsil olunur. Bu fikir səyyar satıcı probleminə, optimal yerləşdirmə probleminə, dinamik tarazlığın tapılması probleminə və müvafiq sahələrdən bir çox başqa problemlərə uyğundur. Bu problemlərin əksəriyyəti üçün deterministik həll üsulları qəbuledilməzdir və ya tələb olunan dəqiqlik dərəcəsini təmin etmir. Buna görə də alternativ yanaşma lazımdır - qlobal optimallaşdırmanın təkamül metodlarından istifadə və təsadüfi elementin qəsdən axtarış alqoritminə daxil edilməsi.

Bu halda təsadüfilik tədqiqat obyektinin davranışı haqqında məlumat toplamaq və idarəetmə məqsədləri üçün xidmət edəcəkdir. Belə üsulların əsas üstünlükləri:

- məhsuldarlığın artması;
- yüksək etibarlılıq və səs-küyə qarşı müqavimət;
- yüksək möhkəmlik, yəni. hədəf funksiyasının davranışındakı pozuntulara aşağı həssaslıq, funksiyanın hesablanması zamanı təsadüfi səhvlərin olması;
- nisbətən sadə daxili icra; - optimallaşdırma dəstinin ölçüsündə böyüməyə aşağı həssaslıq;
- təlim və öz-özünə öyrənmə əməliyyatlarının axtarış prosesinə təbii giriş imkanı;

Tanınmış təsadüfi axtarış sxemləri çərçivəsində müxtəlif evristik uyğunlaşma prosedurlarını həyata keçirən yeni alqoritmlər asanlıqla qurulur. Ən populyar qlobal optimallaşdırma üsullarından bəzilərinə baxaq.

Stokastik və termodinamik yanaşmalar. Kobud təsadüfi axtarış (Monte Karlo üsulu). Bu axtarış məkanı xalların vahid təsadüfi "atılmasından" ibarət ən sadə və eyni zamanda ən məşhur təsadüfi axtarış alqoritmidir. Onun əsas üstünlüyü sadəlikdir və qlobal optimallaşdırma nəzəriyyəsində bu alqoritm əsasən alqoritmlərin nəzəri və ya ədədi müqayisəsi üçün standart kimi və bəzi qlobal təsadüfi axtarış alqoritmlərinin tərkib hissəsi kimi istifadə olunur.

Simulyasiya edilmiş tavlama kristal quruluş əldə etmək üçün maddənin qızdırılması və yavaş-yavaş soyudulması termodinamik prosesinin nəzəriyyəsinə əsaslanır. Axtarış məkanında təsadüfi seçilmiş nöqtədən başlayaraq, təsadüfi istiqamətdə addım atılır. Bu addım optimallaşdırma funksiyasının daha aşağı qiyməti olan bir nöqtəyə gətirib çıxarırsa, o zaman qəbul edilir. Əgər o, optimallaşdırma funksiyasının böyük qiyməti olan nöqtəyə gətirib çıxarırsa, o zaman P(J) ehtimalı ilə qəbul edilir. P{1) funksiyası əvvəlcə birliyə yaxındır, lakin sonra tədricən sıfıra enir - bərk cismin soyumasına bənzətməklə. Beləliklə, modelləşdirmə prosesinin başlanğıcında hər hansı bir hərəkət qəbul edilir, lakin "temperatur" aşağı düşdükcə mənfi hərəkətlərin edilməsi ehtimalı azalır. Yerli optimaldan qaçmaq üçün bəzən mənfi addımlar lazımdır, lakin həddindən artıq mənfi addımlar atmaq qlobal optimaldan uzaqlaşa bilər. Budaq və bağlı üsullarda M həllər çoxluğu bir sıra Mk alt çoxluqlara bölünür (budaqlanma) və bu alt çoxluqların bütün elementlərini sadalamaq əvəzinə F(X) kiçilmiş məqsəd funksiyasının aşağı hədləri L(Mk) verilir. Alt çoxluqlarda Mk hesablanır. Axtarışın azaldılması yalnız aşağı həddi ən kiçik olan Mk alt çoxluğunun daha da budaqlanması səbəbindən mümkündür. Bununla belə, görünən yeni alt çoxluqlar əvvəllər yaradılmış alt çoxluqlardan daha pis olan daha aşağı sərhədlərə malikdirsə, onda siz bu daha perspektivli alt çoxluğun formalaşdığı budaqlanma mərhələsinə qayıtmalı olacaqsınız. Bu vəziyyətdə, metod problemin dəqiq həllini təmin edir, lakin ən pis halda, bu cür qaytarmalara görə, tam axtarış baş verir. Metodunu tətbiq etmək üçün aşağı hədləri hesablamaq üçün alqoritminiz olmalıdır. Əgər problemin bu və ya digər sadələşdirilməsindən istifadə etsəniz (aşağı hədlərin təxmini hesablanması, gəlirlərin məhdudlaşdırılması və s.), onda metod təxmini olur və dəqiqliyin itirilməsi səbəbindən məqbul həll müddətinə zəmanət verir.

Bütün nəzərdən keçirilən metodlar ümumi xüsusiyyətlərə malikdir: hamısı qlobal optimallaşdırma metodlarıdır (deterministik metodlar istisna olmaqla) və hər biri üçün qlobal optimallığa yaxınlaşma var. NFL (Pulsuz Nahar Yoxdur) teoremi göstərir ki, nəticələr bütün mümkün keyfiyyət funksiyaları üzərində

orta hesablanırsa, keyfiyyət funksiyasının ekstremumunu axtaran bütün alqoritmlərin performansı eyni olur. Yəni, problemlərin tam dəsti üzrə ən yaxşı optimallaşdırma metodunu seçmək mümkün deyil. Bu teoremin praktiki əhəmiyyəti ondan ibarətdir ki, bütün hallarda panacea yoxdur; hər hansı bir optimallaşdırma metodunun müəyyən bir bilik sahəsində şübhəsiz uğuru başqa bir sahədə eyni uğura zəmanət vermir. Bu o deməkdir ki, hər bir konkret sahə üçün tədqiqat aparmaq və məqbul optimallaşdırma metodunu tapmaq lazımdır.

Ədəbiyyat

1. Fedoruk M.P., Shtyrina O.V., Turitsyn S.K. Autosolitons in dispersionmanaged systems with in-line saturable absorbers// Optics Letters, 2004, V.29, №21, P.2464-2466.
2. Medvedev S.B., Shtyrina O.V., Musher S.L., Fedoruk M.P. Pathaveraged optical solitons in double-periodic dispersion-managed systems // Physical Review E., 2002, V.66, P.066607-1-0.66607-6.
3. O.V.Shtyrina, S.B.Medvedev and M.P.Fedoruk Dispersion-managed soliton for path-averaged model of optical ber communication line // Proceedings of the International Conference on Computational Mathematics, 2002, Part 2, P.697-703.
4. Shtyrina O.V., Fedoruk M.P. Numerical simulation and optimization of bre links with optical regenerators // Труды Международной конференции по вычислительной математике, Новосибирск МКМВЧ.2, С.932-935.
5. Федорук М.П., Штырина О.В. Математическое моделирование и оптимизация волоконно-оптических линий связи с дисперсионным управлением

РЕЗЮМЕ

ПРОБЛЕМА ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА МЕТОДОВ ГЛОБАЛЬНОЙ ОПТИМИЗАЦИИ

Галандаров А.С., Байрамова В.Н.

Ключевые слова: оптимизация, глобальная, искусственный интеллект, метод, алгоритм, функция

Методы глобальной оптимизации (кроме детерминированных методов) и для каждого из них существует близость к глобальному оптимизму. Если результаты вычисляются в среднем по всем возможным функциям качества, то производительность всех алгоритмов, ищущих крайность функции качества, одинакова. Таким образом, не возможно выбрать лучший метод оптимизации для полного набора задач. Несомненный успех любого метода оптимизации в одной области знаний не гарантирует такого же успеха в другой области.

SUMMARY

ARTIFICIAL INTELLIGENCE PROBLEMS OF GLOBAL OPTIMIZATION METHODS

Galandharov A.S., Bayramova V.N.

Keywords: optımızatıon, global, artıfıcıal ıntellıgence, method, algorithm, function.

Global optimization methods (except deterministic methods) and there is a proximity to global optimism for each. If the results are calculated average on all possible quality functions, the performance of all algorithms looking for an extremity of the quality function is the same. So you can't choose the best optimization method for a full set of problems. The undoubted success of any optimization method in a particular field of knowledge does not guarantee the same success in another area.

SUNİ İNTELLEKTİN MEDİADA İSTİFADƏSİ

Quliyeva Süsən Ədalət qızı

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı, Bakı, Azərbaycan
susen.msu@mail.ru

Açar sözlər: *suni intellekt, media, televiziya, yeni texnologiyalar, rəqəmsallaşma.*

Yeni texnologiyaların sürətli inkişafı nəticəsində bütün sahələrdə yeniliklər baş verməyə başladı. Texnikanın təkmilləşməsi mediada da özünü göstərdi. Əgər bir neçə əsr öncə xəbərlərin dünyanın digər yerlərində yayılması bir neçə müddət çəkirdirsə, indiki zamanda İnternet şəbəkəsi vasitəsilə bu proses istifadəçilərə bir neçə saniyə müddətinə ötürülür. Hadisə baş verən yerdən jurnalistlərin birbaşa canlı yayıma çıxması, tamaşaçılarla ünsiyyətin interaktiv şəkildə həyata keçirilməsi, televiziyalarda studiyaların müasirləşməsi və s. kimi yeniliklər texnologiyaların sürətli inkişafının bəhrəsidir. Hazırda inkişaf etmiş ölkələrdə robot aparıcılardan istifadə etməyə başlanıb.

Müasir zamanda yeni texnologiyaların sürətli inkişafı bir çox yeniliklərə səbəb oldu. Jurnalistika sahəsi hər zaman operativliyi ilə seçildiyi üçün burada yeni texnologiyaların istifadəsi media işçilərinin fəaliyyətini bir qədər asanlaşdırdı. Lakin bu yeniliklər media şirkətləri arasında böyük rəqabət yaratdı. Hazırda baş vermiş hadisəni tez bir vaxtda geniş kütləyə maraqlı şəkildə ötürmək jurnalistdən yüksək peşəkarlıq və cəldlik tələb edir. Bunun üçün media nümayəndələrinin köməyinə yeni texnologiyalar yardımçı olur. Ümumiyyətlə tarixə nəzər yetirsək görərik ki, əsrlər boyu alimlər insanların işlərini asanlaşdırmaq üçün müxtəlif ixtiralar ediblər və ya mövcud olan texnologiyaları təkminləşdiriblər. İnternet şəbəkəsinin sürətli inkişafı jurnalistlərin işlərini asanlaşdırsada həmdə böyük rəqabətə səbəb oldu. Əvəllər kütləvi informasiya vasitələri dedikdə ənənəvi KİV - qəzet, radio televiziya nəzərdə tutulurdu. Çağdaş dövrümüzdə "yeni media" anlamı ortaya çıxdı. Bu isə bilavasitə İnternetlə bağlı olan bir amildir. Ənənəvi KİV-in İnternet vasitəsilə yayımlanması, hər bir media şirkətinin rəsmi saytlarının yaradılması qlobal şəbəkəylə ayaqlaşmağa gətirib çıxartdı. İnternet üzərində yaranan müstəqil xəbər portalları, İPTV, vloglar, sosial şəbəkələr və s. yeni media növləri hesab etmək olar. Ənənəvi KİV-in yeni media ilə rəqabəti qaçılmaz oldu, lakin onlar yeni medianın imkanlarından istifadə etməyə başladılar. Yeni media ilə inteqrasiya prosesi nəticəsində ənənəvi mediaçılar öz məhsullarını bu yolla istifadəçilərə ötürürlər. Məsələn Youtube hostinqində hər bir televiziya yayımçılarının kanalları vardır və efirə getmiş bütün layihələr sözügedən hostinqə yerləşdirilir.

Son zamanlar jurnalistika sahəsində suni intellektden istifadə edilməyə başlanılıb. İlk öncə suni intellekt nədir sualına cavab verək. Süni intellekt (ingiliscədən Artificial intelligence, AI) intellektual maşınların, xüsusən də intellektual kompüter proqramlarının yaradılması üzrə elm texnologiyasıdır. Dünyaca məşhur media qurumları New York Times, Associated Press, BBC, Washington Post və digərləri artıq öz fəaliyyətlərində suni intellektdən yararlanırlar. Məsələn Associated Press ABŞ-ın kiçik liqa beysbol oyunu haqqında xəbərlər hazırlamaq üçün robotlardan istifadə edir. Suni intellektin vasitəsilə oyunun nəticələri və ən yaxşı oyunçuları müəyyən edilir. Məlumat axtarışı, nitq, səs və görüntünün tanınması, mətnlərin yaradılması və onların məqsədyönlü paylanması, mövzuların prioritet aspektlərinin vurğulanması və s. SİT redaksiya təcrübəsində istifadə olunan elementlərindəndir. Bu gün düyanın bir çox ölkələri televiziya təcrübəsində xəbər verilişlərində robot aparıcılardan istifadə etməyə başlayıb. Hindistanın Odisha telekanalı 2023-cü ilin yay aylarında SİT nəzdində rəqəmsal teleaparacı olan robot Liza adlı jurnalisti təqdim edib. Liza yorulmur, xəstələnmir, səhv etmir, maaşa ehtiyacı yoxdur və telekanalın nüfuzuna xələl gətirə biləcək qalmaqallara girmir. Bu təcrübə artıq - Cənubi Koreya, Çin, Yaponiya və bir çox ölkələrdə tətbiq edilməyə başlayıb. Jurnalistlərin qənaətincə robot jurnalistlər onların işlərini əllərindən alacaq. Lakin tele şirkətlərin rəhbərləri hesab edirlər ki, SİT köməkçiləri, əksinə, mediaçıların rutin işlərdən azad edəcək və onlara yaradıcılıq üçün daha yaxşı imkan yaradacaq. Axı xəbər yayımının maraqlı olması üçün bir robot teleaparıcı kifayət etmir. Onlarla mütəxəssisin əməyi lazımdır: müxbirlər, jurnalistlər, operatorlar, video montajçılar və redaktorlar.

Rusiyalı araşdırmaçılarının fikrincə SİT tətbiqinə rəğmən hər zaman media sahəsində insanın rolu qaçılmazdır. Böyük imkanlara sahib olduqlarına baxmayaraq robotlar peşə etikasını və psixoloji amilləri dərk edə bilmirlər [2].

Azərbaycanlı araşdırmaçı S.Zalova qeyd edir ki: "Əgər ənənəvi olaraq oxucu kontent axtarırsa, Sİ texnologiyaları ilə idarə olunan kontent virtual məkanda öz oxucularını axtarıb tapmaq və oxucunun istəyinə uyğun şəkildə vüzuallaşdırılmaq imkanına malikdir. SİT gələcəkdə sosial medianın imkanlarını artırmaqla, onun biznes, ticarət, tədris, reklam və s. sahələrdə istifadəsini genişləndirəcəkdir". [1].

Ədəbiyyat

1. Zalova S. Süni intellekt texnologiyalarına əsaslanan jurnalistikanın formalaşması və inkişaf perspektivləri haqqında. "İnformasiya təhlükəsizliyinin aktual multidissiplinar elmi-praktiki problemləri" IV Respublika konfransı, 14 dekabr 2018-ci il, s. 169-172

2. Чертовских О.О., Чертовских М.Г. Искусственный интеллект на службе современной журналистики: история, факты и перспективы развития // Вопросы теории и практики журналистики. 2019 т. 8 № 3, с 555-568.

РЕЗЮМЕ
ИСПОЛЬЗОВАНИЕ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В СМИ

Гулиева С.А.

Ключевые слова: *медиа, журналистика, искусственный интеллект, цифровизация, новые технологии.*

Бурное развитие информационных технологий оказывает влияние на все сферы жизнедеятельности. Журналистика одна из тех сфер, где применение новых технологий является одним из главных критериев в работе медиа структур. Оперативно поданная информация до потребителя требует от производителей быстрой, своевременной передачи. Для этого

медиа компаниям необходимо владеть новейшими технологиями, которые способны сиюсекундное время предоставить новости до пользователей. На сегодняшний день благодаря технологиям в мировых телекомпаниях развитых странах начали применять искусственный интеллект.

SUMMARY
USE OF ARTIFICIAL INTELLIGENCE IN THE MEDIA
Gulieva S.A.

Keywords: *media, broadcasting, digitalization, artificial intelligence, new technologies.*

The rapid development of information technology has an impact on all spheres of life. Journalism is one of those areas where the use of new technologies is one of the main criteria in the work of media structures. Promptly provided information to the consumer requires manufacturers to provide it quickly and in a timely manner. To do this, media companies need to own the latest technologies that are capable of instantly delivering news to users. Today, thanks to technology, the world's television companies in developed countries have begun to use artificial intelligence.

BİR KƏMƏR BİR YOL LAYİHƏSİNİN AZƏRBAYCANA İNKİŞAF TƏSİRLƏRİ

Qurbanov Nadir Eldar oğlu, Həsənov Fuad Ədalət oğlu

Bakı Mühəndislik Universiteti, Xırdalan, Azərbaycan
nqurbanov6@std.beu.edu.az, fhasonov1@beu.edu.az

Açar sözlər: *ticarət-nəqliyyat, "kəmər və yol", inkişaf kontekstləri, nəqliyyat, layihə simulyasiyası.*

Azərbaycan Respublikası ərazisində ticarət-nəqliyyat əlaqələri, "Kəmər və yol" təşəbbüsü, Azərbaycanda inkişaf kontekstləri, OBOR'da inkişaf simulyasiyası, Azərbaycanda nəqliyyat məsələlərinə baxılmışdır.

2023-cü ilin yanvar ayında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 136 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 73 ölkəyə məhsul ixrac olunmuş, 132 ölkədən idxal olunmuşdur.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2023-cü ilin yanvar ayında ölkənin xarici ticarət dövriyyəsi 4591,4 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 3178,7 milyon dollarını və ya 69,2 faizini ölkədən ixrac olunmuş məhsulların, 1412,7 milyon dollarını (30,8 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 1766,0 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. 2022-ci ilin yanvar ayı ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 15,6 faiz, real ifadədə 3,9 faiz, o cümlədən idxal 18,7 faiz artmış, ixrac isə 1,0 faiz azalmışdır.

Bu xüsusda, Bakı-Tbilisi-Qars dəmir yolu ilə daşınan yüklərin həcmi 1 milyon tondan 5 milyon tona, Bakı Ticarət Limanının imkanları bugünkü 15 milyon tondan 25 milyon tona qədər artırılır, "Rəqəmsal İpək Yolu" layihəsi həyata keçirilir. Azərbaycan Prezidentinin Cənubi Qafqazda davamlı sülh və təhlükəsizliklə bağlı siyasəti işğaldan azad edilmiş ərazilərdə nəqliyyat infrastrukturlarının, perspektivdə Zəngəzur enerji-nəqliyyat dəhlizinin yaradılması ilə Orta Dəhlizin yeni qollarla inkişafına yol açır. Bütün bunlar, eləcə də Azərbaycanın 6 neft-qaz kəməri kimi qitələri, dənizləri birləşdirən enerji bağlantıları Çinin meqa layihəsinin milli təşəbbüslərimizlə birləşməsinin real örnəkləridir. 2030-cu ilədək 7 QVt yaşıl enerji güclərinin yaradılması və bunun 5 QVt-nın Xəzər-Avropa İtifaqı və Azərbaycan-Türkiyə-Avropa dəhlizləri ilə ixracı, həmçinin elektrik enerjisinin Mərkəzi Asiyadan ölkəmizə, buradan Avropaya ötürülməsi planları "Kəmər və yol"u yaşıl bağlantılarla zənginləşdirəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci ildə Çinə ziyarəti zamanı iki dövlət arasında İpək Yolu İqtisadi Kəmərinin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzalanmışdır. Azərbaycanın müstəqilliyini yenidən qazanmasından etibarən Azərbaycanın əlverişli coğrafi mövqeyindən istifadə edilməsi üçün infrastruktur layihələrinə sərmayə/investisya qoyulmuşdur. Azərbaycanda hazır infrastrukturun olması və fəaliyyət göstərməsi Çin baxımından Azərbaycanın strateji əhəmiyyətini daha da artırmışdır. Kəmər və Yol təşəbbüsü (KYT) fonunda Azərbaycanda Bakı-Tiflis-Qars dəmiryolu (BTQ) və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı (BDTL) həm Azərbaycan, həm də Çinin planları üçün həlledici rol oynamaqdadır.

Azərbaycan İpək Yolu İqtisadi Kəmərinin Orta dəhlizində yerləşməkdədir. 4.256 km dəmir yolu və 508 km dəniz yolunu əhatə edən bu dəhliz Çin-Qazaxıstan sərhəddindən Azərbaycana (Xəzər dənizi ilə) və buradan da Gürcüstan və Türkiyəyə qədər uzanır.

Həm BTQ, həm də BDTL Azərbaycanı KYT-nın gerçəkləşməsi və tam potensiala çatması baxımından açar ölkə etməkdədir. Orta dəhliz digər dəhlizlər ilə müqayisədə daha qısa və dəyər baxımından da daha əlverişlidir. İqtisadi baxımdan dəniz yolu ilə Çindən yola çıxan mallar 36 günə, trans-Sibir marşurutu ilə yola çıxan mallar 20 günə Avropaya çatarkən, Orta dəhliz ilə hərəkət edən mallar eyni təyinat nöqtəsinə 12 günə çatmaqdadır. İqtisadi olaraq əlvərişli olmasına əlavə olaraq, siyasi baxımdan da Orta dəhliz Çin üçün daha əlverişlidir, çünki bu dəhliz boyunca yerləşən ölkələr həm coğrafi baxımdan, həm də digər ölkələr ilə stabil münasibətlərin olması səbəbi ilə daha etibarlıdır. Üstəlik bu dəhliz vasitəsi ilə Çin mallarını ixrac etmək üçün güzərgahlarını şaxələndirir, Şimal dəhlizində əsas oyunçu olan Rusiyadan olan asılılığı azaldır, Cənub dəhlizində isə ABŞ sanksiyaları altında olan İran güzərgahından istifadə etmədən məhsullarını təhlükəsiz şəkildə Avropaya göndərə bilir.

Azərbaycan baxımından isə Orta dəhliz Azərbaycanın regional tranzit mərkəzi olaraq mövqeyini gücləndirir və həmçinin Azərbaycan-Gürcüstan-Türkiyə strateji üçbucağının daha da dərinləşməsinə töhfə verir. Bu dəhlizdə Azərbaycanın həlledici rol oynaması, Azərbaycanın sadəcə Çin baxımından deyil, həmdə Avropa və region ölkələri baxımından da strateji əhəmiyyətini daha da artırmaqdadır. Azərbaycanın Şərq-Qərb dəhlizində kilid ölkə olaraq fəaliyyət göstərməsi, ölkənin Şimal-Cənub dəhlizi boyuncada cəlb ediciliyini artırmaqda və region ölkələrinin xüsusən İran və Rusiyanın Azərbaycan ilə əməkdaşlığını dərinləşdirməsi üçün həvəsləndirməkdədir. Orta dəhliz Azərbaycana sadəcə tranzit ölkə olaraq deyil, həmdə iqtisadiyyatın şaxələndirilməsi və neftdən asılılığın azalması fonunda da fürsətlər verməkdədir. Azərbaycanın Orta dəhlizdə əsas oyunçu olması Azərbaycan-Çin münasibətlərinində inkişaf etməsinə və Çinli investorların ölkəyə cəlb edilməsi üçün şərait yaratmaqdadır. Xüsusilə Ələt İqtisadi Zonasına Çinli şirkələrin investisyalarının cəlb edilməsi Azərbaycanın iqtisadi inkişafına töhfə verə bilər, neft sektorundan asılılığını azalda bilər və qeyri-neft sektorunun inkişafına təkan verə bilər. Əlavə olaraq, ölkədə biznes mühitinin inkişafına və ölkəni beynəlxalq təchizat şəbəkəsinin ayrılmaz hissəsinə çevirərək regionun nəqliyyat mərkəzinə çevrilmə potensialını artıra bilər. Siyasi baxımdan, Azərbaycanın Orta dəhlizdə həll edici rol oynaması və Azərbaycan-Çin münasibətlərinin dərinləşməsi, Çinin regionda təsirini artıraraq Rusiyanın balanslaşdırılması və Azərbaycanın siyasi arenada manevr qabiliyyətinin artmasına və Çinin aparıcı ölkə olduğu (məsələn: Asiya İnfrastruktur İnvestisiya Bankı) beynəlxalq təşkilatlarla münasibətlərinin inkişaf etməsinə zəmin yarada bilər.

Azərbaycan inklüziv və dayanıqlı artıma nail olmaq üçün Azərbaycan karbohidrogen sektorundan kənar iqtisadi şaxələnməni prioritetləşdirir. Qitələrarası yol ayrıcında yerləşən strateji mövqeyinə görə Azərbaycan Mərkəzi Avrasiyada nəqliyyat və iqtisadi mərkəzə, eləcə də Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlığı dəhlizləri boyunca nəqliyyat layihələri üzrə platformaya çevrilməyə cəhd göstərir. Neftin qiymətinin aşağı olması, COVID-19 səbəbilə qapanmalar və Rusiya Federasiyası və Türkiyədə ləngimələrə görə pul köçürmələrində azalmalar ÜDM-də ixtisarı məhdudlaşdıran 4,3 faizə bərabər maliyyə stimuluna baxmayaraq, 2020-ci ilin birinci yarısında ÜDM-də 2,7 faiz ixtisara səbəb oldu. Ölkənin milli strategiyası - Azərbaycan 2020: Gələcəyə Baxış - Azərbaycanı biliyə əsaslanan iqtisadiyyata çevirməyi, ölkənin rəqabətədavamlılığını artırmağı və iqtisadi strukturunu şaxələndirməyi hədəfə alır. Azərbaycanın yoxsulluğun azaldılması istiqamətində yaxşı işlər görməsinə və ticarət və nəqliyyatla əlaqədar infrastrukturun keyfiyyətini göstərən Logistik Səmərəlilik İndeksində nisbətən yüksək xal toplamasına baxmayaraq, ölkədə DİM irəliləyişinin icmalı DİM 5, 8 və 16 ilə əlaqədar əsas problemlər olduğunu göstərir.

Azərbaycan. OBOR investisiyaları milli nəqliyyat və yükdaşıma nəqliyyat infrastrukturunun təkmiləşdirilməsini və tranzit yük nəqliyyatı, trans-göndəmə və əlaqəli xidmətlərlə əlaqədar tarif siyasətlərinin qəbulunu sürətləndirərək ölkənin Strateji Yol Xəritəsinin logistika və ticarətin inkişafı müddəalarını dəstəkləyir. Azərbaycan Hökuməti altı Bakı yük terminalı, altı beynəlxalq hava limanı, Azad

İqtisadi Zonada Ələt ticarət limanı, Xəzər dənizində yük donanması, Bakı-Tbilisi-Qars dəmiryolu xətti (2017-ci ildə istismara verilib) və Abşeron Logistika Mərkəzini inşa edərək daxili və regional logistika şəbəkələrini gücləndirib. Bakı-Tbilisi-Qars dəmiryolu xətti Azərbaycan, Gürcüstan və Türkiyədən keçir və Çin ilə Avropa arasında ən qısa nəqliyyat marşrutudur. Bu dəmir yolu Birləşmiş Krallıq ilə Çin arasında uzanan Atlantik okeanı-Sakit okean qitələrarası dəmir yolu əlaqələrinin asanlaşdırılmasına əhəmiyyətli töhfə verir.

Azərbaycanda OBOR investisiyaları milli ÜDM baxımından əsaslı məbləği ifadə etmir, odur ki, simulyasiya nəticələrindəki fərqlər, əsasən, model dəyişikliklərinə aiddir. Ümumi investisiya xüsusi tərkib hissələrinə bölündüyü zaman daha sürətlə artır; daha sürətli dövlət və özəl investisiyalar və özəl istehlak artımı ilə idarə olunan WEFM-e-də real ÜDM artımı sürətlənir. İnfrastruktur investisiyası nisbətən azaldıldığına görə məhsuldarlıq dəyişdirilmiş modeldə bir qədər sürətlə artır; lakin işçü qüvvəsinin iştirakı da genişlənir ki, bu da potensial məhsulun orijinal modeldə proqnozlaşdırıldığından daha sürətli böyüməsini nəzərdə tutur. ÜDM artımı sürətləndikcə hökumət maliyyələri də artır və büdcə kəsiri proqnozlaşdırma dövrünün sonuna qədər artıqlığa çevrilir. Borcun ÜDM-yə nisbəti 2020-ci ilə qədər təxminən 50 faiz ətrafında sabit qalır, sonra 2023-cü ilə qədər 12 faizə düşür. Ətraf mühit baxımından ÜDM artımı sürətləndikcə CO2 emissiyaları daha da sürətlə artır.

DIAQRAM 21. SEÇİLMİŞ WEFM-E SİMULYASİYALARI: AZƏRBAYCAN



1. Bu, OBOR layihələrinin uğurunu müəyyən etməyin ən vacib amilidir. Əldə etdiyi mənfəəti optimallaşdırmaq üçün ölkələrin müvafiq siyasət qərarları vermək, eləcə də əsaslı və uyğunlaşdırılmış milli inkişaf planlarının bir hissəsi olaraq OBOR əməkdaşlığını planlaşdırmaq, əlaqələndirmək və idarə etmək məqsədilə institusional potensialı olmalıdır. Bu cür institusional potensial olmadan milli sosial-iqtisadi inkişaf planları və siyasətləri arasında tamamlayıcılıq olmayacaq və daha da az sinergiya olacaq.

2.Layihə ilə əlaqədar görüşlər və proseslər iştirak edən ölkələrin siyasətçiləri ilə ekspertləri arasındakı əlaqələrin gücləndirilməsinə və dərinləşdirilməsinə səbəb olur. Layihə tərəfindən dəstəklənən ölkələrarası mübadilələr və öyrənilmiş ideyaların və dərslərin ötürülməsi maraqlı tərəfləri öz ölkələrində istifadə edə biləcəkləri dəyərli məlumatlarla təmin edir. İnstitusional potensialın gücləndirilməsi daha çox uzunmüddətli investisiyalar və potensialın inkişafını tələb edəcək, bu hesabatda təqdim edilmiş tövsiyələrə əməl edilməsi bu prosesə yardım edə və OBOR-un bərpanı yaxşılaşdırmaqdır.

Ədəbiyyat

1.https://www.brisdgs.org/sites/default/files/inlinefiles/Translated%20Azerbaijan%20Project%20Report%20BRI-SDGs%20-%2020210514_AZ.pdf
2.https://azertag.az/xeber/bir_kemer_bir_yol_region_uchun_boyuk_ehemiyyet_dasiyan_layihedir-1266512
3.https://president.az/
4.https://www.google.com/search?q=az%C9%99rbaycan+statistika+komit%C9%99si&oq=az%C9%99rbaycan+st&gs_lcrp=EgZjaHJvbWUqDggAEEUYJxg7GIAEGIoFMg4IABBFGCcYOxiABBiKBTIGCAEQRRg8MgYIAhBFGDwyBggDEEUYOTIGCAQQRRg9MgcIBRAAGIAEMgcIBhAAGIAEMgcIBxAAGIAEMgICBAAGBYYHjIICAkQABgWGB7SAQkxMTU3OWowajSoAgCwAgA&client=ms-android-samsung-ss&sourceid=chrome-mobile&ie=UTF-8
5.https://politicon.co/az/analytics/33/azerbaijan-and-belt-and-road-initiative-on-the-way-of-becoming-a-regional-transport-center
https://www.amerikaninsesi.org/a/7315739.html
6.https://www.economist.com/china/2020/06/04/the-pandemic-is-hurting-chinas-belt-and-road-initiative

РЕЗЮМЕ
ВЛИЯНИЕ ПРОЕКТА «ОДИН ПОЯС, ОДНА ПУТЬ» НА РАЗВИТИЕ АЗЕРБАЙДЖАНА
Гурбанов Н.Э., Гасанов Ф.А.

Ключевые слова: *торговля и транспорт, «пояс и путь», контексты развития, транспорт, моделирование проектов.*

Были рассмотрены торговые и транспортные отношения на территории Азербайджанской Республики, инициатива «Один пояс, один путь», контексты развития в Азербайджане, моделирование развития в рамках ОПОП, транспортные вопросы в Азербайджане.

SUMMARY
THE INFLUENCE OF THE "ONE BELT, ONE ROAD" PROJECT ON THE DEVELOPMENT OF AZERBAIJAN
Gurbanov N.E., Hasanov F.A.

Keywords: *trade-transport, "belt and road", development contexts, transport, project simulation.*

Trade and transport relations in the territory of the Republic of Azerbaijan, "Belt and Road" Initiative, development contexts in Azerbaijan, simulation of development in OBOR, transport issues in Azerbaijan were considered.

STRUCTURE OF ARTIFICIAL INTELLIGENCE

Mammadova Aygun Jahan

Azerbaijan University of Architecture and Construction, Baku, Azerbaijan
aygunmammadova1977@mail.ru

Keywords: *artificial intelligence, development, system, person, level.*

Artificial intelligence is the ability of artificial intelligence systems to perform creative functions that are traditionally considered the prerogative of humans; the science and technology of creating intelligent machines, especially intelligent computer programs. Artificial intelligence solves a similar problem of using computers to understand human intelligence, but is essentially not limited to biologically plausible methods.

Artificial intelligence is a branch of computer science that deals with solving cognitive tasks usually reffered to humans. Such tasks include learning, pattern creation, and pattern recognition. Modern organizations collect large volumes of data from a variety of sources-smart sensors, monitoring tools, system logs, and human-generated content. The goal of artificial intelligence is to create self-learning systems that extract meaning from data. Artificial intelligence can then apply this knowledge to solve new problems just like a human. For example, artificial intelligence technology can effectively respond to human speech, create original images and text, and make decisions based on real-time data. Your organization can integrate artificial intelligence capabilities into your applications, thereby optimizing business processes, improving the customer experience, and accelerating innovation [1].

The intelligent systems that exist today have rather wide spheres of application. For example, programs that can beat a human at chess.

The history of artificial intelligence as a innovative scientific direction begins in the middle of the 20th century. By this time, many prerequisites for its origin had already been formed: among philosophers had long debated about the nature of man and the process of understanding the world, neurophysiologists and psychologists had created a number of theories regarding the work of the human brain and thinking, economists and mathematicians asked questions about optimal calculations and the presentation of knowledge about the world in in a formalized form; finally, the foundation of the mathematical theory of computing , the theory of algorithms, was born and the first computers were created [2].

The capabilities of new machines in terms of computing speed turned out to be greater than human ones, so the question arose in the scientific community: what are the limits of computer capabilities and will machines reach the level of human development? In 1950, one of the pioneers in the field of computing, English scientist Alan Turing, wrote an article entitled "Can a Machine Think?", in which he describes a procedure by which it will be possible to determine the moment when a machine will become equal in terms of intelligence with a person, called the Turing test.

There are two directions for the development of artificial intelligence:

- solving problems associated with bringing specialized artificial intelligence systems closer to human capabilities and their integration, which is realized by human nature ;

- the creation of artificial intelligence, which represents the integration of already created artificial intelligence systems into a single system capable of solving the problems of humanity.

But at the moment in the field of artificial intelligence there is an involvement of many subject areas that have a practical relation to artificial intelligence rather than a fundamental one. Many approaches have been tested, but no research group has yet approached the emergence of artificial intelligence. Below are just some of the most famous developments in the field of artificial intelligence [3].

The structure of artificial intelligence consists of four main levels. At each of these levels, each individual technology performs its own tasks. What happens at each level?

Level 1: Data

Artificial intelligence is based on various technologies such as machine learning, natural language processing and image recognition. Central to these technologies is data, which is the core layer of AI. This level focuses on preparing data for artificial intelligence applications. Modern algorithms, especially deep learning algorithms, require enormous computing resources. So, this layer includes hardware that acts as a sub-layer and provides the necessary infrastructure for training AI models. You can access this tier as a fully managed service from a third party cloud provider.

Level 2: Machine learning platforms and algorithms

Engineers and data scientists build machine learning platforms to solve specific business problems. Developers can then easily create and train models using ready-made functions and classes. Examples of such platforms are TensorFlow, PyTorch and scikit-learn. These platforms are vital components of an application's architecture and offer the necessary functionality to easily create and train AI models.

Level 3. Models

At the model level, the application developer implements the artificial intelligence model and trains it using data and algorithms from the previous layer. The decision-making capabilities of artificial intelligence depend on this level.

Level 4. Application layer

The fourth layer is the application layer, which is the customer-facing part of the AI architecture. You can ask AI systems to perform specific tasks, generate information, provide insights, or make decisions based on data. Thanks to the application layer, end users can interact with artificial intelligence systems [4].

Ədəbiyyat

1. Андрейчиков А. В. Интеллектуальные информационные системы: учебник / А. В. Андрейчиков, О. Н. Андрейчикова. - М. : Финансы и статистика, 2006. - 424 с.
2. Бондарев В. Н. Искусственный интеллект: учеб. пособие для вузов Севастополь: Изд-во СевНТУ, 2002. - 615 с.
3. Вагин В. Н. [и др.] Достоверный и правдоподобный вывод в интеллектуальных системах; под ред. В. Н. Вагина и Д. А. Поспелова. - М. : Физматлит, 2004. - 704 с.
4. Бондарев В. Н., Ф. Г. Аде. - Искусственный интеллект : в 3 кн. / под ред. Д. А. Попова. - М. : Радио и связь, 1990. - Кн. 1 : Системы общения и экспертные системы. - 461 с.

XÜLASƏ
SUNİ İNTELLEKTİN STRUKTURU

Məmmədova A.C.

***Acar sözlər**: süni intellekt, inkişaf, sistem, insan, səviyyə.*

Süni intellekt süni intellekt sistemlərinin ənənəvi olaraq insanların səlahiyyəti hesab edilən yaradıcı funksiyaları yerinə yetirmək qabiliyyətidir; intellektual maşınların, xüsusən də intellektual kompüter proqramlarının yaradılması elmi və texnologiyası. Süni intellekt insan intellektini anlamaq üçün kompüterlərdən istifadə ilə bağlı oxşar problemi həll edir, lakin mahiyyətcə bioloji cəhətdən qəbuledilən üsullarla məhdudlaşmır.

РЕЗЮМЕ
СТРУКТУРА ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА

Мамедова А.Дж.

***Ключевые слова**: искусственный интеллект, развитие, система, человек, уровень.*

Искусственный интеллект - это свойство систем искусственного интеллекта выполнять творческие функции, которые традиционно считаются прерогативой человека; наука и технология создания интеллектуальных машин, особенно интеллектуальных компьютерных программ. Искусственный интеллект решает аналогичную задачу использования компьютеров для понимания человеческого интеллекта, но по сути не ограничивается биологически приемлемыми методами.

VİRTUAL CİHAZ ELEMENTLƏRİNİN MODELLƏRİNİN KOMPÜTER SİMULYASİYASI VASİTƏSİ İLƏ TƏDQİQİ: VİRTUAL CİHAZIN ELEKTRON CƏDVƏL FAYLINA YAZILMASI

Mənsurov Qadir Məmməd oğlu, Quliyeva Leyla İlham qızı

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
dr.ing.mansurov@mail.ru, informasiya-kt@mail.ru

Açar sözlər: *Virtual cihaz, imitasiya modeli, kompüter simulyasiyası, elektron cədvəl faylı, bulud texnologiyası, virtual server.*

Təqdim olunan işdə *LabVİEW* proqram mühitində imitasiya modeli əsasında sintez olunan və informasiya-ölçmə və idarəetmə sistemlərində siqnal mübadiləsində istifadə edilən virtual cihaz modullarının kompüter simulyasiyası ilə real qurğuya adekvat olmağı yoxlanılmış, onlardan istifadə üzrə əsas və əlavə tələblər müəyyən olunmuşdur. Virtual modulların işinin elektron cədvəl faylına yazılması və nəticələrin bulud texnologiyasının köməyi ilə virtual serverə yüklənməsi təmin edilmişdir. Faylın saxlanması üçün *Azure Blob Storage* servisindən, faylın bu servisə avtomatik yüklənməsi üçün isə *Azure Python SDK* istifadə olunmuşdur.

Virtual cihazların işlənməsi üzrə bir çox kompüter əsaslı cihaz texnologiyası sistemləri mövcuddur ki, onlardan biri də "G" qrafik proqramlaşdırılma dilində yazılmış proqramların icrası üçün istifadə olunan LabVİEW (İngiliscə: Laboratory Virtual Instrumentation Engineering Workbench) platformasıdır [1,2]. Platforma National Instruments (ABŞ) şirkətinə məxsusdur.

İdeoloji cəhətdən *LabVIEW SCADA* sistemlərinə çox yaxın olsa da, onlardan fərqli olaraq, o, daha çox avtomatlaşdırılmış proseslərə nəzarət sistemləri sahəsində deyil, avtomatik idarəetmə sistemləri sahəsində problemlərin həllinə yönəldilib və məlumatların toplanması və emalı sistemlərində, həmçinin texniki obyektlərin və texnoloji proseslərin idarə edilməsində daha geniş istifadə olunur [3,4].

LabVIEW-də istifadə olunan "G" qrafik proqramlaşdırma dili məlumat axını arxitekturasına əsaslanır. Bu cür dillərdə operatorların icra ardıcıllığı onların görünmə ardıcıllığı ilə deyil (imperativ proqramlaşdırma dillərində olduğu kimi), bu operatorların girişlərində verilənlərin olması ilə müəyyən edilir. Məlumatlarla əlaqəli olmayan operatorlar təsadüfi qaydada paralel olaraq icra edilir.

LabVIEW, prinsipcə, universal proqramlaşdırma dilidir. Bu məhsul bəzən National Instruments avadanlığı ilə sıx əlaqəli olsa da, buna baxmayaraq, konkret maşınla əlaqəli deyil. *Windows, Linux, MacOS* üçün versiyalar var. Mənbələr portativdir və proqramlar bütün sistemlərdə eyni görünəcək. LabVIEW tərəfindən yaradılan kod *Windows Mobile* və ya *PalmOS*-da da icra edilə bilər. Bu dildən mətnlərin, şəkillərin emalı və verilənlər bazası ilə işləmək üçün böyük sistemlərin yaradılmasında uğurla istifadə oluna bilər. *LabVIEW* çox yüksək səviyyəli dildir. Bununla belə, "aşağı səviyyəli" modulları *LabVIEW* proqramlarına daxil etməyə heç nə mane olmur. Assembler əlavələrindən istifadə etmək istənilsə belə, bu da mümkündür, sadəcə olaraq *DLL* yaratmaq və koda zənglər daxil etmək lazımdır. Digər tərəfdən, yüksək səviyyəli dil verilənlərlə qeyri-trivial əməliyyatları asanlıqla yerinə yetirməyə imkan verir ki, bu da adi bir dildə bir çox sətir (onlarla sətir olmasa belə) kod tuta bilər. Bununla belə, qeyd etmək lazımdır ki, aşağı səviyyəli dillərin bəzi əməliyyatlarını (məsələn, göstəricilərlə işləmək) "yüksək səviyyəli" təbiətinə görə *LabVIEW*-də həyata keçirmək o qədər də asan deyil. Təbii ki, *LabVIEW* dilinə "ənənəvi" dillərdə analoqları olan əsas idarəetmə konstruksiyaları daxildir:

- dəyişənlər (yerli və ya qlobal);
- budaqlanma (iş quruluşu);
- For - tamamlama yoxlanışı olan və yoxlanılan dövrlər;
- while - dövrlər;
- əməliyyatların qruplaşdırılması.

LabVIEW proqramı virtual cihaz adlanır (ingiliscə: Virtual İnstrument) və iki hissədən ibarətdir: 1) virtual cihazın məntiqini təsvir edən blok-sxem; 2) virtual cihazın xarici interfeysini təsvir edən ön panel.

Ön panel istifadəçi interfeysidir. Ön panelə giriş/çıxış vasitələri düymələr, açarlar, *LED*-lər, vernierlər, tərəzilər, məlumat displeyləri və s. yerləşdirilir. Bu vasitələr istifadəçi tərəfindən virtual cihazı idarə etmək, eləcə də məlumat mübadiləsi aparmaq üçün digər virtual cihazlar tərəfindən istifadə olunur. Məlumat mübadiləsinin təşkili məqsədi ilə virtual cihazın elektron cədvəl fayla yazılması təmin edilməlidir.

LabVİEW proqramlaşdırma mühitində fayllarla iş prosesini əyani təsvir etmək üçün şəkil 1-də virtual cihaz modulunun ön paneli (a) və blok diaqramı (b) göstərilmişdir. Bu modul - verilənlər strukturu olan

klasterdəki verilənləri fiziki yaddaşdakı elektron cədvəl faylına yazmaq üçün tərtib olunub. Cədvəl faylı - mətn tərkibli *csv* tipli fayl olacaq.



Şəkil 1. Virtual cihazın elektron cədvəl faylına yazılması.
a) ön panel, b) blok sxem

Şəkil 1-də təsvir olunan proqram modulu ön paneldə - vizual olaraq məlumat formasını xatırladan verilənlər klasterindən, blok-sxem paneldə isə klasterdəki verilənlərin göstərilmiş mətn faylına (person.csv) yazılmasını təmin edən alqoritm əsasında tərtib olunub. Modul özlüyündə istifadəçi haqda məlumatları - Name (ad), Surname (soy ad), Age (yaş), Gender (cins) alaraq, onları özündən kiçik bir verilənlər bazasının faylını ehtiva edən cədvəl faylına yazır.

Ön panelinin təsviri: ön panel verilənləri daxil etmək üçün klaster elementindən ibarətdir. Klasterdə dörd ədəd daxil etmə elementi var, bunlardan ilk ikisi - Name və Surname sətir tipli daxiledici elementləri, Age - tam ədəd tipli daxiledici, Gender isə sadalama tipli daxiledicidir. Gender sadalama tipinin iki dəyəri - Male(kişi cinsi) və Female(qadın cinsi) var. Uyğun olaraq, sadalama tipinin xüsusiyyətlərindən irəli gələrək, Male = 0, Female = 1 olur.

Blok-sxem panelinin təsviri:

1. İlk öncə qarşı paneldəki klaster "Unbondle By Name" elementi ilə bağlanır. Bu element vasitəsilə klaster elementlərinə giriş əldə etmək olar.

2. Fayla yazılacaq bütün verilənlər sətir tipli olmalıdır. Name və Surname elementləri artıq sətir tiplidir. Deməli, verilənləri fayla yazmazdan öncə, digər iki elementi - Age və Gender də həmçinin sətir tipi verilənə çevirmək lazımdır. Age elementini sətrə çevirmək üçün proqram mühitindən belə bir element seçilir:

Functions/Programming/String/Number/"Number/String Conversion"/Number to Decimal String.

Element sətir alır və geriyə onun sətir tipli təsvirini qaytarır. Gender veriləni sadalama tipli olduğu üçün, onu da bu yolla yazmağa çalışsaq, fayla ancaq 0 və ya 1 yazılacaq ki, bu da faylın aydınlığına təsvir edəcək. Çünki, 0 və 1-lərin hansının kişi, hansının qadın bildirməsi sual yaradacaq. Məsələni həll etmək üçün məntiqi ifadə qurmaq olar: əgər Gender = 0 olarsa, fayla - Male, əks halda isə Female sətri yazılsın. Bu cür məntiqi ifadəni reallaşdırmaq üçün proqram mühitindən *Functions/Numeric/Comparison/Select* elementi seçilir. Elementin təsviri şəkil 2-də göstərildiyi kimidir.

1. Select elementi üç arqumentlidir (t, s və f). s -elementi məntiqi qiymət alır. s = True olarsa t-, əks halda isə f- elementi seçilir. Bu bir növ *if-else* şərti budaqlanma operatoruna bənzəyir. Bu elementin köməyi ilə, Gender = 0 şərti True qaytardıqda Male, əks halda isə Female sətrini seçirik.



Şəkil 2. Selekt elementinin təsviri

1. Sətrə çevrilmiş bütün elementləri bir araya gətirmək üçün massiv ölçüsü elementlərin sayına bərabər olan massiv yaradılır və bütün sətir verilənləri müvafiq elementlərə bağlanır.

2. Massivdəki elementləri cədvəl faylına yazmaq üçün *Write Delimited Spreadsheet.vi* qurma alt proqramından istifadə edilir. Alt proqram cəmisi səkkiz ədəd arqument ala bilir. Ancaq, nümunədə yalnız dördündən istifadə olunub. Bunlar: *file path* - yazılacaq cədvəl faylının yolu. Bu yolun hesablanması üçün qurulmuş alqoritm barədə sonda bəhs ediləcək, *1D data* - fayla yazılacaq məlumat, *append to file* - False olan zaman fayla hər yazma əməliyyatı zamanı məlumatlar əvəzlənir, True olan halda isə yeni məlumatlar köhnələrə əlavə edilir, delimiter - sətrdəki elementləri ayıracaq simvol. Susmaya görə delimiter, yəni ayırıcı olaraq, tab istifadə olunur, ancaq csv faylının standartlarına görə ayırıcı kimi vergüldən istifadə etmək daha doğrudur, ona görə də ayırıcı = "," təyin olunur.

1. Giriş faylının yolunun qurulması: öncəki bənddə deyildiyi kimi, verilənləri fayla yazmaq üçün, çıxış faylının yolunu tərtib etmək lazımdır. Fayl yolu statik olduğu üçün, yolun dinamik tapılması üçün bir sıra üsullar var. Məsələn - nisbi yol. Nisbi yol - faylın yolunun müəyyən başqa bir yola nəzərən yoludur. Statik yolun istifadəsinin mənfi cəhəti ondan ibarətdir ki, proqram faylı yerini dəyişərsə, və ya virtual cihaz faylını başqa bir kompüterdə işə salmaq lazım gələrsə öncəki maşında verilmiş statik yol, cari kompüter üçün düzgün olmayacaq və proqram işləməyəcək. Nisbi yol vasitəsilə, işə salınan virtual cihaz faylının özünün yolunu alaraq, növbəti mərhələ kimi ondan nisbi yol alaraq faylımızın yolunu qura bilərik. Nümunədə faylın müxtəlif kompüterdə tapılmasını təmin etmək üçün, hədəf faylın, işə salınan virtual cihaz faylı ilə eyn qovluqda olması düşünülür. Virtual alət faylının yolunu almaq üçün - *Application Directory* alt proqramından istifadə edilir. Bu alt proqram işə salınmış virtual alət faylının yolunu qaytarır. Daha sonra, bu faylın yoluna istinad edərək, cədvəl faylının yolunu qurmaq mümkündür. Bunun üçün Build Path elementindən istifadə edilir. Element - iki yolu birləşdirərək vahid yol qaytarır, bu bir növ - sətrlərin konkatenasiyasını xatırladır. *Build Path* elementi ilə, virtual alət faylının yolunu və cədvəl faylının, bu yola nəzərən nisbi yolunu birləşdirərək, vahid cədvəl faylının yolunu almış oluruq. Bunun sayəsində, bir qovluqda yerləşən virtual alət və cədvəl faylları istənilən kompüterdə çalışacaq.

Elektron cədvəlin yolunun tərtib olunmasından sonra, bu yol 4-cü bənddə qeyd edildiyi kimi, *Write Delimited Spreadsheet* elementinin *file path* arqumentinə ötürülür.

Nəticədə, qarşı paneldən oxunan verilənlər sətir formatına çevrilir və ard-arda fayla yazılır.

Növbəti mərhələ faylın virtual serverə yüklənməsidir. Yuxarıda qeyd etdiyimiz kimi, virtual cihazın iş prosesinin nəticəsi hər hansı _file.csv adlı faylın içərisinə yazılır. Bu fayl virtual cihaz faylı ilə eyni qovluqda, lokal maşında yerləşir. Bu yanaşmanın ən böyük mənfi cəhəti lokal maşında nasazlıq yaranacağı təqdirdə verilənlərin itirilməsidir. Bundan başqa, əlavə imkan kimi nəticələrin müxtəlif versiyalarının saxlanılmasının olmasıdır. Versiyaları bir-birindən fərqləndirmək üçün fayl adlarına zaman nişanəsi rolunu oynayacaq postfikslər əlavə etmək olar. Bununla da, virtual olaraq uzaq serverdə virtual cihazın bütün icra nəticələrini saxlamaq mümkün olar. Bu məqsədlə Cloud Computing (bulud hesablamaları) texnologiyasından istifadə əlverişli hesab oluna bilər. Bu texnologiya uzaqda yerləşən virtual maşının hesablama gücündən istifadə etməyə imkan verən texnologiyadır. Bağlantının təhlükəsizliyi üçün SSH protokolu əsaslı bağlantı və ya iki tərəfli autentifikasiya həyata keçirilir. Buna görə də verilənlərin təhlükəsizliyi yüksək səviyyədə təmin edilir.

Tələb olunan məsələ _file.csv" faylını uzaq server yükləmək və zaman işarəli adlandırmanı təmin etməkdən ibarətdir. Bunun üçün xüsusi hesablama gücü tələb olunmur, adlandırmanı lokal maşında edib, daha sonra faylı tələb olunan uzaq maşına göndərmək mümkündür. Məsələni həll enmək üçün faylın adlandırılması və gələcək virtual serverə yüklənməsini icra edəcək proqram skripti yazılmalıdır. Bu məqsədlə, proqramlaşdırma dili kimi - *Python* istifadə olunur. Python – yuxarı səviyyəli, ümumi təyinatlı proqramlaşdırma dilidir və müxtəlif təyinatlar üçün geniş standart və kənar kitabxanalara malikdir. Bulud xidmətləri üçün *Microsoft Azure* istifadə olunur. Microsoft Azure özündən müxtəlif növ bulud xidmətlərini ehtiva edən platformadır. Burada həm böyük verilənlərin emalı üçün - *Azure Data Factory* servisi, həm maşın öyrənməsi və süni intellekt yönümlü ardıcıl emal addımların - payplaynların(pipeline) idarəedilməsi üçün - *Azure Machine Learning Studio*, həm də faylları uzun müddətli saxlamaq üçün *Azure Blob Storage* verilənlər anbarı servisi mövcuddur.

Python - açıq qaynaqlı, tamamilə pulsuz yayımlanan proqram təminatıdır. Microsoft Azure isə ödənişli əsaslarla xidmət təklif edir. Bu portalda yaradılan hesab konfidensial xarakter daşıdığı üçün, hesabın giriş məlumatları iş daxilində buraxılacaq, yalnız əməliyyatın nəticəsi veriləcək. Microsoft Azure həm web qrafik istifadəçi interfeysinə, həm də əmrlər sətri aləti (command line interface - CLI) interfeysinə malikdir. Əlavə olaraq, Microsoft tərəfindən, platformaya proqramlaşdırıla bilən müraciətləri təmin etmək üçün *Azure*

Python SDK yaradılmışdır. *Azure Python SDK* - istifadəçilərə Python proqramlaşdırma dilində proqram kodu yazmaqla, Azure xidmətlərindən avtonom şəkildə istifadə etməyə imkan verir.

Faylın saxlanması üçün Azure Blob Storage servisindən, faylın bu servisə avtomatik yüklənməsi üçün isə *Azure Python SDK* istifadə olunmuşdur. Faylın zaman işarəli adlandırılması üçün Python proqramı yazılmışdır. Faylın serverə yüklənməsi isə *Azure Python SDK* proqram paketi vasitəsilə yerinə yetirilmişdir. Yüklənmiş faylın Microsoft *Azure Sorage Explorer* ilə təsviri şəkil 3-də göstərilmişdir.



Şəkil 3. Yüklənmiş faylın Microsoft Azure Sorage Explorer ilə təsviri

Ədəbiyyat

1. https://www.ni.com/en-us/shop/labview.html
2. https://users.encs.concordia.ca/~tmg/images/9/9b/Larsen_LabVIEW_for_Engineers_1st_txtbk.PDF
3. Адашевская И. Ю. Информационные системы конструирования и моделирования объектов: учеб. пособие / И. Ю. Адашевская. - Харьков : НТУ «ХПИ», 2016, 178 с.
4. Лупов С.Ю., Муякшин С.И., Шарков В.В. LabVIEW в примерах и задачах. Учебно-методические материалы по программе повышения квалификации «Обучение технологиям National Instruments». Нижний Новгород, 2007, 101 с.

РЕЗЮМЕ

КОМПЬЮТЕРНОЕ МОДЕЛИРОВАНИЕ МОДЕЛЕЙ ЭЛЕМЕНТОВ ВИРТУАЛЬНЫХ УСТРОЙСТВ: ЗАПИСЬ ВИРТУАЛЬНОГО УСТРОЙСТВА В ЭЛЕКТРОННЫЙ ТАБЛИЧНЫЙ ФАЙЛ

Мансуров Г.М., Гулиева Л.И.

Ключевые слова: *виртуальное устройство, имитационная модель, компьютерное моделирование, файл электронной таблицы, облачная технология, виртуальный сервер.*

В представленном исследовании методом компьютерного моделирования проверена адекватность модулей виртуального устройства, синтезированных на основе имитационной модели в программной среде *LabVIEW*, а также определены основные и дополнительные требования к их использованию. Обеспечивается запись работы виртуальных модулей в файл электронной таблицы и выгрузка результатов на виртуальный сервер с помощью облачных технологий. Для хранения файла использовалась служба хранилища *BLOB*-объектов *Azure*, а для автоматической загрузки файла в эту службу использовался пакет *Azure Python SDK*.

SUMMARY

COMPUTER SIMULATION OF MODELS OF VIRTUAL DEVICE ELEMENTS: RECORDING A VIRTUAL DEVICE IN A DISTRIBUTED FILE

Mansurov G.M., Guliyeva L.İ.

Keywords*: virtual device, simulation model, computer modeling, spreadsheet file, cloud technology, virtual server.*

In the presented study, virtual device modules synthesized on the basis of the simulation model in the LabVIEW software environment were verified to be adequate to the real device by computer simulation, and the basic and additional requirements for their use were determined. It is ensured that the work of virtual modules is recorded in a spreadsheet file and the results are uploaded to a virtual server with the help of cloud technology. The *Azure Blob Storage* service was used to store the file, and the *Azure Python SDK* was used to automatically upload the file to this service.

SÜNİ İNTELLEKTİN, İNFORMASİYA TEXNOLOGİYALARININ VƏ RƏQƏMSALLAŞMANIN DÜNYADA VƏ AZƏRBAYCANDA NƏQLİYYAT SEKTORUNDA TƏTBİQİ VƏ ƏHƏMİYYƏTİ

Mustafayev Kamran Ramız oğlu

Azərbaycan Milli Elmlər Akademiyası, Bakı, Azərbaycan
k.mustafa9@bk.ru

Açar sözlər: *rəqəmsal modellər, rəqəmsal texnologiyalar, süni intellekt, innovasiya, elektronlaşma, sənaye inqilabı, logistika.*

Tədqiqatın məqsədi dünyada və Azərbaycanda nəqliyyat-logistika xidmətlərinin rəqəmsal modellərini öyrənmək, onların inkişaf istiqamətlərini və perspektivlərini müəyyən etmək, suni intellektin nəqliyyat-logistika sahəsində əhəmiyyətinin prioritet məsələlərdən olduğunu göstərməkdir.

Tədqiqat zamanı analiz və sintez üsullarından istifadə edilmişdir. Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, logistika xidmətləri müxtəlif sənaye sahələrində bütövlükdə ölkə iqtisadiyyatını kökündən dəyişdirə bilər. Qlobal təcrübəyə əsaslansaq, rəqəmsal modellərdən daha səmərəli istifadə ölkəmizdə daha rəqabətqabiliyyətli iqtisadiyyatın yaradılmasında və iqtisadi artımın sürətləndirilməsində əsas amildir. Tədqiqatın nəticəsi ölkənin nəqliyyat sənayesinin davamlı inkişafına nail olmaq üçün ətraf mühitin rəqəmsal modelinin formalaşdırılması üçün tövsiyələrin hazırlanmasıdır.

Qloballaşan dünyamız nəhəng, mürəkkəb və heyrətamiz texnoloji yeniliklərin çox sürətlə inkişaf etdiyi, süni intellektin həyatımızın hər sahəsinə daxil olduğu böyük inqilab dövründə yaşayır. Bildiyimiz kimi, biz artıq üç sənaye inqilabından, o cümlədən buxar maşınının, elektrik enerjisinin, kompüterin və internetin ixtirasından keçmişik. 20-ci əsrin sonlarından etibarən biz süni intellekt, robotlar, əşyaların interneti, avtonom maşınlar, 3D printerlər, nanotexnologiya, biotexnologiya kimi yeni texnoloji ixtiralara əsaslanan dördüncü sənaye inqilabı (Sənaye 4.0) dövründə yaşayırıq. Bu inqilabın insanlara nə vəd etdiyi və yaratdığı imkanlardan necə istifadə edəcəyimiz hələ də sual olaraq qalır.

Nəqliyyat yük və sərnişin daşıyan maddi istehsal sahəsi olsa da, ictimai istehsalın strukturunda maddi xidmətlər istehsalı sahəsinə aiddir. Nəqliyyat hər bir ölkənin iqtisadiyyatının ən mühüm infrastruktur elementidir. Nəqliyyat xidmətlərinin həyata keçirilməsində əsas amillərdən biri işlərin respublikamızın qanunvericiliyinə uyğun yerinə yetirilməsi və onun qayda-qanunlar çərçivəsində tətbiq edilməsidir. Azərbaycan Respublikasının nəqliyyat xidmətlərinin həyata keçirilməsi və tətbiqi 11 iyun 1995-ci il tarixli Nəqliyyat haqqında qanunda öz əksini tapmışdır [1].

Demək olar ki, bütün dövrlərdə nəqliyyatın funksiyası maddi ehtiyatların istehsal prosesi ilə əlaqəsini təmin etmək və satış bazarına çıxışa şərait yaratmaqdır. Nəqliyyatın maddi istehsalın bir qolu kimi əsas xüsusiyyəti onun özünəməxsus istehsal prosesinin olmasıdır. Amma nəqliyyat xammal və ya maddi məhsul yaratmır. Maddi istehsalın bütün sahələrində olduğu kimi, nəqliyyat sənayesində də son məhsul ardıcıl əməliyyatlar məcmusundan ibarət olan konkret istehsal prosesinin nəticəsi kimi qiymətləndirilir.

Nəqliyyatın idarə edilməsində rəqəmsal texnologiyalardan istifadə və infrastrukturun elektronlaşdırılması bu gün dünya ölkələrinin qarşısında duran əsas problemlərdəndir.
Onun əlverişli geosiyasi mövqeyi Azərbaycana bir sıra beynəlxalq nəqliyyat dəhlizlərinin mərkəzinə çevrilməsinə imkan verir. Xüsusilə Azərbaycan Dəmir Yolları bu çağırışlara çox səmərəli cavab verir və bu sektorda informasiya-kommunikasiya texnologiyalarından geniş istifadə olunur.

Belə ki, araşdırmalar göstərir ki, müasir informasiya-kommunikasiya texnologiyalarının imkanlarından istifadə etməklə, daha dəqiq informasiya hesabına müştəri vaxtına qənaət, beynəlxalq inteqrasiya nəticəsində məlumatların daha sürətli və dəqiq ötürülməsi, düzgün və vaxtında planlaşdırma, qatarların hərəkətini onlayn izləmə və s. belə funksionallığın əldə edilməsi üçün şərait yaradır.

Bildiyiniz kimi, rəqəmsallaşmanın ən vacib şərti yeni infrastrukturun olmasıdır. Eyni zamanda, daxili dəmir yolu şəbəkəsi gücləndirilir ki, bu da proqram təminatından, proseslərin avtomatlaşdırılmasından, eləcə də informasiya texnologiyaları avadanlığı platformasından istifadə etməyə imkan verir. Həmçinin, sərnişinlərin internetdən rahat istifadə etməsi də müştəri məmnuniyyətinin artmasına səbəb olur.

Qeyd edək ki, onlayn bilet satışının tətbiqi birbaşa müştəri məmnuniyyətini artıran amillərdəndir. Belə ki, alıcı bilet haqqında məlumat əldə edərək, kassaya gəlmədən, istədiyi yerdə və istədiyi vaxt bilet ala bilər. Burada sərnişin vaxta qənaət etməklə yanaşı, şəxsi kabinetinə daxil olaraq əvvəlki əməliyyatlarına və tarixçəsinə baxa bilər. Bütün bunlarla yanaşı, biz kağız istehlakına qənaət etməklə təbiəti də qoruyuruq.

Dəmir yolu nəqliyyatı, sərnişindaşıma, hərəkətin təhlükəsizliyi, insan resursları, maliyyə, təchizat və s. kimi sahələrdə proseslərin avtomatlaşdırılması davam edir. Belə ki, sərnişin və yükdaşıma proseslərinin avtomatlaşdırılmasına şərait yaradılması bu proseslərin daha şəffaf, sürətli və dəqiq olmasına şərait yaradır.

Müasir dünyamızda dəmir yolu nəqliyyatının rəqəmsal transformasiyası sürətin, çevikliyin və nəqliyyatın çatdırılma vaxtı standartlarının təmin edilməsində əsas meyarlardan biri sayıla bilər. Beləliklə, nəqliyyatın rəqəmsallaşdırılması və dəmir yolu nəqliyyatında texnologiyadan istifadə nəqliyyat sənayesində aparıcı tendensiyalardan biridir. Dəmir yolu nəqliyyatında rəqəmsal transformasiya qatarların idarə edilməsi, informasiya sistemi, naviqasiya dəstəyi, hərəkətin avtomatlaşdırılmış idarə edilməsi və s. kimi bir neçə mühüm elementi əhatə edir. Burada rəqəmsallaşmanın əsas göstəricilərindən biri qatarların hərəkətini yoxlamaq və idarə etmək üçün rəqəmsal texnologiyalardan istifadə edilməsidir. Eyni zamanda, transformasiya prosesində proseslərin avtomatlaşdırılması ilə yanaşı, dəmir yolu daşımalarının rəqəmsal təşkilindən də söhbət gedir.

Tədqiqatlar göstərir ki, transformasiya qüsursuz, əlçatan müştəri xidməti və vaxtında çatdırılma əməliyyatları nəticəsində gecikmələri azaldır, müştəri məmnuniyyətini artırır və təşkilati gəlirliliyi artırır. Dəmir yollarının rəqəmsallaşmasının əsas göstəricilərindən biri də müştərilərin həftənin 7 günü, günün 24 saatı istənilən yerdən istədikləri xidmətdən yararlana bilməsidir. Eyni zamanda, müştəri məlumatlarının mühafizəsi məqsədilə daşınmaların təşkili zamanı qabaqcıl rəqəmsal texnologiyalardan istifadə yüksək səviyyədə kibertəhlükəsizliyin və kibertəhlükəsizliklərdən müdafiənin təmin edilməsini tələb edir.

Nəticədə rəqəmsallaşma prosesi Azərbaycan dəmir yollarında xidmət keyfiyyətinin və bununla da istehlakçıların məmnunluğunun artmasına səbəb olub.

Rəqəmsallaşma səviyyəsinin yüksəldilməsi dəmir yollarında iş prosesini optimallaşdırmağa, pul və vaxta qənaət etməyə, rəqabət üstünlüklərini və dəmir yolu infrastrukturunun tutumunu artırmağa kömək edir. Bütün bunlar son nəticədə xidmət keyfiyyətinin yüksəlməsinə gətirib çıxarır.

Gəlin müqayisəyə baxaq. Bildiyiniz kimi, gündən-günə yenilənən texnologiyalar arasında çoxdan gözlənilən və demək olar ki, bütün dünyanın marağına səbəb olan inkişaf dünyanın ilk "ağıllı qatarı" artıq işə salınıb. Qeyd edək ki, Çinin Çjuçjou İnstitutu və müstəqil Rail Rapid Transit şirkəti ekspress rels sisteminə yeni dizayn təqdim edərək maşinistsiz işləyəcək yüksəksürətli qatarlar hazırlayıb. Məlumata görə, elektrik qatarı tam dolu olduqda 70 kilometr məsafə qət etmək qabiliyyətinə malikdir. Enerji toplayan qatar 10 dəqiqəyə 25 kilometr qət edə bilir. Layihənin ilk sınaqları Çinin Çuçjou şəhərində keçirilib və uğurlu alınıb. Layihə çərçivəsində relslərdə kameralar və sensorlar quraşdırılıb. Məlumata görə, ilk sınaqda qatar 4 kilometr məsafəni uğurla qət edib. Baş mühəndis Feng Jiang-ın sözlərinə görə, ağıllı qatarlar ənənəvi dəmir relslərdən ayrılmış rezin təkərlər üzərində işləyir. Bu hissələr vasitəsilə təlimatlar qatarın beynində proqramlaşdırılmış mərkəzi sistem vasitəsilə ötürülür. Ağıllı qatarların müasir tramvay və avtobuslardan fərqi ondadır ki, onlar yeni marşrut variantı təklif edirlər. Ən qısa marşrutlar üzrə hərəkət edən qatar müasir şəhər nəqliyyat vasitələrindən daha sürətli hərəkət edir. Ağıllı qatarlarda da təhlükəsizlik sistemləri quraşdırılıb ki, bu da quraşdırması asan texnologiyaya malik digər avtomobillərdən üstündür. Qatar ətrafdakı potensial təhlükələrə həssas olan sensorlarla təchiz edilib. Bir neçə kilometr uzaqda olan nasazlıq siqnal vasitəsilə mərkəzi beyinə ötürülür və təhlükəsizlik sistemi işə salınır.

Müqayisədən də göründüyü kimi, smart texnologiyalardan istifadə həm vaxt, həm də xidmətin səmərəliliyi baxımından çox vacibdir.

Azərbaycanda nəqliyyat sektorunun rəqabət qabiliyyətinin innovativ inkişafı əsas prioritet məsələlərdən biri hesab olunur. Müasir iqtisadi şəraitdə rəqəmsal iqtisadiyyatın inkişafı ölkənin iqtisadi göstəricilərinin artım tempinə birbaşa təsir göstərir. Ümumiyyətlə, milli iqtisadiyyatın sektorlarının, o cümlədən nəqliyyatın rəqəmsallaşmasına tam keçid qlobal iqtisadi məkanda rəqabət qabiliyyətimizi artıra bilər. Təhlillər göstərir ki, avtomobil, dəmir yolu, dəniz və hava nəqliyyatı üçün müasir innovativ texnologiyalara malik müasir avtonəqliyyat vasitələrinin əldə edilməsi (və ya birgə istehsalın təşkili) və onların ölkəmizdə istifadəsi yük və sərnişin daşımalarının həcmini və gəlirlərini artıra bilər.

Hazırda respublikamızda logistika və nəqliyyat xidmətləri sahəsində ən çox istifadə olunan bir sıra rəqəmsal biznes modelləri mövcuddur, yəni [2, s.130]:

Pulsuz model pulsuz xidmət modelidir. Bu model reklamla dəstəklənən biznes modelidir. Bu modelin əsas ideyası istifadəçini son məhsula çevirərək logistika sahəsində pulsuz onlayn xidmət təklif etməkdir.

Freemium modeli tez-tez xarici ölkələrdə demək olar ki, bütün sənaye sahələrində istifadə olunur və bundan əlavə, bütün istifadəçilərə xidmət sənayesi ilə bağlı xidmətlərə pulsuz çıxış əldə etməyə imkan verir. Bu versiya bir qədər məhdud ola bilər, lakin istifadəçi məsələn, logistika sahəsində bəzi əlavə funksiyalardan istifadə etmək istəyirsə, o zaman istehlakçı əlavə ödəniş etməklə yenilənmiş versiyanı əldə edə bilər.

Marketplace modeli, digər freemium modelləri kimi, satıcıların və alıcıların mal və xidmətlərin ticarəti üçün üçüncü tərəf platformasından istifadə etdikləri ikitərəfli bazara aiddir.

Bu biznes modelinin nümunələri istər logistika sahəsində, istərsə də nəqliyyat sektorunda xidmətlərin göstərilməsinə, düzgün işlərin görülməsi üçün şəraitin yaradılmasına əsaslanır.

Nəticə. Nəqliyyat xidmətlərinin rəqəmsallaşdırılması nəticəsində yük və sərnişin axınının idarə edilməsi, naviqasiya təminatı, nəqliyyat axınlarının avtomatlaşdırılması, informasiya sistemlərinin əlaqələndirilməsi təmin edilə bilər. Ümumiyyətlə, hər bir nəqliyyat növü tərəfindən göstərilən xidmətlərin rəqəmsal təşkili vacibdir. Eyni zamanda, son illər müxtəlif nəqliyyat növlərinin innovativ inkişafı istiqamətində, eləcə də tranzit nəqliyyat dəhlizləri çərçivəsində mövcud problemlər müəyyən edilib, onların aradan qaldırılması üçün təklif və tövsiyələr irəli sürülüb. Dünyanın digər ölkələri arasında sosial-iqtisadi əlaqələrin səmərəliliyinin artırılması, yük axınlarının inkişafı və əlverişli tənzimlənməsi məqsədilə ölkəmizdə hər bir nəqliyyat xidməti növü lazımi səviyyədə inkişaf etdirilir və nəqliyyat sistemi beynəlxalq standartlara uyğun təkmilləşdirilir. Respublikamızda nəqliyyat və logistika xidmətləri həyata keçirilərkən dövlət logistika operatorları tərəfindən yeni rəqəmsal biznes modelləri həyata keçirilir, yəni logistika bazarına daxil olmaq üçün rəqəmsal texnologiyaların üstünlüklərindən istifadə edilir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında logistika və enerji sahəsində xidmətlərin yeniləşdirilməsi və yaradılması üçün Dövlət Proqramı (2006-2015-ci illər).
2. Cümşüdov.SQ Avtomobil nəqliyyatının iqtisadiyyatı. Dərslik, Bakı-2000, 239 s.
3. İmanov.T.İ. Logistika əsasları. Dərslik, Bakı-2005, 474 s.

РЕЗЮМЕ

ПРИМЕНЕНИЕ И ЗНАЧЕНИЕ ИСКУССТВЕННЫЙ ИНТЕЛЛЕКТ, ИНФОРМАЦИОННЫЕ ТЕХНОЛОГИИ И ЦИФРОВИЗАЦИИ В ТРАНСПОРТНОЙ СФЕРЕ В МИРЕ И В АЗЕРБАЙДЖАНЕ

Мустафаев К.Р.

Ключевые слова: *цифровые модели, цифровые технологии, искусственный интеллект, инновации, электронизация, промышленная революция, логистика.*

Цель исследования - изучить цифровые модели транспортно-логистических услуг в мире и в Азербайджане, определить направления и перспективы их развития. В ходе исследования использовались методы анализа и синтеза. Практическая значимость исследования заключается в том, что логистические услуги могут коренным образом изменить экономику страны в целом в различных отраслях. Исходя из мирового опыта, более эффективное использование цифровых моделей является основным фактором создания в нашей стране более конкурентоспособной экономики и ускорения экономического роста. Результатом исследования является подготовка рекомендаций по формированию цифровой модели среды для достижения устойчивого развития транспортной отрасли страны. Данное исследование может привести к ускорению реализуемых государством мер в этом направлении по стимулированию развития цифровых моделей.

SUMMARY

APPLICATION AND IMPORTANCE OF ARTIFICIAL INTELLIGENCE, INFORMATION TECHNOLOGY AND DIGITALIZATION IN TRANSPORT IN THE WORLD AND IN AZERBAIJAN

Mustafayev K.R.

Keywords: *digital models, digital technologies, artificial intelligence, innovation, electronicization, industrial revolution, logistics.*

The purpose of the study is to study digital models of transport and logistics services in the world and in Azerbaijan, to determine the directions and prospects for their development. During the study, methods of analysis and synthesis were used. The practical significance of the study lies in the fact that logistics services can radically change the country's economy as a whole in various industries. Based on global experience, more efficient use of digital models is the main factor in creating a more competitive economy in our country and accelerating economic growth. The result of the study is the preparation of recommendations for the formation of a digital model of the environment to achieve sustainable development of the country's transport industry. This research can lead to the acceleration of government measures in this direction to stimulate the development of digital models.

TƏHLÜKƏSİZLİK XİDMƏTİ SİSTEMİNİN KONSEPTUAL MODELİ

Namazov Anar Müseyib oğlu, Məmmədova Laləzar Məhəmməd qızı

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
namazovanar@mail.ru

Açar sözlər: *təhlükəsizlik, istifadəçi, resurs, məhdudiyyət, çoxluq.*

Bir çox insan bizim imicimizdə süni intellekt sistemləri dizayn edir; Onlar bizim kimi düşünən, hiss edən və hərəkət edən texnologiyalarla bu problemi çox çətinlik çəkmədən həll edə biləcəyimizə dair yanlış inanca düşürlər. Diqqətlə hazırlanmış qaydalarla proqram təminatı yazaraq özünü insan kimi aparan süni ağıl yaratmaq həddindən artıq zəhmət və böyük maliyyə sərmayələri tələb edir. Bütün bu böyük səylərə baxmayaraq, əldə edilən nəticənin istədiyiniz kimi olacağına zəmanət yoxdur.

İzləmənin daha ağlabatan yolu, öz parametrlərini böyük məlumat dəstləri ilə avtomatik tənzimləyə bilən və sistemin strukturunda milyonlarla kiçik dəyişikliklər edə bilən sadə alqoritmləri qidalandırmaqdır ki, bu da bizim başa düşməyimiz üçün çox mürəkkəb olan daxili işləmə ilə ümumi bir kəşfiyyat əldə edir. meydana çıxır. Bu üsul üstündür ki, "addım-addım" hazırlanmış süni ağıl ideyasından daha az əziyyətli səy və maliyyə sərmayəsi tələb edəcəkdir.

Başqa bir yanlış fikir, süni intellekti insan davranışını təsvir edən məlumatlar üzərində öyrətməklə, onu düşünməyə və hiss etdiyimiz kimi hiss etdirə biləcəyimizdir. İnsan səviyyəsində bir süni ağıl dizayn edərkən izləniləcək yol insana bənzəyən süni intellekt yaratmaq deyil; İnsanları maarifləndirmək lazımdır ki, başa düşsünlər. Belə bir yolla getmək daha ağlabatan və məhsuldar bir cəhd olardı.

Süni intellekt bizi daxildən və xaricdən tanıya, dillərimizdə danışa və hərəkətlərimizi şərh edə, üz ifadələrimizi oxuya və hərəkətlərimizi proqnozlaşdıra biləcək. Bizi qəzəbləndirən, sevindirən, məyus edən və maraqlandıran şeyləri bilə biləcəksiniz; Biz insanlar olaraq necə yaxşı və pis, məntiqli və irrasional qərarlar qəbul etdiyimizi anlaya biləcək.

Nəhayət, bu super-ağıllı və şüurlu maşının zehni biz insanların şüuruna uzaqdan bənzəməyəcək. İnsanlar olaraq biz reallığı məhdud bioloji hisslərimiz və ümumiyyətlə məhdud zəkamızla dərk edirik. Digər tərəfdən, süni intellekt istənilən vaxt və hər yerdə hər cür sensora uzaqdan qoşula biləcək və təhlükəsizlik kameralarından tutmuş kompüterlərə, telefonlara və hətta peyklərə qədər hər cür elektron cihaza daxil olmaq və tədbir görmək gücünə sahib olacaq. eyni zamanda bütün internet.

Yəqin ki, atılacaq ən yaxşı ilk addım süni intellektin çox da uzaq olmayan gələcəkdə ortaya çıxacağını və bu güclü süni intellektin insan şüurunun rəqəmsal versiyası deyil, daha çox şey olacağını qəbul etmək və fərqində olmaq olardı. yad və güclü. Daha sonra bu böyük dönüş nöqtəsi haqqında daha çox yazmağa, bu barədə müzakirələr aparmağa və süni intellektin təhlükəsizliyi və süni intellekt etikasına dair böyük araşdırmalar aparmağa başlamalıyıq.

Bəzilərimiz üçün qarşıdan gələn təhlükəyə bu şəkildə baxmaq daha başa düşülən ola bilər: Təsəvvür edin ki, başqa bir ulduz sistemindən olan silahlı kosmik gəmilər donanması yaxın 20-30 ildə Yerə hücum edəcək və belə bir vəziyyətin aktuallığı. Hər il xarici kəşfiyyatla üz-üzə gələcəyimiz o ana hazırlıq baxımından əvəzsiz olacaq.

Süni intellektin gözlənilməz inkişafı növümüzün sonu ola bilər. Əgər belə bir zəka nədənsə bizdən xilas olmaq istəsə, "tıxacın çəkilməsi", "maşını söndürmək" kimi absurd fikirlər heç vaxt kifayət etməyəcək. İdrak funksiyaları insanlardan qat-qat üstün olan maşınla strateji mübarizə aparmaq qabiliyyətimiz demək olar ki, mövcud deyil.

Bu təcili vəziyyətdə, insanları izləmək və manipulyasiya etmək üçün nəzərdə tutulmuş süni intellekt sistemlərini tənzimləmək üçün dövlətlər tərəfindən müxtəlif təzyiqlər edilə bilər [3]/ Süni intellektin təhlükəsizliyi və süni intellekt etikası kimi sahələrə daha çox maliyyə sərmayəsi qoyula bilər və hökumətlər bu cür tədqiqatlar üçün maliyyə stimulları təmin edə bilər.

Bu cür texnologiyalar hələ ekzistensial təhlükə yaratmaya bilər, çünki onlar hazırda dünya hökmranlığı üçün deyil, AI reklamı üçün istifadə olunur. Ancaq düşüncələrimizi manipulyasiya etmək üçün əhvalımızı, davranışlarımızı və hisslərimizi izləyə bilən qabaqcıl süni intellekt texnologiyaları çox təhlükəlidir.

Bununla belə, insan intellektini əvəz etmək üçün istifadə etməkdənsə, süni intellektin insan intellektini dəstəkləmək və təkmilləşdirmək üçün istifadəsinə diqqət yetirmək daha faydalı olardı. Araşdırmalar da bunun daha effektiv olduğunu göstərir. Məsələn, Stenford Tibb Məktəbi ilə birgə nəşr olunan bir araşdırma göstərdi ki, kiçik həkim qruplarının əhəmiyyətli dərəcədə daha az səhvlə diaqnoz qoya bilən süni intellekt sistemləri ilə birlikdə işləməsi daha səmərəlidir [4]. Birləşmiş Millətlər Təşkilatının çatışmazlıqları proqnozlaşdırmaq üçün süni intellektdən istifadə etməsindən tutmuş, daha ağıllı proqnozlar və qiymətləndirmələr etmək üçün süni intellektdən istifadə edən biznes qruplarına qədər oxşar faydalar bir çox praktiki nümunələrdə də müşahidə edilmişdir [5].

Ədəbiyyat

1. Kahn J. An Offer You Can't Refuse: How A.i. Is Poised To Transform Negotiations. Eye On A.i. 2022
2. Rosenberg L. Swarm Intelligence: Ai Inspired By Honeybees Can Help Us Make Better Decisions. 2019
3. Rosenberg L. The Metaverse Will Be Filled With 'Elves' | Techcrunch. 2022
4. Scudellari M. Ai-Human "Hive Mind" Diagnoses Pneumonia. 2018
5. Rosenberg U. A. I. L. The Danger Of Ai Micro-Targeting In The Metaverse. 2021
6. Venture B. Deepmind Agi Paper Adds Urgency To Ethical Ai. 2023

РЕЗЮМЕ

ВОЗДЕЙСТВИЕ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В МИРЕ

Зейналова С.Дж.

Ключевые слова: *искусственный интеллект, машина, интеллект, сознание, технологии.*

Хотя первый искусственный интеллект будет провозглашен выдающимся творением, он также станет новой формой жизни, которая может представлять угрозу. Представьте себе сознательный искусственный интеллект, который «чужой» для нас, не имеет человеческого аспекта, обладает собственной волей и мышлением, позволяющим принимать независимые решения без контроля человека, и может значительно превосходить биологические пределы человеческого мозга, изменяя его.

SUMMARY

IMPACTS OF ARTIFICIAL INTELLIGENCE IN THE WORLD

Zeynalova S.J.

Keywords: *artificial intelligence, machine, intelligence, consciousness, technology.*

Although the first artificial intelligence will be hailed as an extraordinary creation, it will also be a new life form that can pose a threat. Imagine a conscious, artificial intelligence that is "alien" to us, has no human aspect, has its own will and thought to make independent decisions without human control, and can greatly exceed the biological limits of the human brain by changing it.

SÜNİ İNTELLEKT FƏLSƏFƏSİ HAQQINDA

Zərqanayeva İradə Zumrad qızı

Fəlsəfə və Sosiologiya İnstitutu, Bakı , Azərbaycan
iradazargan@gmail.com

Açar sözlər: *Süni intellekt, fəlsəfə, ağıl, iradə, qəzəb.*

Süni intellekt fəlsəfəsi texnologiyada məntiqi əməliyyatlardan istifadə proses və hadisələrinin nəticələrini, başqa sözlə, süni intellektə əsaslanan "mexaniki təfəkkür"ü öyrənir. Eyni zamanda, o, maşınların funksionallığından irəli gələn problemlərlə məşğul olur. İnsanın zehni-bədən qarşılıqlı əlaqəsini cihazlara tətbiq etmək hazırda mürəkkəb vəziyyətlər yaradır. Süni intellektin tətbiqi genişləndikcə, süni intellekt fəlsəfəsində yeni cərəyanlar yaranır.

Massaçusets Texnologiya İnstitutu Kompüter Elmləri laboratoriyasının direktorlarından biri olan Edvard Fredkinə görə "Tarixdə üç böyük hadisə vardır: Bunlardan birincisi kainatın yaranması, ikincisi həyatın yaranması, üçüncüsü süni intellektin yaranmasıdır" Bəşəriyyət tarixi hazırda üçüncü dövrünü yaşayır [4]. Maks Teqmark isə "Yaşam 3.0 - süni intellekt çağının insanı olmaq" (2019) əsərində bəşəri təkamülü üç

mərhələdə xarakterizə etmişdir: yaşam 1.0 - bioloji, 2.0 -mədəni, 3.0 - texnoloji təkamül. İnsan nəslinin təkamül tarixi:

1.0 mərhələsində proqram təminatı və avadanlıqlar olmadan, yalnız fitri zəka, təbii intellekt vasitəsilə baş verir;

2.0 mərhələsində təbii intellektlə yanaşı, mədəni inkişafın təsirləri, proqram təminatı (hissi məlumatların toplanması və emalı, qərar vermək üçün istifadə edilən alqoritmik hesablamalar, yazıb-oxumaq, danışıb-gülməyə qədər bütün emosional təəssüratlar təbii beyin olmasa belə, informasiya şəklində qorunub saxlanır, biliyin əldə olunması və yayılması bir an çəkir.

3.0 mərhələsində bəşəriyyət hər iki təkamül zəncirindən tamamilə azad - yeni proqram təminatı və super süni intellektə sahib robotlarla idarə olunur [3].

Süni intellektin məzmununu anlamaq üçün əvvəlcə insanın diğər canlılardan fərqini ifadə edən üç açar söz üzərində durmaq lazımdır: qavrayış, bilik və intellekt. İntellekt əqli funksiyaların yerinə yetirilməsinə, insanlarda müşahidə, qavrama, təfəkkür və dərketmə qabiliyyətlərinə, eləcə də yadda saxlamaq, təsəvvür etmək, qiymətləndirmək, mühakimə aparmaq kimi əməliyyatların yerinə yetirilməsinə xidmət edir. Süni intellektin yaradılmasında insan ağlının iki əsas funksiyası: qavrayış və təfəkkür nəzərə alınmışdır. Şüurda baş verənlər başqaları tərəfindən müşahidə edilə bilmir, başqa sözlə, zehndə baş verən hər şey yalnız insanın özünə məlumdur. Fəlsəfənin əsas funksiyası, məhz insanın daxili aləminin zahirə yansıdılması, hikmətin tədqiqidir.

"Süni intellekt" anlayışı insanların ağılla əlaqədar - "öyrənmək" və "problemləri həll etmək" kimi idrak funksiyalarını təqlid edən maşınları xarakterizə etmək üçün istifadə olunur. Süni intellekt (Sİ, ingiliscə: AI - Artificial Intelligence) insanlara xas olan təbii zəkanın maşınlara tətbiqi təcrübəsidir. Sİ hazırda əsasən iki kateqoriya üzrə aparılır: Ümumi Süni İntellekt (ÜSİ - ingiliscə Artificial General Intelligence - AGI) və Bioloji süni intellekt (BSİ - ingiliscə: Artificial Biological Intelligence ABI) - təbii zəkanı təqlid etmək cəhdləri. Lakin yaxın gələcək üçün SSİ (super süni intellekt) haqqında proqnozlar da verilir.

ÜSİ və BSİ öz mühitini hiss edən və məqsədə çatmaq üçün maksimum hərəkətləri yerinə yetirən cihazlara verilən funksiyalardır. Sİ maşınlara insana məxsus təcrübələri öyrənməklə yanaşı, yeni şəraitlərə uyğunlaşmaq və insanın yerinə yetirdiyi tapşırıqları icra etmək imkanı verir. Bu gün elmə məlum olan Sİ nümunələrinin əksəriyyəti: şahmat oynayan kompüterlərdən özü idarə olunan avtomobil və müxtəlif modifikasiyalı dronlara qədər, hamısı dərin araşdırmalar və təbii dilin əmrlərinin işlənməsinə əsaslanır. Maşınların "bacarıqlar"ı artdıqca, "intellekt" tələb edən vəzifələr adi texnologiyaya çevrilir. Bu texnologiyalardan istifadə etməklə, kompüterlər böyük həcmdə verilənləri emal edə və verilənlərdəki nümunələri tanımaqla xüsusi tapşırıqları yerinə yetirə bilirlər.

Hazırda süni intellekt dünyanın aktual elmi tədqiqat sahələrindəndir. İnsan süni intellekt yaratdıqdan sonra bu intellektin iş prinsipinin tənzimlənməsi problemi ortaya çıxmışdır. İnsanların düşüncə mədəniyyəti fəlsəfə ilə inkişaf etdiyi kimi, süni intellektin nəticələri də "süni intellekt fəlsəfəsi" sahəsində araşdırılır.

Məlumdur ki, məntiqi əməliyyatlar: "Bütün insanlar ölür. Sokrat insandır. Deməli, Sokrat da öləcək" məşhur ifadəsindəki sistem üzrə işləyir. Kompüterlər də oxşar funksiya əsasında verilənlərdən nəticə çıxarır. İnsanların düşüncə formaları proqram təminatında modelləşdirilir. Hazırda müəyyən kontekstdə verilmiş sözün mənası haqqında məlumatı kompüter müəyyən edə bilir. Bu baxımdan, bəzi müddəaların və nəticələrin verildiyi cümlələrdən əskik müddəanın çıxarılması və ya verilən bütün müddəalardan ortaq nəticənin əldə edilməsi üçün aparılan araşdırmalar böyük əhəmiyyət kəsb edir.

Alan Türinqin və Stiven Houkinqin söylədikləri kimi, süni intellektin insanların həyatını təhdid edəcəyi haqqında ehtimallar mövcuddur [4]. Belə ki, insanlar informasiyadan nəticə çıxaran, yeni nəzəriyyələr inkişaf etdirən və ya nəzəriyyələr arasında naməlum əlaqələri tapan süni sistemlər yaradırlar. Müasir proqram tərtibatçıları kompüteri birbaşa olaraq, "özünü dərk etmə"yə proqramlaşdıra bilirlər. Kompüterin özü haqqında faktları aşkara çıxarmaq üçün güzgü metodundan istifadə olunur. Bu zaman "Güzgü testi" kompüterin idrakı rolunu oynayır. Bu halda o yalnız başqasını deyil, həm də "özünü dərk edə", dəyərləndirə, müvafiq funksiya seçə və dəyişdirə bilir. ÜSİ qabiliyyətinə "özünüdərketmə" funksiyasının verilməsi süni intellektə təbii intellekti təqlid etmək imkanı verir. Beləliklə, ÜSİ-in köməyi ilə cihazlar "özlərini dərk edə", öz "mənlikləri" də daxil olmaqla hər cür dərin və incə məsələləri "qavraya" (proqramlaşdıra) və həyata keçirə (müvafiq əməliyyat icra edə) bilirlər. Bu halda maşın özünü ağıllı adam kimi aparır.

Hazırda süni intellektin həyata daxil olması "süni intellekt etikası", "süni intellekt estetikası", "hüquq və Sİ" kimi yeni fəlsəfi istiqamətlərin yaranmasına səbəb olmuşdur. Rusiyalı mütəxəssislər süni intellektin fəlsəfi-metodoloji və elmi-nəzəri problemlərini ilkin olaraq 11 istiqamətdə həll etməyi qarşılarına məqsəd qoymuşlar: 1) elektron mədəniyyət, 2) futuroloji layihələr və Sİ, 3) süni şəxsiyyətlər, cəmiyyət və dünyalar, 4)multiagent superkompüter tədqiqatları, 5) paralel və antropoform işlər, 6) kompüter dünyası yaradıcılığı, 7) intellektual texnologiya və təhsil, 8) biliklərlə idarəetmə, 9) refleksiv proseslərin idarə

olunması, 10) kiberfiziki reallıq və insan, 11) neyrofəlsəfə. Bu məqsədlə Rusiya Elmlər Akademiyası başda olmaqla ali təhsil mərkəzlərində və regionlarda nəzəri-praktik fəaliyyətlərə start verilmişdir [1].

İnsanın öz bioloji intellektinə əli ilə yaratdığı Sİ vasitələrini əlavə etməsi düşüncə gücünə güc qatmış, əhatə dairəsi və sürətini hədsiz artırmışdır. Bəşəriyyət artıq Sİ-in yaratdığı inqilabi sıçrayışın nəticələri ilə qarşı-qarşıyadır. Məhz bunu nəzərdə tutan Erik Brunjolfson demişdir: "Süni intellekt sahəsindəki güclü irəliləyiş yaxın tarixdə insanlığın zirvəsi və ya tənəzzülünə səbəb ola bilər" [3].

Alınmış mühüm elmi nəticələr:

1. Süni intellekt fəlsəfəsi zehni durum vəziyyətlərinin davranışlarla əlaqələndirilərək texnikaya intiqalı hadisə və proseslərini izah edir. Eyni zamanda maşınların funksionallığından yaranan problemlərin həlli ilə məşğul olur. Ağıl-bədən qarşılıqlı əlaqəsinin cihazlara intiqalı fərqli situasiyalar yaradır. Süni intellektin tətbiq sahələri genişləndikcə, süni intellekt fəlsəfəsində yeni istiqamətlər yaranır.

2. İnsan düşüncəsi azad olduğu kimi, fəlsəfə - düşüncə mədəniyyəti də dəyişgəndir. Ağıl, iradə qəzəb və şəhvət hissləri onu fərqli istiqamətlərə yönəldə bilir. Süni intellekt isə azad deyildir: istehsalçısının iradəsinə tabedir. Onun azadlığı verilənlər bazası və təyini funksionallıq hədləri ilə məhduddur.

Ədəbiyyat

1.https://cyberleninka.ru/article/n/filosofiya-iskusstvennogo-intellekta-v-rossii-s-nachala-veka-po-nastoyaschee-vremya/viewer

2. Kordon Arthur K. Applying Computational Intelligence: How to Create Value. Heidelberg: 2010, 447 p.

3. Tegmark Max. Yaşam 3.0 - yapay zeka çağında insan olmak (2019) Pegasus yayınları. İstanbul: 2019, 462 səh.

4. Turing Alan (1950) Computing Machinery and Intelligence. Mind 49: p. 433-460. https://redirect.cs.umbc.edu/courses/471/papers/turing.pdf 22.12.22

РЕЗЮМЕ
О ФИЛОСОФИИ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА
Зарганаева И.З.

Ключевые слова: *Искусственный интеллект, философия, разум, воля, гнев.*

Философия искусственного интеллекта изучает результаты процессов и явлений применения логических операций в технике, иначе говоря, «механического мышления», основанного на искусственном интеллекте. При этом он занимается проблемами, возникающими из-за функциональности машин. Применение взаимодействия человеческого разума и тела к устройствам в настоящее время создает сложные ситуации. По мере расширения применения искусственного интеллекта возникают новые тенденции в философии искусственного интеллекта.

SUMMARY
ABOUT THE PHILOSOPHY OF ARTIFICIAL INTELLIGENCE
Zarganaeva I.Z.

Keywords: *Artificial intelligence, philosophy, reason, will, angerreason, will, anger.*

The philosophy of artificial intelligence studies the results of processes and phenomena of the application of logical operations in technology, in other words, "mechanical thinking", based on artificial intelligence. At the same time, he deals with problems arising from the functionality of machines. Applying human mind-body interaction to devices currently creates complex situations. As the application of artificial intelligence expands, new trends in the philosophy of artificial intelligence are emerging.

ЭКСПЕРИМЕНТАЛЬНОЕ ИССЛЕДОВАНИЕ ПРОЦЕССА РЕГУЛИРОВАНИЯ СТЕПЕНИ СЖАТИЯ ДВИГАТЕЛЯ ВНУТРЕННЕГО СГОРАНИЯ

Амирбекова Насиба Сирадж кызы

Сумгаитский государственный университет, Сумгаит, Азербайджан
nasibacamal@gmail.com

Ключевые слова: *двухвальные двигатели, степень сжатия, расход топлива, экспериментальное исследование, автоматизация, регулирование, график, коленчатый вал.*

В материале рассматривается вопрос обоснования важности применения двигателя внутреннего сгорания на основе экспериментального исследования ее технических характеристик - скорости коленчатого вала при различных степенях сжатия. На основе экспериментальных табличных данных построена графическая характеристика полного цикла работы двигателя на

сжатие, обеспечивающая процесс приближения указанных характеристик при большей скорости к характеристикам с меньшей скоростью с увеличением степени сжатия двигателя.

Анализ технологических процессов подобных производственным предприятиям машиностроения, где на оборудованиях осуществляются сложные операции обработки, резки, сверления и др., на автоматизированных линиях требуются применения исполнительных механизмов с изменяющимися нагрузками [1]. Для эффективности функционирования автоматизированной системы управления производственной линии изготовления механических изделий на уровне информационного измерения и исполнительных механизмов двигателей оборудований и промышленных роботов реализация вопроса исследования характеристик подобных двигателей с разными нагрузками сжатия, изменениями давления и температуры в период работы оборудования является научно-актуальной проблемой. При этом требуется экспериментальное исследование и принятие соответствующего решения для регулирования входных данных двигателей активных элементов производственного процесса механосборочного предприятия [2, 3].

Проведя технологический анализ исследуемой механосборочной производственной линии для регулирования двигателей токарного, фрезеровочного и сверлильного станков определены данные, представленные в таблице.

Таблица.

Распределение давления в зависимости от удельного объема для характеров горения m=1 и m=3 при 2000об/мин. и 4000об/мин. коленвала для степеней сжатия $\varepsilon = 8{,}6$ и $\varepsilon = 13$

α_0	φ_0	$\varepsilon = 8{,}6$ $P / кг / см^2$					$\varepsilon = 13$		
		v $м^3 / кг$	$m = 3$		$m = 1$		$Vм^3КГ$	$p, кг / см^2$	
			2000об / мин $\varphi_z = 46°$	4000об / мин $\varphi_z = 92°$	2000об / мин $\varphi_z = 46°$	4000об / мин $\varphi_z = 92°$		4000об / мин	4000об / мин
-24	0	0,2065	9	9	9	9	0,1607	12,7	12,7
-22	2	0,1967	8,40	8,57	8,4	8,4	0,1500	10,07	12,56
-20	4	0,1879	7,8	8,02	8,43	8,01	0,1411	9,14	10,53
-18	6	0,1794	7,36	7,58	9,52	7,92	0,1324	8,38	12,10
-16	8	0,1721	7,05	7,17	12,23	8,24	0,1248	7,70	12,06
-14	10	0,1655	6,78	6,88	15,54	8,88	0,1179	7,10	13,89
-12	12	0,1598	6,91	6,04	19,40	7,58	0,1125	6,77	16,57
-10	14	0,1551	7,52	6,46	26,67	11,18	0,1070	6,39	19,80
-8	16	0,1511	8,68	6,40	28,17	10,80	0,1028	6,50	23,23
-6	18	0,1480	10,65	6,19	32,59	12,77	0,0996	6,89	27,03
-4	20	0,1458	14,43	6,93	36,10	14,90	0,0973	7,79	31,47
-2	22	0,1445	17,32	6,90	38,38	17,39	0,0958	9,38	35,90
0	24	0,1440	29,18	7,44	42,21	20,64	0,0954	11,60	40,28
2	26	0,1445	27,90	8,90	44,77	29,57	0,0958	14,75	45,57
4	28	0,1458	33,98	8,83	47,05	36,30	0,0973	8,12	53,84
6	30	0,1480	39,74	9,66	48,90	28,78	0,0996	22,0	52,73
8	32	0,1511	44,63	10,50	50,20	31,01	0,1028	25,74	55,07
10	34	0,1511	48,35	12,54	50,40	32,69	0,1070	29,28	56,60
12	36	0,1598	50,00	12,57	50,00	33,92	0,1125	33,00	56,62
14	38	0,1654	51,00	13,60	48,26	34,76	0,1179	36,43	54,87
16	40	0,1721	50,00	14,64	48,01	34,76	0,1248	39,34	53,20
18	42	0,1794	48,37	15,78	46,28	34,72	0,1324	41,85	51,12
20	44	0,1879	46,25	16,71	44,27	34,40	0,1411	42,97	48,08
22	46	0,1867	45,53	17,86	41,93	33,55	0,1500	42,7	44,77
24	48	0,2065	44,00	18,50	39,66	32,69	0,1608	40,88	42,96

Для определения состояния цикла регулирования операций управления сжатия двигателя на обработку, резку и сверления заготовок, строится график полного цикла работы двигателя на сжатие по точкам a_o и при ε=8,6 , а также при $\varepsilon = 13$ (рис.).



Рисунок. График полного цикла работы двигателя на сжатие по точкам a_o (ряд 1) и при $\varepsilon = 8{,}6$ (ряд 3-8), $\varepsilon = 13$ (ряд 9 и 10)

Делая вывод из построенной таблицы 1 и построенного графика можно отметить, что увеличивая степень сжатия с 8,6 до 13 при скорости 4000 об/мин коэффициент полезного действия восстанавливается и соответственно уменьшается расход топлива. Данный эксперимент позволяет построить более оптимальный режим работы двигателя при автоматизации процесса регулирования двигателей механосборочной производственной линии.

Литература

1. Береснев М.А. Метод L-вариаций для управления ДВС при работе на бинарном топливе. Известия ЮФУ. Технические науки, №3. 2012. с.251-256.
2. Christodoulou F., Megaritis A. Experimental investigation of the effects of simultaneous hydrogen and nitrogen addition on the emissions and combustion of a diesel engine // International Journal of Hydrogen Energy. 2014. № 39. P. 2692-2702.
3. Алиев И.Р., Мамедов Д.Ф., Абдуллаев К.С. Создание математического обеспечения для точности выбора технических свойств кран-манипулятора механосборочного участка. Транспортное машиностроение. 2023. № 6(18), с. 21-31.

XÜLASƏ
DAXİLİ YANMA MÜHƏRRIKININ SIXILMASININ TƏNZİMLƏNMƏSİNIN EKSPERİMENTAL TƏDQİQI
Əmirbəyova N.S.

Açar sözlər: *ikişaftlı mühərriklər, sıxılma nisbəti, yanacaq sərfiyyatı, eksperimental tədqiqat, avtomatlaşdırma, tənzimləmə, qrafik.*

Materialda daxili yanma mühərrikinin texniki xüsusiyyətlərinin - müxtəlif sıxılmasının eksperimental tədqiqi əsasında texnoloji prosesin səmərəli idarə edilməsi məsələsi əsaslandırılmışdır. Eksperimental cədvəl məlumatlarına və bu verilənlərin köməyi ilə qurulan qrafikə əsasən tədqiq olunan texnoloji prosesin idarəetmə sisteminin mühərrikinin optimal iş rejimləri müəyyən edilmişdir.

SUMMARY
EXPERIMENTAL RESEARCH OF INTERNAL COMBUSTION ENGINE COMPRESSION REGULATION
Amirbekova N.S.

Keywords: *two-shaft engines, compression ratio, fuel consumption, experimental research, automation, regulation, graph.*

On the basis of the experimental research of the technical characteristics of the internal combustion engine - different compression in the material, the issue of efficient management of the technological process is substantiated. The optimal operating modes of the engine of the technological process control system under study were determined based on the data of the experimental table and the graph constructed with the help of these data.

SÜNİ İNTELLEKTİN MODELLƏŞDİRMƏ ÜSULLARI VƏ VASİTƏLƏRİ
MODELİNG METHODS AND MEANS OF ARTİFİCİAL İNTELLİGENCE
МЕТОДЫ МОДЕЛИРОВАНИЯ И ИНСТРУМЕНТЫ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА

REZONATOR İNTERFEROMETR ƏSASINDA MEXANİKİ GƏRGİNLİYİN ÖLÇÜLMƏSİ EKSPERİMENTİNİN APARILMASI

Namazov Anar Müseyib oğlu, Nağıyeva Südabə Firuddin qızı,
Qurbanova Rəqsanə Alim qızı

Sumqayıt Dövlət Universiteti, Azərbaycan
namazovanar@mail.ru

Açar sözlər: *İnterferometr, detektor, akustik, lifli-optik, faza modulyatoru.*

Kompüter simulyasiyası yolu ilə Sanyaq interferometri əsasında quraşdırılan baza konfiqurasiya sisteminə tezliklər fərqi çeviricisi əlavə etməklə mexaniki gərginliyin təsiri ilə optik lifin yerdəyişməsinin interferensiya zolağının sürüşməsinə təsiri müəyyənləşdirilmiş və həssaslıq parametri qiymətləndirilmişdir.

Sanyak interferoetrinin fırlanması əsasında istənilən xarici mühitin parametrlərini təcrübi olaraq ölçmək olar. Bunun üçün tezlikdən asılı olaraq və tezlikdən asılı olmayan, həssaslıq qabiliyyətinə malik olan xüsusi qurğu interferometr işləyib hazırlamaq lazım gəlir.

Əvvəlcə xarici mühitin parametrlərini əyani surətdə ölçmək üçün bir neçə metodu nəzərdən keçirək.

Xarici mühitin dəyişməsi yəni səsin titrəyişi və yayılmasının dəyişməsi, akustik lifli-optik vericinin yüksək həssaslığı, hərbidə hidro-akustik antenalarda, sualtı gəmi və qayıqların hücumuna qarşı müdafiəsi zamanı sanyak interferometri xarici görünüşünü dəyişir.

İstifadə edilən metod sanyak interferometri yüksək tezlikli alternativ interferometrdir.

Sanyak interferometri əsasən akustik işıq mənbəyinin gücləndirilməsində, akustik işıq dalğalarının faz modulyasiyasının sxemlərində istifadə edilir [1,2].

İşıq mənbəyini gücləndirmək üçün sanyak interferometr əsasında akustik vericilərin sxemi şəkil 1-də göstərilmişdir. Sxemin iş prinsipi lazerdən və ya lazer diodlarından ötürülən şüalar giriş və çıxış bölücülərindən keçərək işığı detektora ötürür.



Şəkil 1. İşıq mənbəyini gücləndirmək üçün Sanyak interferometri əsasında akustik verici

İşıq şüasının qalan hissəsi işıq bölücüsünün mərkəzində parçalanır və optik lif vasitəsilə həssas akustika əks istiqamətdə çarxa qayıdır. Əks istiqamətdə çarxa daxil olan şüa (işıq) bərabər paylanır.

Akustik dalğanın və fazalar nisbətinin polyarlığının təsirindən çarx formasını dəyişir, yəni modifikasiya olunur. İşıq mənbəyinin çıxış siqnalı qurğunun çıxış siqnalına uyğun olaraq emal edilir.

Anoloji olaraq qayıdan işıq şüasının polyarlığı və intensivlik səviyyəsi modulyasiya edilir.

Tutaq ki, tədqiq olunan akustik dalğanın uzunluğu dolağın ölçüsündən böyükdür. Məsələn: suda səsin tezliyi təxminən 1500m/dəq. və 15 khs tezlikdə dalğanın uzunluğu 1m təşkil edir. Bunun üçün iki

xarici görünüşlü əlverişli həssaslığa malik olan lifli-optik dolaqdan istifadə olunur. Akustik dalğanın bir yarısı izolyasiya olunmuş dolaqdan digər yarısı isə yüksək həsaslığa malik olan əlverişli həssas sistemdir.

Optimal həssaslıq üçün optik lifin ekranlaşdırılması sistemi şəkil 2-də göstərilmişdir [3].



Şəkil 2. Optik lif üçün optimal həssaslığın ekranlaşdırılması

Dolaqda təzyiqin zamandan asılılığı dp/dt-dir. Müxtəlif vaxtlarda şüasının saat əqrəbi istiqamətində paylanması yn/c, əks istiqamətdə paylanması isə (L-y)·n/c-dir.

Lifin uzunluğundan asılı olaraq təzyiqin dəyişməsini göstərən sistem

$$R[P(t)] = \int_{o}^{L} \left[G(y;p) \frac{dp(2y-L)\cdot n}{C} \right] dy \qquad (1)$$

bərabərliyi ilə təyin edilir. Burada n-lifli dolağın əyilməsini göstərir. h-lifli dolağın uzunluğu, c-vakuumda işığın sürəti, G(y;p) – y nöqtəsində dalğanın təzyiqidir (təzyiq ya fazın ya da polyarlığın dəyişməsi zamanı lifin vəziyyətidir).

(1) bərabərliyini analiz etsək görərik ki, bu sistem əlverişli vəziyyətə cavab verir.

Lifli dolağın (makaranın) işıq bölücüsü arasında polyarizatorun yerləşdirilməs ilə polyarlığı saxlamaq mümkündür. Bu cür sistemin sxemi şəkil 1-də göstərilmişdir.

Bu sistemdəki lifli dolaq ən minimum (kiçik) polyarlıq üçün effektlidir.

Sonralar daha güclü işıq mənbəyindən və güclü lazer diodlarından və ya işıq diodlarından istifadə etməklə sistem yeniləşdirilir (modifikasiya edilir). Bu halda xarici işıq mənbəyinin əks istiqamətdə paylanması zamanı koherentlik azalır, güclənmə zəifləyir. Beləliklə, faza sürüşməsinin formasının dəyişməsini ölçmək mümkün olur.

Faza modulyasiyasını qeyd edən sanyak interferometrinin sxemi şəkil 3-də göstərilmişdir.

Lifli-optik dolaqda faz sürüşməsinin əks istiqamətdə paylanmasının polyarizasiya effekti şəkil 1-də göstərilən sxem adi dairəvi dolaqda (makarada) şəkil 4-də göstərilən ürəkşəkilli bir modlu sistem ilə eynidir.



Şəkil 3. Faz modulyasiyasını qeyd edən Sanyak interferometri

Ancaq bu sxemdə gücləndirilən işıq mənbəyindən istifadə edilmir ki, bu da xarici mühitdən asılı olmayan sanyak interferometri əsasında akustik vericidir.



Şəkil 4. Sanyak interferometri əsasında akustik vericinin konfiqurasiyası (xarici göğrünüşü)

Mexaniki gərginliyin və lifli optik çarxın ölçülməsi üçün xarici mühitin dəyişməsinə əsaslanan sanyak interferometri şəkil 5-də göstərilmişdir.

Bu sistemə tezlik çeviricisi əlavə edilmişdir ki, bu da lifdə işığın tezliyinin əks istiqamətdə paylanan tezlikdən fərqləndirir [4].

Nəhayət bütün lif boyunca işığın axmasının həssaslığı aşağıdakı formula ilə təyin edilir.

$$Z_F = \frac{Ln}{c} \cdot F \tag{2}$$

Əgər L uzunluğu dL differensial kəmiyyətdirsə, işığın axmasının dəyişməsi $dZ = \frac{dLn}{c} \cdot F$ ilə təyin edilir.

Tezliyin differensial formada dəyişirsə, işıq xəttinin sürüşmə tezliyi

$$dZ_F = dF \frac{(L + dL) \cdot n}{C} \tag{3}$$

ilə təyin edilir.

Əgər işıq xəttinin sürüşmə tezliyi lifin uzunluğunun dəyişməsindən asılıdırsa yəni $dZ_L = dZ_F$ olarsa, onda

$$dL = \frac{LdF}{F} \quad \text{(proporsional)} \tag{4}$$



Şəkil 5. Lifli dolağın uzunluğunun ölçülməsi üçün xarici mühitin dəyişməsinə əsaslanan Sanyak interferometri

olacaq. (4) bərabərliyi sanyak interferometri üçün əsaslı bərabərlikdir. Belə interferometr mexaniki gərginliyin nəzarəti üçün istifadə edilir.

Ədəbiyyat

1. Э.Удд. Волоконно-оптические датчики/под.ред. Э.Удда-М:Техносфера, 2008, 520 с.
2. W.H.Glenn and R.G.Tomlinson, Optical Pressure Sensor, U.S.Patent 4, 368, 645 (1983).
3. W.B.Spillman, Jr., Multimode Fiber-Optic Pressure Sensor Based on the Photoelastic Effect, Opt. Lett. 7, 388 (1982).
4. W.B.Spillman and Jr. and D.H.McMahon, Multimode Fiber Optic Sensors Based upon the Photoelastic Effect, Proc. SPIE 110, *Fiber Optic and Laser Sensors*, Arlington, Va., 1983.

РЕЗЮМЕ
ПРОВЕДЕНИЕ ЭКСПЕРИМЕНТА ПО ИЗМЕРЕНИЮ МЕХАНИЧЕСКОГО НАТЯЖЕНИЯ НА ОСНОВЕ РЕЗОНАТОРНОГО ИНТЕРФЕРОМЕТРА

Намазов А.М., Нагиева С.Ф., Гурбанова Р.А.

Ключевые слова: *Интерферометр, детектор, акустический, оптоволоконный, фазовый модулятор.*

Путем компьютерного моделирования, путем добавления в базовую конфигурацию системы, установленной на базе интерферометра Саньяга, преобразователя разности частот, определено влияние смещения оптоволокна под действием механического напряжения на смещение интерференционной полосы и оценивался параметр чувствительности.

SUMMARY
CONDUCTING AN EXPERIMENT TO MEASURE MECHANICAL TENSIONS BASED ON A RESONATOR INTERFEROMETER

Namazov A.M., Nagieva S.F., Gurbanova R.A.

Keywords: *Interferometer, detector, acoustic, fiber optic, phase modulator.*

By means of computer modeling, by adding a frequency difference converter to the basic configuration of the system installed on the basis of the Sanyag interferometer, the effect of the displacement of the optical fiber under the action of mechanical stress on the displacement of the interference fringe was determined and the sensitivity parameter was estimated.

О КОМПЛЕКСИРОВАНИЕ ЦЕЛОСТНЫХ МОДЕЛЕЙ ДИНАМИЧЕСКИХ СИСТЕМ В СИТУАЦИОННОМ УПРАВЛЕНИИ ПРОМЫШЛЕННЫМИ ОБЪЕКТАМИ В УСЛОВИЯХ СТРУКТУРНЫХ ВОЗМУЩЕНИЙ

[1]Нагиев Али Гасан оглы, [2]Магеррамов Закир Тулу оглы, [3]Нагиев Гасан Али оглы

[1]Сумгаитский государственный университет, Сумгаит, Ажербайджан
[2]Азербайджанский государственный университет нефти и промышленности, Baku, Azerbaijan
[3] Институт математики и механики, Baku, Azerbaijan
[1]alinagiev@gmail.com , [2]hasan.nagiev@gmail.com, [3]zakirmaharramov@rambler.ru

Ключевые слова: *Нелинейная динамика, ситуационное управление, система с переменной структурой.*

Рассматривается задача управления сложными технологическими процессами, отличающимися наличием множества внешних условий, приводящих к критическим режимам их проведения. Критическими классифицируются такие состояния объектов, которые приводят к существенным видоизменениям математической модели для управления. Обсуждается подход к формированию некоторой целостной математической записи, которая объединяет множество моделей, отражающих основные закономерности движения объекта в пространстве состояний, единой для всех систем локальных дифференциальных уравнений. Анализируется принципиальные особенности сформулированной задачи, с точки зрения методологии построения рекуррентных схем направленного поиска оптимального решения.

Введение

К настоящему времени уровень автоматизации производственных технологических систем достиг тех высот, что привлечение цифровой техники в процесс оценивания критичности состояния, селективный динамический подход к выбору критерий управления в этих условиях могут решаться комплексно. Выработка стратегий управления согласно типу критической ситуации, могла бы быть перенесена на уровень интеллектуализации самого процесса выбора, например, посредством автоматической классификации и распознавания собственно возникшего состояния, однако здесь имеется весьма серьезный фактор сдерживания. Он в основном состоит в чрезвычайной динамичности и сложности производственных условий, в потребности действия разносторонних поддерживающих подсистем, реализация которых, как правило, не укладываются в рамки бизнес-проблем промышленного предприятия. К настоящему времени производство не готово к воплощению той сферы интеллектуализации по целому ряду причин. Не касаясь детализации этих причин, приведем только пример производственным системам управления, требующим ситуационного подхода к управлению. Им может послужить система управления сложными динамическими системами, включающими несколько технологических цепей, связанных между собой материальными и энергетическими связями. Нарушения в каком-либо узле в этой цепи, неизбежно вызовут критичность ситуации с требованием безотлагательности принятия соответствующих решений уже на базе модели, отвечающей этой ситуации.

Здесь просматриваются два подхода к проблеме. Один из них декомпозиция глобальной задачи на ряд подзадач с собственными критериями, другой - вовлечение всех составляющих элементов в единый комплекс динамической модели с расширением пространства фазовых состояний и перенесение исследование в область распознавания ситуаций, и соответственно в сферу одной из альтернатив управления в их конечном множестве.

Предпочтения, отдаваемые именно второму подходу, основаны на развитости современных алгоритмических возможностей идентификации нелинейных динамических систем и на достижимости технических реализаций этих алгоритмов с использованием непосредственно производственных данных.

Постановка задачи

Имеем автономную нелинейную динамическую систему, в виде суммы n числа локальных (взаимоисключающих) моделей, охваченных в единую запись с привлечением соответствующих ключей $k_j,\ j=\overline{1,n}$:

$$\frac{dx_i}{dt} = \sum_{j=1}^{m} k_j \varphi_{ji}(\boldsymbol{x}, u_j, v_j);\ x \in \left(\cup G_j\right) \subset \square^n;$$

$$u_j \in U_j; v_j \in V_j;\ k_j = \begin{cases} 1,\ if\ \ \psi(\boldsymbol{x}, \dot{\boldsymbol{x}}, \boldsymbol{v}_j) = \text{j}; \\ 0,\ \text{otherwise} \end{cases} \tag{1}$$

где $x_i, \dot{x}_i; i = \overline{1,n}$, переменные состояния и их производные по времени; $u_j, v_j, U_j, V_j -$ соответственно управление, фактор возмущения и соответствующие для них допустимые множества; $G_j -$области в декартовом пространстве $\square^n$, для которых принимается предположение о выпуклости их объединения; $m -$число возможных ситуаций соответствующих локальным моделям; $z = \psi(\boldsymbol{x}, \dot{\boldsymbol{x}}, v_j)$- функция признаков с целочисленными значениями, соответствующими номерам локальных моделей.

Подобная стратегия расширения фазового пространства, очевидно, отразится на правиле задания начальных условий. Обозначим начальные и концевые точки движений согласно модели по номеру j как: $x(t_{j(s+1)}) = x(t_{j(s)})$ где выражения $x(t_{j(s+1)}), x(t_{j(s)}) -$указывают соответственно на конечную и начальную точки траекторий, а через s выражен номер в последовательности переключений, т.е. $s = 0,1,2,...$

Пусть заданы некоторый признак, определяющий ситуацию в начале управления k_{j*} , начальное $x(t_{j*(0)})$, и конечное состояние $x(t_{j(s*)})$ объекта. Требуется определить оптимальную траекторию, достижения конечного состояния за конечное число переключений, осуществив управления во множествах $u_j \in U_j$, при этом, не превышая заранее определенной величины заданного критерия. Очевидно, не зависимо от типа критерия оптимальности будем иметь принципиальную особенность этой задачи, во-первых по отношению того, что в данном случае вектора управлений и их допустимые множества окажутся различными в соответствие локальной модели. Далее, вектор переключений, относящийся так же к управлению и являющийся аргументом функционала цели, не снабжен какой-либо математической конструкцией воспроизведения его градиента.

В кругу подобных вопросов в некоторых аспектах можно отыскать некоторые близости к проблеме систем с переменной структурой, которая в 60-80-е годы имела некоторое удачное применение в задачах стабилизации линейных многомерных систем [1]. В то же время известные в этой области ряд практических решений, где ключевым являлось построение скользящих режимов за счет введения нескольких переключающихся структур, концептуально не согласуются с данной постановкой. В данной постановке множество структур именно в объекте, а переключения создаются целенаправленно для достижения заданного состояния. Данная постановка отличительно еще и тем, что здесь, так или иначе, затрагивается проблема разработки специальных метрик, которые должны послужить основой создания алгоритмов направленного поиска оптимальных решений.

Литература

1. Цветков В.Я. Ситуационное управление. //Современные технологии управления. №2, 2023, https://sovman.ru/article/10204
2. Теория систем с переменной структурой: Под ред. С.В. Емельянова. Publisher, Наука, 1970.

XÜLASƏ

STRUKTUR DƏYIŞMƏLƏRINƏ MƏRUZ QALAN SƏNAYE OBYEKTLƏRININ SITUASIYAYA GÖRƏ IDARƏ OLUNMA MƏSƏLƏSINDƏ DINAMIKA MODELLƏRININ KOMPLEKSLƏŞDIRILMƏSI HAQQINDA

Nağıyev Ə.H., Məhərrəmov Z.T., Nağıyev H.Ə.

Açar sözlər: *Qeyri-xətti dinamika, situasiyaya görə idarəetmə, dəyişən strukturlu sistemlər.*

Həyata keçirilməsində kritik rejimlərin yaranmasına səbəb olan bir sıra xarici şərait faktorunun mövcudluğu ilə xarakterizə olunan mürəkkəb texnoloji proseslərin idarə edilmə problemi nəzərdən keçirilir. Kritik vəziyyətlər olaraq elə situasiyalara diqqət yetirilir ki, onların təsiri nəticəsində idarə olunun obyektdə ciddi dəyişikliklər nəticəsində lokal modellərdən istifadə edilmə zərurəti yarana bilir. Lokal diferensial tənliklər sistemlərinin vəhdət təşkil edən bir sistem halında birləşməsi kimi bir diferensial tənliklər sistemi təklif olunur və onun xüsusiyyətləri müzəkirə olunur. Qarşıya qoyulan problemin əsas xüsusiyyətlərinin nəzərə alınması ilə ümumən sistemin optimal həllinə yönəldilmiş iterativ axtarış alqoritmlərinin qurulmasının metoloji aspektləri təhlil edilir.

SUMMARY
ABOUT COMPLEXING HOLISTIC MODELS OF DYNAMIC SYSTEMS IN SITUATIONAL INDUSTRIAL MANAGEMENT OBJECTS UNDER CONDITIONS OF STRUCTURAL DISTURBANCES
Nagiyev A.H., Magerramov Z.T., Nagiyev H.A.

Keywords: *Nonlinear dynamics, situational control, system with variable structure.*

The problem of controlling complex technological processes characterized by the presence of many external conditions leading to critical modes of their implementation is considered. Critical states are classified as those states of objects that lead to significant modifications of the mathematical model for control. An approach to the formation of some holistic mathematical notation is discussed, which unites many models that reflect the basic patterns of object motion in state space, uniform for all systems of local differential equations. The fundamental features of the formulated problem are analyzed from the point of view of the methodology for constructing recurrent schemes for the directed search for an optimal solution.

İNFORMASIYA ÖLÇMƏ SISTEMLƏRI ÜÇÜN MULTİPLİKATİV TEST ALQORİTMİNİN SEÇİLMƏSİ ÜSULLARININ TƏHLİLİ

Agayeva Fəridə Şahbaz qızı, Məmmədova Radə Cahangir qızı

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
agayeva.feride71@mail.ru, rade.memmedova.62@mail.ru

Açar sözlər: *süni intellekt, çevrilmə funksiyası, ölçmə sistemi, multiplikativ test, riyazi model, additiv test.*

Son illərdə süni intellekt müxtəlif sahələrdə olduğu kimi, kompüter mühəndisliyi sahəsində də əhəmiyyətli üstünlüklər əldə edir. Süni intellekt, verilənlər əsasında öyrənmək və intellektual qərarlar qəbul etmək qabiliyyəti ilə, kompüter mühəndisliyində gündəlik məsələləri avtomatlaşdırmaq üçün getdikcə daha çox istifadə olunur. Süni intellekt kompüter mühəndisliyində testləşdirmə və optimallaşdırma, simulyasiya və modelləşdirmə, kibertəhlükəsizliyin təkmilləşdirilməsi sahəsində də mühüm rol oynayır.

Qeyri-xətti çevrilmə funksiyası olan informasiya ölçmə sistemləri üçün ölçmə dəqiqliyini artıran yeni test metodları araşdırılır. Kombinasiyalı testlər əsasında test informasiya ölçmə sisteminin struktur sxeminə baxilir və multiplikativ test alqoritminin seçilməsi üsulları təhlil edilir.

Süni intellekt gündəlik həyatımızın ayrılmaz hissəsinə çevrilərək, ünsiyyət, işləmə və texnologiya ilə qarşılıqlı əlaqəmizi dəyişdirir. Son illərdə süni intellekt müxtəlif sahələrdə olduğu kimi, kompüter mühəndisliyi sahəsində də əhəmiyyətli üstünlüklər əldə edir [1].

İnsan və maşın intellektini birləşdirərək, süni intellekt kompüter mühəndisliyi imkanlarını təkmilləşdirməkdə, layihələndirmə və modelləşdirmədən tutmuş, testləşdirmə və optimallaşdırmaya qədər kompüter mühəndisliyinin müxtəlif aspektlərinə inteqrasiya edir və mühəndislik proseslərinin səmərəliliyini və effektivliyini əhəmiyyətli dərəcədə artırır.

Süni intellekt kompüter mühəndisliyində testləşdirmə və optimallaşdırma mərhələsində, simulyasiya və modelləşdirmə sahəsində də çox böyük üstünlüyə malikdir. Belə ki, ənənəvi modelləşdirmə üsulları xeyli vaxt və hesablama resursları tələb edir. Lakin süni intellektin ixtirası ilə simulyasiyaların daha sürətli və dəqiq aparılması mümkün olub.

Bundan əlavə, süni intellekt kompüter mühəndisliyinin getdikcə daha vacib aspekti olan kibertəhlükəsizliyin təkmilləşdirilməsində mühüm rol oynayır. Süni intellekt -təhlükəsizlik sistemləri, potensial təhdidləri və təhlükələri müəyyən etmək üçün böyük həcmdə məlumatları təhlil edə bilər və təşkilatlara öz kompüter sistemlərini kiberhücumlardan aktiv şəkildə qorumağa imkan verər [1].

Nəhayət, süni intellektin kompüter mühəndisliyinə təsir göstərməsinin ən mühüm yollarından biri daha səmərəli və effektiv alqoritmlərin inkişafıdır. Bu alqoritmlər kompüterlərə böyük həcmdə verilənləri sürətlə emal və təhlil etməyə imkan verir ki, bu da daha sürətli və daha dəqiq qərar qəbul etməyə gətirib çıxarır [2].

Məqsədimiz qeyri-xətti çevrilmə funksiyası olan informasiya ölçmə sistemləri üçün ölçmə dəqiqliyini artıran yeni test metodlarının araşdırılmasıdır. Bu metod test alqoritmlərində testlər toplusuna əsaslanır.

Buna görə də informasiya-ölçmə sistemlərinin qeyri-xətti çevrilmə funksiyasının müəyyən edilməsi üçün istifadə olunan test toplusunun optimallığı ondan ibarətdir ki, tətbiq zamanı əldə edilən əsas test tənliyinin dərəcəsi minimum olsun. Belə ki, bu və ya digər növ testlərdən istifadə edərkən eyni zamanda onları əmələ gətirən additiv və multiplikativ sabitlərdən (θ *və* K) əldə edilə bilən dəqiqliyi nəzərə almaq

lazımdır. Bu da onunla bağlıdır ki, test informasiya-ölçmə sisteminin köməyi ilə əldə edilən ölçmə nəticəsinin dəqiqliyi ilk növbədə sistemdə formalaşan testlərin dəqiqliyindən asılıdır.

Bununla əlaqədar olaraq qeyd etmək lazımdır ki, həm elektrik, həm də qeyri-elektrik kəmiyyətləri verilmiş dəqiqliklə həyata keçirməyin ən sadə yolu sadə additiv və multiplikativ testlər və ölçülən x parametridir.

Qeyd edək ki, bir çox praktiki hallarda ilkin ölçmə sisteminin çevrilmə funksiyasının riyazi modeli aşağıdakı funksiya şəklində verilə bilər:

$$y = \sum_{i=1}^{n} a_i\, x^{i-1} \tag{1}$$

(1) ifadəsindən *n=3* üçün optimal test toplusu təyin edilir:

$$\begin{cases} x+\theta, \\ kx, \\ kx+\theta \end{cases}$$

Bunun əsasında sistemdə bir additiv, bir multiplikativ və bir kombinasiyalı testin həyata keçirilməsinə imkan verən test informasiya ölçmə sisteminin strukturu müəyyən edilir.

Daha sonra, x kəmiyyətinə əsasən test sistemində istifadə olunan ölçmə nəticələrinin işlənməsi alqoritmi də müəyyən edilmişdir:

$$x = \frac{(y_1 - y_2) + (y_0 - y_3)}{(y_0 - y_3) - (y_1 - y_2)}\ \frac{\theta}{(k-1)} \tag{2}$$

Şəkildə test informasiya-ölçmə sisteminin blok diaqramı təsvir edilmişdir. Burada ATFB-additiv testi formalaşdıran blok, MTFB- multiplikativ testi formalaşdıran blok, ÖS-ölçmə sistemi, HQ-hesablama qurğusudur [3].

Ölçmə prosesi dörd mərhələdən ibarətdir. Birinci mərhələdə tədqiq olunan x parametri, ikinci mərhələdə - additiv test $x+\theta$, üçüncü mərhələdə - multiplikativ test xk, dördüncü mərhələdə - kombinasiyalı test $xk+\theta$ ölçülür.



Şəkil. Kombinasiyalı testlər əsasında test informasiya-ölçmə sisteminin struktur sxemi

Ölçmə nəticəsi ilə ölçüləcək kəmiyyətlər x, $x+\theta, xk$ və $xk+\theta$ arasındakı əlaqələr aşağıdakı formaya malik olacaq:

$$\begin{aligned} y_0 &= a_{1s} + a_{2s}x + a_{3s}x^2 \\ y_1 &= a_{1s} + a_{2s}(x+\theta) + a_{3s}(x+\theta)^2 \\ y_2 &= a_{1s} + a_{2s}xk + a_{3s}(xk)^2 \\ y_3 &= a_{1s} + a_{2s}(xk+\theta) + a_{3s}(xk+\theta)^2 \end{aligned} \tag{3}$$

Alınmış $y_0, \ldots, y_3$ ölçmə nəticələrini test informasiya-olçmə sistemi EHM-də (2) alqoritminə uyğun emal etməklə ölçülmüş x kəmiyyəti təyin edilir [3].

Beləliklə, yuxarıda göstərilənlərdən göründüyü kimi, informasiya ölçmə sisteminin işləməsi üçün alqoritmlərin işlənmiş metodlardan istifadə etməklə qurulması sadə additiv və multiplikativ testlər əsasında həyata keçirilən test informasiya-ölçmə sisteminə xas olan üstünlüklərlə yanaşı, test sistemlərinin yeni modifikasiyasında bir sıra yeni keyfiyyətlər əldə etməyə imkan verir:

-əlavə testlə ölçmə nəticələrinə əsasən x kəmiyyətini təyin etməyə imkan verən EHM-in işləmə alqoritminin sadələşdirilməsi. Bu kəmiyyətdən informasiya-ölçmə sisteminin qeyri-xətti çevrilmə funksiyalarını müəyyən etmək üçün istifadə olunur;

-informasiya-ölçmə sisteminin qeyri-xətti çevrilmə funksiyasını müəyyən etmək üçün zəruri olan testlərin sabit komponentlərinin sayının əhəmiyyətli azaldılması;

-test informasiya-ölçmə sisteminin çevrilmə funksiyalarının qeyri-xətti çevrilmə funksiyası ilə xəttiləşdirilməsi prosesinin əhəmiyyətli dərəcədə sadələşdirilməsi. Bu proses tələb olunan əlavə testlərin ölçmə sayının azaldılması ilə həyata keçirilir.

Test informasiya-ölçmə sistemində additiv və kombinasiyalı testlərin optimal toplusundan istifadə edilməsi əlavə testlərin ölçmə sayını məhdudlaşdırmağa imkan verir. Əlavə testlər sistemdə qeyri-xətti əsas test tənliyinin xəttiləşdirilməsi üçün yaradılır [4].

Ədəbiyyat

1. Ts2.space.[Elektron resurs]. - Giriş rejimi: https://ts2.space/en/category/ai/ (müraciət tarixi: 23.10.2023)
2. İsayev M.M. Ölçmə sistemlərinin dəqiqliyinin yüksəldilməsinin alqoritmik-test üsullatı. - Bakı, Elm, 2018. -206 səh.
3. Исаев М.М., Мамедов Р.Г., Мехтизаде Э.К., Гусейнов И.Э. Повышение точности измерений с помощью комбинированных тестовых алгоритмов // Известия НАН Азербайджана. Серия физико-математических и технических наук. - Т. XXIX. - № 6. - 2009.
4. Технологии искусственного интеллекта, Москва, apr.mos.ru, 2019, стр. 156

SUMMARY

ANALYSIS OF METHODS OF SELECTING A MULTIPLICATIVE TEST ALGORITHM FOR INFORMATION MEASUREMENT SYSTEMS

Agayeva F.Sh., Mamedova R.C.

Keywords: *artificial intelligence, transformation function, measurement system, multiplicative test, mathematical model, additive test.*

In recent years, artificial intelligence has gained significant advantages in the field of computer engineering, as well as in various fields. Artificial intelligence, with its ability to learn from data and make intelligent decisions, is increasingly being used to automate everyday tasks in computer engineering. Artificial intelligence also plays an important role in computer engineering in testing and optimization, simulation and modeling, and improving cyber security.

New test methods that improve measurement accuracy are being investigated for information measurement systems with non-linear transform function. On the basis of combined tests, the structural scheme of test information measurement system is considered.

РЕЗЮМЕ

АНАЛИЗ МЕТОДОВ ВЫБОРА МУЛЬТИПЛИКАТИВНОГО ТЕСТОВОГО АЛГОРИТМА ДЛЯ ИНФОРМАЦИОННО-ИЗМЕРИТЕЛЬНЫХ СИСТЕМ

Агаева Ф.Ш., Мамедова Р.Дж.

Ключевые слова: *искусственный интеллект, функция преобразования, система измерения, мультипликативный тест, математическая модель, аддитивный тест.*

За последние годы искусственный интеллект получил значительные преимущества в области компьютерной техники, а также в различных областях. Искусственный интеллект с его способностью учиться на данных и принимать разумные решения все чаще используется для автоматизации повседневных задач в компьютерной инженерии. Искусственный интеллект также играет важную роль в тестировании и оптимизации, моделировании и моделировании, а также в повышении кибербезопасности в сфере компьютерной инженерии.

Новые методы испытаний, повышающие точность измерений, исследуются для информационно-измерительных систем с функцией нелинейного преобразования. На основе комплексных испытаний рассмотрена структурная схема система измерения тестовой информации.

MOBİL KİBERKRİMİNALİSTİKADA SÜBUTLARIN TƏHLİLİNDƏ TF-IDF ÜSULUNUN TƏTBİQİ

Ağababayev Rahib Rəsul oğlu

Azərbaycan Texniki Universiteti, Bakı, Azərbaycan
rahib.agb@gmail.com

Açar sözlər: *kibercinayətkarlıq, kiberkriminalistika, rəqəmsal kriminalistika, mobil cihaz, süni intellekt, təhqiqat.*

Müasir dövrdə mobil texnologiyaların artması bu sahədə cinayətkarlığın və təhqiqat işlərinin artması ilə də nəticələnir. Bu səbəbdən mobil kiberkriminalistikada mobil cihazlardan potensial rəqəmsal sübutların bərpasını həyata keçirmək üçün müxtəlif üsulların tədqiq edilməsinə zərurət yaranır. Bu məqalədə kibercinayətlərin aşkarlanması və sübutların toplanmasında operativliyin və səmərəliliyin artırılması üçün mobil kiberkriminalistikada süni intellektə əsaslanan təhqiqat üsulu təklif edilir.

Mobil cihaz istifadəçilərinin sayı sürətlə artmaqdadlr. Hazırda dünya bazarında təyinatı və funksiyalarından asılı olaraq müxtəlif istehsalçı şirkətlər tərəfindən müxtəlif növ mobil cihaz yayılmışdır [1]. Bu sahədə bazarın tənzimlənməsi olmadığından sözügedən mobil cihazların zəmin yaratdığı kibercinayətkarlığın araşdırılması üçün tədqiqatçıları dəlillərin toplanması və araşdırılması üsullarını təklif etməyə sövq edir. Bu məlumatları sübut kimi əldə etmək və təhlil etmək üçün lazımi alətlərə və bacarıqlara malik olmaları vacibdir [2,3]. Bu səbəbdən təbii dilin emalı (Natural Language Processing, NLP) mobil kiberkriminalistikada toplanmış məlumatları təhlil edərkən əvəzolunmaz bir vasitədir. Mobil cihazlarda mövcud olan çoxlu sayda mətn əsaslı məlumatı nəzərə alsaq (hadisə loqları, mesajlar, e-poçtlardan qeydlərə və sosial media postları və s.), NLP mənalı məlumatların çıxarılmasını avtomatlaşdırmağa və təkmilləşdirməyə kömək edə bilir.

Məlumatların çıxarılması və hazırlanması prossesi aşağıdakı addımlardan ibarətdir:

Çıxarma - mobil cihazdan mətn məlumatlarını çıxarmaq üçün kriminalistika alətlərindən istifadə edilir.

Təmizləmə - Uyğun olmayan məlumatları silmək, formatlaşdırma problemlərini düzəltmək və çatışmayan dəyərləri idarə etmək üçün məlumatları əvvəlcədən emal edir.

Tokenləşdirmə - Mətn fərdi sözlərə və ya işarələrə çevirilir. Bu, təhlili daha idarəolunan və dəqiq edir.

Mətn təsnifatı - Müxtəlif növ mətn məlumatları (məsələn, e-poçtlar, SMS, WhatsApp mesajları) olduğu halda onları avtomatik təsnif etmək üçün NLP modellərindən istifadə etmək mümkündür.

NLP-nin mobil kiberkriminalstika təhlilinə daxil edilməsi araşdırmaların sürətini və dərinliyini əhəmiyyətli dərəcədə artıra bilir. Məlumatların işlənməsi və təhlili tapşırıqlarının bir çoxunu avtomatlaşdırmaqla, tədqiqatçılar məlumatlardan mənalı nəticələr çıxarmağa diqqət edə bilirlər.

TF-IDF üsulunun tədqiqi: NLP-də mətn məlumatlarını təhlil etmək üçün istifadə olunan əsas modellərdən biri TF-IDF-dir (Term Frequency-Inverse Document Frequency). Burada mətn məlumatlarını təmsil etmək və sənədlər toplusuna (korpusuna) nisbətən fərdi sənədlərdəki terminlərin əhəmiyyətini ölçmək üçün istifadə olunur. Mobil cihazdan mətn mesajları çıxardıqda və daha geniş mesaj dəsti ilə müqayisədə bu mesajlarda hansı sözlərin və ya terminlərin xüsusilə əhəmiyyətli olduğunu müəyyən edilir. Bu məqalədə TF-IDF və maşın öyrənməsinə əsaslanan yeni statik aşkarlama metodu təklif olunur [4].

Term Frequency (TF): Sənəd daxilində terminin (söz və ya ifadə) tezliyini təmsil edir.

$$TF(t,d) = \frac{t}{d}$$

t - d sənədində terminin rastlaşma sayı

d - sənəddəki terminlərin ümumi sayı

Inverse Document Frequency (IDF): Bütün sənədlər üzrə termin tezliyinin tərsini nəzərdə tutur. Burada ümumi olan terminlərin daha aşağı IDF əmsalı, nadir terminlərin isə daha yüksək IDF əmsalı olacaq.

$$IDF(t,D) = log\frac{D}{t}$$

D - sənədlərin ümumi sayı

t - termin rast gəlinən sənədlərin sayı

TF-İDF əmsalı (S):

$$S(t,d,D) = TF(t, d) \times IDF(t, D)$$

Tədqiqat prosesində Android mobil telefonunda “adb” aləti vasitəsilə mövcud hadisə loqları çıxarılmışdır (şəkil 1).

```
"11-04 22:17:35.633   485   485 E GatekeeperHalDevice: verify"
"11-04 22:17:35.633   485   485 E GatekeeperHalDevice: ret: 0"
"11-04 22:17:35.633   485   485 E GatekeeperHalDevice: resp->status: -30"
"11-04 22:17:35.635  2152 11027 D miui_keyguard_password: check password enable for userId : -10000   disable"
"11-04 22:17:35.636  2152  2152 D KeyguardSecurityView: reportFailedPatternAttempt: #4"
"11-04 22:17:35.645  2152  2736 D KeyguardViewMediator: setKeyguardEnabled(true)"
"11-04 22:17:35.657  2152  2152 D KeyguardViewMediator: handleKeyguardDoneDrawing"
"11-04 22:17:35.660  2152  2152 V KeyguardUpdateMonitor: startListeningForFingerprint()"
"11-04 22:17:35.661   913   913 D fpc_fingerprint_hal: fpc_get_authenticator_id"
"11-04 22:17:35.674  2152  2152 I miui_keyguard_fingerprint: onAuthenticationError: errMsgId = 7, errString = Too many attempts. Try again later."
"11-04 22:17:35.792  2152  2152 D KeyguardViewMediator: handleKeyguardDoneDrawing"
"11-04 22:17:35.847  2152  2165 W JavaBinder: BinderProxy is being destroyed but the application did not call unlinkToDeath to unlink all of its de
"11-04 22:17:35.850  2152  2166 W System  : A resource failed to call close. "
"11-04 22:17:35.851  2152  2166 W System  : A resource failed to call close. "
"11-04 22:17:35.853  2152  2166 D LifecycleResourceManager: begin check cache... "
"11-04 22:17:35.853  2152  2166 W System  : A resource failed to call close. "
"11-04 22:17:36.050   797  2094 D         : readbrightness,out1:379"
"11-04 22:17:36.050   797  2094 D         : "%y&SO•ó|."
"11-04 22:17:36.050   797  2094 D         : readbrightness,out2:379."
"11-04 22:17:37.050   797  2094 D         : readbrightness,out1:379"
"11-04 22:17:37.050   797  2094 D         : "%y&SO•ó|."
"11-04 22:17:37.050   797  2094 D         : readbrightness,out2:379."
"11-04 22:17:37.647  2375  3137 D QCNEJ/WlanStaInfoRelay: Received action: android.net.wifi.RSSI_CHANGED"
"11-04 22:17:37.661  6880  6960 I CarrierServices: [545] hdg.handleMessage: RcsEngineImpl[DUAL_REG]:[86ded88a-94c2]>Handler: handleMessage processi
"11-04 22:17:37.666  6880  6961 I CarrierServices: [546] gtf.c: Connected state: [1], networkType: [WIFI]"
"11-04 22:17:37.667  2433  2765 E PhoneInterfaceManager: [PhoneIntfMgr] getCarrierPrivilegeStatus: Invalid subId"
```

Şəkil 1. Android hadisə loqları

Vaxt möhürünə əsaslanan müxtəlif sənədlərdə (fayllarda) yerləşən hadisə loqları toplanmışdır. Həmin sənədlərdə rastlaşılan terminlərin təhlilindən kiberhücum növünün araşdırılması təmin edilmişdir. Bu loqlar Python proqramlaşdırma dilində "scikit-learn" kitabxanası isitfadə edilməklə yuxarıda qeyd edilən hesablamar tətbiq edilmişdir. Alınmış nəticə şəkil 2-də təqdim edilir.



Şəkil 2.

Nəticə: Qeyd edildiyi kimi, mobil cihazlarda araşdırmalarda istifadə oluna bilən çoxlu məlumat mövcuddur. Məqalədə tədqiq edilən TF-İDF maşın öyrənmə üsulu vasitəsilə toplanmış məlumatların təhlili üçün zaman və resursların səmərəli istifadəsinə töhfə verməkdədir. Bu üsul üçün tərtib edilmiş script (proqram təminatı) mobil cihazlarla bağlı insidentləri daha dəqiq araşdırmaq imkanlarını artıra bilər. Tədqiqat üsulu və formalaşdırılmış alətin real hadisələrlə tətbiqi nəticəsində gələcəkdə daha da təkmil tədbirlərin həyata keçirilməsinə şərait yaradacaqdır.

Ədəbiyyat

1. Ağababayev R.R., Mobil kiberkriminalistika hazırlıq metodologiyalarının tədqiqi, AzTU, Bakı 2023, 5 s.
2. Jansen W., Ayers R. Guidelines on cell phone forensics. Special Publication Special Publication 800-101. NIST: Gaithersburg, MD, USA, 2007, 96 p.
3. Reiber L. Mobile forensic investigations: A guide to evidence collection, analysis and presentation. McGraw Hill; 2nd edition, 2019, 560 p.
4. Yuan H., Tang Y., Sun W., Liu L. A detection method for android application security based on TF-IDF and machine learning. PLoS ONE 15(9): e0238694.

РЕЗЮМЕ
ПРИМЕНЕНИЕ МЕТОДА TF-IDF В АНАЛИЗЕ ДОКАЗАТЕЛЬСТВ В МОБИЛЬНОЙ КИБЕРКРИМИНАЛИСТИКЕ
Агабабаев Р.Р.

Ключевые слова: *киберпреступность, цифровая криминалистика, мобильное устройство, искусственный интеллект, расследование.*

Рост мобильных технологий в наше время также приводит к увеличению преступности и расследований в этой области. По этой причине в мобильной киберпреступности возникает необходимость в изучении различных методов восстановления потенциальных цифровых доказательств с мобильных устройств. В этой статье предлагается метод расследования на основе искусственного интеллекта в мобильной киберпреступности для повышения оперативности и эффективности обнаружения киберпреступлений и сбора доказательств.

SUMMARY
APPLICATION OF THE TF-IDF METHOD IN THE ANALYSIS OF EVIDENCE IN MOBILE CYBERCRIMINALISM
Agababaev R.R.

Keywords: *cybercrime, digital forensics, mobile device, artificial intelligence, investigation.*

The growth of mobile technology in our time also leads to an increase in crime and investigations in this area. For this reason, in mobile cybercrime, there is a need to study various methods of recovering potential digital evidence from mobile devices. This article suggests a method of investigation based on artificial intelligence in mobile cybercrime to increase the efficiency and effectiveness of detecting cybercrime and collecting evidence.

AZƏRBAYCAN RELYEFİNİN 3D MODELLƏŞDİRİLMƏSİ

Ağayeva Kəmalə Sərdar qızı, Mehrəliyeva Aynur Nəriman qızı, Şirinov Ramiz Ramazan oğlu

Milli Aerokosmik Agentliyi, Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutu, Bakı, Azərbaycan
mehreliyeva.aynur@bk.ru

Açar sözlər: *relyef, 3D model, MATLAB, radar verilənləri dt2.*

Məqalədə Azərbaycanın 3D relyef modelinin yaradılması prosesi göstərilmişdir. MATLAB proqramından istifadə etməklə alınmış modellər nəzərdən keçirilib. Geoməlumatların mənbələri göstərilmiş və işin nəticələri qrafik formada təqdim olunur.

Üçölçülü modelləşdirmə insan fəaliyyətinin müxtəlif sahələrində istifadə olunur və fiziki obyekti onun analoqu olan 3D modelindən istifadə edərək öyrənməyə imkan verir. 3D modellər məkanın müxtəlif nöqtələrindən modeli nəzərdən keçirməyə imkan verir. Dünya geodeziya koordinat sistemində dəqiq yerləşdirilmiş, yüksək ayırdetmə qabiliyyətinə malik 3D model ərazinin virtual modelləşdirilməsi üçün əsasdır [1].

Hal-hazırda rəqəmsal relyef modellərinin qurulmasında fotoqrammetrik, lazer-lokasiya və radiolokasiya üsullarından geniş istifadə olunur. Bunlardan ən uyğun və ən ucuzu radar üsuludur. Elektromaqnit spektrinin santimetr və desimetr diapazonlarında radiometrik kosmik çəkiliş Yer səthinin monitorinqində geniş istifadə olunur. Radar məlumatlarından relyefin rəqəmsal yüksəklik modelləri istehsal etmək üçün istifadə edilə bilər. Bu günə qədər ondan çox radar peyki orbitə buraxılmışdır: Envisat, ERS-1, 2, TerraSAR X, Radarsat-1, Radarsat-2, ALOS (PALSAR) və s. Radiometrik çəkilişin üstünlükləri aşağıdakılardır:

- bütün hava şəraiti və əlavə məlumat əldə etmək imkanı;
- təsvirlərin əlçatmaz ərazilərin xəritələrini yaratmağa imkan verməsi.

Ən çox istifadə edilən modellər Grid və TIN-dir. Grid modeli hündürlük qiymətlərinin müntəzəm matrisidir. Matrisin hər bir xanası piksel adlanan sabit ölçülü düzbucaqlı sahəsinə uyğundur. Rastr həndəsəsi məkanda piksellərin düzülməsini müəyyən edir. TIN (Triangulated Irregular Network) modeli qeyri-müntəzəm trianqulyasiya şəbəkəsidir, Delaunay trianqulyasiyasından istifadə etməklə əldə edilən üst-üstə düşməyən üçbucaqlar sistemidir.

Müxtəlif kosmik peyklərdən alınan məlumatlar əsasında indi Yerin bütün səthi üçün qlobal rəqəmsal modellər qurulub. Onlardan istifadə etməklə 1:25000 miqyasda relyef xəritələri əldə edilə bilər. Ən tam əhatə dairəsi qlobal rəqəmsal relyef modelidir - SRTM (Shuttle Radar Topography Mission). Bu modeldə piksel ölçüsü 1 saniyə, şaquli dəqiqlik 1 metrdir. Beləliklə, 40° enlikdə 1 saniyəsinin ölçüsü təxminən 25 metrdir. Azərbaycanın relyef xəritəsini qurmaq üçün dt2 formatında SRTM məlumatları

earthexplorer.usgs.gov saytından yüklənib. Şəkil 1-də relyefin grid modelin göstərilmişdir. Sağda rəng hündürlüyü şkalası əlavə edilib. İşıqlı sahələr yüksək dağlara, qaranlıq yerlər isə alçaq ərazilərə uyğundur.



Şəkil 1. Azərbaycan relyefinin grid modeli

Bu modellərin hamısı MATLAB proqramlaşdırma mühitində qurulmuşdur. Şəkil 2-də modelə üçölçülü görünüş vermək üçün boz rəngin çalarlarından istifadə edilir. Şəkil 3-də Landsat-9 peykindən alınan görüntü 3D relyef modelinin üzərinə yerləşdirilib.



Şəkil 2. Modelin üçölçülü görünüş



Şəkil 3. Landsat-9 peykindən alınan görüntünün 3D relyef modelinin üzərinə yerləşdirilməsi

Литература

1. Хромых В.В., Хромых О.В. Цифровые модели рельефа: Учебное пособие. - Томск: ТМЛ-Пресс, 2007. - 178 с.

РЕЗЮМЕ
3D МОДЕЛИРОВАНИЕ РЕЛЬЕФА АЗЕРБАЙДЖАНА
Агаева К.С., Мехралиева А.Н., Ширинов Р.Р.

Ключевые слова: *пельеф, 3Д модель, МАТЛАБ, радарные данные дт2.*

В статье описывается процесс получения 3D модели рельефа Азербайджана. Рассматриваются модели, полученные с помощью программы MATLAB. Указаны источники геоданных, результаты работы представлены в графическом виде.

SUMMARY
3D MODELLİNG OF AZERBAİJAN'S RELİEF
Agayeva K.S., Mehraliyeva A.N., Shirinov R.R.

Keywords: *relief, 3D model, MATLAB, radar, data dt2.*

In the article the process of obtaining a 3D relief model of Azerbaijan is described. Models obtained using the MATLAB program are considered. The sources of geodata are indicated, the results of the work are presented in graphical form.

SÜNİ İNTELLEKTİN MODELLƏŞDİRMƏ ÜSULLARI VƏ VASİTƏLƏR

Əjdərova Nazlı Ceyhun qızı, Hüseynəliyev Kənan Əziz oğlu

Naxçıvan Universiteti, Naxçıvan, Azərbaycan
nazzaur002@gmail.com, huseynovk89@gmail.com

Açar sözlər: *süni intellekt, maşın öyrənməsi, Python alətləri, neyron şəbəkələri, süni intellekt modelləri.*

Süni intellekt məlumatları şərh etmək və əsaslandırılmış qərarlar qəbul etmək üçün dərin neyron şəbəkələri, reqressiya, qərar ağacları və random forest kimi maşın öyrənmə üsullarından istifadə edir. İnsana bənzər süni intellekt yaratmaq çətin olsa da, süni intellekt təsvirin tanınması, dilin başa düşülməsi və proqnozlaşdırıcı analitikada əhəmiyyətli irəliləyişlərə sahibdir. Scikit-learn, TensorFlow, PyTorch və Keras kimi əsas Python alətləri bu modellərin işlənib hazırlanmasında və təkmilləşdirilməsində mühüm rol oynayır və süni intellektə verilənlərə əsaslanan imkanları vasitəsilə müxtəlif sahələrdə inkişaf etməyə imkan verir [1,2].

Məlumat mühəndisləri (Data scientists) bir çox tapşırıqları yerinə yetirmək və mürəkkəb problemləri həll etmək üçün süni intellekt modellərindən istifadə edirlər.Süni intellekt modelləri mövcud məlumat və giriş məlumat dəstlərindən istifadə edərək məntiqi qərar qəbuletmə prosesini təqlid etmək üçün Maşın öyrənmə alqoritmlərinə və süni neyron şəbəkələrinə əsaslanır. Bu modellər müasir kəşfiyyat vasitələrinin əsasını təşkil edir və məlumatları təhlil etmək, qərarlar və proqnozlar vermək və dəyərli anlayışlar təqdim edirlər. Süni intellekt kompüter elminin ən maraqlı sahələrindən biridir. Süni intellekt tədqiqatları real vaxtda insan zəkasını təkrarlaya bilən maşın yaratmağı hədəfləyir. İnsanlar kimi düşünə bilən həqiqi süni intellekt hələ də əldə olunmayıb. Ancaq bu, süni intellekt alqoritmlərindən faydalana bilməyəcəyimiz demək deyil. Bu gün biz süni intellekt modellərindən bir neçə analitik və qərar qəbuletmə tapşırıqları üçün istifadə edirik. Süni intellekt modeli nümunələri tanımaq və proqnozlar və ya qərarlar qəbul etmək üçün təlim məlumatlarına əsaslanan proqram və ya alqoritmdir. Süni intellekt modeli nə qədər çox məlumat alırsa, o, məlumatların təhlili və proqnozlarında bir o qədər dəqiq ola bilər.Süni intellekt modelləri müxtəlif nümunələri tanımaq üçün kompüter görmə, təbii dil emalı və Maşın öyrənməsinə əsaslanır. Süni intellekt modelləri həmçinin təlimlərindən öyrənmək, məlumat nöqtələrini toplamaq və nəzərdən keçirmək üçün qərar qəbul etmə alqoritmlərindən istifadə edir və nəticədə əvvəlcədən təyin edilmiş məqsədlərə çatmaq üçün öyrəndiklərini tətbiq edirlər.Süni intellekt modelləri böyük həcmli məlumatlarla mürəkkəb problemləri həll etməkdə çox bacarıqlıdır. Nəticədə onlar mürəkkəb məsələləri çox yüksək dəqiqliklə həll edə bilirlər. Bir çox insanlar maşın öyrənməsi və süni intellektlə səhvən birləşirlər. Bu, çox güman ki, maşın öyrənməsinin süni İntellektin alt hissəsi olması ilə əlaqədardır. Bununla belə, ikisi arasındakı kritik fərqlər vardır. Daha əvvəl müəyyən etdiyimiz kimi, süni intellekt insan düşüncələrini, intellektini və davranışlarını simulyasiya edən maşınların yaradılması ilə məşğul olur. Digər tərəfdən, maşın öyrənməsi maşınlara açıq şəkildə proqramlaşdırılmağa ehtiyac olmadan təcrübə və dərslərdən özləri üçün öyrənmək imkanı verməklə

məşğuldur.Bütün maşın öyrənmə modelləri süni intellekt modelləridir, lakin bütün süni intellekt modelləri mütləq maşın öyrənmə modelləri deyildir. Bu, vacib bir fərqdir.Maşın öyrənməsinin müxtəlif növləri vardır və bunlara aşağıdakılar aiddir [2,3,4] :

-Nəzarət olunan öyrənmə(Supervised)

-Nəzarətsiz öyrənmə(Unsupervised)

-Yarı nəzarətli öyrənmə(Semi-supervised)

Nəzarət olunan öyrənmə modelində insan nə axtarmaq lazım olduğunu alqoritimə məşq etdirir və ya öyrədir. Çox vaxt bu təlimi həyata keçirən şəxs, alqoritmin yerinə yetirilməsi öyrədildiyi hər hansı tapşırıqda mövzu üzrə mütəxəssis olan məlumat mühəndisidir.Məsələn, təsvirin tanınması üzərində işləyən bir alqoritm, şəkillərdə təhqiredici və ya açıq məzmunun olduğu bir məlumat mühəndisi tərəfindən öyrədilə bilər. Daha sonra alqoritm oxşar məzmunlu digər şəkilləri tapmaq üçün bu məlumatdan istifadə edir.Dəstək vektor maşınları kimi nəzarət edilən öyrənmə ilə qurulmuş süni intellekt modelləri tez-tez proqnozlaşdırıcı təhlil aparmaq üçün istifadə olunur. Bu modellər ekspertin edə biləcəyi gələcək seçimləri proqnozlaşdırmaq üçün mövzu üzrə ekspertlər tərəfindən verilmiş keçmiş qərarlardan istifadə edir

Süni intellekt modelləri heç də hər zaman insan təlimi ilə inkişaf etdirilməli deyil. Bunun əvəzinə, nəzarətsiz öyrənmə modelində proqram alqoritmi öyrədir. Bəzi hallarda, təlim proqramı tərəfindən istifadə edilən təlim metodu bir insanınkını təqlid edir, lakin onlar mütləq eyni şəkildə öyrətməli deyillər. Nəzarətsiz öyrənmə ilə qurulmuş süni intellekt modelləri tez-tez təsviri təhlil aparmaq üçün istifadə olunur. Bunlara məzmun xülasəsi, təsnifat, çıxarış və video analitika daxildir. Bu tip süni intellekt modelləri insan təlimi olmadan nümunələri müəyyən edə və məlumatları təsnif edə bilər.Yarı nəzarətli öyrənmə modelləri müzakirə etdiyimiz hər iki əvvəlki modelin bir qədərini birləşdirir. Yarı nəzarət edilən təlim şəraitində insan təlimin bir hissəsini yerinə yetirir və proqram təminatı insan tərəfindən edilən ilkin təlim əsasında qalanı idarə edir.Yarı nəzarətli öyrənmə ilə qurulmuş süni intellekt modelləri hər iki öyrənmə üslubunu əldə etdiyi üçün, onlar nəzərdə tutulduqları məqsəddən asılı olaraq həm proqnozlaşdırıcı, həm də təsviri təhlil tapşırıqlarını yerinə yetirə bilərlər [1,6].

Bir neçə fərqli süni intellekt modeli var və onların hamısı fərqli işləyir.Bunlara aşağıdaklar aiddir :

-Dərin neyron şəbəkələri(Deep neural networks)

-Xətti reqressiya(Linear regression)

-Logistik reqressiya(Logistic regression)

-Qərar ağacları(Decision trees)

-Random Forest(RF)

Dərin neyron şəbəkəsi ən populyar AI/ML modellərindən biridir. Bu dərin öyrənmə modelinin dizaynı insan beynindən və onun neyron şəbəkəsindən ilhamlanıb. Bu süni intellekt modeli çoxsaylı girişləri birləşdirmək və tək çıxış dəyərini təmin etmək üçün süni neyron təbəqələrindən istifadə edir.Dərin neyron şəbəkələri təsvir və nitqin tanınması xidmətlərini və təbii dilin işlənməsini təmin etmək üçün mobil proqramların hazırlanmasında geniş şəkildə istifadə edilmişdir. Bu süni intellekt modeli süni İntellektin qabaqcıl tərəfini təmsil edir. Böyük məlumat dəstlərinə malik olan mürəkkəb problemləri həll etməkdə çox bacarıqlıdır.Xətti reqressiya modeli statistika sahəsində çalışan məlumat mühəndisləri arasında çox populyardır. Xətti reqressiya nəzarət edilən öyrənmə modelinə əsaslanır. Bu süni intellekt modellərinə giriş və çıxış dəyişənləri arasındakı əlaqəni müəyyən etmək əsas məqsəddir.Xətti reqressiya modeli müstəqil dəyişənin dəyərinə əsaslanaraq asılı dəyişənin dəyərini proqnozlaşdıra bilər. Bu modellər səhiyyə, sığorta, e-ticarət və bankçılıq da daxil olmaqla bir sıra sənayelər üçün xətti analizlərdə istifadə olunur.Logistik reqressiya başqa bir məşhur süni intellekt modelidir və xətti reqressiya modeli ilə sıx bağlıdır. Bununla belə, logistik reqressiya modeli xətti reqressiya modelindən fərqlidir, çünki o, yalnız təsnifata əsaslanan problemləri həll etmək üçün istifadə olunur.Logistik reqressiya ikili təsnifat problemini həll etmək üçün ən yaxşı süni intellekt modelidir. Bu model müstəqil dəyişənlər dəsti əsasında asılı məlumat nöqtəsinin dəyərini və ya sinfini proqnozlaşdırır.

Qərar ağacları modeli sadə və eyni zamanda yüksək səmərəlidir. Qərar ağacı nəticəyə gəlmək üçün keçmiş qərarların mövcud məlumatlarından istifadə edir. Bu ağaclar tez-tez if/then nümunəsinə əsasında işləyirlər. Məsələn, evdə sendviç yeyirsinizsə, onda nahar almağa ehtiyac qalmayacaq.Qərar ağacları həm reqressiya, həm də təsnifat problemlərini həll etmək üçün istifadə edilə bilər. Bundan əlavə, ibtidai qərar ağacları proqnozlaşdırıcı analitikanın ən erkən formalarını gücləndirdi.Random forest çoxlu qərar ağaclarının toplusudur.Hər bir qərar ağacı öz nəticəsini və ya qərarını qaytarır, daha sonra hər bir ağacdan alınan nəticələrlə birləşdirilir. Nəhayət, birləşdirilmiş nəticələr daha dəqiq yekun proqnoz və ya qərar verir.Random forest böyük bir məlumat dəstiniz olduqda əla süni intellekt modelidir. Bu model həm reqressiya, həm də təsnifat problemlərini həll etmək üçün istifadə olunur. Müasir proqnozlaşdırıcı analitika böyük hissəsi random forest modelləri ilə təchiz edilmişdir.Süni intellekt modellərindən əlavə süni intellekt alətləri və

vasitələri də vardır ki bunlar da geniş istifadə edilir. Alətlər nəzarət edilən öyrənmə alqoritmlərinin və modellərinin həyata keçirilməsində mühüm rol oynayır. Nəzarət altında olan təlimdə istifadə olunan alətlər aşağıdakılar aid edilə bilər:

Scikit-learn: Python-da çox yönlü və istifadəsi asan maşın öyrənmə kitabxanasıdır. O, məlumatların çıxarılması və təhlili üçün sadə və səmərəli alətlər təqdim edir. Scikit-learn təsnifat, reqressiya, klasterləşdirmə, ölçülərin azaldılması və model seçimi üçün müxtəlif alqoritmlər təklif edir.

Tensor Flow: Google tərəfindən hazırlanmış TensorFlow neyron şəbəkələrin qurulması və müxtəlif maşın öyrənmə alqoritmlərinin tətbiqi üçün geniş istifadə olunan açıq mənbəli dərin öyrənmə proqramıdır. Çevik memarlıq dizaynına malikdir və müxtəlif platformalarda yerləşdirilə bilər

PyTorch: Facebook-un süni intellekt tədqiqat laboratoriyası tərəfindən yaradılmış PyTorch dinamik hesablama qrafiki ilə tanınan məşhur dərin öyrənmə alətidir. Neyron şəbəkələrin qurulmasında sadəliyi və istifadəsi asanlığına görə tədqiqatçılar və tərtibatçılar tərəfindən bəyənilir

Keras: Əvvəlcə TensorFlow-un üzərində qurulmuş və indi onun nüvəsinin bir hissəsi kimi TensorFlow ilə inteqrasiya olunmuş Keras neyron şəbəkələrinin qurulması üçün yüksək səviyyəli interfeys təqdim edir. Sürətli prototipləşdirməyə və sınaqdan keçirməyə imkan verir və istifadəçi dostudur.

Ədəbiyyat

1. Алпайдын Е. Введение в машинное обучение. - 3-е изд. - Лондон: MIT. 2014. - С. 640.
2.Бишоп К.М. Распознавание образов и машинное обучение. - Нью-Йорк. Нью-Йорк: Springer. 2006. - С. 758.
3. Рассел С., Норвиг П. Искусственный интеллект: Современный подход. - 3-е изд. - Аппер Садл Ривер, Нью-Джерси.: Prentice Hall. 2010. - С. 1153.
4. Шалев-Шварц Ш., Шай Бэн-Дэвид. Понимание машинного обучения: От теории к алгоритмам. Нью-Йорк. Нью-Йорк: Cambridge University Press. 2014. - С. 449.
5. Бурков А. Машинное обучение без лишних слов. Санкт-Петербург: Питер. 2020. - С. 192.
6. Николенко С.И., Кадурин А.А., Архангельская Е.О. Глубокое обучение. Санкт-Петербург: Питер. 2020. - С. 481.

SUMMARY
ARTIFICIAL INTELLIGENCE MODELING METHODS AND TOOLS
Ajdarova N.C., Huseynaliyev K.A.

Keywords: *artificial intelligence, machine learning, Python tools, neural networks, artificial intelligence models.*

Artificial intelligence uses machine learning techniques such as deep neural networks, regression, decision trees, and random forests to interpret data and make informed decisions. Although creating human-like AI is difficult, AI has made significant advances in image recognition, language understanding, and predictive analytics. Key Python tools such as Scikit-learn, TensorFlow, PyTorch, and Keras play an important role in developing and improving these models, enabling AI to thrive in various fields through its data-driven capabilities.

РЕЗЮМЕ
МЕТОДЫ И СРЕДСТВА МОДЕЛИРОВАНИЯ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА
Аждарова Н.Ч., Гусейнелиев К.А.

Ключевые слова: *искусственный интеллект, машинное обучение, инструменты Python, нейронные сети, модели искусственного интеллекта.*

Искусственный интеллект использует методы машинного обучения, такие как глубокие нейронные сети, регрессия, деревья решений и случайные леса, для интерпретации данных и принятия обоснованных решений. Хотя создать человекоподобный ИИ сложно, ИИ добился значительных успехов в распознавании изображений, понимании языка и прогнозной аналитике. Ключевые инструменты Python, такие как Scikit-learn, TensorFlow, PyTorch и Keras, играют важную роль в разработке и совершенствовании этих моделей, позволяя ИИ продвигаться в различных областях благодаря своим возможностям, управляемым данными.

BİR SİNİF İKİLİK 4D–ÇOXÖLÇÜLÜ QEYRİ-XƏTTİ MODULYAR DİNAMİK SİSTEMLƏRİN SİNTEZ MƏSƏLƏSİ

[1] Feyziyev Fikrət Güləli oğlu, [2] Mehdiyeva Maral Rzabala qızı

[1] Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
[2] Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
FeyziyevFG@mail.ru; mehdiyevamaral71@gmail.com

Açar sözlər: *qeyd olunmuş yaddaş; məhdud əlaqə, ikilik 4D-çoxölçülü qeyri-xətti modulyar dinamik sistemlər; sistemin tam reaksiyası; Volterra polinomlarının ikiqiymətli analoqu; sintez məsələsi.*

Volterra polinomlarının ikiqiymətli analoqu şəklində verilmiş 4D-çoxölçülü qeyri-xətti modulyar dinamik sistemlərin sintezi probleminin həlledilməsi məsələsinə baxılır.

Məruzədə n_0 yaddaşına, $P = P_1 \times P_2 \times P_3$ məhdud əlaqə çoxluğuna, S dərəcəsinə, r sayda giriş və k sayda çıxışa malik və Volterra polinomlarının ikilik analoqu şəklində təsvir olunan və [1,2] işlərində baxılan sistemlərin ümumiləşməsi nəticəsində alınan aşağıdakı 4D–çoxölçülü qeyri-xətti modulyar dinamik sistemə (4D–ÇQMDS-mə) baxılır:

$$y_\nu[n,c_1,c_2,c_3] = \sum_{i=0}^{S} \sum_{\overline{\eta}\in\Lambda(i)} \sum_{\overline{w}\in\Psi(\overline{\eta})} \sum_{(\overline{\overline{j}},\overline{\overline{\mu}},\overline{\overline{\rho}})\in L_1\times L_2\times L_3} \sum_{\overline{\overline{\tau}}\in\Gamma(\gamma_1,\gamma_2,\gamma_3,\overline{\overline{m}})[\overline{w}]} h_{\nu,i,\overline{\eta},\overline{w}}[\overline{\overline{j}},\overline{\overline{\mu}},\overline{\overline{\rho}},\overline{\overline{\tau}}]\times$$

$$\times \prod_{\ell\in Q_0(\overline{\eta})} \prod_{(\alpha_\ell,\beta_\ell,\sigma_\ell)\in Q'_\ell(\eta_\ell,\gamma_1(\ell),\gamma_2(\ell),\ \gamma_3(\ell),\overline{m}_\ell)} \upsilon_{\ell,i,\overline{\eta},\overline{w}}[n-\tau_\ell(\alpha_\ell,\beta_\ell,\sigma_\ell),\ c_1+p_1(j_{\alpha_\ell}(\ell)),\ c_2+ \qquad (1)$$

$$+\,p_2(\mu_{\beta_\ell}(\ell)),\ c_3+p_3(\rho_{\sigma_\ell}(\ell))],\ GF(2),\quad \nu=\overline{1,k}.$$

(1)-də n–zaman, c_1,c_2,c_3–xanalar parametrləri və $n\in Z_0$, $c_\alpha \in Z$, harada ki, Z və Z_0 uyğun olaraq tam və mənfi olmayan tam ədədlər çioxluğudur;

$$y[n,c_1,c_2,c_3] = (y_1[n,c_1,c_2,c_3],...,y_k[n,c_1,c_2,c_3]) \in GF^k(2),$$

$$\upsilon_{i,\overline{\eta},\overline{w}}[n,c_1,c_2,c_3] = (u_{1,i,\overline{\eta},\overline{w}}[n,c_1,c_2,c_3],...,u_{r,i,\overline{\eta},\overline{w}}[n,c_1,c_2,c_3]) \in GF^r(2)$$

uyğun olaraq çıxış və giriş ardıcıllıqlarıdır;

$$P_\alpha = \{p_\alpha(1),...,p_\alpha(r_\alpha)\},\quad -\infty < p_\alpha(1) < ... < p_\alpha(r_\alpha) < +\infty,\ p_\alpha(j)\in Z,\quad j=1,...,r_\alpha,$$

harada ki, $p_\alpha(j)$ elementi P_α, $\alpha=\overline{1,3}$ çoxluğunun $j-$cu çoxluğunun elementidir P_α, $\alpha=\overline{1,3}$;

$$\Lambda(i) = \{\overline{\eta} = (\eta_1,...,\eta_r) \mid \eta_1+...+\eta_r = i,\quad \eta_\alpha \in \{0,1,...,(n_0+1)\cdot r_1\cdot r_2\cdot r_3\}, \alpha=\overline{1,r}\};$$

$$Q_0(\overline{\eta}) = \{\ell \mid \ell\in\{1,...,r\}\quad \eta_\ell \neq 0;\ \eta_\ell \text{ - } \overline{\eta} \text{ vektorunun komponentidir}\};$$

$$\Psi(\overline{\eta}) = \{\overline{w} = (w_1,...,w_r) \mid w_\ell \in \{1,...,\lambda(\eta_\ell)\},\ \ell\in Q_0(\overline{\eta});\ w_\ell = 0,\ \ell\notin Q_0(\overline{\eta})\},$$

harada ki, $F_\ell(\eta_\ell)$, $L_{\ell,1}(\gamma_1(\ell))$, $L_{\ell,2}(\gamma_2(\ell))$, $L_{\ell,3}(\gamma_3(\ell)$, $\ell\in Q_0(\overline{\eta})$, aşağıdakı çoxluqlardır:

$$F_\ell(\eta_\ell) =$$

$$= \Big\{(\gamma_1(\ell),\gamma_2(\ell),\gamma_3(\ell),\overline{m}_\ell) \Big| \overline{m}_\ell = (m_{\ell,1,1,1},...,m_{\ell,1,1,\gamma_1(\ell)},...,m_{\ell,1,1,\gamma_2(\ell)},...,m_{\ell,1,1,\gamma_3(\ell)},...,m_{\ell,\gamma_1(\ell),\gamma_2(\ell),\gamma_3(\ell)}),$$

$$\sum_{\alpha=1}^{\gamma_1(\ell)} \sum_{\beta=1}^{\gamma_2(\ell)} \sum_{\sigma=1}^{\gamma_3(\ell)} m_{\ell,\alpha,\beta,\sigma} = \eta_\ell;\ m_{\ell,\alpha,\beta,\sigma}\in\{0,...,n_0+1\}, \alpha=\overline{1,\gamma_1(\ell)},\ \beta=\overline{1,\gamma_2(\ell)}, \sigma=\overline{1,\gamma_3(\ell)};$$

$$(\forall\alpha\in\{1,...,\gamma_1(\ell)\})(\exists\beta\in\{1,...,\gamma_2(\ell)\})(\exists\sigma\in\{1,...,\gamma_3(\ell)\}) \Rightarrow (m_{\ell,\alpha,\beta,\sigma}\neq 0),$$

$$(\forall\beta\in\{1,...,\gamma_2(\ell\})(\exists\alpha\in\{1,...,\gamma_1(\ell)\})(\exists\sigma\in\{1,...,\gamma_3(\ell)\}) \Rightarrow (m_{\ell,\alpha,\beta,\sigma}\neq 0),$$

$$(\forall\sigma\in\{1,...,\gamma_3(\ell\})(\exists\alpha\in\{1,...,\gamma_1(\ell)\})(\exists\beta\in\{1,...,\gamma_2(\ell)\}) \Rightarrow (m_{\ell,\alpha,\beta,\sigma}\neq 0),\ \gamma_\xi\in\{1,...,r_\xi\}, \xi=\overline{1,3}\Big\};$$

$$F(\overline{\eta}) = \underset{\ell\in Q_0(\overline{\eta})}{\times} F_\ell(\eta_\ell),\quad L_\xi = \underset{\ell\in Q_0(\overline{\eta})}{\times} L_{\ell,\xi}(\gamma_\xi(\ell)),\ \xi=\overline{1,3}, \text{ harada ki,}$$

$$L_{\ell,1}(\gamma_1(\ell)) = \{\overline{j}(\ell) = (j_1(\ell),...,j_{\gamma_1(\ell)}(\ell)) \mid 1\le j_1(\ell) < ... < j_{\gamma_1(\ell)}(\ell) \le r_1\},$$

$$L_{\ell,2}(\gamma_2(\ell)) = \{\overline{\mu}(\ell) = (\mu_1(\ell),...,\mu_{\gamma_2(\ell)}(\ell)) \mid 1\le \mu_1(\ell) < ... < \mu_{\gamma_2(\ell)}(\ell) \le r_2\},$$

$$L_{\ell,3}(\gamma_3(\ell)) = \{\overline{\rho}(\ell) = (\rho_1(\ell),...,\rho_{\gamma_3(\ell)}(\ell)) \mid 1\le \rho_1(\ell) < ... < \rho_{\gamma_3(\ell)}(\ell) \le r_3\}.$$

$\Gamma(\gamma_1,\gamma_2,\gamma_3,\overline{\overline{m}})$, çoxluğu $\overline{\overline{\tau}}$ tipli elementlərin çoxluğudur və

$$\Gamma(\gamma_1,\gamma_2,\gamma_3,\overline{\overline{m}}) = \underset{\ell\in Q_0(\overline{\eta})}{\times} \Gamma_\ell(\gamma_1(\ell),\gamma_2(\ell),\gamma_3(\ell),\overline{m}_\ell).$$

burada,

$$\overline{\tau}_{\ell,\alpha,\beta,\sigma} \in \Gamma_{\ell,\alpha,\beta,\sigma}(m_{\ell,\alpha,\beta,\sigma}), (\alpha,\beta,\sigma)\in Q'_\ell(\eta_\ell,\gamma_1(\ell),\gamma_2(\ell),\gamma_3(\ell),\overline{m}_\ell),$$

$$\alpha=\overline{1,\gamma_1(\ell)},\ \beta=\overline{1,\gamma_2(\ell)}, \rho=\overline{1,\gamma_3(\ell)},$$

kimi vektorlardan düzəldilmiş $\overline{\overline{\tau}}_\ell$ blok vektorları çoxluğu $\Gamma_\ell(\gamma_1(\ell),\gamma_2(\ell),\gamma_3(\ell),\overline{m}_\ell)$ ilə işarə olunmuşdur, özü də

$$\Gamma_{\ell,\alpha,\beta,\sigma}(m_{\ell,\alpha,\beta,\sigma}) =$$

$$=\{\overline{\tau}_{\ell,\alpha,\beta,\sigma}=(\tau_\ell(\alpha,\beta,\sigma,1),...,\tau_\ell(\alpha,\beta,\sigma,m_{\ell,\alpha,\beta,\sigma}))\big|0\le\tau_\ell(\alpha,\beta,\sigma,1)<...<\tau_\ell(\alpha,\beta,\sigma,m_{\ell,\alpha,\beta,\sigma})\le n_0\};$$

$$Q'_\ell(\eta_\ell,\gamma_1(\ell),\gamma_2(\ell),\gamma_3(\ell),\overline{m}_\ell)=\{(\alpha,\beta,\sigma)\big|m_{\ell,\alpha,\beta,\sigma}-\overline{m}_\ell \text{ vektorunun komponentidir və}$$

$$m_{\ell,\alpha,\beta,\sigma}\ne 0,\ \alpha=\overline{1,\gamma_1(\ell)},\ \beta=\overline{1,\gamma_2(\ell)},\ \sigma=\overline{1,\gamma_3(\ell)}\};$$

$$Q''_\ell(\eta_\ell,\gamma_1(\ell),\gamma_2(\ell),\gamma_3(\ell),\overline{m}_\ell)=\{(\alpha_\ell,\beta_\ell,\sigma)\big|\sigma\in\{1,...,m_{\ell,\alpha_\ell,\beta_\ell}\},(\alpha_\ell,\beta_\ell)\in Q'_\ell(\eta_\ell,\gamma_1(\ell),\gamma_2(\ell),\overline{m}_\ell)\}.$$

$(\gamma_1(\ell),\gamma_2(\ell),\gamma_3(\ell),\overline{m}_\ell)[w_\ell]$ ilə $F_\ell(\eta_\ell)$ çoxluğunun w_ℓ-ci elementi işarə olunur., $(\gamma_1,\gamma_2,\gamma_2,\overline{\overline{m}})\in F(\overline{\eta})$ yığımına qarşılıqlı birqiymətli olaraq $\overline{w}\in\Psi(\overline{\eta})$ yığımı uyğun gəlir. $\overline{w}\in\Psi(\overline{\eta})$ yığımına uyğun gələn $(\gamma_1,\gamma_2,\gamma_2,\overline{\overline{m}})\in F(\overline{\eta})$ yığımı $(\gamma_1,\gamma_2,\gamma_3,\overline{\overline{m}})[\overline{w}]$ ilə işarə olunur. Odur ki, həmçinin $\overline{w}$-yə uyğun $\Gamma(\gamma_1,\gamma_2,\gamma_3,\overline{\overline{m}})$ çoxluğu $\Gamma(\gamma_1,\gamma_2,\gamma_3,\overline{\overline{m}})[\overline{w}]$ kimi yazılır. Tutaq ki, N, C_1, C_2, C_3 mənfi olmayan tam ədədlərdir, $n\in[0,N]\equiv\{0,1,...N\}$, $c_\alpha\in[0,C_\alpha]\equiv\{0,1,...C_\alpha\}$, $\alpha=\overline{1,3}$ və

$$\{\upsilon_\ell[n,c_1,c_2,c_3]:n\in[0,N],c_1\in[0,C_1],c_2\in[0,C_2],c_3\in[0,C_3]\},\ \ell\in Q_0(\overline{\eta}), \tag{2}$$

ixtiyari ikilik giriş ardıcıllıqlarıdır. Tutaq ki,

$$\{y_\nu^0[n,c_1,c_2,c_3]:n\in[0,N],c_1\in[0,C_1],c_2\in[0,C_2],c_3\in[0,C_3]\},\ \nu=\overline{1,k}, \tag{3}$$

(1) 4D–ÇQMDS-in arzu olunan(etalon) ikilik giriş ardıcıllıqlarıdır. Aşağıdakı funksionala baxılır.

$$J=\sum_{n=0}^{N}\sum_{c_1=0}^{C_1}\sum_{c_2=0}^{C_2}\sum_{c_3=0}^{C_3}\sum_{\nu=1}^{k}(y_\nu[n,c_1,c_2,c_3]-y_\nu^0[n,c_1,c_2,c_3])^2\ . \tag{4}$$

(1) 4D–ÇQMDS-in sintez məsələsi hər bir $\overline{\overline{\tau}}\in\Gamma(\gamma_1,\gamma_2,\overline{\overline{m}})[\overline{w}]$, $(\overline{\overline{j}},\overline{\overline{\mu}})\in L_1\times L_2$, $\overline{w}\in\Psi(\overline{\eta})$, $\overline{\eta}\in\Lambda(i)$, $i\in\{1,...,S\}$, üçün onun $h_{\nu,i,\overline{\eta},\overline{w}}[\overline{\overline{j}},\overline{\overline{\mu}},\overline{\overline{\tau}}]$ impuls xarakteristikalarına elə ikilik qiymətlərin tapılmasından ibarətdir ki, (1) 4D–ÇQMDS-in girişinə ixtiyari ikilik (2) ardıcıllığı daxil olduqda çıxışda (3) arzu olunan çıxış ardıcıllığı ilə real çıxış ardıcıllığı arasında məsafəni göstərən (4) funksionalı minimum qiymət alsın.

Tutaq ki, $\overline{\overline{\tau}}_\xi$ elemeni $\Gamma(\gamma_1,\gamma_2,\gamma_2,\overline{\overline{m}})[\overline{w}]$ çoxluğunun ξ- ci elementidir, $\overline{\overline{\tau}}_\xi$ yığımın komponentləri isə $\tau_\ell^{(\xi)}(\alpha_\ell,\beta_\ell,\sigma_\ell)$, $\sigma\in\{1,...,m_{\ell,\alpha_\ell,\beta_\ell,\sigma_\ell}\}$, $(\alpha_\ell,\beta_\ell,\gamma)\in Q'_\ell(\eta_\ell,\gamma_1(\ell),\gamma_2(\ell),\gamma_3(\ell),\overline{m}_\ell)$-lərdir. Aşağıdakı matris qurulur

$$V_0(i,\overline{\eta},\overline{w},\overline{\overline{j}},\overline{\overline{\mu}},\overline{\overline{\rho}},\overline{\overline{\tau}}_\xi)=\Big\{\prod_{\ell\in Q_0(\overline{\eta})}\ \prod_{(\alpha_\ell,\beta_\ell,\sigma_\ell)\in Q''_\ell(\eta_\ell,\gamma_1(\ell),\gamma_2(\ell),\ \gamma_3(\ell),\overline{m}_\ell)}\upsilon_{\ell,i,\overline{\eta},\overline{w}}[n-\tau_\ell^{(\xi)}(\alpha_\ell,\beta_\ell,\sigma_\ell),\ c_1+$$
$$+p_1(j_{\alpha_\ell}(\ell)),\ c_2+p_2(\mu_{\beta_\ell}(\ell)),\ c_3+p_3(\rho_{\sigma_\ell}(\ell))]\Big\}, \tag{5}$$

$V_0(i,\overline{\eta},\overline{w},\overline{\overline{j}},\overline{\overline{\mu}},\overline{\overline{\rho}},\overline{\overline{\tau}}_\xi)$ matrisindən istifadə etməklə ardıcıl olaraq aşağıdakı blok matrisləri qurulur:

$$V_1(i,\overline{\eta},\overline{w},\overline{\overline{j}},\overline{\overline{\mu}},\overline{\overline{\rho}}),\ V_2(i,\overline{\eta},\overline{w}),\ V_3(i,\overline{\eta}),\ V_4(i),\ \ V_5=(V_4(1)\ ...\ V_4(S)),\ V=diag\{\underbrace{V_4\ ...\ U_4}_{k}\}. \tag{6}$$

V matrisinə adi matris kimi baxdıqda, yəni blokları açıq şəkildə yazdıqda, sonra alınan matrisin bloklarını da açıq şəkildə yazdıqda və i.a. $(N+1)(C_1+1)(C_2+1)(C_3+1)\times R$ ölçülü adi matris alınar. Burada $R=k\cdot R_1$ и $R_1=\sum_{\chi=1}^{S}C_{r(n_0+1)r_1r_2}^{\chi}$. $\left|\Gamma(\gamma_1,\gamma_2,\gamma_3,\overline{\overline{m}})[\overline{w}]\right|$ komponentli

$$H_1(\nu,i,\overline{\eta},\overline{w},\overline{\overline{j}},\overline{\overline{\mu}},\overline{\overline{\rho}})=(h_{\nu,i,\overline{\eta},\overline{w}}[\overline{\overline{j}},\overline{\overline{\mu}},\overline{\overline{\rho}},\overline{\overline{\tau}}_1],...,h_{\nu,i,\overline{\eta},\overline{w}}[\overline{\overline{j}},\overline{\overline{\mu}},\overline{\overline{\rho}},\overline{\overline{\tau}}_{\left|\Gamma(\gamma_1,\gamma_2,\gamma_3,\overline{\overline{m}})[\overline{w}]\right|}])^T \tag{7}$$

sütun vektoru qurulur və onlardan istifadə etməklə ardıcıl olaraq blok vektorları qurulur:

$$H_2(\nu,i,\overline{\eta},\overline{w})^T,\ H_3(\nu,i,\overline{\eta})^T,\ H_4(\nu,i)\ ,\ H_5(\nu)=(H_4(\nu,1),...,H_4(\nu,S))^T,\ H=(H_5(1),...,H_5(k))^T\ . \tag{8}$$

Tutaq ki,

$$Y^0=(y_1^0[0,0,0,0],...,y_1^0[N,0,0,0],...y_1^0[N,C_1,C_2,C_3],...,y_k^0[N,C_1,C_2,C_3])^T,$$
$$Y=(y_1[0,0,0,0],...,y_1[N,0,0,0],...,y_1[N,C_1,C_2,C_3],...,y_k[N,C_1,C_2,C_3])^T.$$

Onda (1), (4) məsələsi aşağıdakı matris-vektor şəklinə olar:

$$Y = V \cdot H,\ GF(2), \quad J = (Y - Y^0)^T \cdot (Y - Y^0) \to \min. \tag{9}$$

Tutaq ki, (2) giriş ardıcıllı ortoqonaldır, yəni $V^T \cdot V = diag\{d_{1,1},...,d_{R,R}\};\ \ d_{\alpha,\alpha} > 0,\ \alpha = \overline{1,R}$ şərti ödənir. Onda (1), (4) məsələsinin həlli aşağıdakı kontinual kvadratik optimallaşdırma məsələsinin həllinin xüsusi qaydada yuvarlaqlaşdşrılması əsasında tapılır:

$$Y = V \cdot K, \quad J = (Y - Y_0)^T (Y - Y_0) \to \min, \tag{10}$$

harada ki, K vektoru R-ölçülü vektordur. Əgər k_α və h_α uyğun olaraq K və H vektorlarının α - cı komponentləridirsə, onda məsələnin həlli aşağıdakı kimi həll olunur: Əgər $k_\alpha > 0.5$, onda $h_\alpha = 1$, əks halda $h_\alpha = 0$. (10) məsələsinin həlli isə $K = (V^T \cdot V)^{-1} \cdot V^T \cdot Y_0$ düsturu ilə təyin olunur.

Ədəbiyyat

1. Фейзиев Ф.Г., Абаева Н.Б. Полиномиальное соотношение для представления полной реакции одного класса двоичных 4D-модулярных динамических систем // Вестник Пермского университета. Серия Математика. Механика. Информатика. - 2019. Выпуск 2(45). - С. 46-54.
2. Фейзиев Ф.Г., Мехтиева М.Р. Аналитическое представление полной реакции одного класса двоичных $3D$-многомерных нелинейных модулярных динамических систем // Вестник Томского государственного университета. Управление, вычислительная техника и информатика. - 2019. № 49. - С. 82-91.

РЕЗЮМЕ

ОБ ОДНОЙ ПРОБЛЕМЕ СИНТЕЗА ОДНОГО КЛАССА ДВОИЧНЫХ 4D - МНОГОМЕРНЫХ НЕЛИНЕЙНЫХ МОДУЛЯРНЫХ ДИНАМИЧЕСКИХ СИСТЕМ

Фейзиев Ф.Г., Мехтиева М.Р.

Ключевые слова: *4D - многомерные модулярные динамические системы; фиксированная память; ограниченная связь; двухзначный аналог полинома Вольтерра; задачи синтеза.*

Рассматривается вопрос решения проблемы синтеза одного класса двоичных 4D - многомерных модулярных динамических систем заданной в виде двухзначного аналога полинома Вольтерра.

SUMMARY

ON ONE PROBLEM OF SYNTHESIS ONE CLASS OF BINARY 4D - MULTIDIMENSIONAL MODULAR DYNAMIC SYSTEMS

Feyziyev F.G., Mehdiyeva M.R.

Keywords: *4D - multi-dimensional modular dynamic systems, fixed memory; limited connection; two-valued analogue of the Volterra's polynomial; synthesis problem.*

The question of solving the problem of synthesis of one class of binary 4D - multidimensional modular dynamic systems given in the form of a two-valued analogue of the Volterra's polynomial is considered.

KOMPÜTER ŞƏBƏKƏLƏRİNDƏ İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ SİSTEMİNİN İŞLƏNMƏSİNİN ALQORİTM VƏ MODELLƏRİ

İsmayılov Baləmi Qasım oğlu, Şəkərova Aynur Azər qızı

Milli Aviasiya Akademiyası, Bakı, Azərbaycan
sekerovaaynur@gmail.com

Açar sözlər: *sanksiyalaşdırılmamış müdaxilə, informasiya təhlükəsizliyi sistemləri, informasiya təhlükəsizliyi, kütləvi xidmət sistemləri, müdafiə mexanizmi*

Kompüter sistem və şəbəkələrində informasiya təhlükəsizliyi sistemlərinin qurulması məsələsi qoyulmuş, məsələnin həll edilməsi üçün informasiya təhlükəsizliyi sisteminə qarışıq tipli kütləvi xidmət sistemi kimi baxılmışdır.Təqdim edilən işdə informasiya təhlükəsizliyi sisteminin işlənməsi məqsədilə GPSS World (General Purpose Simulation System) modelləşdirmə sistemi üçün simulyasiya modelinin alqoritmi işlənmiş və eksperiment aparılmiş,nəticələr alınmışdır.Alınmış nəticələr müxtəlif təyinatlı kompüter sistem və şəbəkələrində informsiya təhlükəsizliyi sistemlərinin qurulması zamanı istifadə edilə bilər.

Müasir dövrdə kompüter sistem və şəbəkələrində informasiya təhlükəsizliyi sistemilərinin yaradılması aktual məsələlərdən biri kimi qarşıya çıxmaqdadır.Belə ki, müəssisə daxili kompüter şəbəkələrinə qlobal İnternet şəbəkəsindən normal informasiyalarla yanaşı sanksiyalaşdırılmamış informasiyalar da daxil olaraq şəbəkə resurslarına ziyan verir.Bu baxımdan təqdim olunan işdə belə şəbəkələrdə şəbəkənin proqram-texniki resurslarından istifadə edərək informasiya təhlükəsizliyi sistemlərinin işlənməsi (ITS) üçün alqoritm və modellər işlənmişdir.

İnformasiya təhlükəsizliyi sisteminin strukturuna əsasən informasiyanı yoxlayan müdafiə mexanizmləri daxildir.İnformasiya təhlükəsizliyi sisteminə daxil olan bədniyyətli bu mexanizmlərin birindən yoxlanılaraq keçir.Belə ki, əgər daxil olan informasiya hər hansı bədniyyətli və ya sistem tərəfindən tanınmayan informasiyadırsa o bloklanır, əks halda isə qorunan resurslara daxil olaraq emal olunur.

Baxılan məsələnin həll edilməsi üçün informasiya təhlükəsizliyi sisteminə qarışıq tipli kütləvi xidmət sistemi kimi baxılmışdır.Əgər bədniyyətliyə informasiya mənbəyi, müdafiə mexanizmlərinə xidmət qurğuları kimi baxılarsa informasiya təhlükəsizliyi sisteminə kütləvi xidmət sistemi kimi baxmaq olar. Bu sistem üç aşağıdakı strukturladan birinə malik ola bilər:

- sistem bufer yaddaşa malik deyildir;
- sistem məhdud bufer yaddaşa malikdir;
- sistem qeyri məhdud bufer yaddaşa malikdir;

Fərz edilmişdir ki. sistemin girişinə daxil olan informasiya seli eksponensial paylanmaya malkdir.

Birinci halda informasiya sistemə daxil olduqda müdafiə mexanizmlərindən heç olmasa biri boşdursa ora daxil olaraq xidmət alır, əks halda xidmət almadan sistemi tərk edir.

İkinci halda sistem məhdud bufer yaddaşa malikdir.Bu halda:

- informasiya sistemə daxil olduqda bufer yaddaşda (növbədə) yer varsa və müdafiə mexanizmləri məşğuldursa o növbədə gözləyir, müdafiə mexanizmlərindən heç olmasa biri azad olduqda xidmət alaraq sistemi tərk edir.
- informasiya sistemə daxil olduqda bufer yaddaşda (növbədə) yer yoxdursa müdafiə mexanizmlərinin hamısı məşğuldursa, informasiya xidmət almadan sistemi tərk edir.

Üçüncü halda sistem qeyri məhdud bufer yaddaşa malikdir.Bu halda daxil olan informasiya müdafiə mexanizmlərinin hamısı məşğul olduqda bufer yaddaşda gözləyərək, müdafiə mexanizmlərinin heç olmasa biri boşaldıqda xidmət alaraq sistemi tərk edir.

Təqdim edilən işdə informasiya təhlükəsizliyi sisteminin işlənməsi məqsədilə GPSS World (General Purpose Simulation System) modelləşdirmə sistemi üçün simulyasiya modelinin alqoritmi işlənmiş, eksperiment aparılmiş,nəticələr alınmışdır.Alınmış nəticələr müxtəlif təyinatlı kompüter sistem və şəbəkələrində informsiya təhlükəsizliyi sistemlərinin qurulması zamanı istifadə edilə bilər.

Ədəbiyyat

1. Ismailov B.G.Modelling and analysis of the security system information in service networks. - 2022. - /B.G.Ismailov// Проблеми інформатизації та управління, Т.1, №69. - С.46-53.DOI:10.18372/2073-4751.69.16812

РЕЗЮМЕ

АЛГОРИТМЫ И МОДЕЛИ РАБОТЫ СИСТЕМ ИНФОРМАЦИОННОЙ БЕЗОПАСНОСТИ В КОМПЬЮТЕРНЫХ СЕТЯХ

Исмайлов Б.Г., Шекарова А.А.

Ключевые слова: *несанкционированный доступ, системы безопасности информации, информационная безопасность, системы массового обслуживания, механизм защиты.*

Был поставлен вопрос о построении систем информационной безопасности в компьютерных системах и сетях, и для решения поставленной задачи рассматривалась система информационной безопасности как система массового обслуживания смешанного типа. В представленной работе с целью разработки системы информационной безопасности разработан алгоритм имитационной модели системы моделирования GPSS World (General Purpose Simulation System), проведен эксперимент и получены результаты.Полученные результаты могут быть использованы. при построении систем информационной безопасности в компьютерных системах и сетях различного назначения.

SUMMARY

ALGORITHMS AND MODELS OF INFORMATION SECURITY SYSTEM OPERATION IN COMPUTER NETWORKS

Ismailov B.G., Shakarova A.A.

Keywords: *unauthorized access, information security systems, information security, queuing systems, protection mechanism.*

The question was raised about the construction of information security systems in computer systems and networks, and to solve this problem, the information security system was considered as a queuing system of a mixed type. In the presented work, the

algorithm of the simulation model for the GPSS World (General Purpose Simulation System) modeling system was developed for the purpose of developing the information security system, the experiment was conducted, and the results were obtained.The results obtained can be used. when building information security systems in computer systems and networks for various purposes.

SOC-DA HADİSƏLƏRİN MODELLƏŞDİRİLMƏSİ

İmamverdiyev Yadigar Nəsib oğlu, Qasımlı Fərid Fikrət oğlu

Azərbaycan Texniki Universiteti, Bakı, Azərbaycan
yadigar.imamverdiyev@aztu.edu.az, farid.gasimli@aztu.edu.az

Açar sözlər: *təhlükəsizlik əməliyyatları mərkəzi, SOC, hadisə, insident, presedent.*

Hazırda kiberhücumların sayı durmadan artmaqdadır və təhlukəsizlik əməliyyatları mərkəzləri saniyədə minlərlə hadisə qeydə alırlar, onların bir çoxu insident ola bilər və müvafiq şəkildə operativ cavablandırılmalıdır. Belə vəziyyət informasiya təhlükəsizliyi hadisələrinin analizi və insidentlərə reaksiya sahəsində süni intellekt əsasında avtomatlaşdırmanı aktual edir. Bu işdə avtomatlaşdırmanı dəstəkləmək üçün informasya təhlükəsizliyi hadisələrinin modelləşdirilməsi üçün bir yanaşma təklif edilir.

Təhlükəsizlik əməliyyatları mərkəzi (Security opertions Center, SOC) təşkilatın təhlükəsizlik vəziyyətini idarə etməyə xidmət edən təşkilati-texniki mərkəzdir. Belə ki, bu mərkəzdə fasiləsiz olaraq müəssisənin kibertəhlükəsizlik vəziyyəti izlənilir, təhlil edilir və təkmilləşdirilir. Bu işləri yerinə yetirmək üçün mərkəz daxilində SOC komandaları yaradılır. Həmin komandalar şəbəkələr, serverlər, proqramlar, verilənlər bazaları və digər sistemlərdə fəaliyyətə nəzarət edir, təhlükəli hesab edilə bilən hadisələri və ya anomal fəaliyyəti araşdırır və qarşısını alırlar. SOC-da təhdidlərin müəyyən edilməsi ilə yanaşı, həm də təhdidlərin təhlili aparılır, mənbəyi araşdırılır, aşkar edilmiş boşluqlar haqqında hesabatlar hazırlanır. Yuxarıda qeyd edilən proseslər SOC-un əsas funksiyalarını - informasiya təhlükəsizliyi (İnT) hadisələrinin idarə edilməsini özündə birləşdirir.

Yeni nəsil SOC-larda süni intellekt və maşın öyrənməsi üsullarının tətbiqi ilə İnT hadisələrinin idarə edilməsi prosesi xeyli yaxşılaşdırılmışdır [1].

Bu işdə SOC-da İnT hadisələrinin avtomatlaşdırılmış idarə edilməsini dəstəkləmək üçün hadisələrin modelləşdirilməsinə bir yanaşma təklif edilir. Model İnT hadisələrinin təsviri, latent semantik indeksləmə, qərarların təsviri və presedentlərin seçilməsini əhatə edir.

İnformasiya təhlükəsizliyi hadisələrinin təsviri. Qeyd edək ki, konkret hadisənin təsviri formatı informasiya təhlükəsizliyi siyasəti ilə müəyyən edilir və bura tətbiq sahəsi üçün maraqlı ola biləcək bütün məlumatlar daxil edilə bilər. Bu işdə İnT hadisəsi formal olaraq aşağıdakı şəkildə təsvir edilir:

$$e = (Etype, DT, ID, rb, sev, v_1, ..., v_n),$$

burada e - İnT hadisəsi, $Etype$ - hadisənin növü, DT – hadisənin başvermə vaxtı və zamanı, ID - hadisənin aşkarlandığı mənbənin identifikatorları, rb – mənbəyə inam dərəcəsi, sev – hadisənin risk dərəcəsi, $v_1, ..., v_n$ - tətbiq sahəsindən asılı olaraq hadisənin təsviri üçün tələb edilən digər atributlardır (məsələn, IP-ünvan, protokol, portun nömrəsi və s.). v_i atributları bir qiymət və ya elementlər toplusu kimi qiymətlər ala bilər. Eyni növ hadisələr eyni atributlar çoxluğuna malik olur.

Latent semantik indeksləmə. Adətən, İnT hadisələrinin təsvirinə mətn informasiyası da daxil olur, məsələn, hadisənin simptomları, təzahürləri, səhvlər haqqında məlumatlar və s. Bu verilənlərin təsviri üçün latent semantik indeksləmə (Latent Semantic Indexing, LSI) metodundan istifadə edilməsi təklif olunur [2].

LSI mətn sənədini semantik vektora çevirir. Bu vektorun yaradılması üçün LSI sənədlər toplusunda sözlərin tezliyini təsvir edən matrisdən istifadə edir. Tutaq ki, m sənəddən ibarət toplu verilib və bu sənədlərdə n terminə (sözə) rast gəlinir. Tutaq ki, müəyyənlik üçün $A_{m\times n}$ matrisinin sütunları sənədlərə, sətirləri isə sənədlərdə rast gəlinən terminlərə uyğundur. $A_{m\times n}$ matrisinin hər bir a_{ij} elementi aşağıdakı kimi hesablanır:

$$a_{ij} = \frac{n_{ij}}{t_j} \log \frac{N}{T_i},$$

burada n_{ij} – i-ci terminin j-cu sənəddə rastgəlmə sayı; t_j – j-cu sənəddə terminlərin sayı; N - sənədlərin sayı, T_i – i-ci terminin olduğu sənədlərin sayıdır.

Sinqulyar ayırmadan (SVD - singular value decomposition) [4] istifadə etməklə A_{mxn} matrisini üç matrisin hasilinə ayırırlar: $A = U\Sigma V^T$, burada U - mxr ölçülü ortoqonal matris, V - nxr ölçülü ortoqonal matris, $\Sigma = diag(\sigma_1, \ldots, \sigma_r)$ - $r\times r$ ölçülü diaqonal matrisdir, r = rank(A), σ_i - A-nın sinqulyar qiymətidir və $\sigma_1 \geq \sigma_2 \geq \ldots \geq \sigma_r$.

LSI s ən böyük sinqulyar qiyməti götürməklə sinonimlik və polisemiyanı azaldır, nəticədə A matrisinin ranqı kiçilir; $A_s = U_s V_s V_s^T$. s-in optimal qiyməti r-dən asılı olmaqla seçilir. Sənədlərin semantik vektorları V_s sıraları ilə indekslənir. Yeni sənədin və ya sorğunun semantik vektoru U_s, Σ_s istifadə edilməklə hesablanır [2].

Qərarların təsviri. Ümumi halda, qərar dedikdə oxşar insidentlərin cavablandırılması zamanı yerinə yetirilmiş hərəkətlər və onların nəticələri; verilmiş situasiyada ediləcək hərəkətlər barədə təlimatlar, hərəkətlərin icrası barədə ekspert tövsiyələri və s. nəzərdə tutulur. Eyni zamanda, qərarın tətbiqinin nəticələrini də modelləşdirmək tələb edilir. Nəticənin təsvirində digər hadisələrə (presedentlərə) istinadlar da ola bilər.

İnsidentin və qərarın təsvirindən sonra presedenti (insident və qərarı) formal olaraq aşağıdakı kimi müəyyən edə bilərik: p presedenti $< s, r, h, z >$ kortejindən ibarətdir, burada $s \in S$ hadisəsi və onunla bağlı $r \in R$ qərarı $z \in Z$ qərar qəbul edən şəxsin rəhbərliyi altında $h \in H$ ekspertlər qrupu tərəfindən yerinə yetirilir.

Hər bir s insidentinə bir neçə qərar uyğun ola bilər, beləliklə, $< s, r >$ və $< s, r' >$ şəklində presedentlərin mövcud olmasını qəbul etmək olar, onlar $r \neq r'$ şərtində fərqlənirlər.

Hər bir $p_i \in \{p\}$ presedentinə $s_i \Rightarrow r_i, i = \overline{1,n}$ şərti implikasiyası kimi baxmaq olar. Beləliklə, əgər müəyyən $s_i \approx s_j, j = \overline{1,n}, i \neq j$ insidenti verilibsə və $p_i = < s_i, r_i, h_i, z_i >$ presedenti mövcuddursa, onda iddia etmək olar ki, r_j həlli s_i insidenti üçün təqribi həlldir. s_i insidenti s_j insidentinə nə qədər yaxındırsa, r_j-un s_i üçün qərar (həll) olması bir o qədər həqiqətəoxşardır.

Presedentlərin seçilməsi. Verilmiş presedentə ən "yaxın" presedentin presedentlər bazasından seçilməsi problemi baxılan məsələnin ən vacib hissəsidir. Presedenlər bazasında axtarış üçün ən yaxın qonşular metodu geniş yayılmış və çox istifadə edilən yanaşmadır. k ən yaxın qonşu (K-nearest neighbors, k-NN) metodunda əvvəlcə presedentlər bazasından k oxşar presedent tapılır (adətən k = 3 və ya k = 5), sonra seçilmiş yaxınlıq metrikası əsasında onların arasından baxılan presedentə ən yaxın olan presedent müəyyən edilir.

İki presedentin oxşarlıq dərəcəsi presedeüntlərin müvafiq əlamətlərinin yaxınlıq dərəcəsi əsasında müəyyən edilir. Hər bir əlamətə onun nisbi vacibliyini əks etdirən çəki əmsalı verilir. Bütün əlamətlər üzrə iki presedentin oxşarlıq dərəcəsini müəyyən etmək üçün aşağıdakı düsturdan istifadə etmək olar:

$$sim(i,k) = \frac{\sum_{j=1}^{n} w_j \cdot sim(e_{ij}, e_{kj})}{\sum_{j=1}^{n} w_j},$$

burada w_j - j-cu əlamətin çəkisidir; sim - yaxınlıq metrikasıdır; e_{ij} və e_{kj} - e_j əlamətinin uyğun olaraq cari i presedenti və k presedenti üçün qiymətləridir.

Sim yaxınlıq metrikasının seçilməsi çox vacib məsələdir. İnT hadisələrinin yuxarıda verilmiş təsvirindən göründüyü kimi, presedentlərin əlamətlərinin bir hissəsi ədədi və nominal qiymətlər qəbul edir, digər hissəsi isə semantik vektorlarla kodlaşdırılan mətn verilənləri ilə təsvir edilir. Bu nəzərə alınmaqla, iki növ yaxınlıq metrikasından istifadə olunması təklif olunur.

Ədədi və nominal qiymətlər alan əlamətlərin yaxınlığını heterogen məsafə funksiyasının (Heterogeneous Euclidean-Overlap Metric, HEOM) [3] əsasında müəyyən etmək təklif edilir, burada əlamətlərin müxtəlif növləri üçün fərqli məsafə funksiyaları istifadə edilir.

Nəticə. Hazırda təhlukəsizlik əməliyyatları mərkəzlərinin qarşısında yüzlərlə informasiya təhlükəsizliyi sisteminin orkestləşdirilməsi (koordinasiyası), onlardan alınmış olduqca böyük sayda hadisələrin analizi və aşkarlanmış insidentlərə avromatlaşdırılmış cavab vermək məsələsi durur. Bu işdə avtomatlaşdırmanı dəstəkləmək üçün informasya təhlükəsizliyi hadisələrinin təsviri, insidentə cavab senarisinin (qərarın) təsvri və oxşar presedentlərin seçilməsindən ibarət yanaşma təklif edilir.

Ədəbiyyat

1. Yang W., & Lam K. Y., Automated cyber threat intelligence reports classification for early warning of cyber attacks in next generation SOC / Information and Communications Security: 21st International Conference, 2019, pp. 145-164.

2. Salloum S. A., Khan R., & Shaalan K., A survey of semantic analysis approaches / Proceedings of the International Conference on Artificial Intelligence and Computer Vision, 2020, pp. 61-70.

3. Cunningham P., A taxonomy of similarity mechanisms for case-based reasoning // IEEE Transactions on Knowledge and Data Engineering, 2009, vol. 21, no. 11, pp. 1532-1543.

РЕЗЮМЕ
МОДЕЛИРОВАНИЕ СОБЫТИЙ В SOC
Имамвердиев Ю.Н., Гасымлы Ф.Ф.

Ключевые слова: *центр безопасности, SOC, событие, инцидент, прецедент.*

В настоящее время количество кибератак постоянно растет, а центры управления безопасностью регистрируют тысячи событий в секунду, многие из которых могут быть инцидентами и на них необходимо реагировать быстро и соответствующим образом. Такая ситуация делает автоматизацию на основе искусственного интеллекта актуальной в сфере анализа событий ИБ и реагирования на инциденты. В данной работе предлагается подход к моделированию инцидентов информационной безопасности для поддержки автоматизации.

SUMMARY
MODELING OF EVENTS IN SOC
Imamverdiyev Y.N., Gasimli F.F.

Keywords: *security operations center, SOC, event, incident, precedent.*

Currently, the number of cyber attacks is constantly increasing and security operations centers are registering thousands of events per second, many of which may be incidents and need to be responded to quickly and accordingly. Such a situation makes automation based on artificial intelligence relevant in the field of analysis of information security events and response to incidents. This work proposes an approach for modeling information security incidents to support automation.

ORTA MƏKTƏB RİYAZİYYAT FƏNNİNİN TƏLİMİNDƏ FƏRDİLƏŞDİRMƏ

Quliyeva Gözəl Emin qızı, Cəfərli Esmira Vahid qızı

Gəncə Dövlət Universiteti, Gəncə, Azərbaycan
quliyevagozl131@gmail.com, esmiraceferli@gmail.com

Açar sözlər: *təhsil, məktəb, riyaziyyat, müəllim, fərdiləşmə.*

Məqalədə məktəb riyaziyyat təlimində fərdiləşdirmədən bəhs olunur. Fərdiləşdirmə haqqında ilkin məlumat verdikdən sonra riyaziyyat təlimində fərdiləşdirmənin əhəmiyyəti və vacibliyi qeyd olunub.Məqalədə Hovard Qardnerin "Çoxnövlü intellekt" nəzəriyyəsinədə toxunulub. Fərdiləşdirməni həyata keçirmək üçün dərsik və proqramlara verilən tələblər haqqında məlumatlar öz əksini məqalədə tapmışdır.

Müasir dövrün tələblərinə və dövrün inkişaf səviyyəsinə uyğun riyaziyyatın məktəbdə öyrədilməsinin metodikasının, komponentlərinin yeniləşdirilməsinə ehtiyac duyulurdu. Müasir dövrümüzdə elmin son naliyyətlərinə əsaslanan texniki cihazlarla təchiz edilən orta məktəblərimizdə müəllimlər yəni mütəxəssislər qarşısında olduqca əhəmiyyətli və yüksək tələblər qarşı qoyaraq onlarda peşə hazırlığına yeniliklər gətirdi. Ümumitəhsil və peşə təhsili sahəsində riyaziyyat təliminin məzmunu, inkişafı müəllim tərəfindən həyata keçrilir.Müəllim orta mətəblərdə şagirdlərin hər birinin müxtəlif intellekt səviyyəsinə malik olduğunu nəzərə alaraq riyaziyyatı tədris edir. Bu zaman müəllim analiz, sintez, fərdiləşdirmə (xüsusiləşdirmə), ümumiləşdirmə və.s. kimi metodlardan isdifadə edir. Bu metodlar içərisində fərdiləşdirmə ilə yaxından tanış olaq. Ümumi olaraq baxsaq görərik ki, tədrisin, təlimin fərdiləşməsi şagirdlərin şəxsi keyfiyyətlərini, onların intellektual inkişaf səviyyəsini, idraki maraqlarını, sosial statusunu, təhsilin keyfiyyətinə təsir edən faktorları nəzərə alan didaktik prinsiplərdən biridir. Orta məktəb riyaziyyat təlimində fərdiləşmə böyük əhəmiyyət kəsb edir. Sinif kollektivini ayrı-ayrı fərdlər şagirdlər təşkil etdiyi üçün müasir təlimdən fərqli olaraq ənənəvi təlimdədə fərdiləşmə üsulundan geniş isdifadə olunurdu. Fərdiləşmə məktəb riyaziyyat təlimində materialların seçilməsi və siniflərə uyğunlaşdırılmasını didaktik cəhətdən təkmilləşdirir. Müşahidə və təhlillərin nəticələrinə əsasən, müəllim riyazi təfəkkürün inkişafına xidmət edən bütün zəruri metod və vasitələrdən istifadə etməlidir. Riyazi təfəkkürü çox vaxt riyazi bacarıqların, riyazi istedadın təzahür etməsi ilə izah edilir. Riyazi və yaradıcı təfəkkür uzun müddətli prosesdir, bu prosesin reallaşdırılmasında müəllim və şagird əməkdaşlığı vacib məsələdir.

Hər bir şagirdə fərdi yanaşma, uzun müddətli bu prosesdə bizə düzgün üsul, metod və vasitələrin seçilməsində əsas rol oynayacaq. Beləki, təlim zamanı şagirdlərin potensial imkanları nəzərə alınaraq hər bir şagirdə fərdi yanaşılır. Orta məktəbdə şagirdlərə fərdi yanaşma özəlliklədə riyaziyyat təlimində

fərdiləşmə onlarda yarana biləcək çətinlikləri aradan qaldırır və fənnə qarşı motivasiya yaradır. Fərdiləşmə nəticəsində hər bir şagird öz bilik gücünə yəni intellekt qabiliyyətinə uyğun müəyyən səviyyə üçün seçilmiş tapşırıqlarla işləyir. Təcrübələrə əsasən riyazi tapşırıqları yerinə yetirməyi asanlıqla bacaran bir şagird eyni riyazi tapşırığı böyük çətinliklə yerinə yetirən şagirddən daha ağıllı deyil. Sadə və asan riyazi tapşırıqları yerinə yetirməyi öyrənmək üçün daha çox vaxt ayıran şagird fərqli yanaşma yolu ilə riyazi tapşırıqları daha yaxşı öyrənə bilər, və riyaziyyatdan kənar fəaliyyət sahələrində fərqlənə bilər. Həmin şagird riyazi tapşırıqları həlletmə prosesinə tamamilə fərqli bir proses kimi baxır. Bu formada əsaslı şəkildə dərindən anlama, kənardan müşahidə nəticəsində ləng görünə bilər. Ancaq bu riyazi tapşırıqları həlletmə prosesini dərindən dərk etməməsinə baxmayaraq, vurma cədvəlini tez xatırlayan bir şagirdin daha yüksək potensiallı riyazi zəkaya malik olduğunu demək olmaz.Hovard Qardnerin "Çoxnövlü intellekt" nəzəriyyəsində hər kəsin eyni tapşırığı fərqli yerinə yetirməsinin səbəbi izah edilir. Pedaqoji proseslə məşğul olan müəllimlər nəzəriyyənin təklif etdiyi yanaşmaların praktik dəyərini dəstəkləyir, şagirdlərinə fərdi yanaşmaq üçün bu nəzəriyyədən istifadə edirlər. Təlim zamanı müəllimlərin gündəlik təcrübəsi bunu təsdiqləyir. Şagirdlər müxtəlif düşünür və müxtəlif yollarla öyrənirlər.

Uşağın təhsilinə və inkişafına fərdi yanaşmanı təmin etməklə onun bir çox tərəfini və maraqlarını göstərə biləcəyi şərait yaratmağımız vacibdir. Bu nəzəriyyədən istifadə edərək, uşağın öyrənmə və inkişafını fərdi yanaşmanı təmin edəcək şəkildə təşkil etmək lazımdır. Nəticədə fərqli intellekt növünün yaxşı inkişaf etdiyi uşaqlar üçün tapşırıqlar və məşqlər əhəmiyyətli dərəcədə fərqli olacaqdır. Hər bir şagirdə uyğun olan mükəmməl təlim tərzini seçmək vacibdir şərtdir. O zaman uşağın inkişafı mümkün qədər effektli olacaqdır. Təlimi planlaşdırarkən müəllim müəyyən nəzəriyyə və ya innovasiyanı əsas tutmamalı, şagirdlərin tələbatlarına və öz dərsdemə tərzinə uyğun olaraq təlim məqsədlərinə adaptasiya olmalıdır.İntellekt növlərini və şagirdlərin potensialını nəzərə alan müəllim fərdi yanaşmanı asanlıqla tətbiq edəbilər. Şagirdlərdə tədris fəaliyyətinin fərdiləşdirilməsi riyaziyyat təliminin diferensiallaşdırılmasının əsasını təşkil edir. Deyə bilərik ki, riyaziyyat təlimində fərdiləşmə səviyyə və peşə diferensiallaşdırılması ilə vəhdət təşkil edir. Orta məktəb riyaziyyat təlimində fərdiləşməni həyata keçirmək üçün dərslik və proqramlara müəyyən tələblər qoyulur. Dərsliklər kurikuluma əsaslanır yəni riyaziyyat dərsliklərində mövzular ardıcıl, tapşırıqlar isə asandan çətinə doğru düzülüb. Proqramlarda isə müəllim öz fərdi yanaşması əsasında istənilən dəyişikliyi apara bilər. Pedaqoji prosesin təşkili prinsiplərindən biri şagirdyönümlülük prinsipidir ki, bu prinsip şagirdlərin maraq və tələbatlarının ödənilməsinə yönəlib.

Fərdiləşdirmə fəaliyyəti sitimullaşdıraraq inkişafyönümlülük prinsipini reallaşdırmağa imkan verir. Bu məqalədə fərdiləşdirmənin müsbət tərəflərini açıqladıq lakin bu o demək deyil ki, mənfi tərəfi yoxdur. Bəli fərdiləşdirmənin mənfi yönüdə vardır ki, bu da zamanla bağlıdır. 45 dəqiqəlik riyaziyyat dərsində fərdi yanaşma təlim zamanı vaxd məhdudluğuna gətirib çıxara bilir.

Ədəbiyyat

1. Orta məktəb dərslikləri və proqramları. https://www.e-derslik.edu.az
2. Çoxnövlü intellekt. https://www.arti.edu.az/az/presentation/842-hovard-qardner-quot-coxnovlu-intellekt-quot-nazariyyasi
3. Zahir Əzizov. Riyazi təfəkkürün inkişaf etdirilməsinə müxtəlif yanaşmalar. səh-107.
4. Diferensiallaşdırma,fərdi yanaşma, humanistləşdirmə prinsipləri. https://www.muallim.edu.az/news.php?id=1087

РЕЗЮМЕ

ИНДИВИДУАЛИЗАЦИЯ В ОБУЧЕНИИ МАТЕМАТИКЕ В СРЕДНЕЙ ШКОЛЕ

Гулиева Г.Э., Джафарли Э.В.

Ключевая слова:*Образование, школа, математика, учитель, персонализация.*

В данной статье рассматривается индивидуализация школьного математического образования. После предоставления информации об индивидуализации была отмечена важность и необходимость индивидуализации в изучении риязията. В статье, по словам Говарда Карднера «Мультикультурный интеллект», ему это надоело. В статье нашла свою противоположность информация о требованиях, предъявляемых к школам и программам по реализации индивидуализации.

SUMMARY

PERSONALIZATION IN THE TRAINING OF HIGH SCHOOL MATHEMATICS

Guliyeva G.E., Jafarli E.V.

Keywords: *Education, school, math, teacher, personalization.*

In this article, individualization in school mathematics education is discussed. After giving information about individualization, the importance and necessity of individualization in the study of riyaziyyat were noted. In the article, according to Hovard Qardner's "Multicultural intellect" He was fed up with it. Information about the demands given to schools and programs to implement individualization has found its opposite in the article.

MATLAB PROQRAM PAKETİNİN KÖMƏYİ İLƏ PİLOTSUZ UÇUŞ APARATININ VƏZİYYƏTİNİN MODELLƏŞDİRİLMƏSİ

Quluzadə Rüstəm Kamal oğlu, Səfərova Günel Qiyas qızı,
Quliyeva Səmayə Məmmədtağı qızı

Milli Aerokosmik Agentliyi, Təbii Ehtiyatların Kosmik Tədqiqatlar İnstitutu, Bakı, Azərbaycan
kulizadehrustam@yahoo.com

Açar sözlər: *PUA, 3D model, MATLAB, Eyler bucaqları.*

Məqalədə PUS-nın sadələşdirilmiş 3D modelinin yaradılması prosesi və onun animasiyası verilmişdir. PUA-da tətbiq olunan koordinat sistemləri göstərilmişdir. Gövdə koordinat sistemindən inersiaa koordinat sisteminə keşid matrisi verilmişdir.

PUA-ların dinamik davranışını anlamaq üçün bir neçə koordinat sistemlərindən istifadə olunur. Əsas olanlar inersial koordinat sistemi F^i və PUA-nın gövdəsinin koordinat sistemi F^b-dir. Həmçinin, aralıq koordinat sistemi kimi F^v nəqliyyat vasitəsinin, F^{v1} nəqliyyat vasitəsinin və F^{v2} nəqliyyat vasitəsinin koordinat sistemlərindən istifadə olunur. Müxtəlif koordinat sistemlərinin istifadə olunması aşağıdakı amillərlə ifadə olunur:

- PUA-nın marşrutu inersial koordinat sistemində planlaşdırılır;
- PUA-nın mövqeyi və GPS məlumatları da inersial koordinat sistemində xəritədə göstərilir;
- aerodinamik qüvvələri və fırlanma momentlərini ən asan şəkildə gövdə koordinat sistemində təsvir etmək mümkündür;
- PUA-nın daxili sensorlarının - yəni akselerometrlərin və giroskopların göstəriciləri gövdə koordinat sistemində verilir [1].

İnersial koordinat sisteminin oxları aşağıdakı kimi yönəldilmişdir: Ox - şimala (north), Oy - şərqə (east), Oz - Yerin mərkəzinə, yəni aşağıya (down) yönəlir. Buna görə də bu koordinat sistemi NED (north-east-down) adlanır.

Gövdə koordinat sistemi aşağıdakı kimi yönəldilmişdir: Ox - PUA-nın kursu boyunca irəli, Oy - PUA-nın sağ qanadına, Oz - gövdənin dibinə.

İnersial sistem və nəqliyyat vasitəsinin koordinat sistemi hərəkət ilə, qalan sistemlər isə fırlanma ilə əlaqələndirilir. F^{v1}, F^{v2} və F^b koordinat sistemlərinin nisbi oriyentasiyasını təyin edən bucaqlar kurs, tanqaj və meyl bucaqlarıdır. Müvafiq olaraq ψ (psi), θ (theta), φ (phi) ilə işarə olunur. Bu bucaqlar PUA-nın mövqeyini təsvir edir və Eyler bucaqları kimi tanınır.

Bu işin məqsədi PUA-nın animasiyasını hazırlamaq və onun gövdəsinin ekranda düzgün fırlanmasının mümkünlüyünü təmin etməkdir. İşləmə prosesi PUA-nın sadələşdirilmiş gövdəsinin modelləşdirilməsi ilə başlayır. Bunun üçün PUA-nın gövdəsinin təpələri (V) və üzlərinin (F) strukturları yaradılmalı və onların parametrləri təyin edilməlidir.

Növbəti mərhələdə R_roll (F^b-dən F^{v2}-yə keçid üçün), R_pitch (F^{v2}-dən F^{v1}-ə) və R_yaw (F^{v1}-dən F^v-ə) matrisləri yaradılır. Matrislər belə görünür:

R_roll = [1, 0, 0; 0, cos(phi), -sin(phi); 0, sin(phi), cos(phi)];

R_pitch = [cos(teta), 0, sin(teta); 0, 1, 0; -sin(teta), 0, cos(teta)];

R_yaw = [cos(psi), -sin(psi), 0; sin(psi), cos(psi), 0; 0, 0, 1];

Gövdə koordinat sistemindən (F^b) nəqliyyat vasitəsinin koordinat sisteminə (F^v) ümumi keçid matrisi aşağıdakı kimidir:

R_{tr} = R_roll × R_pitch × R_yaw;

Aşağıdakı matris kompüter ekranında nümayiş etdirmək üçün NED koordinat sistemindən XYZ koordinat sisteminə keçidi təmin edir:

R_{xyz} = [0, 1, 0; 100; 0, 0, -1];

Bu matrislərin istifadəsi gövdənin bütün təpələrinin koordinatlarını gövdə koordinat sistemindən ekrandakı koordinatlara çevirməyə imkan verir:

$V = (V^T \times R_{tr})^T$, burada T hərfi matrisin köçürülməsidir (sətirlərin və sütunların yerdəyişməsi).

$V = V \times R_{xyz}$

Eyler bucaqlarında müəyyən edilmiş dəyişikliklər hüdudlarında PUA-nın mövqeyində və istiqamətində dəyişiklikləri həyata keçirən proqram hazırlanmışdır. Şəkildə, Eyler bucaqlarının aşağıdakı qiymətləri ilə PUA-nın modelinin görünüşü göstərilmişdir: $\varphi = -54°$, $\theta = -37°$, $\psi = 50°$.



Şəkil. PUA-nın sadələşdirilmiş modelinin görünüşü

Ədəbiyyat

1. Randal W. Beard, Timothy W. McLain. Small unmanned aircraft. Theory and Practice // Princeton University Press, 2012. 317 p.

РЕЗЮМЕ

МОДЕЛИРОВАНИЕ ПОЛОЖЕНИЯ БЛА С ПОМОЩЬЮ MATLAB

Гулузаде Р.К., Сафарова Г.Г., Гулиева С.М.

Ключевые слова: *БЛА, 3Д модель, MATLAB, углы Эйлера.*

В статье дается процесс создания упрощенной 3D модели БЛА и ее анимации. Описаны системы координат, применяемые в БЛА. Дана матрица перехода из системы координат корпуса в инерциальную систему координат.

SUMMARY

SIMULATING UAV POSITION USING MATLAB

Guluzade R.K., Safarova G.G., Guliyeva S.M.

Keywords: *UAV, 3D model, MATLAB, Euler angles.*

In the article the process of creating a simplified 3D model of a UAV and its animation is given. The coordinate systems used in the UAV are described. The transition matrix from the body coordinate system to the inertial coordinate system is given.

VİRTUAL CİHAZ VASİTƏLƏRİNİN TƏTBİQİ İLƏ ÖLÇMƏ SİQNALLARININ MÜBADİLƏSININ ÜSULLARININ TƏHLİLİ

Mənsurov Qadir Məmməd oğlu, Quliyev Rahib Yaşar oğlu, Kamalova Günel Süleyman qızı

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

dr.ing.mansurov@mail.ru, rahib73@hotmail.com, gunel.kamalova.83@mail.ru

Açar sözlər: *Virtual cihaz, imitasiya modeli, kompüter simulyasiyası, DAQ kontrolleri, istifadəçi interfeysi, kommunikasiya protokolları*

Təqdim olunan işdə kompüter simulyasiyasının real obyektlə məntiqi alqoritmik bağlılığı təhlil olunur. Göstərilir ki, kompüterlərdə real obyektlərin və onların komponentlərinin imitasiya modellərinin işlənilməsində mütləq şəkildə virtual cihazların təsvir oluna biləcəyi bir simulyasiya proqramı, kompüterlə real obyektin və bununla da bilavasitə simulyasiya proqramı ilə əlaqəsinin təmin edilməsi üçün kommunikasiya qurğusunun olması labüddür. Simulyasiya proqramlarının istifadə etdiyi xüsusi interfeys qurğusu kimi LabVİEW proqramının çalışdığı mühitdə istifadə olunan Compaq DAQ kontrolleri və bu kontrollerin tərkibində real qurğularla əlaqə yaratmaq üçün xarakterik Nİ-nişanı ilə müxtəlif modifikasiyalı qurğulardan istifadə edilməsinin xüsusiyyətləri verilir. Nümunə olaraq, Nİ9215 seriyalı interfeysin istifadəsi qeyd olunur.

İstehsal sahələrində və insan fəaliyyətinin digər növlərində çoxsəviyyəli insan-maşın interfeyslərinin istifadəsi geniş tətbiq olunur [1,2]. Insan-maşın interfeyslərinin təsvir vasitələrində real obyektlər virtual cihazlar şəkilində təşkil olunaraq xüsusi kommunikasiya protokollarının və vasitələrinin tətbiqi ilə rabitə yaradılaraq idarə olunurlar. İnsan-maşın interfeyslərində real obyektin hər bir komponenti kompüter modelinin istifadə olunduğu proqram mühitinə uyğun simvollar və digər cizgi, animasiya vasitələri ilə təsvir olunaraq imitasiya olunur. Burada real vaxt rejimində hadisələrin gedişi, nəticələr istər məlumatlar (rəqəm tipləri, standart mətn formatları), istərsə də animatik hərəkətlər, qrafiklər formatında təqdim edilə bilir.

Virtual cihazların kompüter modellərinin istifadəsi xüsusi proqram-alqoritmlərin köməyi ilə real obyektlərin sinxron tədqiq olunması ilə yanaşı istehsal sahələrində insan-maşın təmaslarını minimuma endirməklə avtomatik rejimdə çoxsahəli monitorinqini və bununla da çox şaxəli nəzarətin tam şəkildə həyata keçirilməsin yerinə yetirə bilir. Bu geniş arenada avtomatik idarəetmə ilə yanaşı ölçmə sistemlərini, bu nəticələrə uyğun qərarların qəbul olunmasını həyata keçirir. İstifadə olunan kompüter modelləri proqram mühitinə uyğun olaraq real obyektlə şəkil 1-də təsvir olunan struktura uyğun olaraq məntiqi alqoritmik bağlılıqda olurlar.



Şəkil 1. Kompüter modellərinin real obyektlə bağlılığının blok sxemi

Şəkil 1-də təsvir olunan blok sxemdən göründüyü kimi kompüterlərdə real obyektlərin və onların komponentlərinin imitasiya modellərinin qurulmasında mütləq şəkildə virtual cihazların təsvir oluna biləcəyi bir simulyasiya proqramı, kompüterlə real obyektin və bununla da bilavasitə simulyasiya proqramı ilə əlaqəsinin təmin edilməsi üçün kommunikasiya qurğusunun olması mütləqdir. Belə qurğular ya avtonom ya da simulyasiya proqramının çalışdığı bir interfeys qurğusu ola bilər. Avtonom şəkildə hər hansı bir proqram vasitəsi və ya sürücünün tələb olunmadığı qurğulara misal olaraq Ehternet protokolunun çalışdığı paylayıcı qurğuları misal gətirmək olar. Nəzərə alınmalıdır ki, simulyasiya proqramının tələb etdiyi interfeys qurğuları xüsusi sürücü proqram vasitəsi ilə real obyekt və ya istehsal sahələrinin komponentləri ilə rabitədə olurlar. Bütün variantlarda, simulyasiya proqramı ilə obyektlər arasında əks əlaqə tələb olunur. Bu hadisələrin izlənməsi və saxlanması, sonradan transaksiyalar şəklində analizi üçün vacib olur.

Bütün kompüter və hesablama maşınlarında olduğu kimi daxil etmə vasitələrinin köməyi ilə (bu düymələr lövhəsi, skanerlər, audio-video qeyd edicilər ola bilər) ilkin verilənlər proqram vasitəsinə daxil edilir. İdarəetməni və nəticələrin real zaman anlarında izlənməsi üçün insan-maşın interfeysləri ya simulyasiya proqramlarının tərkibində, ya da kommunikasiya vasitələrinin köməyi ilə avtonom şəkildə

istifadə olunur. Bu zaman kommunikasiya protokollarında istifadə etməklə kompüter arasında əlaqə yaradılaraq istifadə olunan proqram vasitəsinə adaptasiya olunur. İnsan-maşın interfeyslərində proqram vasitəsində istifadə olunan virtual cihazlar təsvir olunur. Funksional və struktur asılı olan komponentlər isə alt proqram vasitəsi ilə simulyasiya proqramında qeyd edilir. Strukturdan göründüyü kimi virtual maşınla idarəetmə üst səviyyədən başlayaraq hər sikldə əks əlaqənin yerinə yetirilməsi ilə inkapsulyasiya ilə həyata keçirilir.

Kompüter modellərinin real obyektlə bağlılığın təmin etmək üçün alt sistem kimi məlumat toplama sistemi (Data Acquisition System - DAQ System) istifadə olunur. DAQ sistem texnoloji prosesin və ölçülən kəmiyyətin bütün ölçü zəncirini təşkil edən dörd əsas komponentdən ibarətdir: verici (Sensor); siqnal formalaşdırıcı (Signal Conditioning); disktetləşdirmə, rəqəm-analoq (D/A), analoq-rəqəm (A/D) çevirmələri təmin edən DAQ-cihaz (DAQ-Hardware); DAQ-cihazın işini, çıxış siqnalının qeyd olunmasını və emalını təmin edən proqramlar yüklənmiş kompüter (DAQ Software, Application Software, Computer). Sistem qeyd olunan komponentlər arasında interfeys əlaqəni təmin edən siqnal ötürücü vasitələrlə (Cables and Accessories) də təchiz olunur [3].

DAQ sistemin əsas vəzifəsi rəqəmsal verilənlərin toplanmasını və saxlanılmasını təmin etməkdən ibarətdir. Bununla belə, bu cür sistemlər ölçmələrin və toplanmış məlumatların vizual təsviri üçün də istifadə olunur. Sistemlərin əksəriyyəti daxili təhlil və hesablama xüsusiyyətlərinə də malik olur.

Əlbəttə ki, müxtəlif sahələrdə istifadə olunan DAQ sistemlər üçün mühəndislərin fərqli tələbləri də ola bilər, lakin onların hamısı ümumi xüsusiyyətlərə əsaslanır. Belə xüsusiyyətlərə kompüterdə məlumatın qeyd olunması (yazılma), saxlanması, real vaxt ərzində vizual məlumat təsviri, müxtəlif riyazi və statistik hesablamalardan istifadə edərək məlumatların təhlili, hesabatların yaradılması aiddir.

Bu sahədə son yeniliklərdən biri məlumatların toplanması və idarəetmə funksiyalarının bir sistemdə inteqrasiyası olunmasıdır. İdarəetmənin əsas xarakteristik cəhəti tərkibə daxil olan alt sistemlərin sinxron işini təmin etməkdən ibarətdir.

Simulyasiya proqramlarının istifadə etdiyi xüsusi interfeys qurğularına National Instruments şirkətinin məhsulu olan LabVİEW proqramının çalışdığı mühitdə istifadə olunan Compaq DAQ kontrolleri və bu kontrollerin tərkibində real qurğularla əlaqə yaratmaq üçün xarakterik Nİ-nişanı ilə müxtəlif modifikasiyalı qurğularını nümunə göstərmək olar. Burada hər bir qurğu özünə məxsus mühitə uyğun şəkildə sensor, akuator və kommunikasiya protokolları ilə çalışırlar. Adətən şirkət simulyasiya proqramı və qurğuların operativ əlaqəsini təmin edilməsi məqsədilə vahid şin üzrə həm kompüter və proqram vasitəsini, eyni zamanda DAQ kontrolleri və uyğun interfeys qurğularını eyni komplektdə təqdim edir. Onlardan biri NI9215 seriyalı mübadilə interfeysidir. Bu DAQ interfeys daxili Windows əməliyyat sisteminə malik olmaqla Nİ-kontrollerinin qoşulması üçün RAYl tipli şinə malikdir. Qurğu kompüter monitoru qoşulması ilə yanaşı insan-maşın interfeyslərini də dəstəkləyir.

İdarəetmə zamanı real obyektlərdən gələn siqnalların qəbulu və buna adekvat cavab üçün tsiklik əks rabitədən istifadə olunur. Qurğuların istifadəsi DAQ assistant alt proqramının köməyi ilə yerinə yetirilir. İstifadə olunan interfeys qurğusu DAQ assistant pəncərəsindən qeyd olunaraq ekrana çıxarılır və tənzimlənir. Qurğuların sürücüləri isə əvvəlcədən proqramda qeyd edilmişdir.

DAQ Assistantla qurğunun tənzimlənməsi üçün istifadəçi pəncərəsi şəkil 2-də göstərilmişdir. Qurğu analoq siqnallar vasitəsi ilə idarə olunan aktuatorların idarəsi məqsədi ilə istifadə olunur. İnterfeyslərin qoşulması üçün bir neçə üsul istifadə olunur. Sadə interfeys adapterlərindən istifadə zamanı fərdi kompüterə qoşulmaq üçün PCİ və daha müasir PCİ - exspress daxili şinlərindən istifadə olunur. Bu zaman qoşulan qurğunun sürücüsü əməliyyat sistemində qeyd edilməlidir. Əks halda, qurğunu simulyasiya proqramı tanımayacaq. İnterfeys qurğusunun USB şini vasitəsi ilə qoşulmasından daha çox istifadə olunur. Səkil 2 –də təsvir olunan pəncərədə qurğu DAQ interfeysi vasitəsi ilə məhz bu üsulla kompüterə əlaqələndirilməsi təsvir olunub.



Şəkil 2. DAQ Assistantla interfeys qurğusunun seçilməsi və tənzimlənməsi üçün iş pəncərəsi

National İnstruments şirkətinin məhsulu olan PXİ və VİSA arxitekturası ilə qoşulma üsulları da istifadə oluna bilər. PXİ DAQ interfeysləri daxilində əməliyyat sistemi yazılmış Nİ COMPACT Embended DAQ Controller kompüter qutularında xüsusi RAYl tipli ümumi paralel şinlərdən istifadə etməklə tətbiq edilir. Eyni zamanda buna oxşar, lakin laptopların istifadəsi üçün nəzərdə tutulmuş PXİ modulları da istifadə edilir.

Bütün bunlarla yanaşı VİSA (Virtual İnstrument Software Architecture) arxitekturası ilə virtual cihazların yaradılmasından da istifadə olunur. Bu tip arxitekturadan istifadə edilməklə yaradılan insan-maşın interfeysi, mütləq şəkildə, kommunikasiya protokollarından istifadə etməlidirlər. Bunlar GRİB, SERİAl , EHTERNET və PXİ protokollarıdır. Bu cür qoşulmalardan ancaq PXİ arxitekturası National İnstruments şirkətinə məxsusdur. Digərləri isə beynəlxalq standartlara daxil olan protokollardır.

LabVİEW proqramında istifadə olunan interfeys və digər DAQ qurğularının tənzimlənməsi və konfiqurasiya edilməsi məqsədi ilə Nİ Measurement & Avtomation Explorer (qısa olaraq MAX) adlanan proqram vasitəsindəm istifadə edilir. Burada aşağıdakı əməliyyatlar həyata keçirilir:

-Nİ DAQ qurğularının interaktiv test panelləri vasitəsilə konfiqurasiya və sazlanması;
-ardıcıl olaraq özünün test edilməsi;
-simulyasiya vasitələrinin yaradılması;
-xüsusi diaqram və sənədlərin hazırlanması;
-konfiqurasiya fayların import, export və saxlanma əməliyyatlarının yerinə yetirilməsi;
-virtual kommunikasiya kanallarının yaradılması və tətbiq edilməsi.

LabVİEW proqram mühitində MAX vasitəsilə DAQ assistant paneli ilə yuxarıda qeyd olunan əməliyyat ardıcıllığını təmin edən işçi pəncərə nümunələri təklif olunur. Belə pəncərə nümunəsinin birindən istifadə olunaraq DAQ assistant vasitəsilə diferensial metodla gərginliyin -10 V +10 V intervalında ölçülməsi üçün istifadə olunan DAQ qurğusunun sazlanması yerinə yetirilmişdir (çəkil 3,a). Sazlanmaya uyğun olaraq, LabVİEW mühitinin funksional panelində alınan nəticələrin faylda saxlanması və ötürülməsi üçün istifadə olunan virtual cihaz modulu da işlənmişdir (şəkil 3,b).



a) b)

Şəkil 3. DAQ qurğusunun sazlanması üçün işçi pəncərə (a) və nəticələrin faylda saxlanması və ötürülməsi üçün virtual cihaz modulu (b)

Ədəbiyyat

1. DAQ-устройства M серии Руководство пользователя устройств типа NI 622x, NI 625x, NI 628x. National Instruments: NI.com, 2008, 412 // https://nitec.nstu.ru/upload/lib/DAQ%20M-series%20User%20Manual.pdf
https://www.academia.edu/25303149/Data_Acquisition_in_LabVIEW
2. Хомоненко А. Д., Басыров А. Г., Бубнов В. П., Забродин А. В., Краснов С. А. и др. Модели и методы исследования информационных систем. Монография / под общ. ред. А.Д. Хомоненко. - СПб: Лань, 2019. – 204 с.
3. Макаренко С. И., Коровин В. М. Принципы построения и функционирования аппаратно-программных средств телекоммуникационных систем: учеб. пособие. Часть 1: Принципы функционирования аппаратных средств телекоммуникационных и вычислительных систем. - СПб.: ВКА имени А. Ф. Можайского, 2014. - 197 с.

4. Макаренко С. И., Ковальский А. А., Краснов С. А. Принципы построения и функционирования аппаратно-программных средств телекоммуникационных систем: учебное пособие. Часть 2: Сетевые операционные системы и принципы обеспечения информационной безопасности в сетях. - спб.: 5. Наукоемкие технологии, 2020. - 357 с.
6. Дмитриев В.М., Ганджа Т.В., Ганджа В.В., Мальцев Ю.И. СВИП - система виртуальных инструментов и приборов. Томск: В-Спектр, 2014, 216 с.

РЕЗЮМЕ
АНАЛИЗ МЕТОДОВ ОБМЕНА ИЗМЕРИТЕЛЬНЫХ СИГНАЛОВ С ИСПОЛЬЗОВАНИЕМ СРЕДСТВ ВИРТУАЛЬНЫХ УСТРОЙСТВ
Мансуров Г.М., Гулиев Р.Я., Камалова Г.С.

Ключевые слова: *виртуальное устройство, имитационная модель, компьютерное моделирование, контроллер сбора данных, пользовательский интерфейс, протоколы связи.*

В представленной работе анализируется логико-алгоритмическая связь компьютерного моделирования с реальным объектом. Показано, что при обработке имитационных моделей реальных объектов и их компонентов на компьютерах необходимо иметь программу моделирования, способную описывать виртуальные устройства, устройство связи, обеспечивающее связь компьютера с реальным объектом и, таким образом, непосредственно с программой моделирования. В качестве специального интерфейсного устройства, используемого программами моделирования, в данном контроллере приведен DAQ-контроллер Compaq, используемый в среде, где работает программа LabVIEW, и особенности использования различных модифицированных устройств с характерным знаком NI для соединения с реальными устройствами. В качестве примера упоминается использование последовательного интерфейса NI9215.

SUMMARY
ANALYSIS OF MEASUREMENT SIGNALS EXCHANGE METHODS USING VIRTUAL DEVICE TOOLS
Mansurov G.M., Guliev R.Y., Kamalova G.S.

Keywords: *virtual device, simulation model, computer modeling, data acquisition controller, user interface, communication protocols.*

The presented work analyzes the logical-algorithmic connection between computer modeling and a real object. It is shown that when processing simulation models of real objects and their components on computers, it is necessary to have a simulation program capable of describing virtual devices, a communication device that ensures communication between the computer and the real object and, thus, directly with the simulation program. As a special interface device used by simulation programs, this controller shows the Compaq DAQ controller used in the environment where the LabVIEW program runs, and the use of various modified devices with the characteristic NI symbol to connect to real devices. The example mentioned is the use of the NI9215 serial interface.

MEXANİKİ EMAL MƏRKƏZİNİN İDARƏETMƏ MODELİNİN GİRİŞ VERİLƏNLƏRİNİN FAZZİFİKASİYA PROSEDURU

Mustafayev Valeh Azad, Salmanova Məlahət Nəsiman

Sumgayıt Dövlət Universiteti, Sumgayıt, Azərbaycan
valex-sdu@mail.ru,malaxat_70@mail.ru

Açar sözlər*: məntiqi çıxarış sistemi, produksiya qaydaları, fazzifikasiya, trapesiyaşəkilli mənsubluq funksiyası, mexaniki emal.*

Müasir idarəetmə texnologiyalarının geniş tətbiq olunan istiqamətlərindən biri qeyri-səlis idarəetmədir (fuzzy control). Qeyri-səlis idarəetmə nəzəriyyəsində inkişaf etdirilən metodlar kəmiyyətlə ifadə edilə bilməyən qeyri-müəyyən, qeyri-dəqiq informasiyalarla işləməyə imkan verən qeyri-səlis çoxluqlar nəzəriyyəsinə və qeyri-səlis məntiqə(fuzzy logic) əsaslanır. Dəqiq riyazi kəmiyyətlərlə ifadə oluna bilməyən mürəkkəb prosesləri idarə edərkən, qeyri-səlis sistemlər ənənəvi sistemlərlə müqayisədə fəaliyyət göstərdikləri real mühitin daha adekvat təsviri sayəsində xətalara daha dayanıqlı olub, daha böyük sürətə və dəqiqliyə malikdirlər [1].

Qeyri-səlis məntiqi çıxarış sistemi - qeyri-səlis ilkin şərtlər əsasında, obyektin tələb olunan idarə edilməsi üçün obyektin cari vəziyyəti haqqında informasiyanı ifadə edən qeyri-səlis nəticələrin əldə edilməsi prosesidir və bu sistemin işlənməsi, tətbiqi bir sıra mərhələləri əhatə edir: qeyri-səlis produksiyaların təşkili, fazzifikasiya proseduru, aqreqasiya, aktivləşmə, akumlyasiya, defazzifikasiya.

Fazzifikasiya -qeyri-səlis məntiqi çıxarış sisteminin giriş dəyişənlərinin dəqiq ədədi qiymətləri əsasında qeyri-səlis produksiya qaydalarının şərtlərində istifadə olunan müvafiq linqvistik dəyişənlərin termlərininin mənsubluq funksiyalarının qiymətlərinin tapılması prosedurudur [3].

Formal olaraq fazzifikasiya proseduru aşağıdakı kimi yerinə yetirilir: Bu mərhələ başlamazdan əvvəl qeyri-səlis məntiqi çıxarış sisteminin bütün giriş $a_i \in X_i$ dəyişənlərinin $V = \{a_1, a_2, \dots a_n\}$ qiymətlərinin məlum olduğu güman edilir. Burada $X_i - b_i$ linqvistik dəyişəninin təyin oblastıdır. Sonra, qeyri-səlis produksiya qaydalarının antesedentlərinə daxil olan «b_i *is* a'» növlü bütün elementar məntiqi mülahizələrin $b_i' = \mu(a_i)$ doğruluq dərəcələri tapılr, burada a' -mənsubluq funksiyası μ(x) olan termdir[3].

Təqdim olunan elmi işdə mexaniki emal mərkəzinin intensivliyinin idarə edilməsi məsələsinə baxılmış, qeyri-səlis produksiya qaydaları formalaşdırılmış, giriş verilənlərinin fazzifikasiya proseduru yerinə yetirilmişdir [2,4].

"*Emal mərkəzinin sazlanma müddəti*", "*emal qurğusunun əməliyyat müddəti*" giriş linqvistik dəyişənləri və "*emal mərkəzinin intensivliyi*" çıxış linqvistik dəyişənləri müəyyən edilmişdir.

"*Emal mərkəzinin sazlanma müddəti*" giriş linqvistik dəyişəninin fazzifikasiyası üçün X=[0,60] universumunda trapesiyaşəkilli mənsubluq funksiyaları seçilmiş və term çoxluğuna uyğun olaraq aşağıdakı qeyri-səlis çoxluqlar təyin edilmişdir:$\widetilde{A_1}$= [0,0,4,8]–normaldan mənfi kiçik; $\widetilde{A_2}$=[4,8,12,17]–normaldan müsbət kiçik; $\widetilde{A_3}$=[13,17,21,25]–normala mənfi yaxın; $\widetilde{A_4}$=[21,24,30,34]–normal; $\widetilde{A_5}$=[30,33,38,42]–normala müsbət yaxın; $\widetilde{A_6}$=[38,41,46,49]-normaldan mənfi yüksək; $\widetilde{A_7}$=[46,48,54,56]–normaldan yüksək; $\widetilde{A_8}$=[53,56,60,60]– normaldan müsbət yüksək. "*Emal mərkəzinin sazlanma müddəti*" linqvistik dəyişəni üçün X universumunda aşağıdakı qeyri-səlis çoxluq təyin olunmuşdur:

$$A=\sum_{i=1}^{20} \frac{\mu_A(x_i)}{x_i} = \frac{1}{x_1} + \frac{0,375}{x_2} + \frac{1}{x_3} + \frac{0,92}{x_4} + \frac{0.34}{x_5} + \frac{1}{x_6} + \frac{0.95}{x_7} + \frac{017.5}{x_8} + \frac{1}{x_9} + \frac{0.925}{x_{10}} + + \frac{0.2}{x_{11}} + \frac{1}{x_{12}} + \frac{0.625}{x_{13}} + \frac{1}{x_{14}} + \frac{1}{x_{15}} + \frac{0.199}{x_{16}} + \frac{1}{x_{17}} + \frac{0.7}{x_{18}} + \frac{1}{x_{19}} + \frac{1}{x_{20}}. \quad (1)$$

"*Emal qurğusunun əməliyyat müddəti*" giriş linqvistik dəyişəninin fazzifikasiyası üçün X=[0,60] universumunda trapesiyaşəkilli mənsubluq funksiyaları seçilmiş və term çoxluğuna uyğun olaraq aşağıdakı qeyri-səlis çoxluqlar təyin edilmişdir: $\widetilde{B_1}$= [0,0,11,26] – minimal; $\widetilde{B_2}$= [8,24,36,52] – orta; $\widetilde{B_3}$= [36,50,60,60] - maksimal. " *Emal qurğusunun əməliyyat müddəti* " linqvistik dəyişəni üçün X universumunda aşağıdakı qeyri-səlis çoxluq təyin olunmuşdur:

$$B = \sum_{i=1}^{20} \frac{\mu_B(x_i)}{x_i} = \frac{1}{x_1} + \frac{1}{x_2} + \frac{1}{x_3} + \frac{1}{x_4} + \frac{0.93}{x_5} + \frac{0,73}{x_6} + \frac{0.625}{x_7} + \frac{0,813}{x_8} + \frac{1}{x_9} + \frac{1}{x_{10}} + + \frac{1}{x_{11}} + \frac{1}{x_{12}} + \frac{1}{x_{13}} + \frac{0,812}{x_{14}} + \frac{0,625}{x_{15}} + \frac{0.642}{x_{16}} + \frac{0,857}{x_{17}} + \frac{1}{x_{18}} + \frac{1}{x_{19}} + \frac{1}{x_{20}}. \quad (2)$$

Qeyd edək ki, (1)-(2) düsturlarında cəm əməliyyatı sonlu sayda bir elementli $\mu_A(x)/x$ çoxluqlarının birləşməsidir.

Süni intellekt sistemlərində fazzifikasiya prosesində mənsubluq funksiyasının seçilməsi səmərəli və dəqiq modellərin yaradılmasında mühüm addımdır. Mənsubluq funksiyasının düzgün seçilməsi dəyişənlərin xassələrinin ən etibarlı təsvirini əldə etməyə və süni intellekt sistemlərinin iş keyfiyyətini yaxşılaşdırmağa, daha dəqiq və optimal nəticələr əldə etməyə imkan verir. Elmi işdə verilənlərin xarakteri və onların paylanması nəzərə alınmış, təcrübələr nəticəsində daha uyğun mənsubluq funksiyası seçilmişdir.

Ədəbiyyat

1. Leonenkov A.V. Fuzzy modeling in environments MATLAB and fuzzy TECH. - BHV-Peterburg, Sankt-Peterburg,2005, 717 p.
2. Mustafayev ,V.A., Salmanova, M.N. Decision making model for controls of complex parallel functioning distributed systems // The 7th International Conference on Control and Optimization with Industrial Applications (COIA 2020), Volume I, - Baku: -26-28August, - 2020, - p. 293-295.
3. Пегат А. Несеткое моделирование и управление /А.Пегат: пер. с анг.-2-е изд.-М: Бином. Лаборатория знаний, 2013. -798 с.
4. Салманова М.Н., Будагов И.С. Моделирование динамических взаимодействующих процессов с применением треугольных временных нечетких сетей Петри. Математические методы в технологиях и технике. Санкт-Петербург , 2021. № 7.

РЕЗЮМЕ
ПРОЦЕДУРА ФАЗЗИФИКАЦИИ ВХОДНЫХ ДАННЫХ МОДЕЛИ УПРАВЛЕНИЯ ОБРАБАТЫВАЮЩЕГО ЦЕНТРА
Мустафаев В.А., Салманова М.Н.

Ключевые слова: *система логического вывода, правила продукции, фаззификация, трапециевидная функция принадлежности, механическая обработка.*

При управлении сложными процессами, которые невозможно выразить точными математическими величинами, нечеткие системы более устойчивы к ошибкам, по сравнению с традиционными системами, обладают большей скоростью и точностью за счет более адекватного описания реальной среды, в которой они функционируют. В представленной научной работе рассмотрена задача управления интенсивностью работы механообрабатывающего центра. Сформулированы нечеткие правила продукции и проведена процедура фаззификации входных данных. Учитывался характер данных и их распределение, проводились эксперименты по выбору наиболее подходящей функции принадлежности.

SUMMARY
PROCEDURE FOR FUZZIFICATION OF INPUT DATA OF A MACHINING CENTER CONTROL MODEL
Mustafayev V.A., Salmanova M.N.

Keywords: *logical inference system, product rules, fuzzification, trapezoidal membership function, mechanical processing.*

When controlling complex processes that cannot be expressed in precise mathematical quantities, fuzzy systems are more resistant to errors, compared to traditional systems, and have greater speed and accuracy due to a more adequate description of the real environment in which they operate. The presented scientific work examines the problem of controlling the intensity of work of a machining center. Fuzzy production rules were formulated and a fuzzification procedure for input data was carried out. The nature of the data and its distribution were taken into account, and experiments were conducted to select the most appropriate membership function.

ATMOSFERİN VƏZİYYƏT PARAMETRLƏRİNİN ÖYRƏNİLMƏSİNİN MOBİL ÖLÇMƏ KOMPLEKSİ

Mustafazadə Nairə Xansuvar qızı

Milli Aerokosmik Agentliyinin Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutu, Bakı, Azərbaycan
nm_609@mail.ru

Açar sözlər: *mobil ölçmə, ətraf mühit, , cihaz, naviqasiya, proqram.*

Milli Aerokosmik Agentliyində fəaliyyət göstərən mobil laboratoriyasının tərkibinə daxil olan ölçü cihazlarının funksional imkanları şərh olunmuşdur. Ətraf mühitin müxtəlif parametrlərinin monitorinqi üçün nəzərdə tutulmuş həmin kompleksin fəaliyyət prosedurunun proqram təminatının funksiyaları verilmişdir.

Milli Aerokosmik Agentliyində fəaliyyət göstərən mobil ölçmə kompleksi ətraf mühitin müxtəlif parametrlərinin monitorinqi üçün nəzərdə tutulmuşdur. UAZ markalı avtomobilin bazasında komplektləşdirilmiş həmin laboratoriya bəzi toksiki və partlama təhlükəsi olana qazların konsentrasiyasını, aerozol şəkilli qazların miqdarını, həmçinin radiasiya durumunu və müxtəlif meteoroloji parametrləri ölçməyə imkan verir.

Mobil laboratoriya vasitəsilə əldə edilmiş ölçmə məlumatları xüsusi proqram təminatının köməyi ilə kompüterə daxil edilir və naviqasiya verilənləri ilə müqayisə olunur. Lakin mobil laboratoriya kompleksinə daxil olan ölçmə cihazları dövri olaraq dəyişdiyindən və bəzi cihazlar öz istismar müddətini başa vurduğundan, monitorinq verilənlərinin daxil edilməsi və saxlanılması üçün tərəfimizdən daima yeniləşən proqram təminatı işlənib hazırlanmışdır.

Hal-hazırda mobil kompleksin tərkibində aşağıdakı ölçü cihazları fəaliyyət göstərir:

- müxtəlif toksiki və partlama təhlükəsi olan qazlara nəzarət üçün MX6 iBrid multiqaz analizatoru (şəkil 1);
- rütubəti və temperaturu ölçən ИВТМ-7К (şəkil 2);
- aerozol vəziyyətində olan çirkləndirici maddələrin konsentrasiyasını ölçən ПЗ БП «Atmosfer» nümunə götürəni (şəkil 3);
- metanın konsentrasiyasını ölçən ГНОМ-1 qaz analizatoru (şəkil 4);
- radiasiya vəziyyətinə nəzarət edən MCK-AE1125 dozimetr-radiometri (şəkil 5);
- titrəyişləri qeydə alan «Ассистент» küy və titrəyiş analizatoru (şəkil 6);
- radonun (Rn) və toronun (Tn) ekvivalent həcmi aktivliyini ölçən PAA-10 aerozol radiometri (şəkil

7).

Şəkil 1. MX6 iBrid multiqaz analizatoru

Şəkil 2. ИВТМ-7К

Şəkil 3. ПЗ БП «Atmosfer»

Şəkil 4. ГНОМ-1 qaz analizatoru

Şəkil 5. MCK-AE1125

Şəkil 6. «Ассистент» küy və titrəyiş analizatoru

Şəkil 7. PAA-10 aerozol radiometri

Göstərilən funksional imkanlara malik bu cihazlar avtomasına naviqasiya və kompüter avadanlıqları ilə birgə quraşdırılmışdır. Kompleks GPS göstəriciləri ilə birlikdə ölçmə nəticələrini kompüterə yazmağa imkan verir və bununla da atmosfer çirklənməsinin elektron xəritələrinin yaradılması üçün ilkin verilənlər formalaşır. Bununla da informasiyanın toplanması, saxlanılması və istifadəsi üçün qarşıya çıxan bəzi məhdudiyyətləri aradan qaldırmağa imkan verən və çevik interfeysə malik proqram təminatının yaradılması zərurəti qarşıya çıxmışdır. Bu interfeys istifadə olunan ölçü cihazlarına daha çox uyğun gəlmiş və istifadəçinin tələblərinə uyğun dəyişmək funksiyasına malik olmuşdur. Həmin proqram verilənlərin E 14-140 kontrollerinin köməyi ilə daxil edilməsinə imkan verir ki, bununla da məlumatların sərt diskdə saxlanılması və giriş siqnallarının bir və ya bir neçə vyuportda vizuallaşdırılması təmin edilir.

Proqramın iki rejimdə işləməsi də onun əsas üstünlüklərindən biridir. İstifadəçi konstruktor rejimində ölçü kanallarının sayını, diskretləşdirmə tezliyinin, gücləndirilmə əmsalını, proqramın və faylın adını, ekranda vyuportların sayını və digər parametrləri verə bilər. Yerinə yetirilən dəyişiklikləri daha sonra təkrar istifadə etmək üçün müvafiq proqram sazlamaları ilə faylda saxlamaq, həmçinin sazlama şablonları yaratmaq mümkündür. Deyilənlər nəzərə alınmaqla işəsalma proqramının alqoritmi işlənilmiş, onun fəaliyyətinin prosedur ardıcıllığı şərh olunmuşdur.

Ədəbiyyat

1. Анализатор шума и вибрации «Ассистент»: [Электронный ресурс] / URL: https://ntm.ru/UserFiles/File/product/shum_i_vibr/rukovodstvo_asistent.pdf
2. Газоанализатор непрерывного определения метана ГНОМ-1: [Электронный ресурс] / URL: http://granat-e.ru/gnom-1.html
3. Industrial scientific gas detecting people. DS2 Docking Station: [Electronic resource] / URL: https://www.indsci.com/content.aspx?id=2771
4. iNet Systems Inc: [Electronic resource] / URL: http://www.inetsystems.net/

РЕЗЮМЕ

МОБИЛЬНЫЙ ИЗМЕРИТЕЛЬНЫЙ КОМПЛЕКС ИЗУЧЕНИЯ ПАРАМЕТРОВ СОСТОЯНИЯ АТМОСФЕРЫ

Мустафазаде Н.Х.

Ключевые слова: *мобильное измерение, окружающая среда, устройство, навигация, программное обеспечение.*

Изложены функциональные возможности измерительных приборов, входящих в состав мобильной лаборатории, функционирующей в Национальном Аэрокосмическом Агентстве. Даны функции программного обеспечения процедуры функционирования комплекса, предназначенного для мониторинга различных параметров окружающей среды.

SUMMARY
MOBİLE MEASURİNG SYSTEM FOR STUDYİNG ATMOSPHERİC CONDİTİONS
Mustafazade N.X.

Keywords: *mobile measurement, environment, device, navigation, software.*
The functional capabilities of the measuring instruments that make up the mobile laboratory operating at the National Aerospace Agency are described. The software functions of the procedure for the functioning of the complex, designed to monitor various environmental parameters, are given.

KƏND TƏSƏRRÜFATI BİTKİLƏRİNİN SƏMƏRƏLİ YETİŞDİRİLMƏSİ ÜÇÜN UYĞUN REGİONUN SEÇİLMƏSİ ALQORİTMİ

Nərimanova Röyya Oktay qızı

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
roya0810@mail.ru

Açar sözlər: *Çay plantasiyası, intellektual suvarma informasiya sistemi, çayçılıq, meliorasiyanın avtomatlaşdırılması, kənd təsərrüfatı işləri, dağlıq rayonlar.*

Problemin müqayisəli təhlili və kənd təsərrüfatı bitkilərinin becərilməsi üçün intellektual informasiya sistemlərinin işlənib hazırlanması üzrə tədqiqatlar əsasında işin məqsədi müəyyən edilir. Məqalənin məqsədi çay plantasiyasının yetişdirilməsi prosesinin monitorinqi və idarə edilməsi, su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, çay kollarının suvarılması növlərinin seçilməsi və meliorativ və meliorativ proseslərin avtomatlaşdırılması üçün intellektual informasiya sisteminin yaradılmasıdır. çay bitkisinin meteoroloji, geofiziki və bioloji məlumatlarından asılı olaraq aqrotexniki işlər.

50-60 il yetişdirilən çay plantasiyaları səmərəli aqrotexniki işlərin aparılmasını və əkin sahələrinin vaxtında suvarılmasını tələb edir. Hazırda çayın keyfiyyətinin və məhsuldarlığının yüksəldilməsi üçün bu rayonların su ehtiyatlarından səmərəli istifadə edilməsi, çay yarpaqlarının suvarılma növlərinin seçilməsi, həmin ərazilərin meteoroloji və geofiziki şəraitinin təhlili və uçotu üzrə tədqiqatlar aparılır. Bununla belə, postsovet ölkələrində (Rusiya və Azərbaycanda) çay plantasiyalarının becərilməsi ilə bağlı məlumatların təhlili [1, 2] göstərir ki, kompüter texnologiyalarının və informasiya texnologiyalarının nailiyyətlərindən kifayət qədər istifadə edilməməsi çay plantasiyalarının keyfiyyətinin yüksəldilməsi məsələsini lazımi səviyyədə həll etmir. çay plantasiyalarının yarpaqları, su ehtiyatlarından səmərəli istifadə və dağlıq rayonlarda çay plantasiyalarının məhsuldarlığının artırılması.

Dağ subtropik rayonlarında çay plantasiyalarının becərilməsi prosesində kompüter texnologiyaları və informasiya texnologiyalarının ən son nailiyyətlərindən, ölçmə və intellektual idarəetmə sistemlərindən səmərəli istifadə bizə çay plantasiyalarının yüksək məhsuldarlığının təmin edilməsi və keyfiyyətinin yüksəldilməsi kimi vəzifələri həll etməyə imkan verərdi. eləcə də postsovet ölkələrinin ən yaxşı çay sortlarının dünya çay bazarına çıxması.[3]. Bununla əlaqədar çay plantasiyasının yetişdirilməsi prosesinin monitorinqi və idarə olunması, o cümlədən su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi üçün intellektual informasiya sisteminin yaradılmasını, bitki növlərinin seçilməsini nəzərdə tutan məqalənin məqsədi müəyyən edilmişdir. çay kollarının suvarılması və meteoroloji, geofiziki və bioloji məlumatlardan asılı olaraq meliorativ və aqrotexniki işlərin aparılması prosesinin avtomatlaşdırılması. Bu maddənin məqsədinə uyğun olaraq, aşağıdakı vəzifələr həll edilməlidir:

1. Çay plantasiyasının yetişdirilməsi və onun strukturunun inkişafı üçün intellektual avtomatlaşdırılmış idarəetmə və nəzarət sisteminin yaradılması;

2. Ətraf mühitin meteoroloji göstəricilərindən asılı olaraq çay plantasiyasının suvarılması prosesinə nəzarətin və idarə olunmasının avtomatlaşdırılmasını təmin edən texniki vasitələrin seçilməsi və proqram modullarının işlənib hazırlanması;

Çay plantasiyasının yetişdirilməsi və onun strukturunun inkişafı üçün intellektual avtomatlaşdırılmış idarəetmə və idarəetmə sisteminin yaradılması. Çay plantasiyalarının yetişdirilməsi prosesində dünya təcrübəsinin təhlilindən məlum oldu ki, onların becərilməsi üçün aşağıdakı şərtlər tələb olunur:

1. Subtropik meteoroloji şərait:

1.1. Yaz, yay və payız aylarında orta sutkalıq temperatur 20^0S olmalıdır.

1.2. Qışda orta sutkalıq temperatur -3^0 ilə 10^0S arasında dəyişə bilər.

1.3. Parlaq və günəşli günlər çay yarpaqlarının aromatik xüsusiyyətlərini artırmaq üçün kifayət qədər uzun olmalıdır.

2. Geofiziki şərait:

2.1. Torpaq nəm və yaxşı qurudulmalıdır.

2.2. Torpaq kifayət qədər yumşaq, yüngül və eyni zamanda bir az turşu olmalıdır. Tez-tez çay plantasiyaları optimal torpaq drenajına nail olmaq üçün dağların qeyri-bərabər hissələrində əkilir.

İNSAN RESURSLARININ İDARƏ EDİLMƏSİNDƏ QƏRAR VERİLƏNLƏRİNƏ DƏSTƏK SİSTEMİNİN İŞLƏNMƏSİ ÜÇÜN İŞÇİLƏRİN EMOSİONAL VƏZİYYƏTİ NƏZƏRƏ ALINMASI

Poyarkov V.N., Bogdanova D.R.

Açar sözlər: *işçilərin emosional vəziyyəti, qərar ağacı, DSS diaqramı.*

Tədqiqatın obyekti insan resurslarının idarə edilməsi sahəsidir. Tədqiqatın mövzusu işçilərin iş yerindəki emosional vəziyyətləridir. Tezis insan resurslarının idarə edilməsi üçün qərar qəbuluna dəstək sisteminin prototipinin işlənib hazırlanmasına həsr edilmişdir, Onun məqsədi işçilər arasında emosional tükənmə riskini azaltmaqdır ki, bu da sonradan şöbənin səmərəliliyinin artmasına təsir göstərir. Tezis aşağıdakı bölmələrdən ibarətdir: işçi ilə menecer arasında qarşılıqlı əlaqə prosesinin təhlili, qərarların dəstəklənməsinə yanaşma, insan resurslarının idarə edilməsi üçün DSS-nin hazırlanması və nəticə.

SUMMARY

DEVELOPMENT OF A SUPPORT SYSTEM FOR DECISION-MAKING IN HUMAN RESOURCES MANAGEMENT, TAKING THE EMOTIONAL STATE OF EMPLOYEES INTO CONSIDERATION

Poyarkov V.N., Bogdanova D.R.

Keywords: *emotional state of employees, decision tree, DSS diagram.*

The object of the study is the field of human resources management. The subject of the study is the emotional state of employees at work. The thesis is devoted to the development of a prototype of a decision-making support system for human resources management, the purpose of which is to reduce the risk of emotional exhaustion among employees, which subsequently affects the increase in the efficiency of the department. The thesis consists of the following sections: the analysis of the interaction process between the employee and the manager, the approach to decision support, the development of DSS for human resources management, and the conclusion.

MÜHƏNDİS HAZIRLIĞINDA SÜNİ İNTELLEKT
ARTİFİCİAL İNTELLİGENCE İN ENGİNEERİNG TRAİNİNG
ИСКУССТВЕННЫЙ ИНТЕЛЛЕКТ В ИНЖЕНЕРНОМ ОБРАЗОВАНИИ

LOGİSTİKA VƏ TƏDARÜK ZƏNCİRLƏRİNDƏ ROBOTİK SİSTEMLƏRİN İSTİFADƏSİ

[1]Əsgərov Taleh Kamran oğlu, [2]Əliyeva Aygün Canlar qızı

[1]Milli Aviasiya Akademiyası, Bakı, Azərbaycan
[2]Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı, Azərbaycan

[1]taleh.naa@gmail.com, [2]aykayusif1999@gmail.com

Açar sözlər: *robotik sistemlər, logistika, bulud hesablama sistemləri, sensorlar.*

Hal-hazırda robotlar həyatın demək olar ki, hər bir sahəsində insanların gördüyü işləri görmək üçün istifadə olunur. İstehsal sahələrində yüksək spesifik işlər yerinə yetirilərkən robotlar əməliyyatların getdikcə daha çox hissəsini həyata keçirməyə başladılar. Bu tezis robotlar və robot sistemlərin logistika proseslərində necə funksional ola biləcəyini və gələcəkdə bu sahədə mövqelərinin nə ola biləcəyini qiymətləndirməyə çalışır. Eyni zamanda logistika prosesləri ilə daşıma, saxlama, paylama və idarə etmə kimi proseslərdə robotların indiki mövcud mövqeləri qiymətləndirilir və robotların gələcəkdəki rollarını proqnozlaşdırmaq üçün səylər göstərilir.

Hal-hazırda robotlardan daha çox logistika proseslərinin anbar fəaliyyətlərində istifadə olunur. Anbarların klassik olaraq bəzi gündəlik fəaliyyətlərin həyata keçirildiyi ərazilər olması onları statik və qeyri-müstəqil edir. Bu, robot texnikasından istifadəni asanlaşdıra bilər [1]. Bununla belə, anbar sahələrində istifadə edilən robotların demək olar ki, hamısı avtonom xüsusiyyətlərə malik deyil, insan faktorundan asılıdır və operator olmadan da işlək vəziyyətdə qala bilər. Digər tərəfdən, anbar sahələri getdikcə daha spesifik logistik fəaliyyətlərin həyata keçirildiyi yerlərə çevrilir [2].

Əvvəlki dövrlərdə anbarlarda həyata keçirilən təcrübələr malların qəbulu, yığılması və daşınması olduğu halda, bu gün anbarların səmərəliliyini artırmaq üçün anbar sahələrində məhsulun birləşdirilməsi, çeşidlənməsi, birləşdirilməsi və yekunlaşdırılması kimi bir çox müxtəlif əməliyyatlar həyata keçirilə bilər. Anbarlarda həyata keçirilən fəaliyyətlərin daha spesifik olması robot sistemlərə ehtiyacı artırır. Nəticədə, anbarlar qismən mexanikləşdirilmiş xarakter qazansa da, avtonom robotların istifadəsi hələ də son dərəcə məhduddur [3]. Digər tərəfdən, anbarlarda radiotezlik aşkarlama sistemləri, sensorlar və avtomatik rəf sistemlərinin tətbiqi ilə anbar sahələrində avtonom robotların işləməsi üçün mühüm bir həddi aşılmış kimi görünür. Saxlama fəaliyyəti logistika sistemində ən yüksək xərcləri yaradan proseslərdən biridir. Bunun əsas səbəblərindən biri odur ki, mexanizasiya artsa da, hələ də çox intensiv işçi qüvvəsinə ehtiyac var. Daxil olan sifarişlərə uyğun olaraq məhsulların yığılması, çeşidlənməsi və göndərilməyə hazırlanması hələ də əmək qüvvəsindən intensiv istifadə tələb edir. Bu baxımdan, ümumi logistika xərclərini azaltmaq və təchizat zəncirlərinin rəqabət qabiliyyətini qorumaq üçün anbarların daha çox mexanikləşdirilməsi və avtonom robotların anbar sahələrində daha çox funksiyaları yerinə yetirməsi getdikcə daha çox əhəmiyyət kəsb edir [4].

Logistika proseslərinin ən çətin və tələbkar tətbiqlərindən biri sifariş toplama əməliyyatlarıdır. Ənənəvi olaraq operator sifarişlərdən ibarət iş tapşırığı aldıqda məhsulların saxlandığı rəflərə baş çəkir, məhsulları yığır və bunun üçün bəzən bir-birindən uzaqda olan rəflər arasında gəzirdi. Bu təcrübə həm məhdud vaxt itkisinə, həm də intensiv işçi qüvvəsindən istifadəyə səbəb olur [5].

Toplama robotlarının işləmə prinsipləri rəfləri statik olmaqdan çıxarıb, onlara mobil bir xüsusiyyət əlavə etməyə əsaslanır. Belə robototexnika məhsulların yerləşdirildiyi rəflərə gedə, onları qaldıra və rəfləri istədiyiniz nöqtəyə daşıya bilir. Beləliklə, rəfə bir dəfədən çox baş çəkmək ehtiyacı aradan qaldırıla bilər. Toplayıcı robotlar, müəyyən və təyin edilmiş bir yolda hərəkət edə bilir, məhsulların toplanması ilə bağlı

əmrləri aldıqdan sonra bu yolları izləyərək və bütün rəflər arasındakı məsafəni optimallaşdıraraq marşrutu müəyyənləşdirə və öz funksiyalarını yerinə yetirə bilirlər. Bu sistemlər rəfləri toplama nöqtəsinə daşıya biləcəkləri kimi, rəflər arasında dolaşaraq doğrudan məhsulları toplamağı bacara bilərlər [5].

Hərəkətli toplayıcı robotlar, logistik proseslərdə istifadə oluna biləcək başqa bir robotik sistemdir. Sifariş toplama robotları ilə bəzi oxşar xüsusiyyətlərə malik olsalar da, əsas fərq onların rəfləri hərəkət etdirməməsi və sabit bir hərəkət yoluna ehtiyac duymadan depo sahəsində azad şəkildə dolaşaraq məhsulları toplama funksiyası yerinə yetirmələridir [6].

Bulud hesablama sistemləri sayəsində bu robotlar aldıqları sifariş əmrlərini qiymətləndirərək rəflərə çatır, rəflərdəki məhsulları skan edir, sifarişə tabe olan məhsulu tapıb göndərmə məntəqəsinə aparır. Bu sistemin ən böyük üstünlüyü ondan ibarətdir ki, o, sabit elektron yollara və mobil rəflərə ehtiyacı aradan qaldırır. Bu şəkildə quraşdırma dəyəri əhəmiyyətli dərəcədə azaldıla bilər. Səyyar yığım robotları rəflərdə sifariş edilən məhsulların yerini aşkar etmək və düzgün məhsulu seçmək üçün üçölçülü skan edən kameralar və clarla təchiz olunub. Rəflərə çatdıqda, tələb olunan məhsulu tapmaq üçün bütün rəfi skan edir və məhsulun xüsusiyyətlərinə görə həssaslığını təyin edə bilir [7].

Logistika proseslərində istifadə oluna biləcək başqa bir robot sistemi qablaşdırma, birləşdirmə və çeşidləmə proseslərində istifadə edilən robotlardır. Logistika axını sistemlərində müştəri tələbləri getdikcə daha çox fərdiləşdikcə, hər bir məhsulun fərqli şəkildə qablaşdırılması və etiketlənməsi tələb oluna bilər. Bu, proseslərin idarə olunmasında yavaşlamaya, mürəkkəbliyə və bir çox problemlərə səbəb ola bilər. Daha da əhəmiyyətlisi, insan faktoru tərəfindən həyata keçirildikdə, səhvlərə son dərəcə meylli bir vəziyyət yarada bilər. Bu proseslərdə iştirak edən robotların belə problemləri həll etmək potensialı var. Əvvəlcə qablaşdırmaya gələn materialları əllərindəki kamera və sensorlarla skan edərək, müştərilərin istədiyi xüsusiyyət və formalara uyğun qruplaşdıra və qablaşdırma daxil olmaqla, digər rəftar proseslərində demək olar ki, sıfır xəta ilə funksiyalarını yerinə yetirə bilirlər [7].

Logistika proseslərində robot sistemlərin istifadəsində müəyyən uğurlar əldə olunsa da, hələ də istənilən nöqtəyə çatmağı çətinləşdirən bəzi məhdudiyyətlərdən təsirlənir. Ancaq texnologiya sahəsindəki inkişaflar bu baxımdan ümidləri artırır. Gələcəkdə robotlar daha təkmil süni intellektlə təchiz edilərək daha ağıllı maşınlara çevriləcəklər.

Logistika və tədarük zəncirləri ilə bağlı gələcək proqnozların əksəriyyətində, gələcəkdə demək olar ki, bütün istehlakçıların mağazalar əvəzinə elektron alış-veriş edəcəyi və buna görə də pərakəndə satıcıların tədarük zəncirindəki əhəmiyyətinin və rolunun getdikcə azalacağı, bunun əvəzinə birbaşa paylama mərkəzlərindən müştərilərin evlərinə və ya iş yerlərinə göndərişlərin artacağı bildirilir. Paralel olaraq, istehlakçılar ümumiyyətlə kiçik vahidlərdə məhsul tələb etdikcə, gündəlik əməliyyatların sayı artacaq və buna uyğun olaraq əməliyyatlara məruz qalan məhsulların çeşidi də artacaqdır. Bunun təbii nəticəsi olaraq, logistika axını sürəti başgicəlləndirici sürətlə artacaq və sistemdən axan məhsulların müxtəlifliyi keçmişdə heç vaxt görülməmiş səviyyələrə çatacaq.

Ədəbiyyat

1. Arkin, R. C. (1998). Behavior-based robotics. London: MIT Press.
2. Baştu, E., Çelik, C. ve Buyru, F. (2012). Reprodüktif Tıpta Robotik Cerrahiye Genel Bakış, İstanbul Tıp Fakültesi Dergisi, 76, 19–15.
3. Kâhya, E. (2014). Kivi Hasatı İçin Robotik Tutucu Tasarımı, Süleyman Demirel Üniversitesi Uluslararası Teknolojik Bilimler Dergisi, 6, 18–35.
4. Muppirala, T., Hutchinson, S., Murrieta-Cid, R. (2005). Optimal Motion Strategies Based on Critical Events to Maintain Visibility of a Moving Target, Robotics and Automation 2005, Proceedings of the 2005 IEEE International Conference, 3826–3831.
5. Rios-Gutierrez, F. ve Alba-Flores, R. (2017) Robotics Focused Capstone Senior Design Course, American Journal of Engineering Education, 8, 23–34.
6. Ross, A. (2016). The industries of the future. New York: Simon ve Schuster.
7. Yıldırım, G. (2011). Jinekolojide Robotik Cerrahi, İstanbul Tıp Fakültesi Dergisi, 72, 143-149.

РЕЗЮМЕ

ИСПОЛЬЗОВАНИЕ РОБОТИЗИРОВАННЫХ СИСТЕМ В ЛОГИСТИКЕ И ЦЕПНЫХ ПОСТАВКАХ

Аскеров Т.К., Алиева А.Ч.

Ключевые слова: *робототехнические системы, логистика, системы облачных вычислений, датчики.*

Сегодня роботы начали делать то же, что и люди, практически во всех сферах. Они могут играть важную роль в производственных процессах. Более того, они стали все чаще делать хирургические операции. В этом исследовании мы пытаемся оценить, как роботы и роботизированные системы будут функционировать и что с ними будет происходить в

будущем. В то же время в этой статье была предпринята попытка изучить роль роботов в сферах логистики, транспортировки, распределения и производственных процессов, а также оценить роли, которые будут выполнять роботизированные системы, а также их позиции в этих областях.

SUMMARY
THE USE OF ROBOTIC SYSTEMS IN LOGISTICS AND SUPPLY CHAIN
Askerov T.K., Aliyeva A.C.

Keywords: *robotic systems, logistics, cloud computing systems, sensors.*

Today, robots started to do what people do in almost every field. They can play an important role in production processes. Moreover, they have become can increasingly do surgery operations. In this study, it is trying to evaluate that how the robots and robotic systems will be functional and what will be happening in the future concerned with them. At the same time, this paper tried to examine the roles of robots in the fields of logistics, transportation, distribution and production processes and tried to estimate the roles that will be undertaken by robotic systems as well as their positions in these fields.

SƏNAYE 4.0 PLATFORMASINDA YENİ NƏSİL MODEL TİPLİ MÜƏSSİSƏLƏRİN KONSEPTUAL TEXNOLOJİ İNKİŞAF MODELİNİN ƏSASLARI

[1]Şahverdiyeva Roza Orduxan qızı, [2] Səlimxanova Sünyəxanım Ağaəli qızı

[1]İnformasiya Texnologiyaları İnstitutu, Bakı, Azərbaycan
[2]Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı, Azərbaycan
[1]shahverdiyevar@gmail.com, [2]sunye.selimxanova@gmail.com

Açar sözlər: *Süni intellekt metodları, modelləri və texnologiyaları, rəqəmsal transformasiya, rəqəmsal texnologiya və innovasiya, model tipli müəssisələr, Sənaye 4.0 platforması.*

Məqalə cəmiyyətin, iqtisadiyyatın qlobal səviyyədə dayanıqlı və davamlı inkişafının istehsal səviyyəsində-müəssisələrdə təmin olunmasının aktuallığına həsr olunmuşdur. Bu təminatın Sənaye 4.0 platformasında təşkilati forması olan model tipli müəssisələrin konseptual texnoloji inkişaf modelinin əsaslarının işlənilməsinə diqqət yetirilmişdir. Model tipli müəssisələrin formalaşmasının və fəaliyyətinin təşkilinin spesifik xüsusiyyətləri şərh olunmuşdur. Ölkədə model tipli müəssisələrin və yeni nəsil texnoloji mərkəzlərin qurulmasının əhəmiyyəti göstərilmişdir. Onların effektiv formalaşmasının təşkili və idarə olunmasının elmi-nəzəri əsasları və onun formalaşmasına olan funksional yanaşmalar sistemləşdirilmişdir. Model tipli müəssisələrin konseptual inkişaf modeli təklif edilmiş, onun struktur fəaliyyət modelinin additiv və adaptiv texnologiyalar, innovativ məhsulların/xidmətlərin dayanıqlı istehsalının inkişaf perspektivlərinin nəzərə alınması ilə formalaşması qeyd olunmuşdur. Belə müəssisələrdə çevik, strateji və operativ idarəetmə strukturlarının, robototexnika, süni intellekt və intellektual sistemlərin tətbiqinin, Big Data və digər rəqəmsal texnologiyaların daxil olduğu infrastrukturun kiberdayanıqlığı problemlərinin həlli mexanizmləri təklif olunmuşdur.

Cəmiyyətin, o cümlədən iqtisadiyyatın qlobal səviyyədə dayanıqlı və davamlı inkişafı ilk növbədə mikro istehsal səviyyəsində-müəssisələrdə təmin olunur. Odur ki, qlobal biznesin daimi inkişafında müəyyən müəssisələr innovasiya, səmərəlilik və mükəmməllik aspektində sənayenin ən yaxşı təcrübələri əsasında müvafiq standartlar yaradırlar. Model tipli müəssisələr adlandırılan bu qurumlar həm istehsal/xidmət, satış, maliyyə nailiyyətləri baxımından, həm də iqtisadi proseslərə, biznesə perspektivli strategiyaların, uzunmüddətli yanaşmaların təcəssümü kimi uğurlu fəaliyyətin əsasını təşkil edir. Bu müəssisələrin formalaşması və davamlı inkişafı, hər bir təşkilatin əsas məqsədlərindən hesab olunur.

Model tipli müəssisələrin təməlinin əsasını sənayenin yeni inkişafı prinsipləri təşkil edir. Bu prinsiplər də onların uğurlarının əsas təminatçılarıdır. Müasir dövrdə model tipli müəssisələrin innovativ rəqəmsal yönümlü xarakterik xüsusiyyətlərə malik olması onu fərqləndirən əsas məsələlərdən olmasıdır. Rəqəmsal innovasiya sadəcə söz deyil, təşkilatın hər tərəfinə nüfuz edən köklü bir prosesdir. Model tipli müəssisələr kimi tanınan belə strukturlar sadəcə kommersiya yönümlü deyil, həm də strateji inkişafın, uzunmüddətli liderliyin əsasıdır, sənayenin dinamik inkişafına yol açan təməl konsepsiyalarının sintezidir. Belə müəssisələr kardinal dəyişmələr, təkmilləşmələr də daxil olmaqla kompleks rəqəmsal transformasiyalar prosesində də formalaşa bilirlər [1-3]. Transformasiya dövrü qabaqcıl yüksək texnologiyaların, rəqəmsallaşmanın tətbiqi əsasında sənaye sferasının və digər iqtisadi sektorların yenidən formalaşdırılması, biznes paradiqmalarının yenidən müəyyənləşdirilməsi və qlobal iqtisadi ekosistemdə kardinal müsbət dəyişikliklərə səbəb olan innovativ strategiyaların formalaşması ilə əlamətdardır

(https://president.az/articles/51299; https://president.az/articles/53407). Bu məsələ BMT-nin dünya transformasiyasının [4] 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində vəzifələrinin icrası istiqamətində də mühüm əhəmiyyət kəsb edir.

Qeyd olunan tendensiyalara müvafiq olaraq "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın [5] Tədbirlər Planına əsasən ölkədə Rəqəmsal İqtisadiyyat Strategiyasının hazırlanması nəzərdə tutulur. İlkin məlumatlara görə Azərbaycanın Yeni Nəsil İqtisadiyyat Strategiyası 2030-cu ilə qədər dövlət, özəl və vətəndaş cəmiyyətini əhatə etməklə iqtisadiyyata töhfə verəcəkdir. Bu strategiya 9 əsas layihə və bu layihələr çərçivəsində 69 fəaliyyət istiqaməti üzrə Azərbaycanda iqtisadi artımı dəstəkləyəcəkdir.

Strategiyanın reallaşdırılması 1)yeni dövrdə Azərbaycanda biznes transformasiyasının gücləndirilməsinə və potensialın artırılmasına, 2)4-cü Sənaye inqilabı texnologiyalarının geniş tətbiqini nəzərdə tutan model tipli müəssisənin və yeni nəsil texnoloji mərkəzlərin qurulmasına, 3)Rəqəmsal əkizlərin yaradılmasına və 4)Regional yeni nəsil süni intellektlərin geniş tətbiqinin həyata keçirilməsinə, 5)müvafiq sahələrdə sahibkarlığın təşviq edilməsinə, 6)əlverişli biznes və informasiya infrastrukturunun dəstəklənməsinə və s. kimi sahələrdə inkişafa ciddi yeni texnoloji zəmin yaradacaqdır. Strategiya həmçinin ölkədə süni intellektin tətbiqi imkanlarının artırılması, iqtisadi artımın təşviq edilməsi, yeni rəqəmsal texnologiyaya əsaslanan iş yerlərinin və sənayenin yaradılmasının stimullaşdırılması və s. kimi fundamental istiqamətlərin həyata keçirilməsi məqsədini daşıyır (https://www.economy.gov.az/az/post/).

Göründüyü kimi regional və Milli iqtisadiyyatın inkişaf etdirilməsində ən müasir Yeni nəsil rəqəmsal texnologiyalarının, Süni intellekt metodlarının istifadəsi əsasında Milli texnoloji iqtisadiyyatın effektiv formalaşması yolunda model tipli müəssisələrin formalaşma problemləri və xüsusiyyətlərinin tədqiqi çox aktualdır. Bu baxımdan da Sənaye 4.0 platformasında model tipli müəssisələrin konseptual texnoloji inkişaf modelinin formalaşmasının konseptual aspektlərinin müəyyən olunması üçün müvafiq metodoloji aparatın və yanaşmaların işlənilməsi əhəmiyyətli məsələlərdən hesab olunur.

Müəssisələrin formalaşmasının təşkili, idarə olunmasının elmi-nəzəri əsasları, mövcud yanaşmalar və onun fəaliyyətinin spesifik xüsusiyyətləri. İstər kiçik müəssisə, zavod, fabrik, institut, xəstəxana, istərsə də iri korporasiyalar olsun, onların formalaşması, fəaliyyətinin təşkili və effektiv idarə olunması müxtəlif aspektlərdən müəyyən elmi-nəzəri əsaslara söykənir. Belə müəssisələrdə uğurlu biznes iqtisadi fəaliyyətinin effektiv idarə olunmasının təşkili ilə bağlı prinsipləri və ən yaxşı təcrübələri başa düşmək üçün mövcud elmi-nəzəri, metodoloji əsasları təhlil etmək, öyrənmək, ehtiyac yarandığı təqdirdə onları daha da inkişaf etdirmək zəruridir [6, 7].

Müəssisələrin effektiv təşkilati-iqtisadi strukturundan və mülkiyyət formalarından asılı olmayaraq formalaşmasının və idarə olunmasının əsasını təşkil edən elmi və nəzəri əsaslardan bəzilərinə bunları daxil etmək olar: Klassik və müasir iqtisadi nəzəriyyələr; Sahibkarlıq, ticarət və kommersiya nəzəriyyələri; Biznesin və iqtisadi fəaliyyətin idarə edilməsi nəzəriyyəsi; İnnovasiyalar və rəqəmsal texnologiyalar nəzəriyyəsi; Təşkilati, qlobal iqtisadiyyat və biznes nəzəriyyələri; Strateji idarəetmə və proqnozlaşdırma nəzəriyyəsi; Koqnitiv idarəetmə nəzəriyyələri; Marketinq, reklam və istehlakçı davranışı nəzəriyyəsi; Maliyyə idarəetməsi və investisiya nəzəriyyəsi; İnsan resurslarının idarə edilməsi nəzəriyyəsi; Sosial təminat, inklüzivlik nəzəriyyəsi; İqtisadiyyatın və müəssisənin hüquq tənzimləməsi nəzəriyyəsi; İqtisadi-institusional nəzəriyyə və s.

Bu elmi-nəzəri əsaslar, iqtisadçılar, sosioloqlar, sahibkarlar və biznes liderləri üçün model tipli müəssisələrin yaradılması və fəaliyyətinin təşkili zamanı zəruri nəzəri bilik bazası rolunu oynayır. Onlar əsaslandırılmış qərarlar qəbul etmək, problemləri həll etmək və dəyişən bazar şəraitinə və rəqabət mühitinə uyğunlaşmaq üçün çərçivə təmin edir [8].

Model tipli müəssisələrin formalaşması dəyişən bazar dinamikasında və texnoloji irəliləyişlərə muvafiq olaraq inkişaf etməkddir [3, 9]. Belə müəssisələrin yaradılması üçün mövcud yanaşmalara funksional aspektdən bunları aid etmək olar: 1)İnnovasiyaların və texnologiyaların uyğunluğu, 2)Çevik idarəetmə prinsipləri, 3)Ekosistem iştirakçılarının əməkdaşlığı, 4)Müştəri münasibətlərinin idarəetməsi, 5)Ekoloji-sosial davamlılıq və sosial məsuliyyət, 6)Dataların analitik təhlili, 7)Uzaqdan, real və hibrid iş modellərinin tətbiqi əsasları, 8)Platforma xarakterli biznes modelləri, 9)Vençur kapitalı ilə işə başlama və risklərin idarə olunması, 10)Qlobal bazarlar və beynəlxalq genişlənmə, 11)İqtisadi diversifikasiya, 12)İnklüzivliyin yüksəldilməsinin elmi-nəzəri əsasları, 13)Müəssisələrin rəqəmsal transformasiyaları və rəqəmsal infrastrukturunun kibertəhlükəsizliyinin elmi-texnoloji əsasları, 14)Davamlılıq və dayanıqlılıq, 15)Təqdimetmə, davamlı öyrənmə və uyğunlaşma və s. Bu yanaşmalar müəyyən strateji prinsipləri və nəzəri mülahizələri əhatə edir. Bu qeyd olunan yanaşmalar iqtisadi proseslərin, strukturların, eləcə də müvafiq biznesin inkişafının dinamik xarakterini əks etdirir. Burada çeviklik və uyğunlaşma model statusuna nail olmaq və öz sənayelərində ön sıralarda qalmaq istəyən müəssisələr üçün vacibdir.

Model tipli müəssisələrin mahiyyəti onların öz sahələrində nümunəvi xidmət etmək bacarığındadır. Belə müəssisələr yenilik, innovativ ideyalar və ya konsepsiyalar, səmərəlilik, keyfiyyət, müştəri mərkəzli dizayn və təcrübə, uyğunlaşma, liderlik, istedadların inkişafı, davamlılıq və məsuliyyət, bazar təsiri, uzunmüddətli diqqət, brend və reputasiyanın qurulması, qlobal çatdırılma, davamlı təkmilləşdirmə, dözümlülük, mənfəətlilik və s. kimi bir çox xüsusiyyətləri özündə cəmləşdirir və nümayiş etdirir.

Yeni Nəsil model tipli müəssisələrin konseptual inkişaf modeli. Model tipli müəssisələrin strukturu onun spesifik xüsusiyyətlərinə uyğun olaraq rəqəmsal innovasiyaların tətbiqi ilə Sənaye 4.0 platforması komponentlərindən yararlanmaqla, xüsusən süni intellekt texnologiya və metodlarından istifadəyə əsaslanmaqla formalaşır [10, 11].

Model tipli müəssisələrin struktur fəaliyyət modeli Sənaye 4.0 platformasının texnoloji trendlərini nəzərə almaqla aşağıdakı tərkib elementlərindən ibarət ola bilər [12, 13]: 1)additiv texnologiyalar və strukturlar, 2)adaptiv texnologiyalar, 3)insan resursları faktorunun rolunun artırılması, 4)innovativ məhsulların, xidmətlərin, dayanıqlı istehsalının inkişaf perspektivlərinin nəzərə alınması, 5)müştəriyönümlü logistika, e-kommersiya, blokçeyn texnologiyası və marketinq, 6)çevik, strateji və operativ idarəetmə strukturları, 7)robototexnika, süni intellekt və intellektual sistemlərin tətbiqi, 8)müasir İKT, İoT, kiberfiziki sistemlər, Big Data, bulud, 3D və digər texnologiyaları əhatə edən infrastruktur, onun kiberdayanıqlığı və s.

Sənaye 4.0 platformasında yeni nəsil model tipli müəssisələrin təşkilati struktur modelini şəkildəki kimi ifadə etmək olar.



Şəkil. Sənaye 4.0 platformasında yeni nəsil model tipli müəssisələrin konseptual inkişaf modeli (müəlliflər tərəfindən təklif edilmişdir)

Nəticə. Sənaye 4.0 platformasında model tipli müəssisələrin konseptual texnoloji inkişaf modeli müəssisələrin necə fəaliyyət göstərməsi ilə bağlı paradiqma dəyişikliyini ifadə edir. Bu sənaye proseslərində rəqəmsal texnologiyaların tətbiqini, avtomatlaşdırmanın, məlumat analitikasının və bir-biri ilə əlaqəli sistemlərin yaxınlaşmasını ifadə edir.

Konseptual inkişaf modelinin əsas cəhətləri kiberfiziki sistemlərin inteqrasiyasını, Əşyaların İnterneti (IoT), süni intellekt, maşın təlimi və böyük verilənlər analitikasını əhatə edir. Bu komponentlər səmərəliliyi, çevikliyi və innovasiyanı təşviq edərək, müəssisələr daxilində smart, uyğunlaşa bilən və bir-biri ilə əlaqəli sistemlər yarada bilərlər.

Bu modelin əsasını maşın və proseslərin əlaqə saxladığı, özünü optimallaşdırdığı və real vaxtda əsaslandırılmış qərarlar qəbul etdiyi ağıllı istehsal konsepsiyası təşkil edir. Bu, dinamik bazar tələblərinə cavab vermək üçün məhsul və xidmətlərin təkmilləşdirilmiş məhsuldarlığına, proqnozlaşdırılmış texniki xidmətə, resursların optimallaşdırılmasına və fərdiləşdirilməsinə gətirib çıxarır.

Sənaye 4.0 texnologiyalarının tətbiqi təşkilati restrukturizasiyanı, işçi qüvvəsinin yenidən ixtisaslaşdırılmasını, güclü kibertəhlükəsizlik tədbirlərini və məlumatlara əsaslanan qərarların qəbuluna keçidi əhatə edən vahid yanaşma tələb edir. Bundan əlavə, sənaye iştirakçıları, tədqiqatçılar, maraqlı tərəflər

arasında əməkdaşlıq standartlaşdırma, qarşılıqlı fəaliyyət və bu texnologiyaların etik istifadəsini təmin etmək üçün mühüm əhəmiyyət kəsb edir. Sənaye 4.0 platformasında müəssisələrin model tipliyini əhatə etmək, artan rəqabət qabiliyyəti, qənaətcillik, davamlılıq və bazar dəyişikliklərinə sürətlə uyğunlaşma qabiliyyəti daxil olmaqla, çoxsaylı faydalar təklif edir. Bununla belə, ədalətli və davamlı tərəqqi təmin etmək üçün kibertəhlükəsizlik riskləri, rəqəmsal uçurum və etik nəticələr kimi problemlər də həll edilməlidir.

Aparılan təhlillər və ümimiləşdirmələr göstərir ki, Sənaye 4.0 platformasında model tipli müəssisələrin konseptual texnoloji inkişaf modeli biznesin fəaliyyət göstərmə, innovasiya və dəyər yaratma üsullarını yenidən müəyyən edən transformasiya mərhələsini ifadə edir. Onun müvəffəqiyyətlə həyata keçirilməsi strateji yanaşma, davamlı öyrənmə və uyğunlaşma öhdəliyi və sənayelərin və ümumilikdə cəmiyyətlərin yaxşılaşdırılması üçün rəqəmsal texnologiyadan kompleks istifadə əsasında həyata keçirilir.

Ədəbiyyat

1. Olokundun et al. Leveraging 5G network for digital innovation in small and medium enterprises: A conceptual review. Journal of Innovation and Entrepreneurship, 2022, 11:41. https://doi.org/10.1186/s13731-021-00181-5.
2. Aliyev A.G., Shahverdiyeva R.O. Issues of application of digital twin technologies in the organization and management of the activities of innovative enterprises. Journal Information Technologies, 2023, No.3, vol.29, pp.162–168.
3. Əliyev Ə.Q., Şahverdiyeva R.O. İnnovasiya fəaliyyətinin təşkili problemləri və həlli mexanizmləri. Monoqrafiya. Bakı, "İnformasiya Texnologiyaları" nəşriyyatı, 2023, 532 səh.
4. Transforming our world: the 2030 Agenda for Sustainable Development. https://sdgs.un.org/2030agenda
5. Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 22 iyul 2022. 83 s. https://president.az/az/articles/view/56725.
6. Шпак П.С. Концепция «умного производства» как эффективный инструмент цифровой трансформации предприятия. Управленческое консультирование, 2022, №11, с.43–54.
7. Пирогова М.А., Лешихина И.Е., Краюшкин В.А. Искусственный интеллект для умного производства. Информационные технологии в проектировании и производстве, 2019, №4(176), с.32-37.
8. Клименкова М.С. Особенности организации и управления предприятий наукоемких производств. Modern Economy Success, 2022, №4, с.6-10.
9. Мамаева А.Б. Цифровая экономика и процессы ее трансформации. Наука и инновационные технологии, 2022, №4(25), с.196-205.
10. Von Garrel et al. Correction to: Design Framework for the Implementation of AI-based (Service) Business Models for Small and Medium-sized Manufacturing Enterprises. J.Knowl. Econ, 2022. https://doi.org/10.1007/s13132-022-01029-3
11. Chen S. At al. What drives business model innovation? Exploring the role of knowledge management capability in Chinese top-ranking innovative enterprises. J. Knowl. Econ., 2023. https://doi.org/10.1007/s13132-023-01281-1
12. Şahverdiyeva R.O. Texnoparklarin fəaliyyətinin səmərəli təşkili və idarə olunmasi üçün model və metodlarin işlənməsi. Fəlsəfə doktoru dissertasiyasının Avtoreferatı. Bakı, 2021.
13. European Commission. Factories of the future multi-annual roadmap for the contractual PPP under Horizon 2020. Prepared by: European Factories of the Future Research Association (EFFRA) a Manufuture İnitiative, http://www.ec.europe.eu. http://www.manufuture.org/manufacturing.

РЕЗЮМЕ

ОСНОВЫ КОНЦЕПТУАЛЬНОЙ ТЕХНОЛОГИЧЕСКОЙ МОДЕЛИ РАЗВИТИЯ МОДЕЛЬНЫХ ПРЕДПРИЯТИЙ НОВОГО ПОКОЛЕНИЯ НА ПЛАТФОРМЕ «ИНДУСТРИЯ 4.0»

Шахвердиева Р.О., Салимханова С.А.

Ключевые слова: *методы искусственного интеллекта, модели и технологии, цифровая трансформация, цифровые технологии и инновации, модельные предприятия, платформа Индустрия 4.0.*

Статья посвящена актуальности обеспечения устойчивого и устойчивого развития общества и экономики на глобальном уровне на уровне производства - на предприятиях. Особое внимание уделено разработке основ концептуальной технологической модели развития типовых предприятий с организационной формой данного обеспечения на платформе Индустрии 4.0. Объяснены особенности формирования и организации деятельности предприятий модельного типа. Показана важность строительства в стране модельных предприятий и технологических центров нового поколения. Систематизированы научно-теоретические основы организации и управления их эффективным формированием и функциональные подходы к его формированию. Предложена концептуальная модель развития модельного предприятия,

отмечено формирование его структурной модели деятельности с учетом перспектив развития аддитивных и адаптивных технологий, устойчивого производства инновационной продукции/услуг. На таких предприятиях предложены механизмы решения проблем киберустойчивости инфраструктуры, включающие применение гибких, стратегических и оперативных структур управления, робототехники, искусственного интеллекта и интеллектуальных систем, больших данных и других цифровых технологий.

SUMMARY

FUNDAMENTALS OF A CONCEPTUAL TECHNOLOGICAL MODEL FOR THE DEVELOPMENT OF NEW GENERATION MODEL ENTERPRISES ON THE PLATFORM "INDUSTRY 4.0"

Shakhverdieva R.O., Salimkhanova S.A.

Keywords: *artificial intelligence methods, models and technologies, digital transformation, digital technologies and innovations, model enterprises, Industry 4.0 platform.*

The article is devoted to the relevance of ensuring sustainable and sustainable development of society and the economy at the global level at the level of production - at enterprises. Particular attention is paid to the development of the foundations of a conceptual technological model for the development of standard enterprises with the organizational form of this support on the Industry 4.0 platform. The features of the formation and organization of activities of model-type enterprises are explained. The importance of building model enterprises and new generation technology centers in the country is shown. The scientific and theoretical foundations of organizing and managing their effective formation and functional approaches to its formation are systematized. A conceptual model for the development of a model enterprise is proposed, the formation of its structural model of activity is noted, taking into account the prospects for the development of additive and adaptive technologies, and the sustainable production of innovative products/services. Such enterprises have proposed mechanisms for solving problems of infrastructure cyber resilience, including the use of flexible, strategic and operational management structures, robotics, artificial intelligence and intelligent systems, big data and other digital technologies.

СОЗДАНИЕ АРХИТЕКТУРЫ АВТОМАТИЗИРОВАННОГО УПРАВЛЕНИЯ ТЕХНОПАРКА В ВУЗ-е

[1]Гусейнов Юсиф Ровшан оглу, [2]Гасанова Егана Мирдамат кызы

[1]Азербайджанский технологический университет, Гянджа, Азербайджан
[2]Сумгаитский государственный университет, Сумгаит, Азербайджан
yusif.guseynov.99@bk.ru

Ключевые слова*: автоматизация, ВУЗ, архитектура, управление, технопарк, научное исследование, производство.*

В тезисе рассматривается вопрос создания архитектуры автоматизированного управления технопарка при ВУЗ-е. Проанализирована структура технопарка при ВУЗ-е, основанная на научно-исследовательской и производственной схеме управления его деятельности. Предложена архитектура автоматизированного управления технопарка ВУЗ-а на уровнях контроля и принятия решения по инновационным проектам. Построена модель планирования процесса контроля над качеством изготовления инновационного проекта на этапах научно-исследовательского и производственного процесса.

Внедрение технопарков [1, 2] в системе высшего образования является обязательным составляющим в развитии инженерных высших учебных заведений и экономики страны в целом. Реализация специализированных технопарков в ВУЗ-ах с инженерным уклоном является многоэтапным процессом и осуществляется с применением современных технологий автоматизации и управления [3]. Анализ современного состояния внедрения технопарков с инженерной специализацией [4] показал, что реализация инструментарий автоматизации и управления процесса разработки инновационного проекта в технопарке осуществляется на недостаточном уровне, и это, в конечном счете приводит к снижению качества инновационных продукций и соответственно уменьшению производительности технопарка в целом.

В этой связи, целью данного материала является создание архитектуры системы автоматизации управления технопарка при Сумгаитском государственном университете на уровнях подсистем контроля, принятия решения и планирования его компьютерной сети. Для реализации этой цели требуются решения следующих вопросов:

1. Построение архитектуры автоматизированной системы совместного управления научно-исследовательского отдела и гибкой производственной линии;

2. Моделирование процесса планирования функций контроля и принятия решения на этапах проектирования инновационного проекта в научно-исследовательском отделе и гибкой производственной линии.

Учитывая иерархический принцип построения, предлагается архитектура автоматизированной системы совместного управления технопарка на уровнях информационного контроля, принятия решения и сетевого формирования маршрутов автоматизированных рабочих позиций, где осуществляются исследования, макетного изготовления, производственного изготовления и выпуска инновационного проекта (рис. 1). Для централизованного слежения за поэтапным контролем качества инновационного проекта и принятием решения по его изготовлению, применяется графический интерфейс с позициями каждого автоматизированного рабочего места.

Подсистема контроля над качеством инновационного проекта в исследовательском отделе осуществляет реальное текущее информационное измерение его технических конструкционных, функциональных и технологических параметров с помощью систем технического зрения методом распознавания образов, внутренних и внешних данных, влияющих на поверхностное и внутреннее изменение проектируемых объектов.



Рисунок 1. Архитектура автоматизированной системы совместного управления научно-исследовательской и производственной частью технопарка

Подсистема принятия решения для комплексной архитектуры автоматизированной системы совместного управления в научно-исследовательской и производственной части технопарка выполняет функции поэтапного выполнения процесса контроля на основе измерений технических параметров при изготовлении механических, электронных и функциональных частей в лабораториях (Лабор_i) с помощью 3D принтеров, мини токарных, фрезеровочных и сверлильных станков. Разработанный проект в испытательном отделе также измеряются на испытательных станках, а измеряемые входные данные поступают в ПЛК, где после обработки информации принимаются решения для управления данного процесса. Измерения контролируемых параметров (давления, температуры, размеры резки, сверление и шлифовки) в оборудованиях, манипуляторах и промышленных роботах механосборочного цеха обеспечивают качественное изготовление инновационного проекта.

Из описания подсистем архитектуры автоматизированной системы совместного управления научно-исследовательской и производственной частью технопарка, видно, что процесс изготовления инновационного проекта требует постоянный контроль над качеством данной продукции. При этом необходимо рассмотреть вопрос моделирования поэтапного контроля изготовления инновационного проекта в лабораториях (Лабор_i), сборка деталей на 3D, токарном, фрезеровочном, сверлильном станке, испытательном станке и окончательное изготовление инновационного проекта в гибкой производственной линии. В соответствии с поставленной задачей разработаем алгоритм в виде фреймовой структуры:

ИМЯ ФРЕЙМА: Поэтапный контроль изготовления инновационного проекта (ПКИИП) в лаборатории и гибкой производственной системе технопарка
Имя 1-го слота (С1i) (Лабор_i): (Лабор_1; Лабор_2; ...; Лабор_n);
Имя 2-го слота (С2i) (Сборка деталей (СД) в Лабор_i): (СД на 3D; СД на токарном станке; СД на фрезеровочном станке; СД на сверлильном станке);
Имя 3-го слота (С3i): (Испытание макета): (функциональное; программное и технологическое);
Имя 4-го слота (С4i): (Применение в производстве): (механосборочный цех; манипулятор; промышленный робот_i)

Учитывая принцип построения граф-схемы фрейма непосредственно для последовательного контроля процесса изготовления продукции в технопарке, строится граф - схема в виде рисунка 2.



Рисунок 2. Граф-схема фреймовой структуры изготовления и контроля инновационного проекта в технопарке СГУ

Данный подход обеспечивает эффективно моделировать процесс изготовления и непосредственного контроля инновационного проекта в научно-исследовательском и гибкой производственной системе.

Литература

1. Məmmədov C.F. Azərbaycan və Türkiyənin iqtisadi əməkdaşlığının strateji istiqamətləri beynəlxalq elmi konfrans (26-27 may 2022-ci il) 2022 № 5, Sumqayıt, s. 164-170.
2. Mammadov J.F., Abdullayev K.S., Aliyev I.R., Safarova T.A. Developing Flexible Manufacture Cell in University industrial Park and its Modeling. International Russian Automation Conference (RusAutoCon) – 2019, s. 1-6.
3. Mammadov J.F. Organization of technology park and its structure at high educational school of Azerbaijan. European researcher, №10, 2011, p. 13-19.
4. Мамедов Дж.Ф., Абдуллаев К.С., Гасанова Е., Алиева С.Б. Разработка фрейм модели для выбора и проектирования гибкой производственной системы. Вестник Дагестанского государственного технического университета. Технические науки, 2020, № 1, с. 93-101.

XÜLASƏ

UNİVERSİTETDƏ TEXNOLOGİYA PARKININ AVTOMATLAŞDIRILMIŞ İDARƏ EDİLMƏSİ ÜÇÜN ARXITEKTURANIN YARADILMASI

Hüseynov Y.R., Həsənova Y.M.

Açar sözlər: *avtomatlaşdırma, universitet, memarlıq, idarəetmə, texnologiya parkı, elmi tədqiqat, istehsal.*

Tezisdə universitetdə texnoparkın avtomatlaşdırılmış idarə olunması üçün arxitekturanın yaradılması məsələsi araşdırılır. Universitetdə texnoparkın fəaliyyətinin idarə edilməsi üçün elmi-tədqiqat və istehsalat sxemlərinin təhlili aparılmışdır. İnnovativ layihələrə nəzarət və qərarların qəbulu səviyyələrində universitet texnoparkının avtomatlaşdırılmış idarə olunması üçün arxitektura təklif olunur. Tədqiqat və istehsal prosesinin mərhələlərində innovativ layihənin istehsalının keyfiyyətinə nəzarət prosesinin planlaşdırılması modeli qurulmuşdur.

SUMMARY
CREATION OF AN ARCHITECTURE FOR AUTOMATED CONTROL OF A TECHNOLOGY PARK AT A UNIVERSITY
Huseynov Y.R., Hasanova Y.M.

Keywords: automation, university, architecture, management, technology park, scientific research, production.

The thesis considers the issue of creating an architecture for automated management of a technology park at a university. The structure of the technology park at the university is analyzed, based on the research and production scheme for managing its activities. An architecture for automated management of a university technology park is proposed at the levels of control and decision-making on innovative projects. A model for planning the process of monitoring the quality of production of an innovative project at the stages of the research and production process has been constructed.

PEYK GÖRÜNTÜLƏRİ ƏSASINDA SÜNİ İNTELLEKTDƏN İSTİFADƏ ETMƏKLƏ XƏZƏR DƏNİZİNDƏ NEFT SIZINTISININ TAPILMASININ TEXNİKİ-İQTİSADİ ARAŞDIRMASI

Ağalarov Mirəkrəm Şahin oğlu, Muradxanlı Leyla Qəzənfər qızı

Bakı Ali Neft Məktəbi, Bakı, Azərbaycan
mirakram.agalarov@bhos.edu.az

Açar sözlər: *kompüter görmə, superviziyasız öyrənmə, etiketləmə.*

Xəzər dənizi də daxil olmaqla böyük su hövzələrində neft-qaz çıxarma və transmissiya qurğularından neft sızıntılarının baş verməsi tez-tez rast gəlinən haldır. Bu texniki-iqtisadi əsaslandırmanın məqsədi Azersky peykinin görüntülərinin yaratdığı imkanlar vasitəsilə neft sızıntısının dəqiq kordinatını kompüter görmə alqoritmləri vasitəsilə tapılmasıdır. Əldə olan görüntülərin adlandırılması çətin olduğundan daha dayanıqlı modelin qurulması üçün sintetik mühit qurulmuşdur. Texniki-iqtisadi əsaslandırma olduğunu nəzərə alaraq 30 km^2-lik ərazi 3D vizualizasiya alətləri ilə sintetik dataset qurulmuşdur və modelin real və sintetik datasetlər arasında öyrənmə tendensiyası göstərdiyi görülüb.

20-ci əsrdən başlayaraq dünyada böyük əhəmiyyətə malik olan neft-qaz yataqları təbiətin insanlara təmin etdiyi ən güclü çevriliş aləti oldu. Yanacaq istehsalı bir çox texnologiyanın effektiv işləməsinə böyük tövhə verərkən 21-ci əsrin texnologiyasının sürətli artımına gətirib çıxardı. Belə ki monitorinqlər onu göstərir ki, bu inkişafın nəticəsində hələ də böyük risk daşıyan neft-qaz çıxarma texnikaları və ya boru kəmərlərinin nasazlığı nəticəsində külli miqdarda neft dənizə axır. Bu tip çirklənmənin insan müdaxiləsi olmadan həll olunması mümkün olmadığı kimi, bu tip xətaların müəyyən edilərək həll edilməsi də böyük xərc tələb edir. Bu tədqiqat işinin məqsədi bu problemi obyekt hesab edərək, neft dağıntılarının daha dəqiq müəyyən olunması üçün superviziyasız öyrənmə metodlarının coğrafi informasiya sistemləri (GIS) üzərində optimallaşdırılmasıdır.

Şəkil 1. Qara neft sızıntısı

Tədqiqat işinin mərkəzində datanın analizi durur və data yüksək dəqiqlikli şəkillərdən və müvafiq koordinatlardan ibarətdir. 5 il və hər ildən 1 dəfə çəkilmiş peyk görüntüsü 500 km^2 ərazini əhatə edir. Şəkillərdə qeyd olunmuş obyektlər: Adalar - Kiçik ərazi əhatə edən adalar mövcuddur, Neft Platformaları - müxtəlif tipli neft platformaları mövcuddur. Neft Dağıntıları - Qara və ağ görünüşlü olmaqla müxtəlif ölçülü neft dağıntıları mövcuddur. Gəmilər - Obyekt olaraq və yaratdığı dalğa səbəbindən model performansında təsirə malikdir.

Şəkil 2. Rəngli neft sızıntısı

Data analizinin nəticəsi olaraq qeyd olunmalıdır ki, verilən şəkillərdə neft sızmaları ən çox 2020-ci ilə aşkar olunub. Digər illərdə günəşin düşmə bucağı, dalğa böyüklüyü kimi faktorlar neft sızmalarının görünməsinin qarşısını alıb. Lakin bu tədqiqat işində obyekt üzərində olan əsas müddəa odur ki, Azersky peyki eyni ərazini 2 gün periodu ilə skan edə bilir. Bu səbəbdən, həftədə 3 keçişin olacağını nəzərə alsaq neft sızıntısının gözlə görüləsi səviyyəyə gəlməsi ehtimalı artır.

Obyekt olaraq nəzərdə tutulan proyektin tamamlanması üçün nəzərdə tutulmuş tapşırıq Semantik Segmentasiyadır və bu model tipi generativdir. Başqa sözlə desək, model şəkil qəbul edir və yeni müxtəli formatlı şəkil qaytarır hansı ki özündə müxtəlif obyektlərin yerini piksel dəqiqliyi ilə göstərir. Bu səbəbdən bu şəkillərin adlandırılması daha çox vaxt tələb edir. Buna həll olaraq daha çox variasiya yaratmaq üçün biz sintetik mühitlərə üz tutduq və texniki-iqtisadi əsaslandırma olduğu üçün kiçik bir mühiti 3ds Max simulasiya proqramında 30 km^2 ərazi üçün quraşdırdıq.

Neft sızıntılarının aşkarlanması problemlərinin həlli üçün hal hazırda istifadə olunan metodlarda əsas SAR (Synthetic Aperture Radar) sistemlərindən gələn datalar analiz edilir. Bu sistemlə neft dağıntılarının qaytardığı nəticələr dəniz örtüyündəkindən fərqli olur. Lakin testlər onu göstərir ki SAR sistemləri bu tip anormallıqları kiçik külək sürətlərində daha yaxşı tapa bilir. Nəzərə alsaq ki Xəzər dənizində riskli ərazilərin çoxunda orta külək sürəti yuxarıdır, bu görüntülərin dəqiqliyi azalır. Bu səbəbdən [5] göstərib ki, yaxın infraqırmızı və RGB şəkillərin birləşməsindən CNN modelləri daha doğru nəticə göstərə bilir. Digər ümumi tədqiqatlarda da bu yanaşma Merv Fingas və Carl E. Brown tərəfindən təsdiq edilib.

Semantik Segmentasiya modellərində isə ən çox istifadə olunan modellər UNet [4], BiseNet [1], Deeplab-dır. Son zamanlarda daha aktiv şəkildə istifadə olunmağa başlanılan transformer arxitekturalı modellərə isə ViT[2] və Segformer[3] modelləri daxildir.

Sintetik datanın real domen üzərində öyrədilməsi üçün adlandırılmış sintetik mühit və adlandırılmamış real şəkillər lazımdır. Hər iki datasetin eyni anda lakin fərqli metodlarla modelə öyrədilməsi daha düzgün detalların ekstraktordan çıxarılmasına gətirir çıxarır. Tədqiqata başlamazdan əvvəl mərkəzdə olan əsas müddəa budur ki, əgər ekstraktor detalları düzgün formada çıxara bilsə, yeni və daha böyük sintetik mühitin yaradılması üçün fəaliyyətə başlamaq olar. Bunun üçün 3 mərhələli öyrənmə prosesi dəqiqləşdirilmişdir:

1. Tapşırığın Segformer ilə sintetik şəkillərin adlandırılması ilə həyata keçirildi
2. Ekstraktorun real domenə uyğunlaşması üçün superviziyasız kontrastiv öyrənmə istifadə olundu
3. Segmentasiya başlığının yəni dekoderin də real domenə uyğunlaşması üçün öz özünə öyrənmə metodu yəni tələbə müəllim metodu istifadə olundu

Cədvəl 1.

Öyrənmə metodları və müvafiq nəticələr

Öyrənmə metodu	*mIoU*
Yalnız Sintetik	**21.6**
Kontrastiv Öyrənmə	**48.8**
Kontrastiv + Özünə öyrənmə	**38.2**



a) b) c)

Şəkil 3. İlkin Nəticələr. Yaşıl etiket platformaları bildirir. Qırmızı etiket isə netf sızıntısını

Bu nəticələr göstərir ki, sintetik datanın keyfiyyətsizliyini və kiçikliyini nəzərə alaraq, model 2 domen arasında uğyunlaşma göstərir. Sintetik data daha da keyfiyyətli edilərək və domen adaptasiyası metodları daha da optimallaşdırılaraq bu nəticə daha çox inkişaf etdirilə bilər.

Ədəbiyyat

1. Gang Yu, and Nong Sang. Bisenet: Bilateral segmentation network for real-time semantic segmentation, 2018.
2. Jakob Uszkoreit, and Neil Houlsby. An image is worth 16x16 words: Transformers for image recognition at scale, 2020.
3. Jose M. Alvarez, and Ping Luo. Segformer: Simple and efficient design for semantic segmentation with transformers, 2021.

4. Philipp Fischer, and Thomas Brox. U-net: Convolutional networks for biomedical image segmentation. CoRR, abs/1505.04597, 2015.
5. Thomas De Kerf, Jona Gladines, Seppe Sels, and Steve Vanlanduit. Oil spill detection using machine learning and infrared images. Remote Sensing, 12(24), 2020.

РЕЗЮМЕ
ТЕХНИКО-ЭКОНОМИЧЕСКОЕ ОБОСНОВАНИЕ ОБНАРУЖЕНИЯ РАЗЛИВОВ НЕФТИ НА КАСПИИ С ИСПОЛЬЗОВАНИЕМ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА НА ОСНОВЕ СПУТНИКОВЫХ ИЗОБРАЖЕНИЙ
Агаларов М.Ш, Мурадханлы Л.Г.

Ключевые слова: *компьютерное зрение, неконтролируемое обучение, маркировка.*

Утечка нефти в результате технологий добычи и транспортировки нефти и газа часто встречается в крупных водных бассейнах, включая Каспийское море. Целью данного технико-экономического обоснования является обнаружение точных координат утечки нефти с использованием методов компьютерного зрения на спутниковых снимках Азерский. Поскольку маркировка данных изображений или набора данных является сложным процессом с учетом подхода семантической сегментации, для обеспечения надежной модели был создан синтетический набор данных. Учитывая технико-экономическое обоснование, с помощью программного обеспечения 3D Enviroment была создана только территория площадью 30 км^2, и было доказано, что модель может передавать знания из синтетической области в реальную.

SUMMARY
FEASIBILITY STUDY OF OIL SPILL DETECTION IN THE CASPIAN SEA USING ARTIFICIAL INTELLIGENCE BASED ON SATELLITE IMAGES
Agalarov M.Sh, Muradkhanli L.Q.

Keywords : *computer vision, unsupervised learning, labelling.*

Oil Leakage from the oil-gas extraction and transmission technologies is confronted with often in large water basins including Caspian Sea. Purpose of this feasibility study to detect exact coordinates of oil leakage by using computer vision techniques on Azersky satellite imagery. As the labelling of the given images or dataset is difficult process considering semantic segmentation approach, synthetic dataset have been created to ensure robust model. Considering being the feasibility study, only area of 30 km^2 have been created by 3D Enviroment software and it is proved that the model can transfer the knowledge from synthetic to real domain.

AUTOMATIC FREQUENCY CONTROL SYSTEM ROTATION OF THE EXPANSION TURBINE SHAFT

Alekperli Fazil Azin, Askerova Sahila Faik, Talibov Seymur Famil

Sumgait State Universty, Sumqait, Azerbaijan
fazilalekperli@mail.ru

Keywords: *expansion turbine shaft speed, starting mode, manual control, automatic controls.*

The report offers options (manual, automatic - stepwise and smooth) for controlling the rotation speed of the expansion turbine shaft for the production of liquid oxygen, nitrogen and argon. The results of an analysis of the quality of control options performed on the Simulink application of the Matlab package are presented.

The production of liquid oxygen, nitrogen and argon at the **“**ONAL-500 TC” type installation operating at the Sumgait Technological Park (STP) is intended to produce liquid products - nitrogen, oxygen and argon from atmospheric air. For various reasons (lack of orders, dirty air filters, planned shutdowns for repairs, etc.), the installation often (several times a year) stops and naturally starts again. The startup of the installation lasts more than 30 hours and consists of several stages, among which the stage of starting the expansion turbine stands out with its specificity [1]. Starting the turbine consists of two parts: in the first part, 30% is achieved, and in the second, 60% of the maximum turbine shaft rotation speed is achieved. In the existing plant control system, built on the basis of Sematic programmable controllers, the first part is performed by an automatic controller, and the second part manually. Those. The operator panel has virtual buttons labeled +1 and -1. Upon completion of the first part, they are activated, and each press of them increases or decreases the value of the controller setting by one. This process continues until the operating speed of the turbine shaft is obtained.

The rate of increase in the turbine shaft rotation speed depends on the thermal state of the installation equipment: when the equipment is cold, the increase rate is 2 percent per minute, and when it is warm - 1

1. Абдуллаев Г.С.Способ омеднения поверхности подшипника шпинделя сварочной машины ТПЦ-2 // Aspirantların və elmi tədqiqatçıların elmi konfransının materialları. Cild 1, 23-24 fevral, 1999, s.135.
2. Babayev S.H., Mustafayev S.M., Həbibov İ.Ə. Sürtünmə və yeyilmə nəzəriyyəsinin əsasları. Bakı: Elm.1998,117s.
1. Məmmədov V.T., Mirzəyev O.N. Neft-mədən texnikasının təmiri və bərpası. Bakı: 2012, 294 s.

РЕЗЮМЕ
ПОВЫШЕНИЕ ДОЛГОВЕЧНОСТИ ШПИНДЕЛЯ СВАРОЧНОЙ МАШИНЫ СВАРИВАЮЩЕЙ МУФТУ БУРИЛЬНЫХ ТРУБ ТРЕНИЕМ
Гарамамедов Г. А., Абдуллаев Г. С., Мустафаева Н. И.

***Ключевые слова**: шпиндель, полость, подушка, диффузия**,** бурильная труба.*

В статье исследовано «Повышение долговечности шпинделя сварочной машины сваривающей муфту бурильных труб трением». В результате исследований на канавке шпинделя были выполнены три отверстия промежуток 120 градусов и диаметром 4 мм с целью уменьшения осевых и радиальных усилий, возникающих в шпинделе машины сварки трением при приварке муфты к концу бурильных труб. В зазор между втулкой и шпинделем подали глицерин. В результате были устранены осевые и радиальные силы, возникающие в валу и подшипниках. Срок службы шпинделя увеличился на пять лет. Для управления операцией использовался специальный робот, разработанный нами.

SUMMARY
INCREASING WELDING SPINDLE DURABILITY MACHINES WITH RUNNING WELDING COUPLING ENDS DRILL PIPES
Garamammadov H. A., Abdullayev G.S., Mustafayeva N. I.

***Keywords:** spindle, cavity, pad, diffusion, drill pipe.*

The article examines “Increasing the durability of the spindle of a machine for friction welding of drill pipes.” As a result of the research, three holes with a diameter of 120 degrees and a diameter of 4 mm were made on the spindle groove in order to reduce the axial and radial forces generated in the spindle of the friction welding machine when welding the coupling to the ends of the drill pipes. opened, glycerin was placed between the spindle and the cavity. As a result, axial and radial forces occurring in the shaft and bearings were eliminated. Spindle life has been increased by five years. A special robot developed by us was used to control the operation.

SMART HOME (AĞILLI EV) TEXNOLOGİYASI

[1]Allahverdiyeva Könül Əsvər qızı, [2]Hüseynli Kənan Yusif oğlu

[1]Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
[2]Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
[1]konul636@mail.ru, [2]huseynlisinan15@mail.com

***Açar sözlər:** Smart Home, ağıllı ev, texnologiya, təhlükəsizlik monitorinqi, ağıllı işıqlandırma, ağıllı ev tətbiqi, şəbəkə kommunikasiya texnologiyaları.*

Ağıllı ev (evin avtomatlaşdırılması) səmərəli yaşayış mühiti yaratmaq üçün ev mühiti ilə əlaqəli obyektləri inteqrasiya etmək üçün inteqrasiya olunmuş, şəbəkə kommunikasiya texnologiyalarından, təhlükəsizliyin qarşısının alınması texnologiyalarından, avtomatik idarəetmə texnologiyalarından və audio və video texnologiyalarından istifadə edən canlı platformadır. Evdə təhlükəsizlik və rahatlığı yaxşılaşdırmaq, həmçinin ekoloji cəhətdən təmiz və enerjiyə qənaət edən yaşayış mühiti yaratmaq üçün ağıllı evlər bu gün dünyada inkişafda olan və geniş tətbiq olunan sistemlərdən biri hesab olunur.

Ağıllı ev, həmçinin “Smart Home” kimi tanınan, məişət cihazlarını İnternet üzərindən birləşdirməyi nəzərdə tutan və istifadəçilərə uzaqdan səsli idarəetməsindən istifadə edərək evdəki ağıllı məişət cihazlarını idarə etməyə imkan verən texnologiyadır. Məsələn, işıqlandırma vaxtlarını xüsusi cədvəl üzrə təyin edə, işıqları yatmazdan əvvəl avtomatik olaraq sönürə və ya evə çatmazdan əvvəl mobil telefonunuzdan istifadə edərək kondisioneri işə sala bilərsiniz [1].

Ağıllı ev sistemi, Smart Home 2.0. Bir çox insanlar ağıllı ev anlayışının əslində bütün məişət cihazlarını cib telefonuna qoşmaq və mobil telefondan pult kimi istifadə etmək olduğunu düşünür. Bununla belə, bugünkü ağıllı ev texnologiyasının inkişafı təkcə bununla kifayətlənmir və daha fərqli texnologiyalardan istifadə hallarına diqqət yetirir. Məsələn, gecə insanların istirahəti zamanı nəinki zəif işıqlandırma, həm də mobil telefonunuzu enerji ilə doldurmaq, kondisioneri tənzimləmək və s. ehtiyacları da yerinə yetirə bilir. Smart texnologiya vasitəsilə yuxarıda göstərilən bütün əməliyyatları şəxsi ehtiyaclarınıza uyğun olaraq “yuxu rejiminə” keçirmək olar [2]. Yalnız bir toxunuşla Home App sisteminin köməyi ilə ağıllı ev cihazınızda birdən çox parametr üçün Situasiya Rejimi keçidini yandılır.



Şəkil - 1. Smart home (ağıllı ev) sisteminin struktur sxemi

Yuxarıdakı ağıllı ev anlayışlarını başa düşdükdən sonra, beş ümumi ağıllı ev tətbiqini nəzərdən keçirək.

Ağıllı Ev Tətbiqi 1: Ağıllı işıqlandırma

İşıqlandırma mühiti insan sağlamlığına təsiri ilə sıx bağlıdır. Gecə və gündüz müxtəlif işıqlandırma rejimləri arasında keçid müntəzəm yaşayış mühiti yaratmağa kömək edə bilər. Bu zaman ağıllı lampa seçərək məsəfədən idarəetmə sistemi vasitəsilə mobil proqrama qoşa bilərsiniz. Nəzarətlərə işıq lampasının açarları, temperatura nəzarət, parlaqlıq tənzimlənməsi daxildir. Bundan əlavə, ağıllı işıqlandırmanın avtomatik planlaşdırma funksiyası lazım olmadıqda işıqları yandırıb-söndürmək üçün vaxtınızı özünüz təyin etməyə imkan verir.

Ağıllı Ev Tətbiqi 1: Əyləncə proqramları

Onlayn audio və video platformaların meydana çıxması ilə ev şəraitində film izləmək baxmaq əksər insanlar üçün əyləncəyə çevrilib. Bu da audio və video avadanlığı kimi, ev kinoteatrı təcrübəsini artıra bilər. Bunun üçün sistemi film rejiminə qoymaq kifayətddir. Proqram və ya səs əmri vasitəsilə "kino rejimi"ni yandırdıqdan sonra o, müvafiq kondisionerin temperaturunu, ventilyatorun fırlanmasını və işıqlanmanı avtomatik tənzimləyəcək. Bütün səs müdaxilələrini təcrid etmək və ailə ilə keyfiyyətli vaxt keçirmək üçün digər avadanlıqlar müvəqqəti olaraq söndürülür.

Ağıllı ev tətbiqi 3: Ətraf mühitin monitorinqi

İşıqlandırma parametrləri ilə yanaşı istifadəçilər kondisionerlər, hava təmizləyiciləri və nəmləndiricilər kimi bir neçə smart cihazı da mobil telefonlarına qoşa bilərlər. Proqram vasitəsilə avtomatik monitorinq rejimi ilə ağıllı temperatur və rütubət sensorları quraşdıraraq evdə bir çox ağıllı cihazları birləşdirə bilərlər. Temperatur, rütubət və havanın keyfiyyəti kimi ətraf mühit məlumatlarına əlavə olaraq, nəmləndiricilər, təmizləyicilər və s. müəyyən rütubətə və ya yüksək temperatura çatdıqda avtomatik işləməyə icazə verə bilər və sizə daha rahat iş rejimi üçün avtomatik optimallaşdırmağa kömək edir.

Ağıllı ev tətbiqi 4: Təhlükəsizlik monitorinqi

Evinizdə monitorlar, ağıllı qapı kilidləri və tüstü detektorları kimi çoxsaylı təhlükəsizlik cihazlarının quraşdırılması oğruların qarşısını almaq və ya dəm qazı və qaz sızması kimi qəzaların qarşısını almaq üçün monitorinq sistemi kimi xidmət edə bilər. Monitorinq sistemi mobil proqrama qoşulubsa, o, anormal vəziyyətlər aşkar edildikdə avtomatik olaraq ev sahibini xəbərdar edə, vəziyyəti real vaxtda bildirə və ev sahibinə təhlükələri tez bir zamanda aradan qaldırmağa kömək edə bilər.

Ağıllı ev tətbiqi5: Fərdiləşdirilmiş ssenari parametrləri

İstifadəçilər yuxarıda qeyd olunan ssenarilərlə yanaşı, öz ehtiyaclarına uyğun olaraq müxtəlif smart cihazları seçərək, həftə sonları istirahət, səhər evden çıxmaq, axşam evə qayıtmaq kimi müxtəlif ssenariləri əvvəlcədən təyin edə bilərlər.

Ağıllı ev konsepsiyası getdikcə populyarlaşdıqca, daha çox məişət texnikası markası əlaqəli tətbiqləri işə salır. Bununla belə, istifadəçilər üçün evdə bir neçə markadan ağıllı məişət texnikası varsa, bu o deməkdir ki, birdən çox proqram quraşdırılmalıdır ki, müstəqil əməliyyat eyni vaxtda idarə oluna bilməz və bu, fərdiləşdirilmiş tətbiqlərin həyata keçirilməsini çətinləşdirir [3].

4 aprel 2023-cü ildə QuestMobile məlumatları göstərdi ki, 2023-cü ilin fevralına olan məlumata görə, ağıllı ev proqramlarının aylıq 265 milyon aktiv istifadəçisi var.

Ədəbiyyat

1. Hill, Jim (12 September 2015). "The smart home: a glossary guide for the perplexed". T3. Retrieved 27 March 2017.
2. Home Automation & Wiring (1 ed.). New York: McGraw-Hill/TAB Electronics. 1999-03-31. ISBN 978-0-07-024674-4.
3. Rye, Dave (October 1999). "My Life at X10". AV and Automation Industry eMagazine. Archived from the original on September 30, 2014. Retrieved October 8, 2014.

РЕЗЮМЕ
ТЕХНОЛОГИЯ УМНОГО ДОМА
Аллахвердиева К.А., Магерремова А.М., Гусейнли К.Ю.

Ключевые слова: *Умный дом, технология, мониторинг безопасности, умное освещение, приложение «умный дом», сетевые коммуникационные технологии.*

Умный дом (домашняя автоматизация) это живая платформа, которая использует интегрированные сетевые коммуникационные технологии, технологии предотвращения безопасности, технологии автоматического управления, а также аудио и видеотехнологии для интеграции объектов, связанных с домашней средой, для создания эффективной среды обитания. Для повышения безопасности и комфорта дома, а также для создания экологически чистой и энергоэффективной среды обитания умные дома сегодня считаются одной из наиболее развитых и широко используемых систем в мире.

SUMMARY
SMART HOME TECHNOLOGY
Allahverdieva K.A., Maharramova A.M., Huseynli K.Y.

Keywords: *Smart home, technology, security monitoring, smart lighting, smart home application, network communication technologies.*

Smart home (home automation) is a living platform that uses integrated network communication technologies, security prevention technologies, automatic control technologies, and audio and video technologies to integrate objects related to the home environment to create an efficient living environment. To improve the safety and comfort of the home, as well as to create an environmentally friendly and energy-efficient living environment, smart homes are today considered one of the most developed and widely used systems in the world.

VİSKOZİMETRİK TƏHLİL ƏSASINDA POLİMERLƏŞMƏ PROSESLƏRİNİN BİR OPERATİV İDARƏ PRİNSİPİ HAQQINDA

[1]Sadıxov Vüqar Vaqif oğlu, [2]Həşimova Hüsniyyə Mirbağı qızı

[1]AZFEN birgə müəssisəsi, Bakı, Azərbaycan
[2]Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
[1]svugars@gmail.com, [2]hbaqiyeva@mail.ru

Açar sözlər: *qeyri nyütor maye muhiti, modelləşmə, polimerləşmə prosesi, keyfiyyət monitorinqi.*

Polimerləşmə proseslərində qel effektə nəzarət və keyfiyyətin idarə olunması üçün viskozimetrik informasiya hasiledicisi və o informasiyanın emalına yönəldilən prinsip təklif olunur. Bu istiqamətdə işçi alqoritm və onun ideoloji əsası şərh olunur. Müvafiq riyazi funksiya və onun parametrikləşdirilməsi üçün metod işlənilir. Göstərilir ki, təklif olunan alqoritm reoloji ölçü siqnalından istifadə əsasında polimer materialların keyfiyyətinə avtomatlaşdırılmış monitorinq məsələsinin həllinə xidmət edə bilər.

Polimerləşmə proseslərinin idarə olunmasında viskozimetrik tədqiqatın çox önəmli olmasının səbəbi bu fiziki kəmiyyətin bilavasitə yüksəkmolekullu birləşmələr üçün ən fundamental xarakteristika olan molekulyar-kütlə paylanma funksiyası ilə sıx korelyasiyada olması ilə əlaqədardır. Digər tərəfdən viskozimeetrik təhlilin alqoritmləşdirilməsi mühüm elmi-praktiki problem olaraq həll edilməsi istehsalda həm keyfiyyətə nəzarət, həm də optimal idarə məsələlərinin həlli istiqamətində mühüm addım kimi diqqəti cəlb edir.

1. Qel effektin monitorinqi və qabaqlayıcı idarəetmə təsiri. Polimerləşmə reaksiyalarında qel effektin yaranması kütlədə polimerləşmə proseslərinin idarə olunmasında demək olar ki, ən ciddi kritik vəziyyəti əks etdirir. Reaksiya qarışığında polimer kütlənin qatılığının lokal çərçivədə anomal yüksəlməsi onun əhatə dairəsində diffuziya şəraitini kəskin dəyişərək, reaksiya mühitində yüksək polimerləşmə sürətinə malik lokal sahələr yaradaraq, qlobullaşma kimi pozucu rejimlərin yaranmasına səbəb olur. Müsbət əks əlaqə effektinin meydana çıxması ilə əlaqədar olan bu ekstraordinar effektlərin qəflətən və böyük sürətlə

qərar tapması hadisənin proqnozlaşdırılmasını mühüm, lakin həlli çətin olan məsələyə çevirir ki, qarşıya qoyulan idarəetmə alqoritmi məhz bu məsələnin həllə istiqamətlənmişdir.

2. Dəyişən sürətli axında reaksiya qarışığının viskozimetrik təhlili. Dəyişən sürətli axında viskozimetrik təhlilin yüksək informasiya tutumuna malik olduğunu təsdiqləyən tədqiqat nümunələrini bu gün yetərincə hesab etmək olar [1]. Polimerləşmə reaktorundakı reaksiya qarışığının rotasiya üsulu ilə tədqiqi sahəsində apardığımız tədqiqatlarda müsbət nəticələr əldə olunmuşdur [2]. Son tədqiqatlarımız işçi diapazon genişliyi, universallıq və dəqiqliklə fərqlənən yeni ölçmə prinsipə əsaslanmış cihazın meydana çıxmasına səbəb olmuşdur (şəkil).



Şəkil. Porşenli reoloji tədqiqat qurğusunun prinsipial sxemi

Qurğunun iş prinsipi müxtəlif sürüşmə təzyiui və axın sütəti yaratmaq üçün çox kameralı quruluşdan istifadəyə əsaslanır. Kameralarda təzyiq düşgüsü, axın üçün deşiklərin diametrləri və sayları müəyyən qaydada seçilərək, tədqiq olunan özlü material şəraitində eyni zamanda müxtəlif təzyiqlər və müxtəlif sürüşmə sürətləri əldə etməyə imkan verir. Kameralarda yerləşdirilmiş tenzohəssas elementlər (1) vasitəsi ilə müvafiq təzyiq düşgüləri ölçülür. Təzyiqin bir gedişdə müntəzəm artan sürətlə hərəkətini təmin etmək üçün kam mexanizmi əsasında qurulan xüsusi sürət qutusundan istifadə olunur. Şək.1-də sayı n_2 ilə işarə olunmuş eyni r_2 radiuslu deşikli kamera göstərilmişdir. Porşenin (3) geri hərəkəti zamanı material kameraya qəbul edilir, əks tərəfə hərəkət zamanı (4) klapanı vasitəsi ilə kamerada təzyiq yaradılır. Birinci kamerada təzyiq dəyişməsi $p_1(t)$ ilə, hər deşikdəki axın sürətini isə $v_1 = \frac{s_0 v_0(t)}{n_1}$ ilə işarə edək. İkinci kamerada həmin parametrləri uyğun olaraq $p_2(t)$ və $v_1 = \frac{s_0 v_0(t)}{n_2}$ göstərək. İkinci kamera arakəsməsindən sonra təzyiqi sıfra bərabər götürməkdə birinci və ikinci kameralrda arakəsmələrdə düşən təzyiqlər $\Delta p_1 = p_2 - p_1;\ \ \Delta p_2 = p_2$ kimi işarə edilir. Beləliklə, sürət qutusunda sürət artımı əmsalı $k-$nı seçməklə bir gedişdə eyni material üçün iki axıcılıq əyrisi təyin edilə bilir ki, bunların kompleks tədqiqi materialın müxtəlif nöqteyi-nəzərdən keyfiyyət göstəricisinin identifikasiyası üçün istifadə olunur.

3. Parametrikləşdirmə. Axıcılıq əyriləri $v_i = f(\Delta p_i);\ i = 1,2$ koordinatlarında qurulur. Bu əyrilərin empirik yolla parametrikləşdirilməsi üçün ən əlverişli üsul olaraq üç tərtibli başlanğıc momentlərdən istifadə edilir:

$$\mu^{(j)} = \int_0^{v_{\max}} v^j f(v)dv;\ j = 1,2,3$$

Harada ki, $\mu^{(j)}$- 1, 2və 3 tərtibli başlanğıc momentlərin qiymətlərini ifadə edirlər.

Qeyd edək ki, bu asılılıqlar əsasında tədqiq olunan obyektin vəziyyət vektorunun identifikasiyası və yaxud materialın keyfiyyətinin monitorinqi ən kiçik kvadratlar üsulundan tutmuş daha səmərəli ola biləcək seçmə funksiyalar prinsipi əsasında həyata keçirilə bilir.

Ədəbiyyat

1. Камаева(47). С.с., поцелуева л.а., сафиуллин р.с., бейг с.м., лебедева с.м. изучение реологических свойств мазей с сульфацилом - натрия на основе натрий - карбоксиме-тилцеллюлозы // фундаментальные исследования. 2005. № 7. С. 89-92.

2. Nagiev(58)., a.g., sadykhov, v.v. & gashimova, u.m. identification of properties of composite polymer materials in the space of their rotational-viscous characteristics. Tech. Phys. 65, 232–237 (2020).

РЕЗЮМЕ
О ПРИНЦИПЕ ОПЕРАТИВНОГО УПРАВЛЕНИЯ ПРОЦЕССАМИ ПОЛИМЕРИЗАЦИИ НА ОСНОВЕ ВИСКОЗИМЕТРИЧЕСКОГО АНАЛИЗА
Садыхов В.В., Гашимова У.М.

Ключевые слова: *среда неньютоновской жидкости, моделирование, процессы полимеризации, мониторинг качества.*

Предлагается принцип создания устройства для построения функции текучести неньютоновских жидкостей в широком диапазоне касательных напряжений, предназначенных для контроля гель эффекта и управления качеством в производстве полимеров. Комментируется алгоритм с точки зрения его идеологической основы. Разрабатывается математическая функция описания основной зависимости и метод параметризации этой функции. Показывается, что предлагающийся алгоритм может служить решению задачи создания системы мониторинга качества полимеров на основании использования реологической измерительной информации.

SUMMARY
ON ONE PRINCIPLE OF OPERATIONAL CONTROL OF POLYMERIZATION PROCESSES BASED ON VISCOMETRIC ANALYSIS
Sadikhov V.V., Gashimova U.M.

Keywords: *non-newtonian fluid medium, modeling, polymerization processes, quality monitoring.*

A principle is proposed for creating a device for constructing the fluidity function of non-newtonian liquids in a wide range of shear stresses, intended to control the gel effect and quality management in polymer production. The algorithm is commented on from the point of view of its ideological basis. A mathematical function for describing the main dependence and a method for parameterizing this function are being developed. It is shown that the proposed algorithm can serve to solve the problem of creating a system for monitoring the quality of polymers based on the use of rheological measurement information.

TORPAQLARIN ŞORANLIQ DƏRƏCƏSİNİN TƏYİNİ

Abbasova Gülnarə Yusif qızı

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
ugur-2001@mail.ru

Açar sözlər: *Şoran torpaq, şorakət torpaq, gips kristalları, qələvi reaksiya, kimyəvi meliorasiya.*

Bütün dünyada qida məhsullarna olan tələbatın gündən-günə artması əkin üçün yararlı toraq sahələrinə olan tələbatın artması ilə nəticələnir. Torpaq sahələrindən düzgün istifadə edilməməsi, meliorasiya işlərinin düzgün aparılmaması torpağın münbitliyinin azalmasına, şoran və şorakətliliyinin artmasına gətirib çıxarır. Məhz buna görə də məqalədə sadalanan problemlərə səbəb olan amillər araşdırılaraq təyini məsələsinə baxılmışdır.

Azərbaycan Respublikası ərazisinin şabalıdı torpaq zonasında şorakət va şorakətləşmiş torpaqlar təxminən 25-30 milyon, qonur va boz torpaq zonalarında isə təxminən 10 milyon hektardan artıq sahəni əhatə edir. Bu cür torpaqlardan səmərəli istifadə edilməsi, yaxşılaşdırlması üçün düzgün meliorasiya işlərinin aparılması xüsusi əhəmiyyət kəsb edir [1, 4].

Şoran torpaqlar üst qatları çox şorlaşmış torpaqlara deyilir. Şoran torpaqların adətən bir metrlik qatnda bitkilərə zererverici duzların miqdarı 3 faizden çox olur. Bəzi hallarda, xüsusilə şoran torpaqların 5-10sm-lik üst qatında duzların miqdarı daha çox, yəni 5-10 faiz va daha da artrq ola bilər. Belə hallarda torpaqların üst qatı duz qaysagr, yaxud yumşaq duz qatı ilə örtülür ki, bu da həmin sahədə gəzərkən hərəkəti çətinləşdirir [1, 3].

Belə sahalərdə bəzi şoran bitkilərindən başqa heç bir bitki inkişaf edə bilmir. Şoran torpaqlar adətən şorlaşmış qrunt sularının dayaz (1-3 metr) yerləşdiyi sahələrdə əmələ gəlir. Bu torpaqların əmələ gəlməsində suvarma qaydalarının pozulması hallarının da təsiri çox boyükdür. Şoran torpaqlar bozqrr, xüsusilə yarımsəhra və səhra zonalarında geniş yayılmışdır. (şoran torpaq).

Azərbaycanda şoran torpaqların aşağıdakı növləri vardrr: yumşaq şoranlar, qaysaqlı şoranlar, yaş şoranlar, qara şoranlar, təpəli şoranlar. Şoran torpaqlarr yaxşılaşdrrmaq məqsədi ilə sahədə kollektor-drenaj şəbəkəsi çəkdikdən sonra onlar müəyyən su norması ilə yuyurlar [1, 2].

Şorakət torpaqlar şoran torpaqlardan fərqli olaraq tamamilə başqa xarici görünüşə və xüsusiyyətə malikdirlər. Şoran torpaqların əksinə olaraq şorakət torpaqların üst qatlarında adətən suda asan həll ola bilən

duzların miqdarı çox az, bəzi hallarda isə yox dərəcəsində olur. Belə torpaqlarda duzların çox hissəsi torpaqların alt qatlarında toplanrr. Lakin şorakət torpaqlarda suda asan həll ola bilən duzların istər torpaqların üst qatında və istərsə alt qatında olması heç da əsas şərt deyildir. Şorakət torpaqlarda artıq miqdarda duz olmaya bildiyi kimi, bu duzların miqdarı şoran torpaqlardakı kimi çox da ola bilər.

Şorakət torpaqların xarakterik xüsusiyyəti ondan ibarətdir ki, onların üst qatında kənd təsərrüfatı bitkilərinin normal inkişafı üçün ən zərərli olan artıq miqdarda soda olur. Eyni zamanda torpağın uducu kompleksində natrium kationunun miqdarı çox olur. Soda ve udulmuş natriumun təsiri nəticəsində torpaqda yüksək qələvilik əmələ gəlir. Qələvi reaksiya isə torpağın tərkibində olan üzvi maddələri həll ola bilən humatlara çevirib onların torpağın dərin qatlarının yuyulmasına səbəb olur. Bu isə həmin torpaqların fiziki xassələrinin pisləşməsinə təsir edir. Ona görə də şorakət torpaqların başqa bir xarakterik cəhəti da onların aqrofiziki xassəsinin pis olmasıdır. Belə ki, şorakət torpaqlar aqronomik cəhətdən yaxşı struktura malik olmur. Bu torpaqlar quru halda çox bərk ve kəltənli, yaş halda isə yapışqanlı va çox gecquruyan olur. Quruduqdan sonra torpaq çox bərkiyərək sementləşmiş kütləni xatırladır [1, 3].

Suvarma şəraitində, xüsusilə suvarmadan bir qədər sonra şorakət torpaqların üzərində qatın və çox möhkəm qaysaq əmələ gəlir. Bütün bu xüsusiyyətlər şorakət torpaqlarda becərilən kənd təsərrüfatı bitkilərinin inkişafına, məhsulun miqdar və keyfiyyətinə mənfi təsir göstərir. Adətən şorakət torpaqlarda cücərtilər çox seyrək olur. Çoxlu miqdarda bitkisiz talalara (boş sahələrə) təsadüf edilir. Əmələ gəlmiş cücərtilər isə çox hallarda (xüsusilə suvarmadan sonra torpağın qaysağı yumşaldılmadıqda) bərkimiş qaysağın nəticəsində bitki gövdəsinin bərk srxılması və onun qaysaqla birləşən hissəsinin qopub düşməsi nəticəsində məhv olur. Qaysağın bərkiməsi eyni zamanda torpaqda çatlar əmələ gətirir ki, bu da bitki köklərinin qurumasına və bitkilərin tələf olmasına səbəb olur.

Şorakət torpaqlann A qatı əksərən boz, yaxud ağımtıl rəngdə və təbəqəvari strukturlu olur. Bu qatın qalınlığı çox hallarda 5- 10 sm təşkil edir. Bundan aşağıdakı qat (B) şorakət torpaqların şorakət qatı adlanrr. Bu qat bütün xüsusiyyətlərinə görə A qatından kəskin fərqlənir. B qat bəzən qırmızımtıraq-boz, qəhveyi-qonur və bəzən tünd qəhveyi rəngdə olur. Bu qatda aydın seçilə bilən prizmaşəkilli, çox yaxşı ifadə olunmuş hallarda isə sütunvari, yaxud tumbaşəkilli struktur olur. Quru halında bu qat çox bərk, yaş halında isə yaprşqanlı olur. Şorakət torpaqlarda mənfi xüsusiyyətə malik olan bu qatın olması məhz xarakterik xüsusiyyət hesab edilir. B qatının qalınlığı 20-40 sm-ə çata bilir. Şorakət qatdan aşağıda torpağın ilüvial qatı yerləşir. Bu qatda adətən $CaCO_3$, yaxud $CaSO_4$ $2H_2O$ birləşmələrinin toplanmasr xarakterikdir. Burada gips kristallarına bəzən səpinti, bəzən isə damarcıq şəklində və druza formasrnda təsadüf edilir. Eyni zamanda bu qatda əksər hallarda suda asan həll ola bilən duzların da toplanması müşahidə edilir [1, 4].

Şorakət torpaqların ikinci qatı, yəni B qatı kənd təsərrüfat bitkiləri üçün ən zərərli qat hesab edilir. Bu qatda əmələ gəlmiş sütunvari struktur çox bərk və möhkəm olduğu üçün bitkilərin kök sisteminin həmin qata keçməsinə maneçilik törədir va bitkilərin tələf olmasına səbəb olur.

Şorakət torpaqların əmələ gəldiyi şəraitdən aslı olaraq B qatında törəmiş sütunvari struktur müxtəlif dərinlikdə olur. Bu halda bitkilərin inkişafı da müxtəlif dərəcədə keçir, yəni həmin qatın bitkinin inkişafina göstərdiyi mənfi təsir müxtəlif olur [1].

Aşağıdakı cədvəldə şorakətləşmiş torpaqlarda udulmuş kationların analizi göstərilmişdir.

Cədvəl.

Şorakətləşmiş torpaqlarda udulmuş kationların analizi

Dərinlik, sm-lə	*m.-ekv.-lə*			*%-lə*			*Cəmindən %*		
	Ca	*Mg*	*Na*	*Ca*	*Mg*	*Na*	*Ca*	*Mg*	*Na*
A 0-14	10,85	4,23	0,76	0,219	0,049	0,017	68,41	26,56	4,96
B_1 14-31	8,87	4,79	1,57	0,177	0,036	0,035	57,9	31,41	10,43
B_2 31-56	6,81	3,64	3,38	0,136	0,087	0,087	48,17	26,42	24,10

Torpaqda olan udulmuş əsasların analiz nəticələri göstərir ki, A qatında udulmuş natriumun miqdarı udulmuş əsasların cəminin 5 %-ni , təşkil edirsə, B qatında onun miqdarı 10-23 %-dan çoxdur. Cədvəldən və qrafikdən də göründüyü kimi, torpağın uducu kompleksində udulmuş Ca kationu, sonra isə udulmuş Mg üstünlük edir. Lakin buna baxmayaraq torpaqda udulmuş Na kationunun çox miqdarda olması həmin torpaqların şorakət olduğunu göstərir.



Şəkil. Şorakətləşmiş torpaqlarda udulmuş kationların analizi qrafiki

CaCl və MgCl duzlarından şorlaşmaya məruz qalmış sahələrdə hidromeliorativ tədbirlər lazımi səmərə vermədiyindən kimyəvi meliorasiyaya üstünlük verilir. Belə ki, torpağa gips verməklə sodanı reaksiyaya cəlb edərək suda həll olan duzlara çevirmək olur, sonradan torpaqlardan uzaqlaşdırılır. Torpaqda mühit reaksiyasını dəyişməklə də kimyəvi meliorasiya üsulundan istifadə edilir. pH-ın miqdarı 7-dən aşağı olan turş torpaqları əhəngləməklə mühit reaksiyasını neytrallaşdırmaq olur. Qələvi torpaqlarda isə gipsləşdirmə üsulundan istifadə edərək meliorativ tədbirlərin aparılması məsləhət görülür [1, 3].

Ədəbiyyat

1. Abduyev M. Azərbaycanda şorakət torpaqlar və onların yaxşılaşdırılması. Bakı, 2012, 80 s.
2. Babayev M., Cəfərova Ç., Həsənov V. Azərbaycan torpaqlarının müasir təsnifatı. Bakı, 2006, 360 s.
3. Cəfərov M.İ. Torpaqşünaslıq. Bakı, 2005.
4. Əliyev M.C., Həsənli F.A. Meliorativ coğrafiya. Bakı, 2010, 106 s.

РЕЗЮМЕ
ОПРЕДЕЛЕНИЕ СТЕПЕНИ ЗАОЛЕННОСТИ ПОЧВЫ
Аббасова Г.Ю.

Ключевые слова: *Засоленная почва, щелочная почво, кристаллы гипса, щелочная реакция, химическая рекультивация.*

Неправильное использование земельных площадей, неправильные мелиоративные работы приводят к снижению плодородия почв, повышению засоленности и засоленности. Именно поэтому были рассмотрены факторы, вызывающие перечисленные в статье проблемы, и рассмотрен вопрос их определения.

SUMMARY
DETERMINATION OF SOIL SALINITY DEGREE
Abbasova G.Y.

Keywords: *Saline soil, alkaline soil, gypsum crystals, alkaline reaction, chemical reclamation.*

Improper use of land areas, improper reclamation works lead to a decrease in soil fertility, an increase in salinity and salinity. That is why the factors causing the problems listed in the article were examined and the issue of determination was considered.

İQLİM DƏYİŞİKLİYİ PROBLEMLƏRİNİN HƏLLİNDƏ SÜNİ İNTELLEKT TEXNOLOGİYALARININ TƏTBİQİ PERSPEKTİVLƏRİ

Abdullayev Səyyar Həbib oğlu, Abasova Südabə Eybalı qızı

İnformasiya Texnologiyaları İnstitutu, Bakı, Azərbaycan
sayyar.abdullayev@yandex.com, abasova.sudaba@gmail.com

Açar sözlər: *iqlim dəyişikliyi; qlobal istiləşmə; antropogen amillər; süni intellekt texnologiyaları; rəqəmsal transformasiya; monitorinq sistemləri.*

Məqalədə iqlim dəyişikliyi problemlərinin mahiyyəti, onu yaradan amillər, iqlim dəyişikliyi səbəbindən cəmiyyətin üzləşdiyi problemlər, onun təsirlərinə qarşı mübarizədə əsas məqsəd, qlobal çağırışlar, iqlim dəyişikliyi təsirlərinin azaldılma, uyğunlaşma və davamlılığının təmin olunması haqqında təhlillər verilmişdir. Həmçinin iqlim dəyişikliyi problemlərinin həllində İKT və süni intellekt (Sİ) texnologiyalarının tətbiq edilməsi məsələlərinə diqqət yetirilmiş və müvafiq tövsiyyələr verilmişdir.

Müasir dünyanı təhlükəyə salan əsas qlobal problemlərdən biri də iqlim dəyişikliyidir. İqlim dəyişiklikləri və onların canlı aləmə təsiri dünya birliyini getdikcə daha çox narahat etməkdədir. Qeyri-sabit hava şəraiti dünyanın bir sıra ölkələrində hiss olunmaqda və problemlər yaratmaqdadır. İntensiv quraqlıqlar, su qıtlığı, şiddətli yanğınlar, dağıdıcı zəlzələlər, güclü vulkanlar, dəniz səviyyəsinin qalxması, böyük daşqınlar, nəhəng fırtınalar, görünməmiş istilik dalğaları, qütb buzlarının əriməsi, fəlakətli tufanlar, biomüxtəlifliyin azalması, vəhşi təbiət növlərinin itkisi və s. baş verməkdə olan fövqəladə iqlim şəraitinin tamamilə aşkar əlamətləridir. Bütün dünyada milyonlarla insan ciddi geosiyasi münaqişələr və gərginliklərlə, daha da ağırlaşan enerji, qida, su və yaşayış dəyərləri sahələrində eyni vaxtda baş verən böhranların təsiri ilə üzləşir. Göründüyü kimi bu problemlərin həlli bütün bəşəriyyəti narahat edən vacib məsələlərdən biridir.

Problemin qoyuluşu. İqlim dəyişikliyi və onun dağıdıcı təsirləri ilə mübarizə aparmaq üçün təcili tədbirlərin görülməsi, buna görə də insanların həyatını mühafizə etmək zəruriyyəti yaranır. Bu problemlərə diqqətin artması özünü bir sıra beynəlxalq tədbirlərin, sazişlərin o cümlədən elmi və praktiki konfransların keçirilməsində göstərir. Bir çox iqlim dəyişikliyi həlləri həyatın yaxşılaşdırılmasında və ətraf mühitin qorunmasında iqtisadi fayda verə bilər. Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyi və onun Məqsədləri, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası və Paris Sazişi, 1995-ci il COP-1 *(Almaniya Berlin*) 2023-cü il COP-28 (*BƏƏ Dubay*) qədər BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası ilə bağlı Tərəflərin Konfransları: (*Conference of the Parties (COP)*) və s. qlobal çağırışlar iqlim dəyişikliyi problemlərinin həllində çox böyük rol oynayır [1,2].

İqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizədə əsas məqsəd iqlim dəyişikliyi təsirlərinin azaldılması, uyğunlaşması və davamlılığının təmin edilməsi üçün qarşıya qoyulan zəruri planların həyata keçirilməsidir. Bütün planetin qarşısında duran iqlim dəyişikliyi təhlükəsi problemlərinin həllində İKT, rəqəmsal texnologiyalar, süni intellekt və s. texnologiyaların böyük əhəmiyyətinin olduğu müəyyən edilmişdir. Ona görə də göstərilən məsələlərin həllində İKT-nin tətbiqinin əsasları öyrənilməli və müvafiq tövsiyyələr verilməlidir.

İqlim dəyişikliyi ilə bağli problemlər və onların həllilində İKT-nin tətbiqi. Qlobal temperaturun sənaye dövründən əvvəlki səviyyədən 1,1ºC yuxarı qalxması iqlim dəyişikliyinin təsirlərinin artmasına səbəb olmuş, bunun nəticəsində də cəmiyyət ekoloji problemlərlə üz-üzə qalmışdır. Son 30 ildə iqlimlə bağlı fəlakətlərin sayı üç dəfə artmışdır. İqlim Dəyişikliyi üzrə Hökümətlərarası Ekspertlər qrupunun qiymətləndirmə hesabatına görə son 100 ildə Yer kürəsində orta temperatur 0,8 dərəcə artmışdır. Temperaturun artması isə əsasən antropogen amillərlə bağlıdır. Antropogen amillərin də əsası istilik effekti yaradan qazlar: karbon, metan, azot oksidi, azot bir oksid və xlor-fülor birləşmələridir.

Son 100 illik kosmik müşahidələr göstərir ki, tufanların, çovğunların həm intensivliyi, həm də tezliyi artıb. İsti küləklər, qasırğalar, yağıntılar güclənib. Eyni zamanda, sel, daşqın hadisələrinin də sayı artıb. Okeanın səthi əvvəllər 1000 metr dərinliyə qədər qızırdısa, artıq qızma 2000 metr dərinliyə qədər çatır. Bu da isti axınların daha da yüksəlməsinə səbəb olur. Yəni bütün bu təbii fəlakətlərin artımında əsas amil iqlim dəyişmələridir. Azərbaycan da qlobal iqlim dəyişmələrinin təsirindən kənarda qalmamışdır. Son 100 ildə Azərbaycan ərazisində orta illik temperaturlar $0,4^0$–$1,3^0$ C-yə qədər artmışdır. Temperatur artımı regionlardan asılı olaraq qeyri-bərabər paylanır. Son 10 illiklərdə kiçik dağ çaylarında sel və daşqınların sayı və gücü artmışdır [3,4].

Beynəlxalq Telekommunikasiya İttifaqı (BTİ) Meksikada 2010-cu ildə keçirdiyi Səlahiyyətli Konfransında "İiqlim dəyişikliyi və ətraf mühitin mühafizəsində İKT-nin rolu" Qətnaməsini qəbul etmişdir. Bu qətnamədə iqlim dəyişiklikləri ilə əlaqədar problemlərin həlli üşün inkişaf etməkdə olan ölkələrə yardım göstərilməsində İKT-dən istifadənin zəruriliyi qeyd edilmişdir.

Həmçinin İKT-nin iqlim dəyişikliyinə təsir edən: 1) Daha effektiv avadanlıq və şəbəkələr tətbiq etməklə İKT sektorunun özündə emissiyaların azaldılması; 2) Bütün sahələrdə enerji səmərəliliyinin təmin edilməsi yolları; 3) Fiziki obyektlərin elektron obyektlərlə əvəz edilməsi; 4) Material sərfiyyatının azaldılması; 5) İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrə iqlim dəyişikliyinin mənfi təsirlərinə uyğunlaşması; 6) İKT əsaslı hava və ətraf mühitin monitorinqi sistemlərinin tətbiqi və s. əsas istiqamətlərinin həyata keçirilməsi müəyyən olmuşdur.

İKT-nin iqlim dəyişikliyi məlumatlarının monitorinqi üçün İKT əsaslı sistemlər aşağıdakılardır [5, 6]:

- *qasırğaların, tufanların inkişafını izləyən meteoroloji peyklər;*

• *tornadoların, tufanların, həmçinin vulkanik axınların və iri meşə yanğınlarının hərəkətini izləyən meteoroloji hava radarları;*

• *hava haqqında məlumatları toplayan və emal edən köməkçi meteoroloji radiosistemlər (onlar olmadan hava proqnozlarının cari və planlaşdırılan dəqiqliyi əhəmiyyətli dərəcədə pisləşə bilər);*

• *atmosferin tərkibi (məsələn CO_2, buxar, ozon konsentrasiyası), okean parametrləri (temperatur, səth səviyyəsinin dəyişməsi), torpağın rütubəti, torpaq örtüyünün vəziyyəti, meşə sahələrinə nəzarət də daxil olmaqla, kənd təsərrüfatı məlumatları və sair kimi ekoloji məlumatları qəbul edən Yerin müşahidə peyk sistemləri;*

• *əhalini təhlükəli hava hadisələri, hava gəmilərinin pilotlarını isə tufanlar və burulğanlar haqqında xəbərdar edən yerüstü, peyk səs və televiziya yayım sistemləri və müxtəlif mobil radiorabitə sistemləri;*

• *müxtəlif təbii və texnogen fəlakətlər haqqında məlumatların yayılması (erkən xəbərdarlıq), habelə fəlakətlərin mənfi nəticələrinin yumşaldılması (fəlakətin nəticələrinin aradan qaldırılması əməliyyatları) üçün istifadə olunan peyk və yer sistemləri.*

İqlim dəyişikliyi problemlərinin həllində süni intellekt texnologiyaları. İqlim dəyişikliyi insanların indiyə qədər üzləşdiyi ən çətin elmi problemlərdən biridir. Bu, çoxlu sayda dəyişənlərə malik fenomenal mürəkkəb sistemdir. Əslində iqlim dəyişikliyi haqqında danışarkən, əsasən iqlimin fiziki aspektlərinə, məsələn, atmosferdəki karbon dioksidin miqdarı, temperatur, yağıntıların səviyyəsi və külək nümunələrinə diqqət yetirilir. Lakin bu xüsusiyyətlərin hamısı daim dəyişən canlı bir planet tərəfindən formalaşır. İqlim dəyişikliyində süni intellektin tətbiq olunma istiqamətləri şəkil 1-də göstərilmişdir.

İqlim dəyişikliyi şəhərlərə və təbii sistemlərə ziyan vuran, 500 milyard dollardan çox qlobal iqtisadi itkilərə səbəb olan əsas təhlükədir. Bu məsələlər qismən süni intellekt tərəfindən həll edilə bilər, belə ki, süni intellekt iqlim dəyişikliyi ilə bağlı dəqiq proqnozlara əsaslanaraq operativ təkliflər vermək üçün internet resurslarını birləşdirir. İqlim dəyişikliyinin mənfi təsirlərinin azaldılmasında son tədqiqatları və süni intellektin tətbiqlərini nəzərdən keçirməklə enerji səmərəliliyi, karbon sekvestrasiyası və saxlanması, hava və bərpa olunan enerji proqnozu, şəbəkənin idarə edilməsi, bina dizaynı, nəqliyyat, dəqiq kənd təsərrüfatı, sənaye prosesləri diqqət mərkəzindədir.

İqlim dəyişikliyi, planetimizi qorumaq üçün həllərin axtarışında müxtəlif elm sahələrini təmsil edən alimləri, mühəndisləri və sənaye mütəxəssislərini öz bilik və bacarıqlarından istifadəyə vadar edən qlobal fövqəladə vəziyyətdir. Təəccüblü deyil ki, bu həllərin bəzilərinin süni intellekt sayəsində mümkün olması ehtimalı böyükdür.

Johns Hopkins Assured Autonomy İnstitutunun icraçı direktoru Cim Bellinqhem, 2023-cü il martın 15-də Cənub-Cənub-Qərb konfransında təqdimatdan əvvəl iqlim dəyişikliyinin təsirlərini izləmək və azaltmaq üçün süni intellektdən istifadə potensialını müzakirə etmişdir. Uaytinq Mühəndislik Məktəbinin Mexanika Mühəndisliyi Departamentinin və APL (Applied Physics Laboratory, Tətbiqi Fizika Laboratoriyası)-də Asimmetrik Əməliyyatlar Sektorunun professoru olan Bellinqhem, Hub ilə iqlim dəyişikliyi məsələsində süni intellektin necə tətbiq olunduğu barədə məlumat vermişdir [7]. Bu isə meşələrin qırılmasının azaldılması, dayanıqlı şəhərlər, enerji səmərəliliyinin artırılması və iqlim dəyişikliyinin təsirinin azaldılmasına əhəmiyyətli dərəcədə töhfə verə bilər. Ağıllı istehsal enerji istehlakını, tullantıları və karbon emissiyalarını, xüsusən də binalarda enerji istehlakını 30-50% azalda bilər. Qlobal təbii qaz sənayesinin təxminən 70%-i hava proqnozlarının dəqiqliyini və etibarlılığını artırmaq üçün süni intellekt texnologiyalarından istifadə edir. Ağıllı şəbəkələri süni intellektlə birləşdirmək enerji sistemlərinin səmərəliliyini optimallaşdıra, bununla da elektrik enerjisi haqqını 10-20%, ağıllı nəqliyyat sistemləri karbon qazı emissiyalarını təxminən 60% azalda bilər. Bundan əlavə, təbii ehtiyatların idarə edilməsi və süni intellektin tətbiqi ilə şəhərlərin dizaynı, davamlılığı daha da inkişaf etdirilə bilər. Həmçinin süni intellekt texnologiyasının ağılla tətbiqi enerji səmərəliliyinin nəzərəçarpacaq dərəcədə artmasına, dayanıqlı inkişafı dəstəkləməyə və insan cəmiyyəti üçün daha perspektivli gələcəyə yol aça bilər. Enerji səmərəliliyinin artırılmasında süni intellekt texnologiyasından istifadə əhəmiyyətli nəticələrə gətirir. Süni intellektin enerji sektorunda tətbiqinin hazırkı vəziyyəti onun effektivliyini göstərir [8].

Şəkil. Süni intellekt texnologiyalarının tətbiqi ilə iqlim dəyişikliyi təsirlərinin azaldılması məsələləri

Nəqliyyatın elektrikləşdirilməsi, əlavə istehsal, kənd təsərrüfatında dəyişikliklər və ağıllı elektrik şəbəkələri kimi digər tendensiyalarla birlikdə süni intellekt daha çox enerjiyə qənaət edən (və xərclərə qənaət edən) həllər üçün güclü imkan yaradır.

Süni intellektdən istifadə etmək atmosferə atılan karbonun azaldılmasına, karbon əsaslı iqtisadiyyatdan xalis sıfır karbon iqtisadiyyatına keçidlə bağlı bütün fəaliyyət zəncirinin təmin olunmasında, həmçinin karbonun tutulması və saxlanmasına tətbiq edilməsi iqlim məqsədlərinin və davamlı inkişafın yüksəlişinə imkan yaradır. Beləliklə, süni intellektdən istifadə etməklə, karbon neytrallığına nail olmağı sürətləndirərək, istixana qazları emissiyalarını azaltmaq və iqlim dəyişikliyinin təsirlərini azaltmaq və yüngülləşdirmək mümkündür [9].

Süni intellektin iqlim dəyişikliyinə başqa bir tətbiqi kosmosda orbitə çıxan peyklərin müşahidələr aparmaq və Yerdəki dəyişiklikləri qiymətləndirmək üçün necə istifadə edilməsidir. Peyklər meşə yanğınlarını izləməyə və ətraf mühitdə mövcud olan karbon qazının potensial mənbələrini müəyyən etməyə kömək edir. Bununla belə, orbitdəki peyklərin sayı artdıqca, kosmosun məlumat toplayan bütün peykləri təhlükəsiz şəkildə saxlaya və saxlamasına əmin olmaq vacibdir.

Alimlər artıq süni intellektdən bir çox faydalı məsələlərdə istifadə edirlər. Molekulyar mühəndislik professoru Canhonq Çenin (Junhong Chen) sözlərinə görə, süni intellekt modelləri tədqiqatçılara sudakı çirkləndiriciləri müəyyən etməklə və onları təmizləməyin ən yaxşı yollarını tapmaqla suyun təkrar emalı və təkrar istifadəsi yollarını tapmaqda kömək edə bilər [10].

Bir sıra şirkətlər süni intellektlə idarə olunan robotlarla təkrar emal olunanları müəyyən etmək və bərpa etmək üçün süni intellekt alətləri hazırlayıblar. AMP Robotics şirkəti də qlobal miqyasda 300-dən çox süni intellekt sisteminə malik olan bir şirkətdir [11].

Nəticə. Nəticə olaraq qeyd etmək olar ki, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə İKT, rəqəmsal əkiz texnologiyaları və süni intellekt texnologiyalarının tətbiqini sürətləndirməklə, insanlar dəyişən iqlim və bu dəyişikliyin təsirlərinin azaldılması, uyğunlaşması və davamlılığının təmin edilməsi haqqında ən yaxşı məlumat əldə edəcəklər.

Süni intellekt tendensiyalar və paradiqmalara əsaslanan proqnoz məlumatları ümumu halda toplayaraq qərar qəbul etmə sistemlərinə yönəldir. Bu tip proqnozların əsasını müvafiq xarakterli modellər təşkil edir. Süni intellekt iqlim dəyişikliyi ilə bağlı qeyri-müəyyənliklərin səbəblərinə dair mülahizələr təqdim edir. Yeni modellərin və daha yaxşı müşahidə proqramlarının tətbiqinə, onları təkmilləşdirməyə imkan yaradır.

Süni intellekt iqlim dəyişikliyi ilə bağlı dəqiq proqnozlara əsaslanaraq operativ təkliflər vermək üçün internet resurslarından istifadə etməklə, son tədqiqatları və süni intellektin tətbiqlərini nəzərdən keçirməklə iqlim dəyişikliyinin mənfi təsirlərinin azaldılmasında, uyğunlaşma və dayanıqlığının təmin olunmasında mühüm yer tutur.

Ədəbiyyat

1. https://www.un.org/sustainabledevelopment/climate-action/
2. https://en.wikipedia.org/wiki/United_Nations_Climate_Change_conference

3. Stephanie Pappas, Alina Bradford, What are the effects of global warming?, https://www.livescience.com/37057-global-warming-effects.html , January 27, 2023
4. Jean-Baptiste Sallée Southern Ocean Warming, https://tos.org/oceanography/article/southern-ocean-warming , August 15, 2018
5.Farhan Shafiq, Kamran Ahsan, Muhammad Sarim Role of ICT in Climate Change Monitoring: A review Study of ICT based Climate Change Monitoring Services, https://www.researchgate.net/publication/271192170
6. Malcolm Johnson How ICTs can help tackle climate change, https://repositorio.cepal.org/server/api/core/bitstreams/213b0c36-e3ac-47e5-a156-513b7c6202a6/content
7. Jim Bellingham, The Role of AI in Climate Change Mitigation and Environmental Removal, 01-Aug-2023, https://www.tutorialspoint.com/the-role-of-ai-in-climate-change-mitigation-and-environmental-removal
8. Lin Chen, Zhonghao Chen, Yubing Zhang, Yunfei Liu, Ahmed I. Osman, SpringerLink, Artificial intelligence-based solutions for climate change, 13 June 2023, https://link.springer.com/article/10.1007/s10311-023-01617-y
9. Saif Hameed, We use AI to lighten these loads, 22 Jun 2023, https://www.weforum.org/agenda/2023/06/these-new-technologies-will-accelerate-the-transition-to-net-zero/
10. Junhong Chen, Combating our global water crisis using AI, with Junhong Chen, November 22, 2023, https://pme.uchicago.edu/news/big-brains-podcast-combating-our-global-water-crisis-using-ai-junhong-chen
11. Kashish Rohra, AMP Robotics - A Sustainable blend of AI, Robotics for Recycling, Индия, 3 may 2023, https://www.linkedin.com/pulse/amp-robotics-sustainable-blend-ai-recycling-kashish-rohra

РЕЗЮМЕ
ПЕРСПЕКТИВЫ ПРИМЕНЕНИЯ ТЕХНОЛОГИЙ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В РЕШЕНИИ ПРОБЛЕМ ИЗМЕНЕНИЯ КЛИМАТА
Абдуллаев Ш.Х., Абасова С.Э.

Ключевые слова: *изменение климата; Глобальное потепление; антропогенные факторы; технологии искусственного интеллекта; цифровая трансформация; системы мониторинга.*

В статье анализируется сущность проблем изменения климата, факторы, которые его создают, проблемы, с которыми сталкивается общество из-за изменения климата, основная цель борьбы с его последствиями, глобальные вызовы, а также смягчение, адаптация и устойчивость последствий изменения климата. Также было уделено внимание применению технологий ИКТ и искусственного интеллекта (ИИ) в решении проблем изменения климата и даны соответствующие рекомендации.

SUMMARY
PROSPECTS FOR THE APPLICATION OF ARTIFICIAL INTELLIGENCE TECHNOLOGIES IN SOLVING PROBLEMS OF CLIMATE CHANGE
Abdullaev Sh.H., Abasova S.E.

Keywords: *climate change; Global warming; anthropogenic factors; artificial intelligence technologies; digital transformation; monitoring systems.*

The article analyzes the essence of the problems of climate change, the factors that create it, the problems that society faces due to climate change, the main goal of combating its consequences, global challenges, as well as the mitigation, adaptation and sustainability of the consequences of climate change. Attention was also paid to the use of ICT technologies and artificial intelligence (AI) in solving climate change problems and relevant recommendations were given.

İCTİMAİ FƏNLƏRİN TƏDRİSİNDƏ YENİ TEXNOLOGİYANIN ROLU

Abdullayeva Sevda Fizuli qızı, Abdullazadə Lalə Fizuli qızı

Azərbaycan Dövlət Aqrar Universiteti, Gəncə, Azərbaycan
sevda.abdullayeva.1986@mail, laleabdullazada@gmail.com

Açar sözlər: *Sosial elmlər təhsili, kompüter dəstəkli təhsil, müəllim təhsili, təhsil texnologiyaları.*

Bu məqalənin məqsədi sosial elmlər müəllimi namizədlərinin kompüter dəstəkli təhsili necə təsvir etdiklərini və onların təhsil sahələrində texnologiya inteqrasiyası haqqında təsəvvürlərini araşdırmaqdır. Bu araşdırmada müəllim namizədlərinin texnologiyaya təhsildə alət və ya təlimat strategiyası kimi baxıb-baxmadıqları araşdırıldı. İlkin tapıntılar göstərdi ki, tələbələr texnologiyaya əsaslanan təhsili müxtəlif baxışlarda müəyyənləşdirdilər və texnologiyaya əsaslanan siniflərdəki təcrübələri onların gələcək siniflərində

texnologiya inteqrasiyası ilə bağlı qavrayışlarına təsir göstərdi. Bundan əlavə, namizədlərin izahı əsasında texnologiya həm alət, həm də tədris strategiyası kimi nəzərdən keçirilmişdir.

XX-XXI əsrlərdə texnologiyanın inkişafının sürətlənməsi ilə paralel olaraq dünyada sosial və iqtisadi sahələrdə bir çox yeniliklər müşahidə edilmişdir. Kompüter texnologiyalarının və daha sonra internet texnologiyalarının təsiri ilə dünyanın bir çox yerində iş və təhsil fərqli bir forma aldı. Qlobal bazarda şirkətlər işi səmərəli şəkildə bölüşdürmək və işçiləri arasında yeni üsullarla ünsiyyət qurmaq üçün internet texnologiyalarından istifadə edirlər. İnkişaf etməkdə olan texnologiya ilə, təhsil mühitlərində ünsiyyəti artırmaq üçün istifadə olunan kompüter əsaslı kommunikasiya vasitələri - xüsusən də distant təhsildə istifadə olunan məktub təhsilinə alternativ olaraq - Rapaport tərəfindən müəyyən edildiyi kimi e-poçt, forumlar və ya video konfransla məhdudlaşmır. [22,s.92-102]. Bu gün bunlarla yanaşı, kompüter əsaslı Facebook, Twitter və Blog internet proqramları dünyada olduğu kimi ölkəmizdə də populyardır. Bunun ən bariz xüsusiyyəti ondan ibarətdir ki, siniflərdə müəllimlər artıq yazı lövhəsi ilə kifayətlənməyib, həm də proyektorlardan istifadə etməklə daha çox əyani dərslər keçirlər və şagirdlərə kompüterdə ev tapşırıqları verirlər ki, bu da onlara müxtəlif və daha geniş resurslara çıxış imkanı yaradır. Bununla belə, əvvəlki başqa bir araşdırmada [2, 18-26] qeyd edildiyi kimi, müxtəlif təhsil sistemlərinə, xüsusən də Azərbaycanda keçidə baxmayaraq, yeni təhsil sisteminə uyğun olaraq kompüterlərlə həyata keçirilən təhsil fəaliyyətlərində çatışmazlıqlar var. İnkişaf edən texnologiya ilə adət etdiyimiz sinif mühitləri tədricən yeni öyrənmə mühitləri ilə əvəz olunur. Əvvəllər təbaşir və lövhə ilə məhdudlaşan təhsil zaman keçdikcə ağ lövhələr və ağıllı lövhələrlə əvəz olundu [14, s.37-51]. Bu dəyişikliklər bəzən ehtiyacları ödəməyə, bəzən yeniliklərlə ayaqlaşmağa, bəzən də rəqabət mühitində geri qalmamağa yönəlib. Təhsil tədqiqatçıları hesab edirlər ki, istifadə olunan müxtəlif texnologiyaların əsas məqsədi öyrətməkdir.Tarman, B. və Baytak, A. razılaşırlar ki, bu, öyrənməyi asanlaşdırmalı və artırmalıdır [31]. Texnologiyadan təhsildə səmərəli istifadə etməyə başlayan inkişaf etmiş ölkələrin təcrübələrinə əsasən; Müəllimlərin və müəllim namizədlərinin daha səmərəli istifadəsi üçün bu istiqamətdə hazırlanması əsas tələb kimi qəbul edilmişdir [36,s.223-251]. Bu kontekstdə beynəlxalq təhsil təşkilatları və qurumları öz akademik bəyannamələrində bildirirlər ki, yeni yaş müəllimləri müəyyən avadanlıq və bacarıqlara malik olmalıdırlar [13,s.1-25]. Müəllim və namizədlərin peşə həyatına başlamazdan əvvəl bu bacarıqlara yiyələnmələrinin əsas səbəbi tələbələrin hər il yeni texnoloji cihazlar və bu sahədə yeni bacarıqlarla dərsə gəlməsidir. İndiki sinif mühitini 10 il əvvəlki sinif mühiti ilə müqayisə etsək, görərik ki, cəmi bir neçə il əvvəl dəbdəbə hesab edilən mobil telefonlar və noutbuklar indi tələbələrin geniş istifadə etdiyi texnoloji cihazlara çevrilib və gündəlik həyatımızın bir parçasına çevrilib. Bu gün bu cihazlar lüksdən daha çox həyat tərzidir. Bu kontekstdə yeni təhsil almış şagirdlər kompüterdən istifadədə bilik və tətbiq baxımından müəllimlərini qabaqlaya bilirlər. Bundan əlavə, kompüter qiymətləri orta təbəqənin iqtisadi gəliri olan ailələr üçün münasib səviyyəyə düşdüyü üçün bir çox müəllim və tələbə kompüter əldə edib. Bundan əlavə, müxtəlif yerlərdə (kitabxanalar və internet kafelər) təklif olunan İnternetə çıxış imkanları əsasən müəllim və tələbələrə yeni texnologiyalardan istifadə etmək imkanı verir. Tədqiqatçılar təhsil sahəsindəki müxtəlif sahələr üçün məktəbəqədər müəllimlərin texnologiyaya əsaslanan dərsləri necə öyrətdiklərini araşdırdılar. Bu akademik araşdırmalardan bəzilərini aşağıdakı kimi sıralamaq olar; xarici dil [35,s.11-17], elm təhsili [33], Türk təhsili [Önkaş, 2008], sosial elmlər [13,s.1-25]. Bundan əlavə, humanitar və sosial elmlər təhsili sahəsində bir çox tədqiqatçı texnologiya və kompüterlərin rolunu vurğulayır və onların tələbələrin tənqidi düşünmə, problem həll etmə və qərar vermə bacarıqlarını inkişaf etdirdiyini ortaya qoyur [2.,3]. Buna görə də, tədris texnologiyası və onun məhsulları humanitar və sosial elmlər müəllimlərinin şagird uğurlarının artırılmasında nəzərə almalı olduğu mühüm məsələdir. Tədris texnologiyaları sosial elmlər müəllimlərinə tələbə mərkəzli və aktiv öyrənmə mühitlərinin hazırlanması kontekstində mühüm töhfələr verir. Simulyasiya, proqram təminatı, multimedia, məlumat bankları və telekommunikasiya kimi texnologiya məhsulları texnologiya ilə dəstəklənən humanitar və sosial elmlər sinfi yaratmaq üçün istifadə edilə bilər [28.,29.]. Humanitar və sosial elmlər tədrisində kompüter inteqrasiyası artsa da,humanitar və sosial fənlər dərslərində kompüter dəstəkli təhsildən istifadə səviyyəsi ilə bağlı çox da tədqiqat aparılmayıb. Əvvəlki tədqiqatlarda müəyyən edilmişdi ki, söz emal, simulyasiya, məşq və təcrübə kimi kompüter proqramları humanitar və sosial elmlər müəllimləri tərəfindən ən çox istifadə edilən tətbiqlərdir [19], lakin sonradan "məlumat əldə etmək" və “İnternet” istifadə edilmişdir. Humanitar və sosial elmlər təhsilində kompüterlərdən ən çox istifadə edilən sahə olmuşdur. [27]. Bu dəyişikliyi kompüter və internet texnologiyalarının sürətli və yeni inkişafı ilə izah etmək olar. Müxtəlif keyfiyyətlərə malik və müxtəlif baxış nöqtələrini özündə əks etdirən mənbələr, məsələn, birinci əldən mənbələr, fotoşəkillər, surətlər və nüsxələr, İnternet vasitəsilə əyani materiallar şagirdlərin bilik yaratmaq qabiliyyətinə müsbət təsir göstərə bilər. Texnologiyanın Təhsildə Rolu humanitar və sosial həyatda və sinif otaqlarında kompüter texnologiyalarının istifadəsi ilə paralel olaraq, təhsil tədqiqatçıları tərəfindən akademik tədqiqatlar aparılmağa başlanmışdır. Təhsil texnologiyaları sahəsinin ayrıca bir sahəyə çevrilməsi ilə texnologiya

Süni intellekt bazasında idarəetmə sistemlərinin yaradılması və tətbiqi təkcə konkret müəssisə üçün deyil, bütövlükdə informasiya cəmiyyəti üçün də strateji əhəmiyyət kəsb edir. Süni intellektin tətbiqi texnologiyanın sürətlə mükəmməlləşdirilməsinə, cəmiyyətin davamlı intellektual inkişafına, həyat səviyyəsinin yaxşılaşdırılmasına böyük töhvə verməklə yanaşı bəşəriyyətin mövcudluğu üçün müəyyən təhlükə də törədə bilər. Odur ki, intellektuallallaşdırma hesabına yaranan imkanların və risklərin idarə olunmasında müvafiq beynəlxalq standartların tələblərinə əməl olunması bəşəri vacib məsələlərdən biridir.

Müəssisə tərəfindən tətbiqi intellektual sistemlərin yaradılması zamanı imkanların və risklərin idarə olunmasına xüsusi əhəmiyyət verilməsi aşağıdakı səbəblərdən vacibdir:

- keyfiyyətin idarə olunmasının məhsuldarlığına müəssisənin daxili və xarici mühitində müsbət təsir edə bilən amillər mövcud ola bilər, bu amilləri üzə çıxarmaq və imkanlar kimi qəbul etmək olar;

• keyfiyyətin idarə olunmasının məhsuldarlığına müəssisənin daxili və xarici mühitində neqativ təsir edə bilən və risklər qrupuna daxil olunmalı amillər mövcud ola bilər;

• risklər qrupuna aid edilmiş amillərin müəssisəyə arzuolunmaz təsir etməməsi üçün vaxtında müvafiq çoxsəviyyəli təhlükəsizlik tədbirləri müəyyənləşdirmək və həyata keçirmək, qarşısı alına bilməyən risklərin fəsadlarını minimuma endirmək vacibdir;

• risklərdən qaynaqlana bilən əlavə imkanları da üzə çıxarmaq və əlavə imkanların da reallaşdırılmasını planlaşdırmaq lazımdır.

Süni Intellekt bazasında yaradılmış tətbiqi intellektual idarəetmə sistemlərində keyfiyyətin idarə olunması zamanı [3]-də qeyd olunmuş prinsiplərdən əlavə aşağıdakıların da rəhbər tutulması vacibdir:

• imkanların və risklərin çoxsəviyyəli təhlükəsiz intellektual idarə olunma konsepsiyasının tətbiqi;

• fəaliyyətin və qarşılıqlı ünsiyyətin davamlı genişlənən elektron məlumat bazalarının formalaşdırılması və intellektual idarəetmədə istifadə olunması;

• keyfiyyət və kəmiyyət göstəricilərinin elektron intellektual qiymətləndirilmə sisteminin tətbiqi;

• risk və rəqabət yönümlü davamlı intellektual təkmilləşdirmə.

Imkanların və risklərin üzə çıxarılması və qiymətləndirilməsi üçün müəssisənin kontekstində onun fəaliyyətinə əhəmiyyətli təsir edən amillər aşağıdakı kimi qruplaşdırılaraq öyrənilməlidir:

• informasiya cəmiyyətinin tələbləri baxımından tətbiqi intellektual idarəetmə sistemlərinin inkişaf meylləri (1);

• marağı olan tərəflərin (dövlət, istehlakçılar, malgöndərənlər, səhmdarlar, əməkdaşlar, yuxarı təşkilatlar, rəqiblər və s.) tələbləri, rəyləri, iradları və təklifləri (2);

• bazar (rəqabət) mühiti və bu mühitdə texnoloji imkanlar (3);

• müvafiq qanunvericiliyin, mədəni, sosial və iqtisadi mühit amillərinin təsirləri (4);

• müəssisənin biliklər bazası, SWOT təhlilin nəticələri, təşkilati mədəniyyəti (5);

• müəssisənin fəaliyyətinin və keyfiyyət göstəricilərinin yaxşılaşdırılma imkanları (6) və s.

Risklərin müəyyənləşdirilməsi və qiymətləndirilməsi isə [2] rəhbər tutulmaqla [1]-də qeyd olunmuş metodikanın köməyilə həyata keçirilə bilər.

Ümumiyyətlə, imkanların müəyyənləşdirilərək reallaşdırılılmasını və risklərin idarə olunmasını proses yanaşması baxımından aşağıdakı ardıcıllıqla həyata keçirmək olar.

1) Müəssisənin konteksti təhlil olunmaqla (şək.) imkanlar (o cümlədən risk tutumlu imkanlar) və risklər müəyyənləşdirilir.



Şəkil. İmkanların və risklərin idarə olunması tsikli

2. İmkanlar (reallaşdırıla bilmə baxımından) və risklər (idarə oluna bilmə baxımından) qiymətləndirilir.

3. Üzə çıxarılmış imkanların effektiv reallaşdırılmasını təmin edəcək tədbirlər planlaşdırılır.

4. Risklərin effektiv idarə olunmasını təmin edən fəaliyyət istiqamətləri seçilir və bu istiqamətlər üzrə tədbirlər planlaşdırılır.

5. Planlaşdırılmış tədbirlər reallaşdırılır və faktiki nəticələr əsas götürülməklə [1]-də təqdim olunmuş metodikanın köməyi ilə imkanların və risklərin idarə olunması üzrə fəaliyyətin yekun effektivlik səviyyələri hesablanır.

6. Tədbirlərin planlaşdırıldığı kimi həyata keçirilməsinə nəzarət edilir və nəticələr təhlil olunur.

7. Fəaliyyətin yekun effektivlik səviyyəsi aşağı olduqda uyğunsuzluqlar aradan qaldırılır, sonra isə imkanlardan istifadə olunmasının və risklərin idarə olunmasınının yaxşılaşdırılması üzrə tədbirlər müəyyənləşdirilir və həyata keçirilir.

Ədəbiyyat

1. Багиров М.А., Алиев Д.А. Определение эффективности системы управления рисками. Материалы IX-ой Международной научно-практической интернет-конференции "Science and education: problems, prospects and innovations" , стр. 144-147 (26-28 Май, 2021, г. Киото, Япония).
2. ГОСТ Р ИСО 31000-2019. Менеджмент риска. Принципы и руководство.
3. ISO 9001:2015. Quality management systems. Requirements.

РЕЗЮМЕ
УЛУЧШЕНИЕ СИСТЕМЫ УПРАВЛЕНИЯ ВОЗЬМОЖНОСТЯМИ И РИСКАМИ В ПРИКЛАДНЫХ ИНТЕЛЛЕКТУАЛЬНЫХ СИСТЕМАХ
Алиев Д.А.

Ключевые слова: *прикладные интеллектуальные системы, возможность, риск, управление.*

Обоснована важность уделения особого внимания управлению возможностями и рисками при управлении качеством в прикладных интеллектуальных системах. Отмечены дополнительные принципы, которыми важно руководствоваться при управлении возможностями и рисками в таких системах. Указаны основные группы факторов, которые способствуют выявлению и оценке возможностей и рисков в контексте организации. Представлены цикл выявления и реализации возможностей, управления рисками и последовательность повышения уровня управления возможностей и рисками по этому циклу.

SUMMARY
IMPROVING THE OPPORTUNITY AND RISK MANAGEMENT SYSTEM IN APPLIED INTELLIGENT SYSTEMS
Aliyev D.A.

Keywords: *Applied intelligent systems, opportunity, risk, management.*

The importance of paying special attention to managing opportunities and risks when managing quality in applied intelligent systems is substantiated. Additional principles are noted that are important to follow when managing opportunities and risks in such systems. The main groups of factors that contribute to the identification and assessment of opportunities and risks in the context of the organization are indicated. The cycle of identifying and implementing opportunities, risk management and the sequence of increasing the level of management of opportunities and risks along this cycle are presented.

SÜNİ İNTELLEKT TEXNOLOGİYALARININ NEFT-QAZ SƏNAYESİNƏ TƏTBİQİ İSTİQAMƏTLƏRİ

Hüseynova Afət Südef qızı

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
a_ikt@mail.ru

Açar sözlər*: optimallaşdırma, süni intellekt, proqnozlaşdırma, rəqəmsallaşma, resursların idarə edilməsi.*

Təqdim olunan tezisdə neft-qaz sənayesində süni intellekt texnologiyalarından istifadə perspektivləri araşdırılır. Kəşfiyyat, qazma, əməliyyatlar və ətraf mühit məsələləri də daxil olmaqla neft və qaz emalı zəncirinin hər mərhələsində süni intellektin tətbiqinin faydaları müzakirə edilir. Həmçini bu layihələrin proseslərin səmərəliliyinin artırılmasına, qərarların qəbulunun sürətləndirilməsinə, ehtiyatların artımının yüksəldilməsinə və əsaslı xərclərin, qəzaların azaldılmasına müsbət təsiri nəzərdən keçirilir.

Neft-qaz sənayesi son vaxtlar hasilatın artması, anbar ehtiyatlarının çox olması və neftin qiymətinin aşağı düşməsi ilə bağlı bir sıra problemlərlə üzləşir. Bu, uzunmüddətli perspektivdə sənayeyə böyük ziyan vuracaq bir böhrana səbəb ola bilər. Bu çətinliklər fonunda süni intellektin (SI) tətbiqi getdikcə aktuallaşır, çünki o, xərcləri azaltmağa və enerji böhranının mənfi təsirləri ilə mübarizə aparmağa kömək edə bilər. Ekspertlərin neft, qaz kəşfiyyatı və hasilatında rəqəmsal texnologiyalardan istifadə etməklə əldə edilə biləcək

potensial qənaətləri qiymətləndirdiyi araşdırmanın nəticələrinə görə bu halda qlobal qənaət təxminən 1 trilyon dollara çatır [1].

Respublikamızın neft-qaz sənayesində də süni intellektdən istifadə metodları iqtisadi effekt verə bilər. Tədqiqat ədəbiyyatında "süni intellekt" termininin tərifinə bir neçə yanaşma təqdim olunur. Bütün bu tərifiər vurğulayır ki, süni intellekt insan zəkasının həll edə biləcəyi məsələləri yerinə yetirə bilən maşın və sistemlərin yaradılması ilə məşğul olan bir elm sahəsidir. Bu texnologiya neft və qaz sənayesində istehsalın səmərəliliyinin artırılması və resurslara qənaətlə bağlı aşağıdakı problemləri həll etmək üçün istifadə olunur:

- İstehsalın optimallaşdırılması: Süni intellekt böyük həcmdə məlumatların təhlili və neft və qaz hasilatı üçün optimal parametrlərin müəyyən edilməsi üçün istifadə olunur. Bu, istehsalın səmərəliliyini artırmağa və istehsal xərclərini azaltmağa imkan verir.
- Qəza proqnozu: Süni intellekt neft və qaz obyektlərində mümkün qəza və problemləri proqnozlaşdırmaq üçün sensorlar və digər mənbələrdən alınan məlumatları təhlil edə bilər. Bu, qabaqlayıcı tədbir görməyə və ciddi qəzalardan qaçmağa imkan verir.
- Resursların İdarə Edilməsi: Sİ itkiləri azaltmaq və artıq xərclərdən qaçmaq məqsədilə ehtiyatların idarə olunması və anbarlarda tullantıları minimuma endirmək üçün istifadə edilə bilər. Bu, həm də materialların alınması və saxlanması xərclərinin planlaşdırılmasını və optimallaşdırılmasını təkmilləşdirməyə imkan verir.
- Verilənlərin təhlili: Süni intellekt böyük həcmdə məlumatları emal edə və təhlil edə bilər ki, bu da qərar qəbul etmək üçün faydalı ola biləcək gözdən qaça biləcək və meylləri müəyyən etməyə kömək edir.
- İstehsalın İdarə Edilməsi: Sİ istehsal proseslərini idarə etməyə, məhsulun keyfiyyətini yaxşılaşdırmağa və istehsal xərclərini azaltmağa kömək edə bilər. Ümumiyyətlə, süni intellektin istifadəsi neft və qaz emalının səmərəliliyini və rəqabət qabiliyyətini artırmağa, istehsalın təhlükəsizliyini və ekoloji dayanıqlığını yaxşılaşdırmağa imkan verir.

Dünya üzrə neft-qaz şirkətlərində süni intellekt texnologiyalarından istifadənin aşağıdakı nümunələri mövcuddur;

- Neft emalının proqnozlaşdırılması üzrə BP neft və qaz hasilatı üzrə dəqiq proqnozlar yaratmaq üçün quyular, hasilat məlumatları, yerin deformasiyaları və geoloji məlumatlar kimi böyük həcmdə məlumatları təhlil etmək üçün süni intellektdən istifadə edir. Bu, şirkətə neft və qaz hasilatının planlaşdırılması və idarə edilməsində daha effektiv qərarlar qəbul etməyə imkan verir [2].
- Sahənin optimallaşdırılması üzrə Shell neft və qaz yataqlarını optimallaşdırmaq üçün süni intellektdən istifadə edib. Şirkət qazma işləri, yatağın geoloji xüsusiyyətləri və hasilat parametrləri haqqında məlumatları toplamaq və təhlil etməyə imkan verən modellər işləyib hazırlayıb ki, bu da hasilat prosesini optimallaşdırmağa imkan verib [3].
- Neft quyularının optimallaşdırılması üzrə Dünyanın ən böyük neft və qaz şirkəti olan Saudi Aramco quyuların işini optimallaşdırmaq üçün süni intellektdən istifadə edir. Şirkət quyuların optimal istismar parametrlərini müəyyən etmək və hasilat səmərəliliyini artırmaq üçün maşın öyrənmə alqoritmlərindən istifadə edərək quyu məlumatlarını toplayır və təhlil edir [4].
- Avadanlıqların nasazlığının proqnozlaşdırılması üzrə Neft və qaz sənayesinin ən böyük avadanlıq şirkətlərindən biri olan Baker Hughes, avadanlığın üzərindəki sensorlardan toplanmış məlumatlar əsasında avadanlıqların nasazlıqlarını proqnozlaşdırmaq üçün süni intellektdən istifadə edir. Bu, şirkətə mümkün qəzaların və avadanlıqların nasazlığının qarşısını almağa imkan verir[5].
- Dövlət Neft Şirkəti tərəfindən "Aliyə" adlı alət quyuların planlaşdırılmasında istifadə olunur. Neft və qaz hasilatında yüksək nəticələrin əldə olunması məqsədilə qazma mühəndisliyində süni zəka tətbiq olunur. IBM ilə birlikdə işlənmiş"Aliyə" adlanan yeni alət əvvəl qazılmış quyulara dair məlumatlar əsasında bir neçə saniyə ərzində mürəkkəb analitik əməliyyatları yerinə yetirə bilir. Belə bir prosedur yalnız insan tərəfindən yerinə yetirilində bir aydan çox vaxt tələb edir. Sİ aləti mühəndislik prinsipləri, quyuların layihələndirilməsi üzrə metodologiya və təcrübəni, habelə mürəkkəb məlumat konstruksiyası yaratmağa, həmçinin, layihələrin xərcləri və vaxtını planlaşdırmağa, əsas göstəriciləri ölçməyə və riskləri müəyyənləşdirməyə imkan verir. "Aliyə" əməliyyatların tammiqyaslı rəqəmsallaşmasına doğru atılan ilk addımdır. Dövlət Neft Şirkəti neft-qaz sənayesinin bütün sahələrində aparılan əməliyyatların rəqəmsallaşması üçün CIC (Caspian Innovation Center şirkəti) ilə birlikdə, paralel olaraq, bir neçə layihə üzərində işləyir. SOCAR və IBM "İnnovativ Qaraj" layihəsi çərçivəsində yerin və dənizin təkində aparılan kəşfiyyat-hasilat əməliyyatlarında, quyularda, satınalma və təchizat zəncirinin idarə olunmasında və SOCAR-ın bir çox digər əməliyyat sahələrində Sİ texnologiyasının tətbiqini və şirkətin mövcud rəqəmsallaşma strategiyası ilə uzlaşdırılmasını planlaşdırır.

Ədəbiyyat

1. Интеллектуальный Upstream: стратегия выживания // Vygon Consulting. URL: https://vygon.consulting/upload/iblock/266/vygon_consulting_smart_upstream.pdf .
2. AI and Big Data // Saudi Aramco. URL: https://www.aramco.com/en/creating-value/technology-development/in-house-developed-technologies/digitalization/ai-and-big-data .
3. BP uses AI to forecast Oil and Gas reservoir performance // BP. URL: https://www.bp.com/en/global/corporate/news-and-insights/press-releases/bp-uses-ai-to-forecast-oil-and-gas-reservoir-performance.html.
4. Shell deploys AI in permian basin to optimize Oil and Gas production // SP Global. URL: https://www.spglobal.com/marketintelligence/en/news-insights/latest-news-headlines/shell-deploys-ai-in-permian-basin-to-optimize-oil-and-gas-production-60057952.
5. What is artificial intelligence (AI)? // IBM. URL: https://www.ibm.com/cloud/learn/what-is-artificial-intelligence.

РЕЗЮМЕ
НАПРАВЛЕНИЯ ПРИМЕНЕНИЯ ТЕХНОЛОГИЙ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В НЕФТЕГАЗОВОЙ ОТРАСЛИ
Гусейнова А.С.

Ключевые слова: *оптимизация, искусственный интеллект, прогнозирование, оцифровка, управление ресурсами.*

В представленной диссертации рассматриваются перспективы использования технологий искусственного интеллекта в нефтегазовой промышленности. Обсуждаются преимущества применения искусственного интеллекта на каждом этапе цепочки переработки нефти и газа, включая разведку, бурение, операции и экологические вопросы. Также рассматривается положительное влияние этих проектов на повышение эффективности процессов, ускорение принятия решений, повышение прироста ресурсов и снижение капитальных затрат, аварий.

SUMMARY
AREAS OF APPLICATION OF ARTIFICIAL INTELLIGENCE TECHNOLOGIES IN THE OIL AND GAS INDUSTRY
Huseynova A.S.

Keywords: *optimization, artificial intelligence, forecasting, digitization, resource management.*

The presented dissertation examines the prospects of using artificial intelligence technologies in the oil and gas industry. The advantages of using artificial intelligence at every stage of the oil and gas refining chain, including exploration, drilling, operations and environmental issues, are discussed. The positive impact of these projects on improving the efficiency of processes, speeding up decision-making, increasing resource growth and reducing capital costs, accidents is also considered.

TƏHSİL SAHƏSİNİN İNKİŞAFINDA SÜNİ İNTELLEKTİN ÜSTÜNLÜKLƏRİ

Hüseynova Gülnar Rüstəm qızı

Naxçıvan Müəllimlər İnstitutu, Naxçıvan, Azərbaycan
huseynovag110@gmail.com

Açar sözlər: *Süni intellekt, təhsil, robot, texnologiya, kompüter, problem.*

Tədqiqat işində məktəb təhsilinin inkişafı üçün son zamanlar qlobal trendə çevrilən Süni intellektin üstünlükləri araşdırılıb. Ən son elmi araşdırmaların nəticələrini ümumiləşdirərək təhsil sahəsindəki irəliləyişlərdən bəhs olunub. Tədqiqat işinin aparılmasındakı əsas məqsəd Süni intellektin təhsil sahəsindəki tutduğu yeri və rolu daha geniş kütləyə çatdırmaqdan ibarətdir. Aparılan araşdırmalara nəticə olaraq onu göstərə bilərik ki, valideynlər, müəllimlər və təhsilalanlar Süni intellekt, onun istifadəsi və təhlükəsiz mühitin yaradılması haqqında maarifləndirilməlidir.

Süni intellekt dedikdə ilk düşündüyümüz nədir? "Robotlar, özü idarə olunan avtomobillər yoxsa səs köməkçiləri? Süni intellekt gələcəyə aid bir şey deyil. Mütəmadi olaraq bir mobil telefon və internetdən istifadə edirsinizsə, süni intellektin artıq gündəlik həyatınızın bir parçası olması ehtimalı var. Sadəcə siz bunun fərqində olmaya bilərsiniz. Bəs süni intellekt nədir?

Sİ texnologiyası kompüterlərin ümumiyyətlə insanlarla əlaqəli tapşırıqları təqlid etməsidir. Buraya təkliflər və ya proqnozlar vermək, bir görüntüdə olanları tanımaq, birinin necə proqramlandığına əsasən söylədiklərini və ya yazdıqlarını tanımaq, oyunlarda strategiya inkişaf etdirmək hətta musiqi və sənət yaratmaq kimi bir sıra məsələlər daxildir və bu texnologiya hansı mahnını dinləməyinizi tövsiyə etməkdən,

A-dan B-yə daha sürətli marşrut təklif etməkdən, selfilərinizi yaxşılaşdırmaq üçün hazırlanmış son tətbiqetməyə qədər bir çox şəkildə istifadə olunur. Sİ texnologiyası bəşəriyyətin üzləşdiyi ən böyük problemlərin (iqlim dəyişikliyi və ya yeni xəstəliklər kimi) həllində kömək edə biləcək potensiala sahibdir, lakin diqqətli olmasaq yeni problemlər də yarada bilər.

Ən diqqətəlayiq olan Süni intellekt, insan zəkasının maşınlarla simulyasiya edilməsidir. Yəqin ki, texnologiya və yenilik dünyasında ən sürətli böyüyən inkişafdır. Bir çox mütəxəssis, süni zəkanın böyük problemləri və böhran vəziyyətlərini həll edə biləcəyinə inanır.

Süni intellekt çox yüksək səviyyədə ixtisaslaşmış sahədir. Onun çoxlu sahələri var. Çox zaman Süni intellektin bir sahəsi digər sahəsi ilə qarşılıqlı əlaqədə olmur. Onun bəzi sahələri isə o dərəcədə inkişafa nail olmuşdur ki, onlar artıq ayrıca bir ixtisas kimi fəaliyyət göstərirlər. Süni intellektin nəyə aid edilməsi sualına birmənalı cavab yoxdur. Odur ki, süni intellekt haqqında kitab yazan hər bir müəllif, o elmin nailyyətlərini nəzərə alaraq, süni intellektə tərif verir" [1].

Bu gün sürətlə dəyişən qloballaşma, rəqəmsallaşma, yeni texnologiyaların inkişafı, demək olar ki, bütün həyat və fəaliyyət sahələrinə təsir edən və bəşəriyyət qarşısında problemlər yaradan ekoloji problemlər şəraitində təhsil təkcə müasir cəmiyyətin hər bir üzvünün inkişafı üçün strateji şərt deyil həm də ümumilikdə cəmiyyətin yaşaması üçün vacib şərtdir. Dövrümüzün çağırışlarına cavab vermək üçün bu gün təhsil necə olmalıdır sualına yeni cavab tələb olunur. Elmin sürətli inkişafı, bilik və informasiyanın həcminin genişlənməsi müasir dövrdə insanların şəxsi və sosial ehtiyaclarına yönəlmiş yeni təhsil paradiqmasının formalaşmasına tələbat yaradır. İnkişaf edən rəqəmsallaşma bəşəriyyətin qarşısında duran vəzifələrdən biri olmaqla, müasir həyatın bütün səviyyələrinə, iş üsullarına təsir edir, dövlətin vətəndaşlarla qarşılıqlı münasibətini, təhsilini dəyişdirməklə sözün əsl mənasında inqilab edib. Yeni texnologiyaların inkişafı və onların praktiki istifadəsi hər bir ölkənin rəqabət qabiliyyətinin artırılmasının açarıdır.

Süni intellektin ən geniş yayılmış sahələrdən biri də təhsildir. Biz geniş cəmiyyətimizdə Süni intellektdən faydalandığımız kimi, bugünkü tələbələr də təhsildə Sİ-dən faydalana bilərlər. Süni intellekt həm öyrənməni stimullaşdırmağa, həm də əlaqəni yaxşılaşdırmağa kömək etməklə yanaşı tədrisin bəzi vaxt aparan tapşırıqlarını yerinə yetirə bilər. Bu isə müəllimlərə diqqətlərini hər bir uşağın öyrənməsinə və inkişafına yönəltməyə kömək edir. Buna baxmayaraq bəzi pedaqoqların, valideynlərin süni intellektin təhsildəki roluna əmin olmamaları başa düşüləndir.

Süni intellekt sahəsində aparılan tədqiqatlar insanların necə öyrəndiyini və öyrənmənin zehni proseslərinin necə baş verdiyini dəqiq müəyyən etməklə təhsil və psixologiya fənlərinə müsbət töhfələr verə bilər. Məsələn, süni intellekt alqoritmləri tədris materiallarının hansı hissələrinin şagirdlərə daha az aydın olduğunu və ya harada daha çox səhv etdiklərini müəyyən etməklə öyrənməni hər bir tələbəyə uyğunlaşdıra bilər. Onlayn təhsil sistemləri və süni intellektdən istifadə edən bütün rəqəmsal platformalar artıq ingilisdilli ölkələrdəki müəllimlərə şagird işini qiymətləndirməyə kömək edir. Bəzi tədqiqatlar alqoritmlərin ən yaxşı müəllimlərdən daha obyektiv qiymətləndirdiyini göstərdi. Hazırda isə bu o deməkdir ki, təqdim olunan iş elektron formada olmalıdır, ona görə də bu sistemlərdən əsasən ali təhsil müəssisələrində istifadə olunur. Müəllimin kompüterlə əvəzlənməsindən daha çox, Süni intellektlə insan-kompüter əməkdaşlığı sayəsində bir çox uzaqgörənlər öyrənmənin gələcəyini görürlər.

Pedaqoji nöqteyi-nəzərdən insanların öyrənmə çətinliklərini aradan qaldırmağa imkan verəcək kompetensiyaların inkişaf etdirilməsi üçün Süni intellektdən istifadə etmək daha mənalı görünür çünki, Süni intellekt mühüm idraki qabiliyyətlərin əsasını təşkil edən bacarıqları əvəz edir. Süni intellekt kompüter proqramlarının insan beyninə bənzər şəkildə, yəni əvvəlcədən müəyyən edilmiş proqramlaşdırma olmadan işləmə qabiliyyəti kimi düşünülə bilər.

Çex tədqiqatçısı O.Neymaer məktəb təhsili üçün Süni intellektin mövcud elmi inkişaflarından nümunələr verir. Belə ki, SmallStep adlı (Start-up) şirkət istənilən bilik sahəsində istənilən mətn mənbəyindən avtomatik olaraq tədris və öyrədici mətnlər yaradacaq Süni intellekt texnologiyası yaradıb. SmallStep hazırda müəyyən fənlər üzrə ingilis dilinin tədrisi texnologiyasını sınaqdan keçirir. Mövzu sahəsində ingilis dilində çoxlu sayda məqalə ilə texnologiyanı qidalandırmaq kifayətdir və o, özü öyrənmə obyektləri adlanan maarifləndirici tapşırıqlar və viktorinalar yaradacaqdır. Daha sonra başqa bir Süni intellekt texnologiyası hər bir şagirdin irəliləyişini izləyir, onun üçün qabiliyyətinə və uğurlarına tam uyğunlaşdırılmış təlimlər hazırlayır ki, bu da ən effektiv öyrənmə yolunu təmin edir. Müəllim test müsahibələri vasitəsilə şagirdin ümumi inkişafına onlayn nəzarət edir. Texnologiya sayəsində müəllim daha çox şagirdlə ünsiyyət qura bilir. Başqa bir nümunə, ibtidai siniflərdə riyaziyyatın tədrisi sahəsində müxtəlif layihələr mövcuddur. Riyaziyyat bir çox uşaq üçün olduqca problemlidir. Məktəbdə isə bunu tam şəkildə öyrənmək bir az çətindir və evdə daha çox çalışmaq lazımdır, lakin hər kəsin bunun üçün şəraiti yoxdur. Bu layihələr riyaziyyatı öyrətmək üçün xüsusi təlim məqsədlərini güdən, uşaqla qarşılıqlı əlaqədə olmaq üçün süni intellektdən istifadə edən geniş kompüter oyunları dəsti hazırlayır. Kompüter oyunları əyləncələrində

gizlənən Süni intellekt uşağa problemli sahələri (məsələn, kəsrləri öyrənmə, bölmə, vurma) valideynlərin onunla bir neçə gün öyrədəcəyi zamandan daha effektiv şəkildə öyrədə bilər. Uşaq oxumaq üçün düzgün anı seçəcək və valideynlərin onlarla oynamaq üçün daha çox vaxtı olacaq.

Apardığım tədqiqat işinin nəticəsi olaraq qeyd edə bilərəm ki, yeni Süni intellekt məhsullarının formalaşması təhsil sahəsində insanların əksəriyyətini həyəcanlandırır. Müəllimlər, valideynlər və tələbələr üçün onun üstünlüklərini və məhdudiyyətlərini başa düşmək vacibdir. Süni intellekt həyat tərzimizi dəyişir və çoxları artıq məktəblərdə belə mühiti təhlükəli hesab edir. Məktəblərdə Süni intellektin istifadəsi üçün təhlükəsiz mühitin yaradılması vacib amillərdəndir.

Ədəbiyyat

1. G.Hüseynova. Süni intellektin həyatımızdakı rolu. Qarabağ: Zəfərə gedən yol adlı XVII Beynəlxalq elmi konfransda
2. https://databasetown.com/what-is-the-purpose-of-artificial-intelligence/#improve-decision-making
3. https://www.brookings.edu/research/how-artificial-intelligence-is-transforming-the-world/

РЕЗЮМЕ
О ПРЕИМУЩЕСТВАХ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В РАЗВИТИИ СФЕРЫ ОБРАЗОВАНИЯ
Гусейнова Г.Р.

Ключевые слова: *Искусственный интеллект, образование, робот, технология, компьютер, проблема.*

В исследовательской работе исследованы преимущества искусственного интеллекта, который в последнее время стал мировым трендом развития школьного образования. Прогресс в сфере образования обсуждался путем подведения итогов новейших научных исследований. Основная цель проведения исследования - донести до более широкой аудитории место и роль искусственного интеллекта в сфере образования. В результате исследования мы можем показать, что родители, учителя и ученики должны быть осведомлены об искусственном интеллекте, его использовании и создании безопасной среды.

ABSTRACT
ABOUT THE ADVANTAGES OF ARTIFICIAL INTELLIGENCE IN THE DEVELOPMENT OF EDUCATION
Huseynova G.R.

Keywords: *Artificial intelligence, education, robot, technology, computer, problem.*

The advantages of Artificial Intelligence, which has recently become a global trend for the development of school education, have been investigated in the research work. The progress in the field of education was discussed by summarizing the results of the latest scientific research. The main goal of conducting research is to convey the place and role of Artificial Intelligence in the field of education to a wider audience. As a result of the research, we can show that parents, teachers and students should be educated about Artificial Intelligence, its use and creating a safe environment.

PAYLAYICI QAZ KƏMƏRLƏRİ SİSTEMİNİN İDARƏEDİLMƏSİNDƏ İNTELLEKTUAL ANALİZ METODLARININ TƏTBİQİ

İmanov Şahin Elçin oğlu

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı, Azərbaycan
imanovsahin@gmail.com

Açar sözlər: *Paylayıcı qaz sistemləri, prediktiv analiz, dəstək vektor maşını, maşın öyrənməsi, qradient artırma.*

Bu məqalədə, paylayıcı qaz kəmərlərinin təhlükəsizliyini və etibarlılığını yaxşılaşdırmaq məqsədilə prediktiv analiz və maşın öyrənmə metodları tətbiq etmək üçün müxtəlif metodlar ətraflı şəkildə müzakirə edilmişdir. Bu metodlar təhlükəsizliyi təmin etmək, qaz tələbatını proqnozlaşdırmaq və əməliyyatları optimallaşdırmaq üçün mövcud məlumatların səmərəliliyini artırmağa kömək edir. Bu məqalədə, qaz tələbatının proqnozlaşdırılması, əməliyyatların optimallaşdırılması və anomaliyaların təyinində prediktiv analiz və maşın öyrənmə metodlarının tətbiqi müzakirə olunur. Əsas istifadə olunan metodlar arasında Dəstək Vektor Maşını (SVM), Qərar Ağacı, Təsadüfi Meşə, K-Ən Yaxın Qonşu və Qradient Artırma kimi alqoritmlər yer alır.

Qaz sənayesi, energetika sektorunun ən kritik sahələrindən biridir və bu sahədə effektiv təşkilatlanmış təhlükəsiz və səmərəli əməliyyatların həyata keçirilməsi, bir çox faktorun təsirindən asılıdır.

Bu əsasda, qaz tələbatının proqnozlaşdırılması, əməliyyatların optimal həll edilməsi və təhlükəsizliyin artırılması üçün gələcəyə yönlənmiş və effektiv qərarlar qəbul etmək, prediktiv analiz və maşın öyrənmə texnologiyalarının tətbiqinə dair tədqiqatlar və təcrübələr əhəmiyyət kəsb edir. Bu məqalənin məqsədi, qaz tələbatının proqnozlaşdırılması, qaz kəmərlərinin təhlükəsizliyinin və səmərəliliyinin artırılması, əməliyyatların optimal həll edilməsi və anomaliyaların təyinində prediktiv analiz və maşın öyrənmə metodlarının tətbiqini müzakirə etməkdir.

Prediktiv analiz və maşın öyrənmə metodları. Hal-hazırda qaz tələbatının qısa və uzun müddətə proqnozlaşdırılması, əməliyyatların optimallaşdırması və anomaliyaların təyinində prediktiv analiz və maşın öyrənmə metodlarının tətbiqi geniş müzakirə mövzusudur [1]. Bu metodlar paylayıcı qaz kəmərlərinin təhlükəsizliyini, səmərəliliyini və etibarlılığını yaxşılaşdırmaq üçün optimal qərarların qəbulunda böyük miqdarda məlumatlardan tarixi və real zaman məlumatlarından istifadə edir. Əsas istifadə olunan metodlar aşağıda göstərilmişdir:

Dəstək vektor maşını. Nəzarət olunan öyrənmə yanaşması olan dəstək vektor maşını ən populyar və sadə maşın öyrənməsi texnikalarından biridir, çünki onun həlləri çox vaxt mükəmməl və unikaldır. Bundan əlavə, struktur risklərin minimuma endirilməsi prinsipinə görə yaxşı ümumiləşdirmə qabiliyyətinə malikdir. Dəstək vektor maşını həm reqressiya, həm də təsnifat proqnozunda istifadə oluna bilər, çünki o, maşın öyrənmə nəzəriyyəsindən istifadə etməklə proqnozlaşdırma dəqiqlik dərəcəsini maksimum dərəcədə artırır və verilənlərin həddən artıq uyğunlaşmasının qarşısını alır. Dəstək vektor maşınından istifadə edərkən onun qeyri-parametrik texnika (səpələnmiş texnika) olduğunu nəzərə almaq lazımdır, çünki onun istifadəsi modelin parametrlərini müəyyən etmək üçün təlim mərhələsində bütün təlim məlumatlarının yaddaşda saxlanmasını tələb edir. Gələcək proqnozlaşdırmaya gəldikdə isə, təlim hallarının alt hissəsi olan dəstək vektorlarına etibar edilir [2].

Qərar ağacı. Bu metod həm təsnifat, həm də reqressiya problemlərini həll etmək üçün istifadə edilən nəzarət edilən alqoritmdir. Hədəfin dəyərini və ya kateqoriyasını proqnozlaşdıran proqnozlaşdırıcı model yaratmaq üçün istifadə olunur və bu, modelə təlim məlumatlarından əldə edilən sadə qərar qaydalarını öyrətməklə həyata keçirilir. Bu alqoritmdə istənilən qeydin sinif adının proqnozlaşdırılması prosesi ağacın kökündən başlayır. Proqnoz ağac kökü atributunun dəyərini sinif adı proqnozlaşdırılmalı olan qeydin atributu ilə müqayisə etməklə hazırlanır [3].

Təsadüfi meşə. Təsadüfi meşə ən çox istifadə edilən nəzarət edilən maşın öyrənməsi alqoritmlərindən biridir. O, qərar ağacları ansamblının qurulmasına və sonra torbalama metodundan istifadə edərək onlara təlim keçməsinə cavabdehdir; buna görə də "təsadüfi meşə" adlanır. Torbalama, əldə edilmiş nəticənin ümumi performansını yaxşılaşdırmaq üçün bir neçə öyrənmə modelini birləşdirmək məqsədi daşıyan bir konsepsiyadır. Son illərdə bu alqoritm həm təsnifat, həm də reqressiya modellərinə tətbiq olunan sadəliyi və çox yönlü olması səbəbindən populyarlıq qazanmışdır. Üstəlik, təcrid olunmuş ağac meşədəki quruluş, model daxilində ən çox səs toplayan sinfi proqnozlaşdıra bilir [4].

K - Ən yaxın qonşu. Bu metod həm təsnifat, həm də reqressiya problemlərini həll etmək üçün istifadə edilən nəzarət edilən alqoritmlərdən biridir. Bu alqoritm tənbəl öyrənmə alqoritmi kimi tanınır, çünki o, üzərində heç bir hesab əməliyyatı etmədən yalnız təlim mərhələsində məlumatları saxlayır. Bu alqoritm, test məlumatı ilə təlim məlumatları arasındakı məsafəni tapmaqla düzgün kateqoriyasını proqnozlaşdıran proqnozlaşdırıcı model yaradır. Alqoritm test məlumatlarına ən yaxın olan k nöqtələrin sayını müəyyən edir. Sonra, test məlumatlarının k kateqoriyasına düşmə ehtimalını hesablayır və nəhayət, ən yüksək ehtimala nail olan kateqoriyanı seçir. k parametri səsvermə prosesinə daxil olan qonşuların qohumlarının sayını əks etdirir. Nöqtə məlumatları ilə onun ən yaxın qonşusu arasındakı məsafə Evklid məsafəsi, Manhetten məsafəsi, Hamminq məsafəsi, Minkovski məsafəsi və s. kimi hesablana bilər [5].

Qradient artırma. Bu metod proqnozlaşdırılan maşın öyrənmə modelini qurmaq üçün istifadə edilən nəzarət edilən alqoritmdir. Fərdi qərar ağaclarının alqoritmə inteqrasiyası prosesində "möhkəmləndirmə" adlanan üsuldan istifadə edilir. Gücləndirmə zəif öyrənənlərin bir neçə öyrənmə alqoritmlərini bir zəncirdə birləşdirərək güclü öyrənən inkişaf etdirmək deməkdir. Bu alqoritmin modeli yüksək səmərəlilik və dəqiqliklə xarakterizə olunur, çünki onun daxilindəki hər bir ağac özündən əvvəlki ağacın xətalarını düzəltmək üçün işləyir. Bununla belə, alqoritm daxilində ağacların ardıcıl artımı onun işini yaxşılaşdırır, lakin öyrənmə prosesini ləngidir. Bundan əlavə, model qalıq aşkarlanması üçün itki funksiyasına əsaslanır [4,5].

Məqalədə qaz kəmərlərinin idarəolunmasında prediktiv analizin əhəmiyyəti vurğulanmış və tədqiqatçılar tərəfindən tətbiq olunan əsas metod və alqoritmlər izah olunmuşdur. Ümumilikdə, yuxarıda qeyd olunmuş metodların tətbiqi, qaz kəmərlərinin təhlükəsiz, effektiv və səmərəli işləməsində mühüm rol oynayırlar.

Ədəbiyyat

1. Bhaskaran P. E., Chennippan M., Subramaniam T. Future prediction & estimation of faults occurrences in oil pipelines by using data clustering with time series forecasting //Journal of Loss Prevention in the Process Industries. - 2020. - T. 66. - C. 104203.
2. Cho B. et al. Understanding artificial intelligence and predictive analytics: A clinically focused review of machine learning techniques //JBJS reviews. - 2022. - T. 10. - №. 3. - C. e21.
3. Choubey S., Karmakar G. P. Artificial intelligence techniques and their application in oil and gas industry //Artificial Intelligence Review. - 2021. - T. 54. - №. 5. - C. 3665-3683.
4. Gupta D., Shah M. A comprehensive study on artificial intelligence in oil and gas sector //Environmental Science and Pollution Research. - 2022. - T. 29. - №. 34. - C. 50984-50997.
5. Letourneau-Guillon L. et al. Artificial intelligence applications for workflow, process optimization and predictive analytics //Neuroimaging Clinics. - 2020. - T. 30. - №. 4. - C. e1-e15.

РЕЗЮМЕ
ПРИМЕНЕНИЕ МЕТОДОВ ИНТЕЛЛЕКТУАЛЬНОГО АНАЛИЗА В УПРАВЛЕНИИ СИСТЕМОЙ РАСПРЕДЕЛИТЕЛЬНЫХ ГАЗОПРОВОДОВ
Иманов Ш.Э.

Ключевые слова: *газораспределительные системы, прогнозный анализ, машина опорных векторов, машинное обучение, повышение градиента.*

В данной статье подробно рассмотрены различные методы применения прогнозной аналитики и методов машинного обучения для повышения безопасности и надежности газораспределительных трубопроводов. Эти методы помогают повысить эффективность имеющихся данных для обеспечения безопасности, прогнозирования спроса на газ и оптимизации операций. В этой статье обсуждается применение методов прогнозной аналитики и машинного обучения для прогнозирования спроса на газ, оптимизации операций и обнаружения аномалий. Основные используемые методы включают такие алгоритмы, как машина опорных векторов (SVM), дерево решений, случайный лес, K-ближайший сосед и повышение градиента.

SUMMARY
APPLICATION OF INTELLIGENT ANALYSIS METHODS IN THE MANAGEMENT OF DISTRIBUTION GAS PIPELINES SYSTEM
Imanov Sh.E.

Keywords*: gas distribution systems, prognostic analysis, support vector machine, machine learning, gradient enhancement.*

In this article, various methods of applying predictive analytics and machine learning methods to increase the safety and reliability of gas distribution pipelines are considered in detail. These methods help to increase the effectiveness of available data for safety, forecasting gas demand and optimization of operations. In this article, the application of methods of predictive analytics and machine learning for forecasting gas demand, optimizing operations and detecting anomalies is discussed. The main methods used include algorithms such as support vector machine (SVM), decision tree, random forest, K-nearest neighbor and gradient boosting.

TƏHSİLDƏ SÜNİ İNTELLEKT

İmanova Şəfiqə Cəfər qızı

Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
shefiqe2014@gmail.com

Açar sözlər: *rəqəmsallaşma, smart-təhsil, rəqəmsallaşmaya keçid, süni intellektin tətbiqi, məhdudiyyətlər.*

Məqalə XXI əsr idarəetmə sahəsində və yeni dövlət islalatlarında məxsusi yer tutan avtomatlaşmanın aktuallığını Azərbaycan təhsili kontekstində təhlil edir. Süni intellekt vasitələrinin və süni intellekt əsaslı metodların tətbiqinin təhsil prosesində vacibliyinin artması halı mövzunun aktuallığının əsas nöqtələridir.

Məqalənin mövzusu süni intellekt sahəsindəki innovasiyaların və qabaqcıl təcrübələrdə süni intellekt modellərinin Azərbaycan Respublikasında təhsil strukturlarında tətbiqinin dəyərləndirilməsidir. Süni intellektin təhsildə (ali,orta) tətbiqinin məhdudiyyətlərinin aradan qaldırılması.Tətbiq zamanı əsas məhdudiyyətlərindən biri də son illərdə süni intellekt araşdırmaları sahəsində Azərbaycan dilində və yerli ədəbiyyatın az olmasıdır.

Rəqəmsallaşma.Hazırkı dövrdə vaxt anlayışı daha önəmli məna daşıyır. Demək olar ki,bütün sahələrdə informasiyanı daha qısa zamanda əldə etmək cəmiyyətlər və fərdlər üçün çox əhəmiyyətlidir.

Son dövrlərdə İKT vasitələrindən mütəmadi istifadə təhsil sahəsində daha çox yeniliklərə gətirib çıxardı.Beləliklə,rəqəmsallaşma gündəlik həyata daha çox sirayət etdi.Lakin bununla yanaşı bu sahədə bir çox uyğunlaşma problemi də ortaya çıxdı.

Baş verənlərlə uyğunlaşa bilməyənlər bir çox problemlərlə üzləşdilər. Bu problemli vəziyyət bugünkü təhsil sisteminin təhsil texnologiyalarından istifadə etmədən təhsil verməsinin demək olar ki, qeyri-mümkün olduğunu açıq şəkildə ortaya qoydu.Rəqəmsallaşdırma- "analoq materialın kompüterdə saxlanmaq üçün rəqəmsal formataçevrilməsi prosesi" kimi ifadə edilir. Məlumatların, sənədlərin, kitabların və jurnalların elektron mühitə yüklənməsi ilə rəqəmsallaşmanın təsirindən danışmaq olar[2]

Rəqəmsallaşmaya keçid. Müasir təhsil strukturunda rəqəmsallaşmaya keçid sürətlə davam edir.İnnovativ layihələr,tələbə və şagirdyönümlü sistemlərdə əsasən araşdırma ağırlıqlı metodlar çəhs rəqəmsal resurslardan istifadəyə zərurət yaradır.İstənilən elm sahəsinə uyğun materiallar,ədəbiyyatlar,video və audiodərsliklər artıq rəqəmsal formada hər bir istifadəçiyə təqdim olunur.Bununla da rəqəmsallaşma termini gündəlik həyatımızda tez-tez işlənən termin hesab olunur.Rəqəmsallaşmanın ən əhəmiyyətli xüsusiyyətlərindən biri də sırf zamana qənaət edilməsinə şərait yaratmasıdır.

Smart -təhsil.Son on ildə tez-tez eşitdiyimiz ifadələrdən biri olan "smart – təhsil" əslində özündə bir çox şaxə saxlayır. Ağıllı telefonlardan,ağıllı robotlardan ağıllı lövhələrə qədər gedən uzun bir yolda öyrəndiklərimiz zaman keçdikcə daha da çoxalmış bilgi olaraq bizə geri qayıdır.Demək olar ki ,təhsilin bütün sahələrin ən müxtəlif metodlarla ən müxtəlif aparat-proqram vasitələrdən istifadə etməklə smart-təhsil sistemini ənənəvi hala gətirmək mümkündür.Hazırda onlayn lüğət,animasiya,kodlama və s. Proqramlarından istifadıin praktiki hissəsində fəaliyyəti intensivləşdirməklə həm təhsil verənlərin həm də təhsilalanların praktiki cəhətdən inkişafını sürətləndirmək istənil nəticəni əldə etmək mümkün olmuşdur.

Süni intellektin tətbiqi. Süni intellekt günümüzdə çox populyar mövzuya çevrilmişdir.Bunun çox yaxşı nümunəsi olaraq Stepan Hawking,Elon Musk kimi məşhurları,Chatgpt,Gammapp və s. kimi proqramları göstərmək olar.Belə ki,artıq axtardığımız hər hansı mövzu haqqında sadəcə olaraq bir və ya bir neçə açar söz yazmaqla istənilən məlumatı almaq olar.Hətta bu prosesi istənilən dildə həyata keçirmək mümkündür.Süni intellektin tətbiqinin kütləvi hal alması ilə bağlı olaraq STEAM sahəsində də bir çox innovasiyalar əldə edilmişdir.Artıq hətta orta məktəbin ibtidai siniflərindən başlayaraq TinkerCad proqramından istifadə etməklə həm aparat ,həm proqram, həm də kodlama ilə ilkin layihələr hazırlanır.

Nisbətən daha fəal inkişaf etdirilən yanaşmalar və süni intellekt metodları aşağıdakılardan ibarətdir [3]:

•Süni neyron şəbəkələri;
•Təkamül hesablamaları;
•Qeyri-səlis məntiq və qeyri-səlis çoxluqlar nəzəriyyəsi;
•Ekspert sistemləri;
•Hüceyrəvi avtomatlar;
•Çoxagentli sistemlər.

Məhdudiyyətlər. Süni intellekt çox geniş spektrə malik sahə olduğundan burada bəzi məhdudiyyətlər də ortaya çıxa bilir.Belə ki,təhsildən söhbət gedirsə ,müxtəlif yaş qrupları və müxtəlif ixtisaslı təlimçilərlə işdən söhbət gedir.Ən çox məhdudiyyət olaraq görülən faktor Azərbaycan dilində ədəbiyyat azlığı faktorudur.Təhsil dedikdə daim inkişafda olan sahə başa düşülür.Zamanın tələbinə uyğun olaraq təhsilverənlərin praktiki inkişafının zərurəti yaranır.Daha uyğun sahə olaraq robotexnika,informatika,texnologiya sahələrində çalışan təlimçilərin inkişafı üçün ədəbiyyat məhdudluğu nisbətən inkişaf sürətinin azalmasına təsir edir.Bunun üçün də daha çox xarici ədəbiyyatların dilimizə təcüməsi məqsədəuyğundur və zəruridir [1].

Süni intellekt elə bir texnoloji istiqamətdir ki, ki, insan zəkası kimi düşünən,cavab verən kompüterləşmə, robotexnika və s. sistemlər yaratmaq üsullarını asanlaşdırır. Nəticə olaraq süni intellekt müxtəlif mənbə və elm sahələrində innovativ yeniliklər etməklə bir çox alternativ öyrənmə və öyrətmə üsullarının yaranmasına şərait yaratmışdır. İnformatika, dəqiq elmlər, dilçilik, psixologiya, təbiət elmləri,tibb və s. elm sahələrində süni intellektin köməyilə bir sıra yeni sistemlər və texnologiyalar sınaqdan keçirilməkdədir. Bu prosesdə Azərbacan təhsil sistemində süni intellektin nəzəri və praktiki töhvələrindən yararlanmaq üçün yeni ədəbiyyatlar yazılmalı və tərcümə olunmalıdır.Çünki dünya təcrübəsində süni intellektin aktiv istifadəsi və bu sahədə innovativ layihələrin yaranması inkişaf yolunda çox önəmli faydala verməkdədir və verəcəkdir.

Ədəbiyyat

1. https://unec.edu.az/application/uploads/2022/04/Rzayev-Samir-Zahid.pdf
2. İlkanə Mübariz qızı Pənahova , Təhsildə rəqəmsallaşma dövrü, 2021, Pedaqoji Kadr Hazırlığı : Müasir Yanaşmalar Və Trendlər ,3 səh.

3. R.Ə.Balayev,M.N.Əlizadə,İ.K.Musayev ,İntellektual Sistemlər Və Texnologiyalar, Bakı 2016, "Msv Nəşr" nəşriyyatı, Dərs vəsaiti,256 səhifə.

РЕЗЮМЕ
ИСКУССТВЕННЫЙ ИНТЕЛЛЕКТ В ОБРАЗОВАНИИ
Иманова Ш.Дж.

Ключевые слова: *цифровизация, умное образование, переход к цифровизации, применение искусственного интеллекта, ограничения.*

В статье анализируется актуальность автоматизации в сфере управления XXI века и новых государственных реформ в контексте азербайджанского образования. Возрастающая значимость инструментов искусственного интеллекта и применение методов на основе искусственного интеллекта в образовательном процессе являются основными моментами актуальности темы. Темой статьи является оценка инноваций в области искусственного интеллекта и применение моделей искусственного интеллекта в передовой практике в образовательных структурах Азербайджанской Республики. Ограничения применения искусственного интеллекта в образовании (высшем, среднем): Одним из основных ограничений при применении является отсутствие в последние годы литературы на азербайджанском языке и местной литературы в области исследований искусственного интеллекта.

SUMMARY
ARTİFİCİAL İNTELLİGENCE İN EDUCATİON
Imanova S.J.

Keywords: *digitalization, smart education, transition to digitalization, application of artificial intelligence, limitations*.

The article analyzes the relevance of automation in the field of 21st century management and new state reforms in the context of Azerbaijani education. The increasing importance of artificial intelligence tools and the application of artificial intelligence-based methods in the educational process are the main points of the relevance of the topic. The topic of the article is the evaluation of innovations in the field of artificial intelligence and the application of artificial intelligence models in advanced practices in educational structures in the Republic of Azerbaijan. Limitations of the application of artificial intelligence in education (higher, secondary): One of the main limitations during application is the lack of literature in the Azerbaijani language and local literature in the field of artificial intelligence research in recent years.

TƏHSİLDƏ SÜNİ İNTELLEKT VƏ ONUN İNKİŞAFI

İsmayılov Asiman Rizvan oğlu

Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
asimanismayilov1998@gmail.com

Açar sözlər: *Süni intellekt, təhsil, süni intellektin inkişafı.*

Süni intellekt inkişaf etdikcə təhsil də inkişaf edir və nəticədə bir sıra ölkələrdə təhsil sektorunda süni intellekt və texnologiyadan geniş istifadə olunur. Yazımın əsas məqsədi süni intellektin təhsildə tətbiqi və bunun gələcəkdə təhsil sistemində hansı nəticələrə gətirib çıxaracağını araşdırmaqdır. Süni intellektin təhsildə tətbiqi müasir dövrün təhsil sistemindəki bir sıra çətinlikləri aradan qaldırmaq üçün faydalı olacaq. XXI əsrdə yaşadığımızı nəzərə alsaq, süni intellektin təhsildə tətbiqinin vacibliyini xüsusilə vurğulamaq lazımdır.

Süni intellekt günümüz təhsil sistemində çox geniş spektrumda tətbiq olunan bir konseptdir. Tələbələrin və tələbələrin ixtisas sahələrinin inkişafı üçün Süni intelekt, inkişaf etmiş alqoritmlər, maşın öyrənməsi və böyük məlumat analitikası ilə təmin olunan innovativ tədris üsulları ilə əhatə olunmuşdur. Son illərdə, süni intellektin böyük inkişafı, təhsil sahəsində də ciddi dəyişikliklərə səbəb olmuşdur. Bu inkişaf, tələbələrə daha effektiv və adaptiv təhsil imkanı yaratmağı, təlim tərzi və proqramlarını individual şəkildə tənzimləməyi mümkün edir. Təhsil sahəsində Süni intellektin rolu və inkişafı, müasir təhsilin keyfiyyətini artırmağa nail olur.

Süni intellektin əhəmiyyətini başa düşməyin ən asan yolu süni intellektin əsaslarını dərindən başa düşməkdən ibarətdir. Süni intellekt maşınlarda insan intellektini təqlid etmək üçün istifadə edilən çoxsaylı texnologiyaların birləşməsinə aiddir. Əgər süni intellektin müxtəlif tərifləri ilə rastlaşmısınızsa, o zaman bilməlisiniz ki, süni intelekt bir texnologiya deyil. Əksinə, o, maşın öyrənməsi, neyron şəbəkələri, təbii dilin işlənməsi və dərin öyrənmə kimi bir çox başqa texnologiyaları əhatə edir.

Süni intellektin faydalarına dair bələdçilərin digər mühüm aspekti süni intellektin ən diqqətçəkən variantlarına işarə edir. Fərqli funksiyaları və məhdudiyyətləri olan dar süni intelekt və ümumi süni intelekt kimi iki növ süni intellekt tapa bilərsiniz. Dar süni intellekt rəqəmsal köməkçilər və hava proqramları kimi

əvvəlcədən proqramlaşdırılmış tapşırıqlar üçün süni intellektin istifadəsinə aiddir. Dar süni intelektin əsas diqqəti öyrənməkdən daha çox səmərəliliyi artırmaq ətrafında fırlanır. Digər tərəfdən, ümumi süni intellekt insan intellektini təqlid etməyi öyrənməyə diqqət yetirir. Ümumi süni intellekt insanlar üçün nəzərdə tutulmuş geniş spektrli kompleks vəzifələri həll edə bilər. Bununla belə, "həqiqətən ağıllı" süni intellekt sisteminin vizyonu hələ də bir konsepsiyadır və reallığa çevrilməzdən əvvəl bir az vaxt tələb oluna bilər.

Təhsildə süni intelektin rolu. Təhsildə Süni intelektin rolu əsasən iki sahədə məlum olunur: təlim təminatı və təşkilat. Birinci sahədə, tələbələrə müstəqil öyrənmə platformaları təklif edilir. Bu platformalar, tələbələrə onların bacarıqlarına uyğun təlim materialını təmin etmək və öyrənmə prosesini tənzimləmək üçün maşın öyrənmə alqoritmlərindən istifadə edir. İkinci sahədə, təşkilatlar tələbələrinin iradələri və bacarıqları əsasında proqramlar təklif edərək onların effektiv şəkildə öyrənməsini təmin edirlər. Bu yeni texnologiyalar, təhsil sahəsində innovasiyaların qapılarını açaraq tələbələrin öz potensiallarını daha da artırmağa imkan verir.

Süni intellektin təhsildə rolu, adaptiv təlim prosedurlarının tətbiqi və maşın öyrənməsindən istifadə etməklə bir sıra innovativ imkanlar təqdim etməkdir. Bu, təlim proqramlarının tələbələrin bacarıqlarına və tələbələrin individuallığına uyğun şəkildə tənzim edilməsinə imkan verir. Maşın öyrənməsi vasitəsilə təlim materialı təqdim edildikcə, tələbələr öz öyrənmə təcrübələrini daha effektiv şəkildə planlaşdıraraq öz potensiallarına nail olmağa daha çox imkan tapırlar.

Süni intelekt, tələbələrin bacarıqları, maraqları, və öyrənmə tempolarına əsaslanaraq individuallaşdırılmış təhsil planları təklif edir. Hər bir tələbənin öyrənmə yolu fərqli olduğu üçün, bu texnologiyalar tələbənin güclü və zəif tərəflərinə uyğun təhsil proqramlarını təmin etməklə tələbələrin öz potensiallarına daha yaxşı nail olmalarına yardım edir.

Süni intelekt, tələbələrə müstəqil öyrənmə platformaları təmin edərək, öyrənmənin fərqli sahələrində özünü təhlil etmə və inkişaf etmə imkanı verir. Bu platformalar, tələbələrə öz tempo və öyrənmə prosseslərinə uyğun şəkildə təlim materialını istifadə etmək üçün olanak yaradır. Bu, tələbələrə daha çox özgürlük və özgünlük təmin edərək onları öyrənməyə daha marağlı və özündən daha özəlləşmiş etməyə kömək edir.

Süni intelekt, tələbələrin kreativ düşünmə və problem həll bacarığını inkişaf etmələrini dəstəkləyir. Alqoritmların təklif etdiyi müstəqil və interaktiv tapşırıqlar, tələbələrə müstəqil düşünmə və çözüm tapma bacarığı qazandırmağa kömək edir. Bu, tələbələrin həm öz problemlərini həll etmə, həm də yaratıcı tədqiqatlarını aparabilme bacarığını inkişaf etmələrinə nail olur.

Süni intelekt, təlim proseslərinin effektivliyini ölçmək üçün məlumat analitikasından istifadə edir. Bu, tələbələrin inkişafını qiymətləndirir və təhsil proqramlarını proqnozlaşdırmağa kömək edir. Bu sayədə tələbələr daha yaxşı nailiyyətlər əldə edə bilər və təlim prosesləri daha da optimallaşır.

Süni intellektin inkişafının əhəmiyyəti. Süni intellektin təhsildə inkişafı, müasir təhsil sistemini daha adaptiv və effektiv hələ gətirməyə yardım edir. Bu, tələbələrin özünü daha yaxşı başa düşməsi, problemləri həll etməsi və kreativ düşünmə bacarığını inkişaf etməsi üçün daha çox imkan yaratmağa kömək edir. İnkişaf edən texnologiyalar, tələbələrinin təcrübələrinə uyğun şəkildə öyrənməsinə imkan verir. Bu, tələbələrə daha çox özgürlük və özgünlük təqdim edir və onları təcrübə əsasında öz bacarıqlarını inkişaf etdirməyə kömək edir.

Tətbiqi. Təhsildə süni intelektin tətbiqi geniş bir spektrumu əhatə edir. Maşın öyrənməsi təlim təminatını tənzimləmək və tələbələrin individuallaşdırılmış təhsil planlarını hazırlamaq üçün müstəqil öyrənmə alqoritmlərini istifadə edir. Bu, tələbələrə öz tempo və təcrübələrinə uyğun öyrənmə imkanı yaradır.

Süni intelekt, məlumatların analitikasını etmək və təcrübə əsasında təlim proqramlarını tənzim etmək üçün də istifadə olunur. Bu, tələbələrin müstəqil təcrübələrə və nailiyyətlərinə uyğunlaşaraq inkişaf etmələrinə imkan verir.

İnkişafın əhəmiyyəti. Süni intelektin təhsildə inkişafının əhəmiyyəti, tələbələrə müstəqil öyrənmə imkanları verməklə yanaşı, tələbələrin kreativ düşünmə və problem həll etmə bacarığını inkişaf etdirməyə dəstək olur. Bu, təhsildə süni intelektin dərinliyi və genişliyini artıraraq tələbələrin müstəqil düşünmə və yaratıcılıq bacarığını dəstəkləyir.

Ağıllı kənd konsepsiyasının əsas məqsədi kənd sakinlərinin həyat keyfiyyətini artırmaq, kənd sakinlərinin texnologiyalardan maksimum yararlanmasını təmin etmək, bir sözlə kənd və şəhər arasında körpü yaratmaq üçün texnologiyanın gücündən istifadə etməkdir.

Sürətli internetin ağıllı kəndlərə tətbiqi: Yüksək sürətli internetin Ağıllı Kəndlərə tətbiq edilməsi nəticəsində kənd sakinlərinin bir-biri ilə, həmçinin daha geniş dünya ilə əlaqə saxlamasına imkan yaradır. Bununla belə tələbələrin tədris materiallarına daha rahat çıxışı təmin olunur bu da onların təhsildə inkişaf etməsinə səbəb olur. Sürətli internet, əkinçilik texnikalarına tətbiq edilərək, kənd təsərrüfatı təcrübələrini *optimallaşdırmaq və məhsuldarlığı artırmağa kömək edir.*

Məlumatların toplanaraq qərarların qəbulu: Kənd sakinlərindən məlumatlar sorğular, anketlərin doldurulması vasitəsilə həyata keçirilə bilər. Mobil proqramlar və onlayn sorğular hazırlanaraq kənd sakinlərindən rəqəmsal məlumatlar toplanılır və həssas məlumatlar üçün kibertəhlükəsizlik tədbirləri görülür. IoT cihazlarının köməyi ilə ətraf mühit şəraiti, hava haqqında məlumat toplamaq üçün sensorlardan istifadə edərək məlumatlar toplanılaraq qərarlar qəbul olunur.

Mobil tətbiqlər və veb saytların Ağıllı kəndə tətbiqi: Kənd təsərrüfatı tətbiqləri vasitəsilə fermerlər real vaxt rejiminə uyğun olaraq hava şəraiti, məhsulun idarə edilməsi, məhsula bazarda tələbat və bazar qiymətləri kimi məlumatlara çıxış əldə edirlər. Həmçinin onlayn e-hökümət xidmətlərindən yararlanmaq üçün mobil tətbiqlər istifadəyə verilir. Bundan əlavə yerli sahibkarların öz məhsullarını onlayn sata biləcəyi e-ticarət platforması yaradılır hansı ki, burada məhsuldan əlavə kənd təsərrüfatı üçün lazımi ləvazimatlar, gübrə, toxum da satılır.

Ədəbiyyat

1. Bosworth G. *et al.* Rural co-working: New network spaces and new opportunities for a smart countryside. The Journal of Rural Studies (2023).
2. Li Y. *et al.* Why some rural areas decline while some others not: An overview of rural evolution in the world Journal of Rural Studies (2019).

РЕЗЮМЕ
ПРОЕКТИРОВАНИЕ И ВНЕДРЕНИЕ ИНФОРМАЦИОННОЙ СИСТЕМЫ РАЗВИТИЯ УМНЫХ ДЕРЕВЕНЬ

Микаилова Н.Е.

Ключевые слова: *«умная деревня», развитие сельских районов, цифровая революция, устройства IoT, мобильные приложения.*

Целью данного исследования является создание комплексной системы передовых технологий для повышения эффективности, связности и общего качества жизни в регионах. Основными проблемами сельских жителей являются ограниченный доступ к основным услугам, образованию, здравоохранению и экономическим возможностям. Проект «умная деревня» реализуется для решения этих проблем путем преодоления цифрового разрыва. Используемые здесь технологии включают мониторинг в реальном времени, принятие решений на основе данных, устройства IoT, мобильные приложения и веб-сайты, которые позволяют сельским жителям пользоваться технологическими услугами.

SUMMARY
DESIGN AND IMPLEMENTATION OF AN INFORMATION SYSTEM FOR THE DEVELOPMENT OF SMART VILLAGES

Mikayilova N.E.

Keywords: *Smart village, rural development, digital revolution, IoT devices, mobile applications.*

The goal of this research is to create a comprehensive framework of advanced technologies to improve efficiency, connectivity and overall quality of life in the regions. The main problems of rural residents are their limited access to basic services, education, health and economic opportunities. The smart village project is being implemented to solve these problems by bridging the digital divide. Technologies used here include real-time monitoring, data-driven decision making, IoT devices, mobile apps and websites to enable rural residents to benefit from technological services.

ENERGETİKADA NEYRON ŞƏBƏKƏLƏRİN TƏTBİQİ PROBLEMLƏRİ

Mustafayeva Aidə Mübariz qızı, Baxşiyeva Günel Səfər qızı, Əliyeva Zemfira Əhməd qızı

Mingəçevir Dövlət Universiteti, Mingəçevir, Azərbaycan
aida.mustafayeva@mdu.edu.az, gunel.baxshiyeva@mdu.edu.az, zemfira.aliyeva@mdu.edu.az

Açar sözlər: *energetika, intellektual şəbəkə, süni neyron şəbəkə, proqnozlaşdırma.*

Son zamanlar enerji sektorunda enerji böhranı yaşanır. Köhnəlmiş infrastruktur və ideoloji yanaşmalar yeni tələblərə cavab vermir. Bu böhranın qarşısını almağın bir yolu ağıllı şəbəkələrdən istifadə etməkdir. Enerji sektorunda əsas vəzifə gedən proseslərin düzgün idarə edilməsi və məlumatların ötürülməsidir. Böyük miqdarda məlumat bəzi problemlər yaradır və onlar neyromodel aparatının köməyi ilə həll edilə bilər. Müasir enerjidə perspektivli proqnozlaşdırma üsulu süni neyron şəbəkələrinin istifadəsidir. Neyronlar bir sıra giriş siqnallarından çıxış siqnalını hesablayan prosessorlardır. Elementin çıxış siqnalı digər elementlərə ağırlıqlı birləşmələr vasitəsilə ötürülür. Məqalədə göstərilir ki, smart şəbəkə "ağıllı" şəbəkənin təkamüllü davamıdır və buna görə də süni neyron şəbəkəsindən istifadəni təklif edir. Əsas fərq infrastruktur və inkişaf dinamikasındadır. Süni neyron şəbəkələri qeyri-xətti çevrilmələr vasitəsilə giriş siqnallarını çıxış siqnalına çevirən bioloji neyron şəbəkəsinin riyazi modelidir. Neyron şəbəkələri proqramlaşdırılmır, onlar verilənlər bazasında öyrədilir. Ənənəvi alqoritmlərlə müqayisədə əsas üstünlüyü öyrənmək bacarığıdır.

İstehsal dünyası 4-cü sənaye inqilabının astanasındadır. McKinsey Global İnstitutu tədqiqatçılarının tərtib etdiyi hesabata görə, 2030-cu ilə qədər 800 milyon iş yeri avtomatlaşdırma və robot texnikası ilə əvəz olunacaq. Bununla belə, "Sənaye 4.0"-ün ümumi qəbul edilmiş tərifi yoxdur. Bu anlayış istehsalda müasir texnologiyalardan istifadə və prosesdə insanın iştirakını bununla da minimuma endirmək kimi başa düşülür (Алдошина А. Н., 2016).

Demək olar ki, Sənaye 4.0 aşağıda göstərilən tarixi hadisələrin məntiqi davamıdır:
1970-ci illərdə ortaya çıxan avtomatlaşdırmaya inteqrasiya olunmuş elektron və proqram vasitələri;
1990-cı illərdə istehsalat autsorsinqi fenomeni;
2000-ci illərdə İT sistemlərindən istifadə etməklə müəssisələrin idarə edilməsinin avtomatlaşdırılması.

Sənaye 4.0 texnologiyasına aşağıdakı elementlər daxildir:
- bulud texnologiyaları (cloud),
- süni intellekt texnologiyaları (İA),
- böyük verilənlərin emalı texnologiyaları (BigData),
- Əşyaların İnterneti (IoT).

"Sənaye 4.0" texnologiyasının əsas xüsusiyyəti onun modulluğudur. Ağıllı komponentlər aşağıdakı xüsusiyyətlərə malikdir:

-məlumat mübadiləsi üçün standart interfeysə və unikal ünvana malik, öz vəziyyəti və yeri haqqında məlumatı ötürə və saxlaya bilər;

-riyazi modellərlə təsvir edilir.

"Sənaye 4.0" texnologiyası çərçivəsi daxilində süni intellekt sistemlərinin istifadəsi enerji təchizatı problemlərinin həlli, elektrik qurğularının istismarı haqqında tam və etibarlı məlumatların əldə edilməsində, hər hansı bir elektrik şəbəkəsindəki bütün proseslər və parametrlər haqqında, enerji resursları tələbatının proqnozlaşdırılmasını təkmilləşdirməkdə, enerji istehsalının etibarlılığının qiymətləndirilməsində qlobal dəyişikliklərə səbəb olur

Süni intellect sistemlərinin energetikada tətbiqi istiqamətləri.

Aşağıda müasir enerji sistemlərində süni intellektin istifadəsi ilə əlaqəli əsas məsələlərin siyahısı verilmişdir:

- yükün proqnozunu vermək üçün ətraf mühitin temperaturunun proqnozlaşdırılması;
- şəbəkələrdə elektrik enerjisi axınlarının idarə edilməsi və maksimal gücün təmin edilməsi;
- gərginliyin tənzimlənməsi;
- enerji sistemlərində nasazlıqları müəyyən etmək üçün diaqnostika;
- enerji sistemlərinin təhlükəsizliyinin nəzarəti üçün vericilərin yerləşdirilməsinin optimallaşdırılması;
- enerji sistemlərinin təhlükəsizliyinin monitorinqi;
- transformatorların mühafizəsinin təmin edilməsi;
- sabitliyin təmin edilməsi, dinamik vəziyyətin qiymətləndirilməsi və qeneratorların diaqnostikası;
- turbin qeneratorunun idarə olunması;

- generatorlar şəbəkəsinin idarə edilməsi.

Enerji sistemlərinin idarə edilməsinin avtomatlaşdırılmasında süni intellect sistemlərindən istifadə durmadan artır. Ekspert sistemləri (ES) texnologiyaları və neyron şəbəkələrin inkişafı energetika sistemlərinin vəziyyətinin qiymətləndirilməsi üçün həll edilməli məsələlərin əhatə dairəsinin genişləndirilməsinə imkan verir.

Hal-hazırda ekspert sistemlərinin növlərindən biri hybrid ekspert sistemləridir. Onların vasitəsilə bilik bazasında biliklərin təqdim edilməsinin müxtəlif modelləri birləşdirib və email üçün bir neçə texnologiyadan istifadə olunur (Алферова Т. В., 2019). İnsanın intellektual fəaliyyətini imitasiya etməklə problemin həlli üçün birdən çox üsuldan istifadə edən sistem elə hibrid intellectual sistemdir. Hibrid intellektual sistemin əsas komponentləri ekspert sistemləri və süni neyron şəbəkələridir. Ekspert sistemləri süni intellektin bir istiqamətidir və istənilən problemin həllində ekspert-mütəxəssis kimi qərar qəbul edə bilir (Зайцев И.В., 2005), (Колесников А.В., 2007). Ekspert sistemlərinin digər süni intellekt sistemlərindən fərqi ondadır ki, onlar neyron şəbəkələri və qenetik alqoritmlər kimi bəzi universal problemləri həll etmək üçün nəzərdə tutulmayıb. Ekspert sistemləri tərtibatçılar tərəfindən müəyyən bir sahədə problemin yüksək keyfiyyətli həlli üçün nəzərdə tutulmuşdur. ES-i mövzu üzrə ekspertlər, bilik mühəndisləri və proqramçılarla birgə səyin bəhrəsidir. Ekspert sistemin quruluşu şəkil 1-də təsvir olunub.



Şəkil 1. ES quruluşu

Bilik bazasına bir neçə müxtlif biliyin təqdimatı modelini birləşdirən sistem hibrid ES adlanır. Energetikaya aid məsələlərin həlli üçün tətbiq olunan hibrid ekspert sistemlərinin əsas komponenti mühəndis bilikləri bankıdır. Bankda elektrik şəbəkəsi komponentlərinin tipik riyazi modelinin təsviri saxlanılır. Hibrid ekspert sistemlərində istifadə olunan üsul və alqoritmləri məntiqi və evristik sistemlərə bölmək olar. Elektrik şəbəkələrinin layihələndirilməsinin avtomatlaşdırılması üçün məqbul sayılan evristik üsüllardır. Sistemlə işin gedişatı elə qurulur ki, istifadəçi mərhələlı modelləşdirmə üçün aldığı məlumatla digər modellərin xüsusiyyətlərini anlaya bilsin, hesablamaların ardıcıllıına və dəqiqliyinə təsir edə bilsin. Hibrid ekspert sisteminin quruluşunu genişləndirmək üçün süni neyron şəbəkə apparatını tətbiq etmək olar. Süni neyron şəbəkələrinin üstünlükləri bunlardır:

- strukturun elastikliyi;
- sürətli öyrənmə alqoritmlərin tətbiqi;
- çox sayda küylü siqnalların mövcud olduğu halda işləmə bacarığı;
- müxtəlif növ məlumatlarla işləmə bacarığı;
- ayrı-ayrı elementlərin nasazlığı halında təlim keçmiş süni neyron şəbəkələrinin davamlılığı.

Fəaliyyət göstərən belə hibrid neyron şəbəkə öz bilik bazasını mövzuya aid sahənin eksperti-mütəxəssisi, həm də təlim keçmiş neyron şəbəkəsi biliyindən istifadə etməklə genişləndirə bilər. Digər tərəfdən neyron şəbəkəsinin təlimi üçün məlumatlar ekspert sisteminin bilik bazasından əldə edilə bilər.

Hibrid ekspert neyron şəbəkələri aşağıdakı komponentlərdən ibarətdir: öyrədilə bilən neyron şəbəkə, ekspert sistemi, qərar qəbul etmə və izahat modulu, neyron şəbəkənin və ekspert sisteminin qarşılıqlı çevirməyə şərait yaradan interfeys modulu(şəkil 2).



Şəkil 2. Hibrid ekspert neyron şəbəkəsinin quruluşu

Məqalədə elektrik şəbəkələrinin layihələndirilməsi və monitorinqi problemlərinin həllində hibrid intellektual sistemlərin tətbiqinin mümkünlüyündən bəhs edilir. Bilik bazasını genişləndirən hibrid intellektual sistemin quruluşu formalaşdırılıb.

Problemin elmi yeniliyi. Enerji elektrik şəbəkəsinin gücünün proqnozlaşdırılması, nasazlıqların lokallaşdırılması və diaqnostikası, gücün paylanmasının optimallaşdırılması, etibarlılığın qiymətləndirilməsi, enerji elektrik şəbəkəsinin dinamik sabitliyi kimi perspektivli sahələrdə süni neyron şəbəkələrinin tətbiqi.

Problemin praktiki əhəmiyyəti. Qərarların daha səmərəli səviyyədə qəbul edilməsi, standart ekspert sistemlərinin çatışmazlıqlarının aradan qaldırılması, qərar qəbuletmə prosesinin avtomatlaşdırılması kimi sahələrdə neyron şəbəkələrini tətbiq etmək olar.

Ədəbiyyat

1. Алдошина А. Н. Экспертная система на основе нейросетевых технологий для мониторинга и диагностики корпоративной локальной сети // Молодой ученый. - 2016. - №18. - С. 35-38. - URL https://moluch.ru/archive/122/33814 / (дата обращения: 07.12.2019).
2. Алферова Т. В. Компьютерное прогнозирование электрических нагрузок методами нейронных сетей / Т.В. Алферова, Т.А. Трохова, // Агротехника и энергообеспечение, 2019, №3(24). С. 166-174
3. Башева М. А. «Индустрия 4.0» в России: на пороге промышленного переворота // Молодой ученый. - 2019. - №13. - С. 100-102. URL https://moluch.ru/archive/251/57602/ (дата обращения: 11.12.2019).
4. Зайцев, И.В. Нейронные сети: основные модели. И.В.Зайцев. Учебное пособие к курсу “Нейронные сети” для студентов 5 курса магистратуры к. электроники физического факультета Воронежского Государственного университета. 2005.-135 с.
5. Колесников, А.В. Методология и технология решения сложных задач методами функциональных гибридных интеллектуальных систем. / Колесников, А.В., Кириков И.А. - М.: ИПИ РАН, 2007.
6. Каменев, А.С. Нейромоделирование как инструмент интеллектуализации энергоинформационных сетей. / Каменев А.С. Королев С.Ю., Сокотущенко В.Н.- М.: ИЦ «Энергия», 2012. -124 с.
7. Пампуха, И. В. Обоснование использования нейронных сетей в системах поддержки принятия решений при функционировании сложных систем / И. В. Пампуха, Ю. В. Березовская // Сборник научных трудов Военного института Киевского национального университета имени Тараса Шевченко. - 2013. Вып. 42. - с. 85-89. Вып. 42. - с. 85-89.
8. Чувиков, Д. А. Применение экспертного моделирования в получении новых знаний человеком // Радиопромышленность, 2017, №2. С. 72-80.

РЕЗЮМЕ

ПРОБЛЕМЫ ПРИМЕНЕНИЯ НЕЙРОННЫХ СЕТЕЙ В ЭНЕРГЕТИКЕ

Мустафаева А.М., Бахшиева Г.С., Алиева З.А.

Ключевые слова: *энергетика, интеллектуальная сеть, искусственная нейронная сеть, прогнозирование.*

В последнее время в энергетике наблюдается энергетический кризис. Устаревшая инфраструктура и идеологические подходы не отвечают новым требованиям. Одним из способов предотвращения этого кризиса является применение интеллектуальных сетей. В энергетике основной задачей является правильное управление происходящими процессами и передача информации. Большое количество информации создает некоторые проблемы, которые решаются с использованием аппарата нейромоделирования. В современной энергетике перспективным методом прогнозирования

является использование искусственных нейронных сетей. Нейроны-это процессоры, вычисляющие выходной сигнал по совокупности входных сигналов. Выходной сигнал элемента передается другим элементам по так называемым взвешенным связям. В статье показано, что интеллектуальная сеть является эволюционным продолжением «умной» сети и поэтому предлагается использование искусственной нейронной сети. Основное отличие которой заключается в инфроструктуре и динамике развития. Искусственные нейронные сети- это математическая модель биологической нейронной сети, которая преобразует входные сигналы в выходной сигнал посредством нелинейных преобразований. Нейронные сети не программируются, они обучаются на базе данных. И основным преимуществом по сравнению с традиционными алгоритмами является способность к обучению.

SUMMARY
PROBLEMS OF APPLICATION OF NEURON NETWORKS IN ENERGY
Mustafayeva A.M., Bakhshiyeva G.S., Aliyeva Z.A.

Keywords: *energy, smart network, artificial neural network, forecasting.*

Recently, there has been an energy crisis in the energy sector. Outdated infrastructure and ideological approaches do not meet new requirements. One way to prevent this crisis is through the use of smart grids. In the energy sector, the main task is the correct management of ongoing processes and the transfer of information. A large amount of information creates some problems that are solved using a neuromodeling apparatus. In modern energy, a promising forecasting method is the use of artificial neural networks. Neurons are processors that calculate an output signal from a set of input signals. The output signal of an element is transmitted to other elements via so-called weighted connections. The article shows that the smart network is an evolutionary continuation of the "smart" network and therefore proposes the use of an artificial neural network. The main difference lies in the infrastructure and development dynamics. Artificial neural networks are a mathematical model of a biological neural network that converts input signals into an output signal through nonlinear transformations. Neural networks are not programmed; they are trained on a database. And the main advantage over traditional algorithms is the ability to learn.

AVT LOGİSTİKADA YÜKLƏRİN AVTOMOBİL KUZOVUNDA YERLƏŞDİRİLMƏSİNİN VƏ BƏRKİDİLMƏSİNİN ANALİZİ

Namazov Bəxtiyar Fərman oğlu, Əlizadə Elmir Ramin oğlu

Bakı Mühəndislik Universiteti, Xırdalan, Azərbaycan
banamazov@beu.edu.az, eelizade17@std.beu.edu.az

Açar sözlər: *logistika, AVT, yükləmə, NV, palet, anbar, bərkitmə üsulları.*

Logistikanın ən başlıca məqəsədlərindən biri yükləmə-boşaltma əməliyyatlarının düzgün və optimal təşkil edilməsidir. Məqalədə AVT Logistika şirkətinin yükləmə-boşaltma əməliyyatlarının tədqiqi və bu sahədə problemlərin müəyyən olunması, ləngimələrin yaranma səbəbləri, yükləmə-boşaltma işlərində səmərəliliyin artırılması, yüklərin düzgün qaydada çeşidlənməsi və yığılması, müştəri məmuniyyətinin artırılması imkanlarının araşdırlmasına baxılıb, bu məqsədlə təkliflər irəli sürülüb. İşin praktiki əhəmiyyəti yüklərin çatdırılması effektivliyinin artırılması, nəqliyyat vasitələrinin istifadə səmərəliliyinin yüksəldilməsi və beləliklə də anbar-nəqliyyat-müştəri işlərinin optimallaşdırlması üçün əsasın yaradılması, ümumilikdə logistik xərclərin azaldılması, istehlakçı məmnunluğunun yüksəldilməsidir.

Logistik əməliyyatlarına uyğunluq şirkətin təchizat zəncirinin idarə edilməsi və logistik proseslərin effektiv idarə edilməsini şərtləndirən əsas amillərdən biridir. Logistik əməliyyatlara uyğunlaşma şirkətə təchizat zəncirinin idarə edilməsində uğur qazanmağa imkan verir. Planlaşdırma, koordinasiya, inventar idarəetməsi, təchizatçı əlaqələri, logistik şəbəkənin optimallaşdırılması, texnologiyadan istifadə və performansın ölçülməsi kimi amillərə diqqət yetirilməsi logistik əməliyyatların səmərəliliyini artırır və müştəri məmnuniyyətini təmin edir.

Pərakəndə yüklərin səmərəli və düzgün yüklənməsi məhsulun müştərilərə dəqiq və vaxtında çatdırılmasını təmin etmək üçün mühüm əhəmiyyət kəsb edir [3]. Yüklərin səmərəli yüklənməsinin vacibliyini izah edən əsas amillər bunlardır:

1. Müştəri məmnuniyyəti: pərakəndə yüklərin yüklənməsi müştərilərin sifariş etdikləri məhsulları tez və risksiz almasını təmin edir.

2. Rəqabət üstünlüyü: sürətli və etibarlı çatdırılma müştərilərin şirkət seçimində təsirli ola bilər.

3. Ehtiyatların idarə edilməsi: yükün düzgün və lazımi miqdarda yüklənməsi ehtiyat səviyyələrini optimallaşdırmağa kömək edir.

4. Qaytarmaların idarə edilməsi: yanlış və ya zədələnmiş məhsulların geri qaytarılması müştəri məmnuniyyətini təmin etmək üçün tez bir zamanda həll edilməlidir.

5. Xərclərin effektivliyi: yükün sürətli və effektiv yüklənməsi nəqliyyat xərclərini optimallaşdırır və əməliyyat səmərəliliyini artırır.

Göründüyü kimi düzgün yükləmə ümumilikdə təchizat zəncirinin səmərəli fəaliyyəti üçün ciddi amildir. Belə ki, yükləmə əməliyyatında olan proseslərin əsasını müştəri məmnuniyyəti, rəqabət üstünlüyü, gəlirlərin idarə edilməsi və xərc kimi faktorlar təşkil edir. Düzgün və səmərəli yükləmə avtomobillərin yükgötürmə qabiliyyətindən maksimum istifadəni, avtomobillərin yükləmə-boşaltmada boş dayanma vaxtını minimallaşdırmanı, kuzovda yüklərin bərabər paylanmasını, yüklərin lazımi qaydada bərkidilməsini və s. vacib amilləri nəzərdə tutur.

Yüklərin yük maşınının kuzovunda düzgün yerləşdirilməsi təhlükəsiz və səmərəli daşınma üçün də vacib amildir.

Yüklərin daşınması zamanı təhlükəsizliyin təmin edilməsi, yüklərin qorunma səviyyəsinin yüksəldilməsi həmişə prioritet olmalıdır. Təhlükəsizliyin təmin edilməsi üçün yüklər yük maşınının kuzovunda düzgün (minimal araboşluğu ilə) yerləşdirilməli və bərkidilməlidir. Bunun üçün ilk növbədə düzgün qablaşdırma seçilməli, düzgün və lazımi sayda bərkitmə vasitələri və uyğun bərkitmə metodları tətbiq olunmalıdır. Bununla belə, daşımanın xüsusiyyətlərinin nəzərə alınması, sifarişlərin yerinə yetirilmə qaydalarına riayət edilməsi çox vacibdir.

Məlum olduğu kimi istehlak məhsullarının topdansatış və pərakəndə satış mərkəzlərinə çatdırılmasının təchizat zəncirində yüklər əsasən paletlər üzərində qablaşdırılır və mikro yük vahidləri kimi formalaşdırılır. Veysəloğlu MMC şirkətinə daxil olan mağazalara məhsullar palet və təkərli qəfəslərlə (roll cage) göndərilir.

Palet daşımaları çatdırılma vaxtını və daşıma xərclərini azaltmağa imkan verir. Palet daşımalarından istifadənin bir sıra vacib xüsusiyyətləri var. Paletlərin yük maşınlarına düzgün yerləşdirilməsi və analizi yüklərin səmərəli və təhlükəsiz daşınmasının vacib aspektləridir. Paletlərin yük maşınlarına düzgün yüklənməsi üçün bəzi tövsiyələrə əməl edilməlidir:

– Yüklərin bərabər paylanması: yükləri palet üzərində bərabər paylayın. Bu, yükləmə və daşıma zamanı stabilliyi və tarazlığı qorumağa kömək edəcək.

– Yükləmə həddinə uyğunluq: yüklərin ümumi çəkisinin yük maşınının icazə verilən yükləmə limitlərini aşmamasını təmin edin. Bu, təhlükəsizlik və yol hərəkəti qaydalarına riayət etmək üçün vacibdir.

– Paletlərin bərkidilməsi: daşıma zamanı paletlərin yerdəyişməsinin və ya yüklərin düşmələrinin qarşısını almaq üçün paletləri yük maşınının içərisində düzgün bərkidin. Qayışlar, zəncirlər və ya xüsusi bərkitmə vasitələrindən və etibarlı bərkitmə üsullarından istifadə edin.

– Stabilizatorların istifadəsi: lazım olduqda, daşınma zamanı paletlərin yerdəyişməsinin və ya əyilməsinin qarşısını almaq üçün stabilizatorlar və ya ayırıcılardan istifadə edin. Bu, yükü sabit saxlamağa və zərərin qarşısını almağa kömək edəcəkdir.

– Paletlərin yoxlanılması: yükləməzdən əvvəl paletlərin vəziyyətini diqqətlə yoxlayın. Onların zədələnmədiyinə, çatlamadığına və yükə zərər verə biləcək və ya zədələnməyə səbəb ola biləcək iti kənarlarının olmadığına əmin olun.

– Sahədən istifadəni optimallaşdırın: paletləri yükləyərkən yük maşınının kuzovunda mövcud sahədən istifadəni maksimum dərəcədə artırmağa çalışın. Boş yerləri minimuma endirmək və yükgötürmə qabiliyyətini artırmaq üçün paletləri sıx yerləşdirin.

– İşçilərin təlimi: işçilərə paletlərin düzgün yüklənməsi və yükün yerləşdirilməsi üzrə təlim keçin. Avtomobillərin səmərəli yüklənməsi, oxboyu yüklənmə hədlərinə əməl edilməsinin yollarını öyrədin. Riskləri minimuma endirmək və daşıma səmərəliliyini artırmaq üçün işçi heyət təhlükəsizlik qaydaları və yükləmə prosedurlarından xəbərdar olmalıdır.

Paletlərin yük maşınlarına düzgün yüklənməsi və qablaşdırlması daşıma zamanı yükün mümkün zədələnmələrinin və hərəkət təhlükəsizliyini təmin etməyə kömək edəcəkdir.

Paletlərə qablaşdırlmış yüklərin daşıma zamanı qorunmasının və salamatlığının təmin edilməsi üçün onların paletlər üzərində düzgün yerləşdirilməsi, sarınması, qablaşdırma vasitələrinin düzgün seçilməsi vacib amillərdir.

AVT Logistika şirkəti tərəfindən gün ərzində Bakı şəhəri üzrə pərakəndə satış şəbəkəsinə orta hesabla 67 maşın vasitəsilə 256 müştəriyə 776 m^3 məhsul paylanır və buna görə də qeyd olunan məsələlər şirkət üçün önəmli sayılır. Yüklərin daşınması üçün 38 Isuzu (6 – 10 paletlik), 27 Mercedes Atego (14 və 16 paletlik), 1 Hyundai HD-72 (6 paletlik) və 1 Mitsubishi – Temsa FE 839 (6 paletlik) yük nəqliyyat vasitələri istifadə edilir (bax cədvəl 1). Avtomobillərin ümumi palet tutumu 630-dur. Bakı şəhəri üzrə 94 Araz və 400-ə yaxın Oba mağazalarına məhsul çatdırılır.

Cədvəl 1.

AVT Logistika şirkətində pərakəndə satış mərkəzlərinə yüklərin daşınması üçün istifadə olunan yük maşınları

NV-nin modeli	**Say**	**Palet tutumu**
Isuzu NPR-66	21	6 palet
Hyundai HD-65	2	6 palet
ISUZU-NPR-75LK	2	9 palet
ISUZU-NPR-75LD	6	10 palet
ISUZU NPR Vehicle	7	10 palet
Mercedes Atego	2	16 palet
Mercedes Atego	25	14 palet
Hyundai HD-72	1	6 palet
Mitsubishi - Temsa FE 839	1	6 palet
Cəmi:	**67**	**630**

Daşınan məhsulların növü qida, qeyri-qida, kimyəvi qeyri-qida kimi növlərə bölünür. Həmin məhsulların hərəkətinə təcrübəli işçi heyət tərəfindən nəzarət olunur. Lakin qeyd etmək lazımdır ki, çatdırılma prosesində yüklərin aşması, zədələnməsi, yük avtomobillərinin yükgötürmə qabiliyyətindən maksimum istifadə edilməməsi hallarına rast gəlinir. Daşıma prosesini daha da təkmilləşdirmək üçün daşıma prosesinə daha diqqətlə yanaşmaq, mövcud metod və vasitələri düzgün tətbiq etməklə daşımaları optimallaşdırmağa nail ola bilərik. Mağazaya göndərilən məhsulların yararsız vəziyyətə düşməməsi, zədələnməməsi və əlavə reyslərin olmaması üçün bu işlərin görülməsi çox önəmlidir.

Şirkətdə yükləmə zamanı əsas nəzərə alınan amillər məhsulların düzgün qaydada yığılması, çeşidlənməsi, paletləşdirilməsi və streçlənməsindən ibarətdir.

Yüklərin düzgün qaydada yığılması dedikdə, burada əsas diqqətə alınan məqam məhsulların xarakteristikalarının nəzərə alınaraq yığılmasıdır, belə ki, qeyri-qida və qida məhsullarının ayrı olması, ağır məhsulların altda yerləşdirilməsi, tez əzilən məhsulların üst cərgələrə qoyulması, maye məhsulların altlıqlarda yığılışına fikir verilməsi, yararsız məhsulların götürülməməsi, məhsulları yığarkən yükün paletin ölçülərindən kənara çıxmaması, paletin hündürlüyünün gözlənilməsindən ibarətdir.

Yüklərin qablaşdırılması və çeşidlənməsi zamanı plastik yeşiklər və karton qutulardan istifadə olunur. Burada əsas məsələ paletə yüklənən yüklənin həcminin 1,2 m^3-dan, çəkisinin 650 kq-dan çox olmamasıdır. Məhz bunun əsasında proses icra olunur.

Növbəti mərhələdə nəqliyyat vasitələrinin yüklənmə dərəcəsinin artırılması, paletlərin düzgün yerləşdirilməsi nəzərə alınır. 2021-ci ildə AVT Logistikanın yük maşınlarında Bakı və Bakı ətrafı daşımalarda yükgötürmə qabiliyyətindən istifadə əmsalı – 0,713, 2022-ci ildə isə bu qiymət cüzi azalaraq – 0,709 olmuşdur.

Qeyd edildiyi kimi AVT Logistikada kiçik ölçülü qeyri-qida və qida məhsullarının paletlər üzərində yük yeri kimi formalaşdırılması üçün əsasən plastik, qismən isə karton yeşiklərdən istifadə olunur. Bir sıra hallarda bir neçə yükün streçlənərək birləşdirilməsi üsulundan da istifadə olunur. İstifadə olunan plastik yeşiklərin ölçüləri 367×540×400 mm, karton yeşiklərin ölçüləri 378×420×398 mm olmuşdur.

Şəkil 1. AVT Logistikada malların yerləşdirilməsi üçün yeşiklər

Məlum olduğu kimi Avropaletlərin ölçüləri 800×1200 mm-dir. Logistikada yük yerlərinin ortaq ölçülü olması üçün şərti yük vahidinin baza modulundan istifadə edirlər. Bu modul 600×400 mm tərəfli düzbucaqlı şəklindədir, o, nəqliyyat vasitəsinin yük platformasının sahəsində, anbar avadanlığının işçi səthində və s. tam bölünən sayda yığıla bilir. Göründüyü kimi AVT Logistikada istifadə olunan plastik və karton yeşiklərin oturacaq sahəsi yük vahidinin baza modulundan fərqlidir, bu standart yük yerləri yaradılması zamanı müəyyən çətinliklər yaradır. Plastik yeşiklərin oturacaq və üst üzlərinin sahəsi fərqlidir, onlar kəsik piramida fomalıdır. Yeşiklərin yüklənib-boşaldılması zamanı onların tutulması üçün 28 mm-lik haşiyə qoyulub. Palet üzərinə dörd ədəd 367 × 540 mm-lik plastik yeşik yerləşir, bu halda oturacaq sahəsindən istifadə 82,6 % edir. Yeşiklərin oturacaqları arasında 10-12 sm-lik ara boşluğu qalır, bu isə hərəkət zamanı onların dayanıqlığının pozulmasına səbəb ola bilir.

378 × 420 mm-lik karton yeşiklər yerləşdirildikdə (beş yeşik yerləşir) paletin sahəsindən istifadə əmsalı 82,7% təşkil edir. Karton yeşiklər düzbucaqlı prizma şəklindədir, bu logistik tara baxımından daha məqsədəuyğundur, lakin onların da ölçüləri paletlərin sahəsindən səmərəli istifadəyə imkan vermir. Göründüyü kimi bu da logistik baxımdan məqsədə uyğun deyil.

Hazırda AVT Logistikada yüklərin daşınması və nəqliyyat vasitələrinə yüklənməsi üçün təkərli qəfəslərdən (roll cage-lər) də istifadə edilir.

a) b)

Şəkil 2. a) yüklərin düzgün olmayan qablaşdırılması; b) yüklərin düzgün qablaşdırılması

Əllə hərəkət etdirilən təkərli qəfəslər zavod, anbar və ya ticarət mağazalarında malların daşınmasında istifadə olunur. Təkərli qəfəslər müxtəlif formada olur, lakin əsas etibarilə dörd təkər üzərində quraşdırılmış qəfəs formaları geniş yayılıb. Təkərli qəfəslər müxtəlif hündürlüklərdə (1550 mm-dən 1830 mm-ə qədər) istehsal olunur. İki geniş yayılmış təkər ölçüsü mövcuddur: 100 mm və 125 mm diametrli. Geniş istifadə edilən təkərli qəfəslərin ölçüləri 650×800×1800 mm (təkərlərin ölçüsü nəzərə alınmaqla), 690×800×1800 mm, 720×800×1800 mm və 1200×800×1800 mm təşkil edir. Tam yüklənmiş təkərli qəfəslərin çəkisi 500 kq və ya daha çox ola bilər. Bu ölçülər də AVT Logistikada istifadə olunan yeşiklərin ölçüləri ilə uyğunluq təşkil etmir.

Təkərli qəfəsələr iki və dörd yan divarlı (torlu) istehsal olunur. AVT Logistikada istifadə olunan təkərli qəfəslər iki yan divarlıdır, belə avadanlığın hərəkət etdirilməsi və yüklənməsi zamanı yüklərin zədələnməsi ilə bağlı xeyli sayda hadisələr baş verir, bu da əllə işlənmə və yüklərin lazımi dayanıqlığının təmin edilməməsi ilə bağlıdır. Aparılmış müşahidələr göstərir ki, bu tipli təkərli qəfəslərdən müntəzəm istifadə edən şirkətlərdə baş verən qəzaların üçdə biri onlarla düzgün davranmama ilə bağlıdır [2]. Zədələnmələr itələmə/dartma, xüsusilə də yoxuş üzrə yuxarı qalxma, təkərli qəfəslərin yenidən müvazinətinin pozulmasının qarşısını almaq cəhdləri, təkrarlanan yüklənmə və boşaltma, arabacıqların yük maşınlarından düşməsi (məs., hidravlik bortdan) nəticəsində baş verir.

Statistik məlumatlar əsasında qeyd edə bilərik ki, yüklərin mağazalara daşınması zamanı yüklərin dağılması, aşması, zədələnməsi halları müşahidə edilir, gündəlik mağazalara yola salınan malların təxminən 0,5 %-i zədələnir. Gündəlik 100 mağazadan orta hesabla təxminən 10-da problemlər yaşanır.

Şəkil 3. Yüklərin təkərli qəfəslərə yerləşdirilməsi: 1 təkərli qəfəsə 8 və 6 plastik yeşik yerləşdirilib

Problemlərin əsas səbəbi paletlərin aşması, streçin az bağlanması, məhsulların düzgün çeşidlənməməsi ilə bağlı olur. Şirkətdəki ümumi çatdırma prosesini nəzərə alsaq bunu icazə verilən kimi qəbul etmək olar, ancaq daşıma prosesində təkmilləşdirmələr etməklə bunu aradan qaldırmaq və ya əhəmiyyətli dərəcədə azaltmaq mümkündür.

Şəkil 4. Dörd yan torlu (divarlı) təkərli qəfəs

Mağazalara daşımaların təhlükəsiz və səmərəli təşkili üçün tərəfimizdən aşağıdakı səmərələşdirici təkliflər hazırlanmışdır:

1. Packworld-da verilmiş informasiyaya görə təchizat siklində zədələnmiş məhsulun xərci çatdırlma xərcindən 17 dəfə çox ola bilər. Yükün adekvat bərkidilməsi məhsulun tullantılarını azaltmaqla bərabər brendin reputasiyasını yüksəldə bilər.
2. Düzgün qablaşdırma yüklərin çatdırlması üçün həyati əhəmiyyət daşıyır. Mağazalara istehlak və ərzaq mallarının daşınması üçün düzbucaqlı prizma şəkilli 400×300 və ya 600×400 mm-lik plastik yeşiklərin istifadəsinə üstünlük verilməsi;
3. İki yan torlu təkərli qəfəslərin dörd yan torlu təkərli qəfəslərlə əvəz edilməsi;
4. Yüklərin paletlər üzərinə yığılması zamanı qalqlamanın (ştabelləşmənin) hündürlüyünün eyniliyinə diqqət edilməsi;
5. Nəqliyyat vasitələrinin daxilində yüklərin bərkidilməsi üçün yük layları arasında bərkidici lövhələr, hava yastıqları yerləşdirilməsi, dirəklər və ya lövbər nöqtələrindən istifadə edilməsi;
6. Yükün lazımi bərkidilməməsi Əməyin təhlükəsizliyi və gigiyenası üzrə Avropa agentliyinin məlumatına görə yük avtomobillərində baş verən bədbəxt hadisələrin 25%-nin səbəbkarıdır. Hərəkət təhlükəsizliyinin və yüklərin qorunmasının təmin edilməsi üçün yükün uyğun bərkidilməsi üzrə analiz aparılmalı, qablaşdırma üçün ən uyğun bərkitmə vasitələri və metodları müəyyən edilməlidir;
7. Qablaşdırmanın nəqletmə təhlükələrinə qarşı davamlılığına əmin olmaq üçün simulyasiya sınaqlarının keçirilməsi.

Ədəbiyyat

1. AVT Logistika şirkətinin yükləmə əməliyyatının statistikası
2. https://www.hse.gov.uk/food/roll-cages-wheeled-racks.htm
3. Namazov B.F., Məmmədov R.T. Logistikanın əsasları: Dərslik. - Bakı: ECOprint nəşriyyatı, 2019. - 270 s.
4. Виноградова А.С., Ловыгина Н.В. Пример планирования перевозок продовольственных грузов в городе Омске. Сборник материалов II Национальной научно-практической конференции. 2019, Издательство: СибАДИ, Омск.

РЕЗЮМЕ
АНАЛИЗ РАЗМЕЩЕНИЯ И КРЕПЛЕНИЯ ГРУЗА В КУЗОВЕ АВТОМОБИЛЯ В АВТ ЛОГИСТИК
Намазов Б.Ф., Ализаде Э.Р.

Ключевые слова: *логистика, АВТ, погрузка, НВ, поддон, склад, способы крепления.*

Одной из важнейших задач логистики является правильная и оптимальная организация погрузочно-разгрузочных работ. В статье исследование погрузочно-разгрузочных работ компании «АВТ Логистик» и выявление проблем в этой сфере, причин задержек, повышение эффективности погрузочно-разгрузочных работ, сортировка и сбор грузов в правильном порядке, были рассмотрены возможности повышения удовлетворенности клиентов и сделаны предложения с этой целью. Практическая значимость работы заключается в повышении эффективности доставки грузов, повышении эффективности использования автотранспорта и тем самым создании основы для оптимизации складско-транспортно-клиентской работы, снижении логистических затрат в целом и для повышения удовлетворенности потребителей.

SUMMARY
ANALYSIS OF PLACEMENT AND FIXING OF LOADS IN CAR BODY IN AVT LOGISTICS
Namazov B.F., Alizade E.R.

Keywords: *logistics, AVT, loading, NV, pallet, warehouse, fastening methods.*

One of the main goals of logistics is the correct and optimal organization of loading and unloading operations. In the article, the study of the loading and unloading operations of the AVT Logistics company and the identification of problems in this area, the causes of delays, increasing the efficiency in loading and unloading operations, sorting and collecting the loads in the correct order, and the possibilities of increasing customer satisfaction were considered, and proposals were made for this purpose. The practical significance of the work is to increase the efficiency of cargo delivery, to increase the efficiency of the use of vehicles, and thus to create a basis for the optimization of warehouse-transportation-customer work, to reduce logistics costs in general, and to increase consumer satisfaction.

MÜASİR CAD SİSTEMLƏRİN İNTELEKTUALLIĞININ YÜKSƏLDİLMƏSİ YOLLARIMNIN TƏDQİQİ

Talıbov Natiq Həsən oğlu, Rəsulov Rasim Zahid oğlu

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
rasim.rasulov.85@mail.ru

Açar sözlər: *CAD sistemlər, həndəsi modelləşdirmə, süni intellekt, layihələndirmə, texniki sistem.*

İşdə avtomatlaşdırılmış layihələndirmə sistemlərinin tətbiqi ilə obyektlərin həndəsi təsvirlərinin qurulması məsələləri tədqiq olunur. Həndəsi təsvirlərin qurulması prosesini çətinləşldirən faktorlar öyrənilir və onların aradan qaldırılması üçün intellektual vəsaitlərin tətbiq olunması imkanları aydınlaşdırılır.

Müasir avtomatlaşdırılmış layihəndirmə sistemləri (CATİA, EUKLİD, STRİM 100, SAPHİR, PAFEC, CADAM, CADDS4X, ANUİL, İDEAS) başlıca olaraq obyektin həndəsi təsviri məsələlərini həll edir. Onların texniki xarakteristikalarının qiyməti, göstərilən sistemin tərkibinə daxil olmayan hesablama proqramlarının koməyi ilə həyata keçirirlər [1]. Bu hesablama ilə ALS arasında yaradılan sıx əlaqə məqsədəuyğundur. Belə ki, ALS istifadəçiyə çox miqdarda imkanlar verir; o cümlədən ALS məmulatın və onun hissəsinin həndəsi xarakteristikasını təsvir etməyə, müxtəlif verilənlər bazasının tətbiq olunmasına və vəsaitlərə aid hesablamaların qrafik təsvirinə imkan verir. Bu əlaqə aşağıdakı faktorlar əsasında mürəkkəbləşir:

- əgər obyektlərin həndəsi təsvir sistemi universaldırsa, onda fiziki xassələrin və funksiyalaşdırmanın təsviri obyektin tipindən asılı olur;
- vəziyyətlər ardıcıllığında hesablama vaxtının çox böyük olması işdə interaktiv rejimdən istifadə etməyə imkan vermir;
- əgər verilənlər bazası dar istiqamətlidirsə, onda onları yeni məsələlərə uyğunlaşdırmaq çətindir;
- qrafik təsvirlər mənbəyi məhduddur və bununla əlaqədər olaraq bəzi məsələlərin (yəni cərəyan xətlərinin təkrarən istehsal edilməsi) öhdəsindən çətinliklə gəlmək olur;
- müasir ALS həcmcə çox böyükdür. Bu da onların inkişaf etdiruilməsinə və tətbiq olunmasına çətinliklər törədir. Məsələn: Computervision firmasının CADDAX 4X sisteminin ilkin proqramları milyona yaxın operatorlardan ibarətdir.

Deyilənlərdən aydın olur ki, obyektlərin fiziki xarakteristikalarının təsviri üçün lazım olan hesablama vəsaitləri həm ALS çərçivəsində, həm də ondan xaricdə inkişaf etməlidir [2]. Bu gün ALS yüksək ixtisaslı layihəçinin aləti sayılır. Onların işlənməsi böyük elmi-texniki məsələdən ibarətdir. Bu məsələnin həlli ona görə çətinləşir ki, bu sistemdə işlənmə nəzəriyyəsi mövcud deyildir. Təəssüf ki, həm avtomatlaşdırılmış layihələndirmə nəzəriyyəsi, həm də layihələndirmənin ümumi nəzəriyyəsi haqqında danışmaq hələ tezdir. Hal-hazırda ALS-in yaradılma metodologiyasından danışmaq olar. Belə sistemlərin işlənməsi və istifadə olunması prosesində toplanan eksperimental verilənlər imkan verir ki, aşağıdakı bəzi nəticələr alınsın:

- texniki sistemlərin ALS-nin yaradılması ancaq və ancaq hesablama texnikasının imkanlarından deyil, həmçinin insanın yaradıcılıq fəaliyyəti olan layihələndirmə nəzəriyyəsi sahəsindən, mexaniki-yığım istehsalatına aid nəzəriyyələrdən və müasir riyazi metodlar oblastına aid dərin biliyimizdən asılıdır. Bunların tətbiqi göstərilən məsələlərin rasional və optimal həllini tapmağa imkan verir;
- inkişafdan qalmış layihələndirmə nəzəriyyəsindən inkişaf etmiş və səmərəli ALS qurmaq olmaz;
- səmərəli AlS yalnız o ALS-dir ki, onların tədqiqat obyekti sistemli yanaşmaya əsaslanan və genişlənmiş riyazi-məntiq qurğusu olan dəqiq formalizə olunmuş nəzəri bazaya malikdir;
- ALS bu günün mürəkkəb elmi-texniki məsələlərinin həlli üçün təyin olunmuş, yüksək ixtisaslı layihəçinin alətidir.

Başqa sözlə, texniki sistemlərin ALS-nin işlənməsi zamanı təyinedici rol gələcək istifadəçilərin üzərinə düşür. Belə ki, layihələndirmə prosesinin formalizasiyası (rəsmiləşdirilməsi) kompyuterin köməyi ilə yaradılacaq gələcək layihələrin təməlini qoyur.

Hazırki dövrdə konstruktor bürolarında, maşınqayırma istiqamətində təqribən 50% işçi konstruktor sənədlərinin buraxılışı ilə məşğul olur. Bu məqsədlə ölkə sənayesinin layihəçiləri və konstruktorları üçün təyin olunmuş avtomatlaşdırılmış iş yerləri üçün vəsaitlər buraxılır.

Belə vəziyyət aşağıdakı səbəblər nəticəsində şərtləşdirilir:

- konstruktorların kompyuterlərin imkanları haqqında təsəvvürləri ilə qrafik sistemlərin layihəçilərinin konstruksiyalaşdırma və konstruktor sənədlərinin buraxılması haqqında təsəvvürləri arasında vahid uyğunsuzluq;
- mövcud qrafik sistemlərdə istifadəçi ilə konstruktor arasında intellektual interfeys vəsaitlərinin olmaması və bununla yanaşı onların istifadəsi zamanı aşağı məhsuldarlığın alınması;
- konstruktor işlərinin avtomatlaşdırılmasında mövcud vəsaitlərin konstruktorlar tərəfindən mənimsənilməsində marağın olmaması.

Göstərilən səbəblərin aradan qaldırılması avtomatlaşdırılmış konstruksiyalaşdırma texnologiyasının və onun praktik realizə olunması üçün kompleks vəsaitlərin işlənməsi və tətbiqi ilə mümkündür. Maşınqayırma nəsillərinin layihə-konstruktor işləri üçün olan texnologiyaların işlıənməsi mürəkkəb məsələ sayılır ki, onun da həlli, layihələndirilən maşının konsrtruksiyasının elementlərini tipləşdirmədən və unifikasiyalaşdırmadan mümkün deyidir. Tipləşdirmə və unifikasiyalaşdırma, konstruksiya elementlərinin qruplaşdırılması və vahid kataloqların yaradılması, standart elementlərin minimal yığımından ən müxtəlif konstruksiyaların formalaşmasına imkan verir. Bu ideya avtomatlaşdırılmış konstruksiyalaşdırmanın təqdim olunan texnologiyasının əsasına, tipik elementlər və onun realizasiyasının kompleks vəsaitlərindən qoyulmuşdur.

Qeyd olunmuş çatışmamazlıqların aradan qaldırılması və baxılan məsələlərin həlli üçün, hazırki dövrdə dünya bazarlarında CAD/CAM sisteminin [3] çoxlu versiyası və onlar üçün xüsusiləşdirilmiş əlavələr təqdim olunmuşdur. Belə proqramların mənimsənilməsində problem yoxdur. Lakin müəssisələrin layihələndirilməsi prosesində, detalların hazırlanmasında və ya yeni texnologiyanın işlənməsində mütəxəssisə universal alət lazımdır ki, o bütün yaranan problemləri operativ olaraq həll edə bilsin.

Qeyd olunan mənada istifadə olunan alət kimi layihəçilər həndəsi modelləşdirmə sistemlərindən istifadə edirlər. Bir sira islərdə müasir həndəsi modelləşdirmə sistemlərinin tədqiqi və tətbiq sahələri analiz edilir.

Ədəbiyyat

1. Харрингтон Дэвид, Барчард AutoCAD 2002 для конструкторов. Издательство: Dia Soft, 2003.
2. Симанков В.С. Автоматизация системных исследований / В.С.Симанков, -Краснодар: КубГТУ, 2002, - 376 с.

3. Guarino N., Guaretta P. Ontologies and Knowledge Bases. Towards a Texnological Clarification//Towards Very Large Knowledge Bases. - Amsterdam: 10s Press, 1995.

РЕЗЮМЕ
ИССЛЕДОВАНИЕ ПУТЕЙ ПОВЫШЕНИЯ ИНТЕЛЛЕКТУАЛЬНОСТИ СОВРЕМЕННЫХ САПР
Талыбов Н.Г., Расулов Р.З.

Ключевые слова: *САПР, геометрическое моделирование, искусственный интеллект, проектирование, техническая система.*

В работе исследуются вопросы построения геометрических изображений объектов с применением систем автоматизированного проектирования. Изучаются факторы, усложняющие процесс построения геометрических изображений, уточняются возможности применения интеллектуальных средств для их устранения.

SUMMARY
THE STUDY OF WAYS TO IMPROVE THE INTELLIGENCE OF MODERN CAD SYSTEMS
Talibov N.H., Rasulov R.Z.

Keywords: *CAD systems, geometric modeling, artificial intelligence, design, technical system.*

In the work, the issues of constructing geometric images of objects with the introduction of automated design systems are studied. The factors that complicate the process of constructing geometric images are studied and the possibilities of applying intellectual resources for their elimination are clarified.

AI-DRIVEN SOLUTIONS: INTEGRATING VITERBI ALGORITHM WITH SENSORS DATA FOR HUMAN ACTIVITY DETECTION AND AUTOMATION IN SMART ENVIRONMENTS

Sadigov Emil Rashad

Azercosmos, Space Agency of Republic of Azerbaijan, Azerbaijan, Baku
emil.sadigov@azercosmos.az

Keywords*: artificial intelligence, Viterbi algorithm, IoT, HMM, smart home, activity recognition.*

In the field of Artificial Intelligence, this research introduces the integration of the Viterbi Algorithm with hardware sensors for human activity detection. The study outlines sensor deployment, communication and the theoretical foundation for algorithm integration. Future challenges, results, and automation scenarios are presented. While algorithm calibration is in an ongoing phase, this research represents a significant step in AI-driven advancements, human activity recognition for automation, and describes the intersection of IoT and Artificial Intelligence.

1. Introduction. In the Internet of Things (IoT) area, the daily use of smart devices and automation is a rapidly growing tendency. In order to build a Smart environment with automation which is not configured by the user, human activity detection is the main concept to be researched and developed to accurately detect activity within intelligent spaces. This paper covers the confluence of AI, sensors, and IoT, introducing an innovative methodology that uses the analytical prowess of the Viterbi Algorithm to redefine the interaction between humans and their smart living environments. Nowadays the way to accurately determine the activity is to apply machine learning and AI, as well as Hidden Markov Model and sequence algorithms [3]. Specifically this paper focuses on Viterbi Algorithm, a powerful sequence recognition algorithm, contributing to the growth of research at the intersection of IoT and AI technologies. The primary objective is to integrate the analytical power of the Viterbi Algorithm with hardware sensors, and introduce new approach that will determine the future intersection of IoT and Artificial Intelligence in shaping responsive and intuitive smart living environments.

2. Deployment and Data Acquisition. The foundation of our study starts with integration of sensor networks within the smart home environment. Motion sensors, temperature sensors, distance sensors, light sensors, which are placed in key locations to capture the dynamics of human activity. Additionally, to extend data scope, we decided to take data from a smart-watch in order to get data from a wearable perspective, especially for activities of elderly people [1]. ESP 01 microcontrollers with Wi-Fi module were used for getting data from sensors, and transmitting them to Raspberry Pi hub, over MQTT, running Viterbi Algorithm. Embedded code in C++ was implemented for ESP microcontrollers and Viterbi Algorithm script was written in Python and run on Raspberry Pi.

3. Viterbi algorithm. The algorithm should define one activity from the list, which includes: walking, cooking, sitting, watching_TV, sleeping, reading, exercising, leaving_home. Each activity is defined by the state sequence. Viterbi algorithm is aimed to find the single best state sequence for the given observation sequence [2].

$$\delta_t(i) = max_{q1,q2,\cdots,qt-1}\ P(q_1 q_2\ \cdots\ q_t\ =\ s_i, o_1 o_2\ \cdots\ o_t) \quad (1)$$

Where o for observation, q for actual state, s for general state. For the implementation of Viterbi algorithm, every activity is treated as a hidden state in Hidden Markov Model, and sensors data is treated as observables in this case. After determining the best sequence, algorithm defines activity which likelihood is highest according to determined sequence.

The algorithm needs more calibration and training for getting more precise decisions and recognition, it requires more resources and time.

3. Hypothetical Results and Analysis. We give theoretical conclusions based on first simulations and theoretical studies, pending algorithmic completion. This covers the expected results of detecting human activity, possible learnings from the sensor data, and automation scenarios that will be initiated by detected activities. The result at the current state of algorithm training and in setup of few sensors added was *0.56* accuracy at human activity recognition according to sensors dataset.

4. Conclusion. In this phase of research, we have made the groundwork for a Viterbi-based human activity detection system within Smart Home. The integration of several sensors in a MQTT network and the establishment of communication between them and the Raspberry Pi processing unit running algorithm itself. While the Viterbi Algorithm is not tuned to perfectly specify human activity, theoretical analysis provides results which will be applicable for automation in a smart environment. It should be mentioned that automation algorithms are developed and ready to be executed by the determined activity. Which means for the model itself, 90% of work is done.

5. Future Work. The completion of the Viterbi Algorithm and its validation through testing and real-world data analysis. With the algorithm developed to be a powerful tool for decoding human activities, the next phase will involve optimizing the parameters for each system and extending the scope of potential automation for small and medium smart homes. The future results will contribute valuable insights into the fields of IoT and Artificial Intelligence.

References

1. Chun Zhu and Weihua Sheng, “Recognizing Human Daily Activity Using A Single Inertial Sensor”, Proceedings of the 8th, World Congress on Intelligent Control and Automation, July 6-9 2010, Jinan, China
2. Hongqing Fang, “Feature Selections For Human Activity Recognition In Smart Home Environments”, International Journal of Innovative Computing, Information and Control, Volume 8, Number 5(B), May 2012 pp. 5-6
3. Keshav Thapa, Yang Sung-Hyun, “Log-Viterbi algorithm applied on second-order hidden Markov model for human activity recognition”, International Journal of Distributed, Sensor Networks, 2018, Vol. 14(4)

XÜLASƏ

AI İDARƏETMƏ MƏSƏLƏLƏRİ: AĞILLI MÜHİTLƏRDƏ İNSAN FƏALİYYƏTİNİN AŞKARLANMASI VƏ AVTOMATLAŞDIRILMASI ÜÇÜN VİTERBİ ALQORİTMİNİN SENSOR MƏLUMATLARI İLƏ İNTEQRASİYASI

E.R.Sadıqov

Açar sözlər: *süni intellekt, Viterbi alqoritmi, IoT, HMM, smart home, insan fəaliyyətinin aşkarlanması.*

Çətinliklər: Üstünlüklərinə baxmayaraq, Sugeno qeyri-səlis sisteminin layihələndirilməsi və sazlanması çətin məsələ ola bilər. Müvafiq qeyri-səlis çoxluqların seçilməsi, qaydaların sayının və strukturunun müəyyən edilməsi və parametrlərin qiymətləndirilməsi təcrübə tələb edən bir prosestir. Bundan əlavə, çoxlu sayda qaydalarla işləyərkən ortaya çıxan modelin şərh edilə bilməsi çətinliklər yarada bilər.

Məhdudiyyətlər: Sugeno qeyri-səlis sistemlərinin üstünlükləri olsa da, bütün növ sistemlər üçün uyğun olmaya bilər. Girişlər və çıxışlar arasında əlaqə yüksək olduğu hallarda, Mamdani qeyri-səlis sistemləri və ya digər qeyri-xətti modellər daha uyğun ola bilər.

Tövsiyələr: Ən əhəmiyyətli tövsiyyə kimi qeyri-səlis məntiq metodu ilə müxtəlif metodların birləşməsidir. Qeyri-səlis məntiqlə coğrafi informasiya sistemləri, analitik iyerarxiya, statistik təhlil üsulları kimi metodlardan istifadə edildikdə, istənilən tədqiqatın nəticələri çıxarıla və qərar verənin uğurunu artıra bilər. Qeyri-səlis məntiqə əsaslanan sistemlərdə dizaynla bağlı bir-biri ilə əlaqəli bir sıra müxtəlif dəyişənlərin modelləşdirilməsi tədqiqatın mümkünlüyünü və uğurunu artırır.

Nəticə: Qeyri-səlis məntiqlə qurulan modellər çeviklik xüsusiyyətlərinə malik olur, çox sahələrdə işin yoluna, sürətinə, keyfiyyətinə və dəyərinə təsir göstərir, vaxta qənaet edilir, idarəetməni optimallaşdırır.

Ədəbiyyat

1. Altaş, İ. H. (1999). Bulanık mantık: bulanıklılık kavramı. Enerji, Elektrik, Elektromekanik-3e, 62, 80-85.
2. Ayağ, Z. (2005). A fuzzy AHP-based simulation approach to concept evaluation in a NPD environment.
3. Çekmiş, A. (2016). Fuzzy logic in architectural site planning design. Procedia Computer Science. 102–182.
4. Китайчик Е.Г. Системы управления для насосных станций с применением частотных преобразователей // ИСУП. - № 3(33), 2011.
5. Sugeno M., Industrial applications of fuzzy control, Elsevier Science Pub. Co., 1985
6. Alshalaa A. Shleeg, Issmail M. Ellabib. Comparison of Mamdani and Sugeno Fuzzy Interference Systems for the Breast Cancer Risk. World Academy of Science, Engineering and Technology. International Journal of Computer, Electrical, Automation, Control and Information Engineering Vol: 7. № 10, 2013

РЕЗЮМЕ

ПРИМЕНЕНИЕ МЕТОДА НЕЧЕТКОГО ИЗВЛЕЧЕНИЯ СУГЕНО В ОБЛАСТИ АРХИТЕКТУРЫ

Исмаилов И. А., Насруллазаде Г.Э.

Ключевые слова: *нечеткие системы вывода Сугено, нечеткая логика, моделирование неопределенности и принятие решений.*

В последние годы текущие исследования были сосредоточены на расширении возможностей нечетких систем, повышении их способности адаптироваться к динамическим средам и расширении их применения. В данной статье рассмотрены применения метода Fuzzy System Sugeno в области архитектуры, принятия решений, распознавания образов и моделирования сложных систем с неопределенностями, а также в какой области архитектуры и для каких целей его использование. детально изучен.

SUMMARY

APPLICATION OF SUGENO FUZZY EXTRACTION METHOD IN THE FIELD OF ARCHITECTURE

Ismailov I. A., Nasrullazade G. E.

Keywords: *Sugeno fuzzy inference systems, fuzzy logic, uncertainty modeling and decision making.*

In recent years, current research has focused on enhancing the capabilities of fuzzy systems, increasing their ability to adapt to dynamic environments, and expanding their applications. This article discusses the applications of the Fuzzy System Sugeno method in the field of architecture, decision making, pattern recognition and modeling of complex systems with uncertainties, as well as in which area of architecture and for what purposes it is used. studied in detail.

TƏHSİL SİSTEMİNDƏ İNFORMASİYA TEXNOLOGİYALARININ ROLU

[1]Əliyeva Aygün Əkbər qızı , [2]Əliyeva Pəri Aftandil qızı

[1]Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı, Azərbaycan
[1]İdarəetmə Sistemləri İnstitutu, Bakı, Azərbaycan
[2]Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı, Azərbaycan
aliyevaaygun1978@gmail.com, master. pari.aliyyeva@gmail.com

Açar sözlər*: informasiya texnologiyaları, təhsil sistemi, proqram təminatı.*

Təhsil sisteminin islahatları ilə bağlı ən aktual məsələlərdən biri də İnformasiya-kommunikasiya texnologiyalarını (İKT) tətbiq etməklə təhsilin idarə olunmasının təkmilləşdirilməsidir. Həmçinin, ölkənin təhsil sisteminin yüksək İKT bilik və bacarıqlarına malik pedaqoji və inzibati kadrlarla təminatının müasir standartlar səviyyəsinə çatdırılması qarşıda duran prioritet məsələlərdəndir.

Müasir dünyada elm və texnoloji inkişaf daimi olaraq yeni təhsil ehtiyacları yaratmaqdadır. Bu imkanların başında ilk sırada kompüterlər gəlir. Kompüter ilk əvvəllər hərbi məqsəd üçün yaradılsada, hal-hazırda gündəlik həyatımızın ayrılmaz parçası halına çevrilib. Müasir dünyada kompüter texnologiyasından ictimai həyatın bütün sahələrində istifadə edildiyi kimi təhsil sahəsində də geniş şəkildə istifadə olunur. İnformasiya cəmiyyətinin əsasında informasiya texnologiyaları durur.

Hər kəsə məlumdur ki, XXl əsrdə İKT ən geniş yayılmış sahələrdən biridir. Müsair dünyada insanların ən yaxın dostu olan kompüter texnologiyasının təhsilə və internetin insanlara təsiri danılmazdır. Son illər Azərbaycan təhsil sistemində kompüter texnologiyasından geniş istifadə edilməyə başlanılmışdır. Demək olar ki, dünyanın əksər ölkələri İKT-dən müxtəlif sahələrdə, o cümlədən təhsil sahəsində istifadəni nəzərdə tutan milli strategiyalar qəbul etmişlər. Bir çox hallarda bu strategiyaların məqsədi şagirdlərə, eyni zamanda, müəllimlərə lazımi İKT bilikləri verməkdir. Digər vacib cəhət məktəblərin müasir texnologiya və infrastrukturla təchiz edilməsidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 avqust 2004-cü il tarixində təsdiq etdiyi "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005-2007-ci illər)" ölkəmizdə bu prosesə start verdi. Bundan sonra 10 iyun 2008-ci il tarixində ölkə başçısı tərəfindən qəbul edilmiş "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı" isə İKT-dən istifadə etməklə ölkəmizdə beynəlxalq standartlara uyğun keyfiyyətcə yeni təhsil modelinin qurulmasını, vahid elektron təhsil məkanının yaradılmasını və təhsil sisteminin dünya təhsil məkanına inteqrasiya etdirilməsini əsas məqsəd kimi qarşıya qoyub [1].

İKT yalnız təhsil alanın deyil, həm də müəllimin yaradıcı şəxsiyyət kimi inkişafına kömək edir. İKT - ünsiyyət, təhsil və özünü reallaşdırmağa, eyni zamanda insanın biliklərə olan tələbatını yerinə yetirməyə kömək edir. Təhsil prosesində İKT-nin tətbiqi tədrisin səmərəliliyini yüksəltməyə, müəllimləri keçmiş tədris metodlarından azad etməyə, tədris materiallarını vizuallaşdırmağa, tapşırıqların dərəcələrə ayırmağını həyata keçirməyə, eləcə də əks əlaqə formalarını təkmilləşdirməyə xidmət edir [2].

Təhsil sisteminin informasiyalaşdırılmasının əsas məqsədi müasir informasiya cəmiyyətinə laiq olan şəxslər yetişdirmək, ölkədə vahid təhsil və informasiya mühitini yaratmaqdır. Bunun üçün yeni informasiya texnologiyalarından istifadə etməklə aşağıdakılar təmin edilməlidir:

- təhsilin keyfiyyətinin artırılması;
- müasir informasiya mədəniyyətinin formalaşdırılması;
- bütün yaş dövrlərində olan insanların təhsil alma hüquqlarının bərabərləşdirilməsi;
- milli təhsil sisteminin dünya informasiya, mədəniyyət və təhsil sisteminə inteqrasiyasının təmin edilməsi.

Bunlardan əlavə, bəzən məktəblilərin, xüsusən yuxarı sinif şagirdlərinin kompüterdən istifadə qaydalarını müəllimlərdən daha yaxşı bilməsi dərs zamanı uşaqların əylənməsinə yol aça bilər. Artıq belə problem MDB məktəblərində ortaya çıxır. Məlum olub ki, bəzi məktəblərdə interaktiv rejimdə aparılan tədrislərdə şagirdlər dərslə deyil, bir-birlərinə mesaj göndərməklə, çatlaşmaqla və ya oyun oynamaqla məşğul olurlar. İnformatik savadı aşağı olan müəllimlərin isə şagirdlərin belə “hiylələrindən” xəbəri olmayır. Ona görə də bu gün pedaqoqların Microsoft Windows XP əməliyyat sistemi, MS Office paketi, multimedia, qrafika, dizayn proqramları ilə yaxından tanış olması, interaktiv lövhədə işləmək və internetdən səmərəli istifadə etmək qaydalarını yaxşı bilməsi artıq zamanın tələbidir. Kompyuterin bütün incəliklərinə dərindən bələd olmaq üçün pedaqoqlar dərsdənkənar əlavə vaxt və xeyli enerji sərf etməlidir. Ona görə də onların əməyini hər hansı bir formada stimullaşdıran sistemin olması da məqsədəuyğun olardı [3].

Göründüyü kimi İKT-nin təhsil sisteminə səmərəli tətbiq etməklə tədris prosesinə tamamilə yeni ruh, yeni nəfəs vermək, uşaqlar üçün çox cəlbedici, onların maraqlarına hesablanmış sadə və keyfiyyətli yeni təhsil modelini qurmaq olar. Lakin, bütün bunlara nail olmaq göründüyü qədər də asan məsələ deyildir. Bir faktı nəzərə almaq lazımdır ki, bu gün texnoloji avadanlığın sürətlə köhnəlməsi prosesi gedir. Əgər, əvvəllər məktəblərin yalnız kompüterlə və internetlə təchiz olunması nəzərdə tutulurdusa, bu gün isə artıq söhbət noutbukların, interaktiv lövhələrin alınmasından, simsiz rabitə sistemlərinin qurulmasından gedir. Beləliklə, qeyd olunanları nəzərə alaraq təhsil sisteminin İKT tətbiq etməklə səməri inkişafına nail olmaq mümkündür.

Ədəbiyyat

1. www.president.az/articles/564 Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan),
2. Abdullayev S.H., Abasova S.E., "Təhsil prosesində İKT-nin tətbiqinə sistemli yanaşma prinsipləri haqqında", Təhsil Nazirliyi, Sumqayıt Dövlət Universiteti və AMEA İnformasiya Texnologiyaları İnstitutu təşkilatçılığı ilə "Riyaziyyat tətbiqi məsələləri və yeni informasiya texnologiyaları" II Respublika elmi konfransı", 27-28 noyabr 2012-ci il, Sumqayıt, səh. 228-230.
3. Vüqar Haqverdiyev., Azərbaycan Milli Elmlər Akademiyası, Rabitə dünyası.- 2010.- 30 dekabr.- S.8, Orta məktəblərdə İKT-nin rolu
4. http://anl.az/down/meqale/rabitadunyasi/2010/dekabr/150294.htm

РЕЗЮМЕ
РОЛЬ ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИЙ В СИСТЕМЕ ОБРАЗОВАНИЯ
Алиева А.А., Алиева П.А.

Ключевые слова: *информационные технологии, система образования, программное обеспечение.*

Одним из наиболее актуальных вопросов, связанных с реформированием системы образования, является совершенствование управления образованием путем применения информационно-коммуникационных технологий (ИКТ). Также одной из приоритетных задач на перспективу является обеспечение системы образования страны педагогическими и административными кадрами, обладающими высокими знаниями и навыками в сфере ИКТ на уровне современных стандартов.

SUMMARY
THE ROLE OF APPLICATION OF INFORMATION TECHNOLOGIES IN THE EDUCATIONAL SYSTEM
Aygun A.A., Aliyeva P.A.

Keywords: *information technologies, education system, software*

One of the most urgent issues related to the reforms of the education system is ICT implementation improving the management of education. Also, provision of the education system of the country with pedagogical and administrative personnel with high ICT knowledge and skills to the level of modern standards is one of the priority issues ahead.

ДИАГНОСТИКА РАКА МОЛОЧНОЙ ЖЕЛЕЗЫ НА ОСНОВЕ МЕТОДОВ МАШИННОГО ОБУЧЕНИЯ

[1]Хуснутдинов Рамиль Миннегаязович, [2]Ахметшина Лилия Мустакимовна

[1]Межрегиональный клинико-диагностический центр, Казань, Россия
[1]ГАУЗ «Зеленодольская центральная районная больница», Зеленодольск, Россия
[2]Казанский (Приволжский) федеральный университет, Казань, Россия
[1]alm717@mail.ru, [2]khrm@mail.ru

Ключевые слова: *рак молочный железы, машинное обучение, метод главных компонент.*

Рак молочной железы (РМЖ) является одним из наиболее распространенных видов рака среди женщин во всем мире. РМЖ является главной причиной смерти женщин от онкологических заболеваний. В настоящей работе представлены результаты исследования оценки влияния диагностических признаков онкологического заболевания на корректную постановку диагноза. За основу установления уровня влияния взяты факторные нагрузки признаков. Проведен сравнительный анализ факторных моделей, построенных в рамках метода главных компонент и регрессионного анализа.

Введение. Рак молочной железы (РМЖ) является одним из наиболее распространенных видов рака среди женщин во всем мире. В соответствии с общемировой статистикой РМЖ представляет собой одну из главных причин смерти женщин от онкологических заболеваний, что является существенной проблемой общественного здравоохранения в современном обществе. Установлено, что смертность пациентов с раком молочной железы напрямую зависит от размера опухоли на момент её обнаружения. Чем меньше опухоль, тем выше шанс на выздоровление при соответствующем лечении. Таким образом, ранняя диагностика рака молочной железы является одной из актуальных задач современной клинической диагностики. Так, ранняя диагностика РМЖ может значительно улучшить прогноз и шансы на выживание, поскольку это может способствовать

своевременному клиническому лечению пациентов. Дальнейшая точная классификация доброкачественных опухолей может предотвратить пациентов, подвергающихся ненужному лечению. Следовательно, правильный диагноз РМЖ и классификация пациентов по злокачественным или доброкачественным группам является предметом многих исследований.

В последнее время методы классификации и интеллектуального анализа данных с помощью современных методов машинного обучения (искусственные нейронные сети, генетические алгоритмы, методы сокращения размерности, методы регрессионного анализа и др.) являются эффективным способом описания, предсказания и классификации данных. В частности, в медицине эти методы широко используются в диагностике и анализе для принятия решений.

Экспериментальные данные и методы. Экспериментальные данные представляют собой датасет из 35 диагностических признаков, которые вычислялись на основе оцифрованных изображений доброкачественных и злокачественных новообразований [1,2]. В качестве действительных признаков для каждого образования вычислялись следующие параметры и характеристики: радиус (среднее расстояние от центра до точек по периметру), текстура (стандартное отклонение значений оттенков серого), периметр, площадь, гладкость (локальное изменение длины радиуса), компактность (измеряемая как периметр²/площадь-1.0), вогнутость (выраженность вогнутых участков контура), вогнутые точки (количество вогнутых частей контура), симметрия, фрактальная размерность и другие.



Рисунок 1. Распределение доброкачественных (желтые кружки) и злокачественных (фиолетовые кружки) опухолей в плоскости первых двух компонент.

Для анализа экспериментальных данных использовался метод главных компонент. На рис. 1 представлено распределение доброкачественных и злокачественных раковых клеток в плоскости первых двух компонент. Как видно из рисунка, на диаграмме PC1/PC2 выделяются два кластера: кластер с компактным распределением точек при отрицательных значениях PC1 - характеризует доброкачественные опухоли, в то время как кластер с рассеянным распределением точек в области положительных значений PC1 характеризует злокачественные раковые клетки.



Рисунок 2. Соотношение между радиусом и периметром раковых клеток

Далее, мы выполнили регрессионный анализ между такими важными геометрическими характеристиками раковых клеток, имеющие линейную корреляцию как радиус и периметр образований (см. рис. 2). Установлено, то для доброкачественных и злокачественных клеток

уравнения регрессии $y = kx + b$ между радиусом и периметром новообразований имеют некоторые различия. Так, отношение коэффициентов для доброкачественных и злокачественных клеток составляет $\eta = \frac{k_{злокач}}{k_{доброкач}} \approx 1.44$.

Результаты и выводы. В настоящей работе представлены результаты исследования оценки влияния диагностических признаков онкологического заболевания - рака молочной железы на корректную постановку диагноза. В качестве диагностических признаков были взяты геометрические характеристики раковых клеток, полученные путем оцифровки экспериментальных данных [1,2]. Показано, что в рамках метода главных компонент и регрессионного анализа возможно выполнить классификацию доброкачественных и злокачественных раковых клеток. Таким образом, представленная в работе методика анализа экспериментальных данных позволяет корректно диагностировать онкологическое заболевание рака молочной железы на ранних стадиях развития.

Литература

1. O.L. Mangasarian, W.N. Street and W.H. Wolberg. Breast cancer diagnosis and prognosis via linear programming. Operations Research, 43(4), pages 570-577, July-August 1995.
2. W.N. Street, W.H. Wolberg and O.L. Mangasarian. Nuclear feature extraction for breast tumor diagnosis. IS&T/SPIE 1993 International Symposium on Electronic Imaging: Science and Technology, volume 1905, pages 861-870, San Jose, CA, 1993.

XÜLASƏ
MAŞIN ÖYRƏNMƏ METODLARINA ƏSASLANAN DÖŞ XƏRÇƏNGİ DİAQNOZU
L.M. Ahmetshina, R.M. Husnutdinov

Açar sözlər: *döş xərçəngi, maşın öyrənməsi, əsas komponent metodu.*
Döş xərçəngi bütün dünyada qadınlar arasında ən çox yayılmış xərçəng növlərindən biridir. Döş xərçəngi qadınların xərçəngdən ölümünə əsas səbəblərdən biridir. Tezisdə xərçəngin diaqnostik əlamətlərinin təsirini düzgün qiymətləndirən nəticələr əldə olunub. Təsir səviyyəsini müəyyən etmək üçün xarakteristikaların çəki qiymətləri əsas götürülmüşdür. Əsas komponentlərin reqressiya təhlili çərçivəsində qurulmuş modellərin müqayisəli təhlili aparılmışdır.

SUMMARY
BREAST CANCER DIAGNOSIS BASED ON MACHINE LEARNING METHODS
L.M.Ahmetshina, R.M.Husnutdinov

Keywords: *breast cancer, machine learning, the method of the main components.*
Breast cancer (BC) is one of the most common cancers among women worldwide. Breast cancer is the main cause of death in women from cancer. This paper presents the results of a study evaluating the impact of diagnostic signs of cancer on the correct diagnosis. The factorial loads of the signs are taken as the basis for determining the level of influence. A comparative analysis of factor models constructed within the framework of the principal component method and regression analysis is carried out.

РАЗРАБОТКА ОСНАСТКИ ДЛЯ ГИДРАВЛИЧЕСКОГО ИСПЫТАНИЯ КОРПУСА ОТВОДА НАСОСА

Сафонов Сергей Владимирович, Попова Ольга Ивановна,
Попова Маргарита Ивановна, Воробцов Владислав Дмитриевич

Воронежский государственный технический университет, Воронеж, Россия
olga_10_popova@mail.ru

Ключевые слова: *насосы, конструкторская документация, оснастка, гидравлические испытания, импортозамещение.*

Разработана конструкторская документация (КД) для изготовления оснастки с целью гидравлического испытания на герметичность корпуса отвода шламового горизонтального насоса для перекачивания различных абразивных жидкостей. В разработанной КД предложено выполнить канавку для уплотнительного кольца на оснастке, которая должна в точности копировать канавку ответной детали испытуемого агрегата для исключения появления микротрещин и иных дефектов в изделии.

Вызовы настоящего времени заставляют всех российских производителей насосного оборудования уделять внимание развитию именно отечественной продукции. Вопросы, связанные с качественной и надежной заменой ушедшего импорта, являются на сегодня, пожалуй, самыми актуальными на российском рынке. Импортозамещение направлено на рост экономики страны за счет перехода от производства простых товаров (сырья, материалов) к наукоемкой и высокотехнологичной продукции и является целенаправленной промышленной политикой. При этом, создаваемый новый, качественный продукт, должен быть ориентирован как на внутренний, так на внешний рынок.

Сегодня практически на всех предприятиях, которые специализируется на производстве и ремонте нестандартных запасных частей для насосного и турбинного оборудования горнодобывающих и обогатительных комбинатов металлургической отрасли РФ проходит этап импортозамещения. Мы представляем в данный момент одну из площадок, где осуществляется механическая обработка деталей насосного оборудования, сборка и испытание различных видов насосов с помощью отечественного оснащения производства.

В настоящий момент существует два основных метода опрессовки: точный (инструментальный) с использованием манометров и гидростатический, направленный непосредственно на выявление дефектов (течи или деформаций) [1].

Гидравлическое испытание является необходимой процедурой, по результатам которой можно свидетельствовать о надёжности оборудования и трубопроводов, работающих под давлением, что крайне важно, учитывая серьёзную опасность для жизни и здоровья людей в случае их неисправностей и аварий [2].

Давление проведения гидравлических испытаний называется поверочным и превышает рабочее обычно в 1,25, 1,5 или в 5/3 раза.

В случаях, специально оговорённых в проектной документации на испытуемое изделие или государственными правилами и стандартами, допускается замена гидравлических испытаний пневматическими. Чаще всего это разрешается при условии дополнительного обследования предприятием-изготовителем изделия другими методами неразрушающего контроля (ультразвуковым или радиографическим контролем основного металла и сварных соединений). В некоторых случаях пневматические испытания являются своеобразным подготовительным этапом перед гидравлическими. Они проводятся аналогично гидравлическим, иногда при небольших давлениях и применительно к оборудованию со специфической конструкцией (теплообменникам). Места, где могут быть не плотности, предварительно обрабатываются мыльным раствором. После повышения давления на местах, имеющих дефекты, вздуваются мыльные пузыри, что позволяет легко их обнаружить. Таким способом определяется плотность, но не прочность оборудования.

Испытания на герметичность комплектующих различных насосов являются для всех предприятий, выпускающих насосное и технологическое оборудование, важной и ответственной производственной задачей. А проектирование оснастки и разработка точной КД - залог качественной конкурентоспособной продукции.

На рисунке 1 представлена 3Д модель корпуса отвода, для которой в данной статье разработана оснастка для гидравлических испытаний на герметичность. Испытание проходит при давлении 1Мпа в течении 5 мин.

Рисунок 1. 3D модель корпуса отвода насоса

Расчет необходимой толщины заглушки проведен согласно ГОСТ 34233.2-2017 [3].

Плоские круглые крышки с дополнительным краевым моментом рассчитываются на внутреннее давление по формуле (1):

$$S_1 \geq S_{1p} + c, \qquad (1)$$

где $S_{1p} = K_0 * K_6 * D_p \sqrt{\frac{\rho}{\varphi[\sigma]}}$

с – сумма прибавок к расчетным толщинам стенок, мм;

K_0 – коэффициент ослабления плоских днищ (крышек) с отверстием;

K_6 – безразмерные коэффициенты;

D_p – расчетный диаметр днища (крышки) и конической обечайки;

ρ - расчетное внутреннее избыточное или наружное давление, МПа;

σ – допускаемое напряжение при расчетной температуре, МПа;

φ – коэффициент прочности сварных швов;

Значение коэффициента K_6 определяется в зависимости от отношений $D_3/D_{сп}$ по графику (рис. 3) или по формуле (2) [4]:

$$K_6 = 0{,}41 \sqrt{\frac{1+3\Psi\left(\frac{D_3}{D_{с.п.}}-1\right)}{\frac{D_3}{D_{с.п.}}}} \quad (2) \text{ где,}$$

Ψ - угол между касательной к сферическому сегменту в краевой зоне и вертикальной осью, град;

D_3 и $D_{сп}$ соответствующие диаметры крышки показаны на рис.2.



Рисунок 2. Плоская круглая крышка с дополнительным краевым моментом в месте уплотнения



Рисунок 3 - Значение коэффициента K_6 в зависимости от отношения $D_3/D_{сп}$

Толщина плоской круглой крышки с дополнительным краевым моментом в месте уплотнения S_2 (рис.2 а) определяется до формуле (3):

$$S_2 \geq \max\left\{K3\sqrt{\Phi}; \frac{0{,}6}{D_{с.п.}}\Phi\right\} + c \qquad (3)$$

где $\Phi = \max\left\{\frac{F_{б.р.}}{[\sigma]p}; \frac{F_{б.р.}}{[\sigma]M}\right\}$

K_7 - безразмерный коэффициент;

$D_{с.п.}$ - расчётный диаметр прокладки, мм;

с - сумма прибавок к расчетным толщинам стенок, мм;

Ф – вспомогательный параметр;

В формуле (3) индекс р указывает на то, что величина относится к рабочему состоянию или испытаниям, а индекс м – состояние монтажа.

Значение коэффициента K_7 определяют по формуле (4):

$$K_3 = 0{,}8\sqrt{\frac{D3}{Dс.п.}} - 1 \qquad \text{где,} \tag{4}$$

D_3 - диаметр болтовой окружности, мм;

$D_{с.п.}$ - расчётный диаметр прокладки, мм;

Для определения толщины края S_3 (рис.2) плоской круглой крышки с дополнительным краевым моментом вне зоны уплотнения вместо $D_{сп}$ следует принять D_2.

Допускаемое давление для плоской круглой крышки с дополнительным краевым моментом при поверочных расчетах определяют по формуле (5):

$$[p] = \left(\frac{s1-c}{K0K6Dp}\right)[\sigma]\varphi \qquad \text{где,} \tag{5}$$

S_1 - исполнительная толщина стенки днищ и крышек, переходной зоны конической обечайки, а также исполнительная толщина плоской крышки в месте паза для перегородки, мм;

с - сумма прибавок к расчетным толщинам стенок, мм;

K_0 - коэффициент ослабления плоских днищ (крышек) с отверстием;

K_6 - безразмерные коэффициенты;

D_p - расчетный диаметр днища(крышки) и конической обечайки;

σ – допускаемое напряжение при расчетной температуре, МПа;

φ – коэффициент прочности сварных швов;

Исходя из расчетов, были определены необходимые размеры и толщина заглушки. В системе Mathcad проведен расчет, с помощью которого рассчитаны размеры остальных заглушек (рис. 4).

$$Dsp := 115 \qquad p := 0.1$$

$$K0 := 1$$

$$Dz := 165$$

$$Dp := 150$$

$$K6 := 0.41\sqrt{\frac{1 + 3\cdot 1\cdot\left(\frac{Dz}{Dsp} - 1\right)}{\frac{Dz}{Dsp}}} = 0.622i$$

$$s1 := K0\cdot K6\cdot Dp\cdot\sqrt{\frac{p}{1}} = 29.514i$$

Рисунок 4. Расчет параметров заглушки в системе Mathcad

Канавка для уплотнительного кольца на оснастке должна в точности копировать канавку ответной детали испытуемого агрегата, в противном случае могут появиться микротрещины и иные дефекты на изделии, способствующие ухудшению качества агрегата. Уплотнительное кольцо выбрано в соответствии с ГОСТ 18829-2017 [5].

Разработана техническая документация изготовления оснастки для испытания корпуса отвода насоса (рис.5). Представлена методика определения максимального давления опрессовки в рассматриваемый момент, с учетом толщины стенки, скорости коррозии, величины диаметра и марки стали трубопровода. По разработанной конструкторской документации была изготовлена оснастка, с помощью которой проведено испытание корпуса отвода на герметичность.



Рисунок 5.3D модель оснастки для испытания корпуса отвода насоса

Литература

1. Гидрооборудование: Международный справочник Книга. 1. Насосы и гидродвигатели: Номенклатура, параметры, размеры, взаимозаменяемость/Свешников В.К.; Издательство Техинформ, 2001 г.- 360 с.
2. Гидрооборудование: Международный справочник Книга. 3. Вспомогательные элементы гидропривода: Номенклатура, параметры, размеры, взаимозаменяемость/Свешников В.К.; Издательство Техинформ, 2003 г. - 445 с.
3. ГОСТ 34233.2-2017 Сосуды и аппараты. Нормы и методы расчета на прочность. Расчет цилиндрических и конических обечаек, выпуклых и плоских днищ и крышек.
4. Справочник конструктора-машиностроителя/ Анурьев В.И.; Издательство Машиностроение, 2006 г.-2816 с.
5. ГОСТ 18829-2017 Кольца резиновые уплотнительные круглого сечения для гидравлических и пневматических устройств. Технические условия.

XÜLASƏ

NASOSUN ÇIXIŞININ GÖVDƏSININ HIDRAVLIK SINAĞI ÜÇÜN QURĞUNUN IŞLƏNMƏSI

Safonov S.V., Popova O.I., Popova M.I., Vorobtsov V.D.

Açar sözlər: *Nasoslar, layihə sənədləri, avadanlıqlar, hidravlik sınaqlar, idxalın əvəzlənməsi.*

Müxtəlif aşındırıcı mayelərin vurulması üçün üfüqi şlam nasosunun çıxış gövdəsinin sıxlığının hidravlik sınaqdan keçirilməsi məqsədilə üçün avadanlıqların istehsalının layihə sənədləri (LS) hazırlanmışdır. Hazırlanmış dizayn sənədlərində, məhsulda mikro çatların və digər qüsurların görünməməsi üçün sınaqdan keçirilən qurğunun cütləşən hissəsinin yivini dəqiq surətdə köçürməli olan avadanlıqda sızdırmayan halqası üçün xüsusi yiv hissəsi işləmək təklif olunub.

SUMMARY

DEVELOPMENT OF EQUIPMENT FOR HYDRAULIC TESTING OF THE PUMP DISCHARGE CASING

Safonov S.V., Popova O.I., Popova M. I., Vorobtsov V.D.

Keywords: *Pumps, design documentation, equipment, hydraulic tests, import substitution.*

Design documentation (CD) has been developed for the manufacture of equipment for the purpose of hydraulic testing for the tightness of the outlet housing of a horizontal slurry pump for pumping various abrasive liquids. In the developed design documentation, it is proposed to make a groove for the sealing ring on the equipment, which should exactly copy the groove of the mating part of the unit under test to avoid the appearance of microcracks and other defects in the product.

XX ƏSR BƏŞƏRİYYƏTİN ƏN MÜKƏMMƏL UĞURU SÜNİ İNTELEKTDİR

Mirzəyev Akif Balay oğlu

Azərbaycan Milli Aerokosmik Agentliyi, Ekologiya İnstitutu, Bakı, Azərbaycan
akif.mirzoev.57@mail.ru

Açar sözlər: *intelektual proqram,süni neyron, modelləşmə, kriptoqrafiya, perfomans, kompüter texnologiyası.*

XX əsrin ortalarında inkişafa başlayan süni intellekt son zamanların ən çox maraq doğuran və investisiya qoyulan sahələrdən biridir.

Süni intellekt - insan məntiqini maşınlarda tətbiq etmək məqsədi daşıyan riyazi elmi texnologiyadır. Bu elm intellektual maşın yaratmağı, xüsusən yalnız insanlara məxsus olduğu düşünülən yaradıcı fəaliyyət göstərən intellektual proqram yaratmağı özünə məqsəd qoyub və eyni zamanda insan intellektinin araşdırılması ilə məşğuldur. Süni intelekt texnologiyanın inkişafında mühüm yer tutur, onun elm və mühəndislik sahəsində tətbiqi geniş şəkildə özünü göstərir.

İntellektə malik olan maşınlar və digər süni aparatlar barəsində yazılı fikirlərə hələ qədim yunan mifologiyasında rast gəlinir. Süni intellekt ifadəsi ilk dəfə 1956-cı ildə Con Makkarti tərəfindən istifadə olunub. O, bu ifadəni işlədərkən süni intellekti "maşınlar intellekti- elmi və mühəndislik" adlandırır. Kompüter elminin atası sayılan, riyaziyyatçı, kriptoqraf, informatika elminin yaradılmasında böyük rol oynayan ingilis alim Alan Turinq isə süni intellekt haqqında ilk fikirlərini 1950-ci ildə "Mind" jurnalında çap edilmiş "Hesablama maşınları və şüur" məqaləsində göstərir [1]. O, həmin məqalədə insanla kompüter arasında gedən testdən bəhs edirdi. Test bir insan, bir kompüter, bir münsiflə aparılır. Münsif nə kompüteri, nə də insanı görə bilir, sadəcə onlarla dialoq aparır, sual-cavab edir. Münsifin sualları və təcrübədə iştirak edən kompüter ilə insanın verdiyi cavablar bir ekranda yazılı olaraq görünür. Məqsəd münsifin verilən cavablar əsasında hansının insan, hansının kompüter olduğunu tapmasıdır. A.Turinq deyir ki, kompüter o zaman süni intellektə sahib ola bilər ki, o, münsifi çaşdırsın və münsif onunla insanın, yoxsa kompüterin danışdığını başa düşə bilməsin. Test zamanı münsif bu fərqi aydınlaşdıra bilmirsə, deməli, həmin kompüter mükəmməl süni intellektdir.Turinqin bu yanaşması süni intellekt araşdırmalarının ən ibtidai forması idi. Sonrakı illərdə bu sahədə daha ciddi kəşflər edildi və süni intellektin insan həyatında nüfuzu hiss edilməyə başlandı. SİRİ kimi proqramlar vasitəsilə kompüterlə ünsiyyət qurub ondan cavablar almaq artıq heyrətləndirici hadisə deyil və ya şahmat oyununda kompüterə uduzmaq da normal hal sayılır.

Süni intellektin üç növü məlumdur:

- Məhdudlaşdırılmış süni intellekt. Bu tip intellekt Sizi, məsələn, şahmatda uda bilər. Amma ona "torpağı yemək olarmı?" sualını versəniz, cavab ala bilməzsiniz.
- Ümumi süni intellekt. Bu növ insan intellektinə maksimum yaxındır. O, məlumatları təhlil edir, digər maşınlarla ünsiyyətə girir, özünü təlimdən keçirir.
- Süni super intellekt. Bu intellekt növü o qədər inkişaf edib ki, insan intellektindən fərqlənir. Başqa sözlə, bizim intellektimiz həmin super intellektin motivasiyasını anlamaq üçün yetərincə inkişaf etməmişdir [2].
- Süni intellektlərin istifadə olunduğu ağıllı sistemlərdə əksər hallarda qadın səslərindən istifadə olunur.

Müxtəlif çətin hesablamalarda və digər tapşırıqların həyata keçirilməsində süni intellektin rolu böyükdür. Süni intellekt çox yüksək səviyyədə ixtisaslaşmış sahədir, onun çoxlu sayda istiqamətləri var. Çox zaman bir sahəsi digəri ilə qarşılıqlı əlaqədə olmur. Bəzi sahələri isə o dərəcədə inkişaf edib ki, artıq ayrıca bir ixtisas kimi fəaliyyət göstərirlər.

Süni intellekt proqramlarını danışa və hərəkət edə bilən robot kimi hər gün qarşımızda görməsək də, gündəlik həyatımızda həmin texnologiyadan istifadə edirik. Bu elmdən aviasiya, təhsil, səhiyyə, maliyyə, ağır sənaye, neyrocərrahiyə və digər sahələrdə tətbiq olunur. Mütəxəssislər deyir ki, süni intellekt böyük vaxt tələb edən məsələlərin həllində effektlidir, yuxu və fasilə tələb etmədiyindən fasiləsiz işləyə bilir, xətaların başvermə ehtimalı yoxdur, eləcə də ondan kosmos və okeanın dərinliklərinin araşdırılmasında istifadə edilir. Onun insan əməyinə olan tələbatı aşağı salması kimi mənfi tərəfi də mövcuddur. Proqnozlara görə, 2030-cu ilədək dünyada işləyən əhalinin üçdə biri, Yaponiyada isə təqribən yarısı yeni peşələr axtarmaq məcburiyyətində qalacaqdır.

Yeri gəlmişkən, artıq süni intellektdən istifadə edərək sürücüsüz idarə olunan avtomobillər yaradılır. Beş ölkədə süni intellekt elmi-tədqiqat mərkəzi fəaliyyət göstərən "Google" şirkətinin yaratdığı pilotsuz avtomobillər ABŞ-da sınaqdan da keçirilib. Bu ağıllı avtomobillər xeyli məsafə qət edərək, bir dəfə də olsun yol hərəkəti qaydasını pozmayıb və qəzaya uğramayıb. "Google" şirkətinin təcrübəsini yalnız nəqliyyat şirkətləri deyil, yol hərəkəti qəzaları sahəsində ixtisaslaşan hüquqşünaslar da izləyirlər. Onların fikrincə, insan xətalarının sayı səngidikcə xəsarət alan insan və maşınların sayı, nəticədə də ölüm hadisələri və sığorta haqqı da azalacaq. Yalnız hüquqşünaslar deyil, sürücülər, yükdaşıyanlar, çağrı mərkəzlərinin, qaynar xətlərin operatorları öz işini itirəcək. Bu və digər peşə sahiblərini süni intellekt əvəz edəcək. Amma bu sahənin mütəxəssislərini düşündürən bir məqam da var. Süni intellektin bu qədər avtonomlaşdırıldığı, geniş səlahiyyətlərin verildiyi bir şəraitdə, onlar öz yaradıcılarına qarşı hər zaman sadiq və mehriban qalacaqlarmı? Süni intellekt qlobal risklərdə müsbət və mənfi faktor kimi insan iradəsinin xaricindədir. Süni intellekt yeni icadları patentləyir, elmi əsərlər dərc edir, birjada pul qazanır və siyasi bloklara başçılıq edir.

Tarixi, elmi və texnoloji biliklərə əsaslanan süni intellekt sivilizasiyanın əvvəlcədən bilə bilir. Məşhur nəzəriyyəçi fizik Stiven Hokinq hesab edir ki, mükəmməl süni intellekt "insan irqinin sonunu gətirə

bilər”. Elon Mask və bu sahədə çalışan bir neçə böyük alim də eyni fikirdədir. Hər kəsi bir məsələ narahat edir: Süni intellekt bizi işdə əvəz edə biləcəksə, onda müəyyən vaxtdan sonra o, bizi evdə də əvəz edəcək. Süni intellektlə təmin edilmiş robotlar insanları tam əvəz edə biləcəklər.

Ultraağıllı süni intellektlər, təkamül prosesində insanların yerini tutacaqdır. Bəs hansı halda biz süni intellekt üzərində nəzarəti itirə biləcəyik. Süni intellekt öz qarşısına nə vaxt müstəqil şəkildə məqsədlər qoya biləcəkdir. Bu məqsədlərin arasında bəşəriyyətin məhv edilməsi olacaqmı. Suallar çoxdur, dəqiq cavablar isə yoxdur.

İnsanı maşından, robotdan fərqləndirən onun zəkasıdır. Duyğulara və ruha sahib olan insan isə ruhsuz və duyğusuz hər cür robot və maşından həmişə öndə olacaqdır [3].

“Son 50 il ərzində respublikamızda bu sahədə xeyli iş görülmüşdür. Kadr hazırlığı, elmi-tədqiqat işləri sahəsində təcrübi işlər aparılır. Elmin nəzəri əsaslarının inkişaf etdirilməsi sahəsində də mühüm nəticələr əldə olunmuşdurAMEA-nın İnformasiya Texnologiyaları İnstitutunda bu sahə üzrə çoxspektrli tədqiqat işləri aparılır. 44 günlük Vətən müharibəsindən sonra Qarabağ və Şərqi Zəngəzurda “ağıllı kənd”, “ağıllı şəhər” konsepsiyasından, ümumiyyətlə, müasir texnologiyalardan geniş istifadə olunur. Bütün bunların əsasında süni intellekt dayanır.

Süni intellektin bəşəriyyətə texnologiyaların insan əməyini yüngülləşdirmək məqsədilə icad edilib. Süni intellekt texnologiyası əmək bazarına mənfi təsir göstərir və işsizliyə səbəb olur. Ancaq reallıqda texnologiya nə qədər sürətlə inkişaf edərsə, iş yerləri bir o qədər çox olar.

Süni intellekt texnologiyasının mənfi cəhətlərdən biri də şəffaflığın olmaması problemidir. Bu texnologiyalarda giriş və çıxış var. Giriş və çıxış arasında hansı proseslərin baş verməsi qara qutu kimi bir sistemdir. O, insan kimi düşünən və qərar qəbul edə bilən texniki qurğuların, intellektual proqram, sistem və robotların yaradılmasını özündə ehtiva edir.

Ədəbiyyat

1. Ильясов Б. Г., Межецкая Т. А., Савельев А. В. "Об одном подходе к созданию кибернетической теории мозга". Докл. на 8-й конф. по нейрокибернетике. Ростов-на-Дону, 1983, программа, с. 10.
2. Савельев А. В. Проблемы диалога нейробиологии и нейромоделирования // В сб. “Нейрокомпьютеры и их применение-2002”, М.: 2002, с. 1256-1263.
3. Нейроинформатика (Коллективная монография / А. Н. Горбань и др.). Новосибирск: Наука, 1998 г.

РЕЗЮМЕ
ИССКУСТВЕННЫЙ ИНТЕЛЕКТ – ВЕЛИЧАЙШЕЕ ДОСТИЖЕНИЕ ЧЕЛОВЕЧЕСТВА XX ВЕКА
Мирзоев А.Б

Искусственный интеллект, который начал развиваться в середине 20 века. Искусственный интеллект - это математическая наука и технология, целью которой является применение человеческой логики к машинам.

SUMMARY
ARTIFICIAL INTELLIGENCE IS THE GREATEST ACHIEVEMENT OF MANKIND OF THE TWENTIETH CENTURY
Mirzoyev A.B.

Artificial intelligence, which began to develop in the mid-20th century. Artificial intelligence is a mathematical science and technology that aims to apply human logic to machines.

ŞTANQLI DƏRİNLİK NASOSLU NEFT QUYLARINA TELENƏZARƏT ÜÇÜN SÜNİ İNTELLEKT SİSTEMLƏRİNİN TƏTBİQİ

Əmirov Əli Mənsimalı oğlu, Həşimova Nəcabət İlham qızı, İsmayılov Vüqar Mehman oğlu

Milli Aerokosmik Agentliyi, Aerokosmik İnformatika İnstitutu, Bakı, Azərbaycan
ali.amirov@mail.com, necabethasimova@gmail.com, ismailov089@gmail.com

***Açar sözlər**: bar quyusu nasosları, süni intellekt sistemləri, teledinamometrik nəzarət sistemi, dinamogram, nasazlıq*

Respublikamız üçün xüsusi əhəmiyyət daşıyan neft sənayesində də süni intellekt sistemlərinin tətbiqi böyük perspektivə malikdir. Neft sənayesinin əsas sahələrindən biri neftçıxarma sahəsidir. Respublikamızda

neftçıxarma sahəsində ştanqlı quyu nasoslarından (ŞQN) geniş istifadə olunur (şəkil 1). Neftçıxarma prosesində mədənlərin və quyuların neft hasilatına nəzarət etmək lazım gəlir. Neftçıxarma prosesində neft itkilərinin qarşısının alınması, sərf edilən enerjidən qənaətlə istifadə olunması, quyuların məhsuldarlığının artırılması və yekun nəticədə hasil edilən neftin maya dəyərinin aşağı salınması mühüm məsələdir. Bu məqsədlə ştanqlı quyu nasoslarına avtomatik nəzarət edilməsi böyük əhəmiyyət kəsb edir. ŞQN-nə nəzarət etməyin ən geniş yayılmış üsulu teledinamometrik sistemlər (TDS) vasitəsilə həyata keçirilən dinamoqram üsuludur. Bu üsulda dərinlik nasosunun silindirin daxilində periodik olaraq aşağı-yuxarı hərəkəti zamanı plunjerə təsir edən yekun qüvvənin plunjerin gedişindən asılı olaraq dəyişmə qrafikinin çıxarılmasına və onun formaca təhlilinə əsaslanır [1]. İdeal halda bu asılılıq paraleloqram şəklində olmalıdır (şəkil 2). Bu asılılığın paraleloqramdan fərqlənməsi ŞQN-də müxtəlif nasazlıqların baş verməsini bildirir. TDS-lərdə dinamoqramı əldə etmək üçün plunjeri ştanqlar vasitəsilə hərəkətə gətirən mancanaq dəzgahın balansirinin başlığı ilə mexaniki əlaqədə olan cilalanmış ştokun gərilmə qüvvəsinin və onun enib-qalxma uzunluğunun ölçülməsi lazım gəlir [3].



Şəkil 1. ŞQN-nin mancanaq dəzgahı



Şəkil 2. ŞQN-nin nəzəri dinamoqramı

Respublikamızın neft mədənlərində tətbiq olunan TDS-lərdə bu iki informativ parametri dolayı yolla - mancanaq dəzgahının hərəkəti zamanı dönmə bucağının və onun gərilməsi nəticəsində baş verən deformasiyasını ölçməklə təyin edilir. Alınan siqnallar rəqəmsal şəkilə çevrilir və GSM şəbəkəsi vasitəsilə mərkəzi nəzarət məntəqəsində yerləşən sənaye komputerinə ötürülür. Komputerin yaddaşında saxlanılan həmin informasiyalar operator tərəfindən monitorda vizual olaraq araşdırılır. Hər mədəndə nəzarət edilən yüzlərlə ŞQN haqqında qərar qəbul etmək üçün operator tərəfindən xeyli dərəcədə böyük vaxt sərf olunur. Dinamoqramların araşdırılması süni intellekt sistemlərinin tətbiqi ilə operativ surətdə avtomatik olaraq həyata keçirilə bilər. Bu isə ŞQN-nin vəziyyəti haqqında daha operativ qərar qəbul etməyə, təmir işlərini gecikmədən yerinə yetirməyə, yaxud ŞQN-lərin silindirinin dolma dərəcəsindən asılı olaraq onları lazımi periodik rejimə keçirməyə, lazım gəldikdə isə tamamilə dayandırmağa imkan verir. ŞQN-lərin dinamoqramlarının qurulması üçün istifadə edilən informativ parametrlərin (qüvvə və yerdəyişmənin) qiymətləri deyil, onların dəyişmə qrafiklərinin forması əsas informasiya daşıyıcısıdır. Ona görə də dinamoqramları təhlil etmək üçün süni intellekt sisteminin tətbiqi zamanı dinamoqramların ölçüləri deyil, formalarını araşdırmağı məqsədə uyğun sayırıq. Alınan dinamoqramları tipik nasazlıqlara uyğun gələn dinamoqramlarla formaca müqayisə etmək lazım gəlir. Bu məqsədlə tipik nasazlıqlara uyğun dinamoqramların riyazi modelini əldə etmək vacib məsələdir. Məsələni sadələşdirmək üçün ŞQN-lərin dörd əsas halını - nasosun normal işləməsini, nasosun silindirinin yarımçıq dolmasını, plujerin ilişməsini və ştanqların qırılmasını xarakterizə edən dinamoqramların riyazi modeli Phyton proqram dilində yazırıq (şəkil 3).



Şəkil 3. ŞQN-nin plunjerinin gedişinin (S) zamandan (t) asılılıq qrafiki (1), nasosun normal işləməsi (2), nasosun silindrinin yarımçıq dolması (3), plunjerinin ilişməsi (4)və ştanqlarının qırılması (5) hallarında cilalanmış ştoka təsir edən qüvvənin zamandan asılılıq qrafikləri

Riyazi modellərdə verilmiş əmsalların qiymətini lazımi diapazonda dəyişməklə neyron sinir şəbəkəsi üçün vacib olan dinamoqramlar çoxluğunu əldə etmək mümkündür. Nəzərdə tutulan süni intellekt sisteminin proqram təminatı mədənlərin mərkəzi nəzarət komputerində yerləşdirilməlidir. Rəqəmsal teledinamometrik sistem vasitəsilə əldə olunan hər bir dinamoqram süni intellekt sisteminin yuxarıda qeyd edilmiş dörd xarakterik hala uyğun dinamoqramlar çoxluğu ilə müqayisə edilir və avtomatik olaraq yüzlərlə ŞQN-lərin vəziyyəti haqqında operativ olaraq qərar qəbul olunur [2].

Ədəbiyyat

1. Azərbaycan Milli Aerokosmik Agentliyinin xəbərləri, cild 26, 2023, №2 (26) “Neft quyularının rəqəmsal teledinamometrik sistemlərində baş verən ölçü və çevirmə xətalarının tədqiqi”, E.B.İsgəndərzadə, Ə.M.Əmirov, N.İ.Həşimova, V.M.İsmayılov, S.Ə.Xodayeva
2. Azərbaycan Milli Aerokosmik Agentliyinin xəbərləri, cild, 2023, “Ştanqlı dərinlik nasoslarının rəqəmsal teledinanometrik nəzarət sistemlərinin diaqnostikası”, Ə.M.Əmirov, N.İ.Həşimova, S.Ə.Xodayeva, E.N.Ovçiyev
3. Известия Томского политехнического университета. Инжиниринг георесурсов. 2019. Т. 330. № 10. 6168, Уразаков К.Р., Журавлев Д.В., Алиметов Ш.А., Комбинированная роторно-устьевая уравновешивающая система станка-качалки.

РЕЗЮМЕ

ПРИМЕНЕНИЕ СИСТЕМ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА ДЛЯ ДИСТАНЦИОННОГО МОНИТОРИНГА НЕФТЯНЫХ СКВАЖИН СО ШТАНГОВЫМИ ГЛУБИННЫМИ НАСОСАМИ

Амиров А.М., Хашимова Н.И., Исмаилов В.М.

Ключевые слово: *штанговых скважинных насос, системы искусственного интеллекта, теле динамометрическая система контроля, динамограмма, неисправность.*

Как и во многих отраслях промышленности, в нефтедобыче за счет применения систем искусственного интеллекта достигается большая эффективность управления процессом работы широко используемых штанговых скважинных насосов (предотвращение потерь нефти, экономное использование затраченной энергии, повышение продуктивности скважин и, как следствие, можно получить более низкую себестоимость добытой нефти). Режим работы ШЖН определяют с помощью динамограмм. Анализируя форму динамограмм посредством систем искусственного интеллекта, можно более оперативно принять решение о неисправности насоса, нормальной работе или неполном заполнении. С этой целью для создания программного обеспечения системы были созданы математические модели динамограмм, характеризующие указанных случаи.

SUMMARY
APPLICATION OF ARTIFICIAL INTELLIGENCE SYSTEMS FOR REMOTE MONITORING OF OIL WELLS WITH ROD DEEP PUMPS
Amirov A.M., Hashimova N.I., Ismayilov V.M.

Keywords: *rod well pump, artificial intelligence systems, teledynamometric control.*

As in many industries, in oil extraction, by applying artificial intelligence systems, great efficiency in controlling the work process of widely used rod well pumps (prevention of oil losses, economical use of spent energy, increasing the productivity of wells and, as a result, lower cost of produced oil release) can be obtained. The mode of operation of RWP is determined by means of dynamograms. By analyzing the form of dynamograms through artificial intelligence systems, it is possible to make more prompt decision about pump failures, normal operation incomplete filling. For this purpose, mathematical models of dynamograms characterizing the mentioned cases were created to create the software of the system.

TƏHSİLDƏ İNFORMASİYA VƏ KOMMUNİKASİYA TEXNOLOGİYALARI

Ələkbərova İnci Nurəddin qızı

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı, Azərbaycan
inci.alakbarova@gmail.com

Açar sözlər: *informasiya, informasiya prosesləri, cəmiyyət, təhsil, kompüter texnologiya.*

Hazırda insanların həyatında informasiya texnologiyalarının rolu xeyli artmışdır. Müasir cəmiyyət informasiyalaşdırma adlanan ümumi tarixi prosesə cəlb olunub. Bu proses istənilən vətəndaşın informasiya mənbələrinə əlçatanlığını, informasiya tnin bütün növlərinin intellektuallaşdırılmasına deyil, h exnologiyalarının elmi, istehsalat və ictimai sferaya daxil olmasını, informasiya xidmətlərinin yüksək səviyyədə olmasını əhatə edir. Cəmiyyətin informasiyalaşdırılması ilə bağlı baş verən proseslər təkcə elmi-texniki tərəqqinin sürətləndirilməsinə, insan fəaliyyəti əm də cəmiyyətin keyfiyyətcə yeni informasiya mühitinin yaradılmasına, insanın inkişafını təmin etməyə kömək edir [3].

Müasir cəmiyyətin informasiyalaşdırılması prosesinin prioritet istiqamətlərindən biri informasiyanın toplanması, emalı, saxlanması, yayılması və maraqları naminə istifadə edilməsi məqsədilə inteqrasiya olunmuş metodlar, proseslər və proqram-texniki vasitələrin sistemi olan təhsilin informasiyalaşdırılmasıdır. Buna görə də, hazırda Azərbaycanda qlobal informasiya və təhsil məkanına daxil olmağa yönəlmiş yeni təhsil sisteminin formalaşması müşahidə olunur.

Təhsilin informasiya texnologiyaları (İT) informasiya ilə işləmək üçün xüsusi metodlardan, proqram və texniki vasitələrdən (kino, audio və video avadanlıqlar, kompüterlər, telekommunikasiya şəbəkələri) istifadə edən pedaqoji texnologiyadır.

İT-nin məqsədi istifadəçinin ehtiyaclarına uyğun olaraq informasiya resurslarının yüksək keyfiyyətli formalaşdırılması və istifadəsidir. İT metodları məlumatların işlənməsi üsullarıdır. İT alətlərinə riyazi, texniki, proqram təminatı, informasiya, aparat və digər alətlər daxildir:

- İT məqsədi;
- İT üsulları;
- İT alətləri [2].

İT iki böyük qrupa bölünür: seçmə və tam interaktivliyə malik texnologiyalar.

1) Birinci qrupa məlumatın strukturlaşdırılmış formada saxlanmasını təmin edən bütün texnologiyalar daxildir. Bunlara banklar, verilənlər bazası və biliklər, video mətn, teletext, internet və s. daxildir. Bu texnologiyalar seçmə interaktiv rejimdə işləyir və çoxlu strukturlaşdırılmış məlumatlara çıxışı əhəmiyyətli dərəcədə asanlaşdırır. Bu halda istifadəçiyə yeniləri daxil etmədən yalnız mövcud məlumatlarla işləməyə icazə verilir.

2) İkinci qrupa informasiya şəbəkələrində və ya hər hansı bir daşıyıcıda saxlanılan məlumatlara birbaşa çıxışı təmin edən, onu ötürməyə, dəyişdirməyə və əlavə etməyə imkan verən texnologiyalar daxildir:

